AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

**SEYFƏDDİN QƏNİYEV**
**SƏADƏT VEYSOVA**

# MƏŞHUR XEYRİYYƏÇİ MAHMUD AĞA VƏ NAMƏLUM MUĞAM UNİVERSİTETİ

**"Elm və təhsil"**
**Bakı – 2014**

AMEA Folklor İnstitutunun Elmi Şurasının
20 fevral 2013-cü il (protokol 02) qərarı ilə çap olunur.

*Elmi redaktor:*
**Qəzənfər Paşayev**
filologiya elmləri doktoru, professor

*Rəyçilər:*
**Məhərrəm Qasımlı**
filologiya elmləri doktoru, professor

**Fərahim Sadıqov**
pedaqoji elmlər doktoru, professor

**Zabit Nəbizadə**
Xalq artisti, Milli Konservatoriyanın baş müəllimi

**Seyfəddin Qəniyev. Səadət Veysova.
Məşhur xeyriyyəçi Mahmud Ağa və naməlum muğam universiteti. Bakı, "Elm və təhsil", 2014, 292 səh.**

Kitabda böyük xeyriyyəçi, muğam bilicisi, poeziya, maarifçiliyin hamisi, şair, bəstəkar, XIX əsrdə ölkəmizdə muğam müsabiqələrinin təməlini qoymuş, hətta bir çox Avropa, rus səyyahlarının qonağı olduğu, Təbriz sənətkarlarının qatıldığı məclisin sahibi Mahmud Ağanın ömür yolu, yaradıcılığı, məclisinin daimi iştirakçıları, qonaqları və doğmaları – nəsil şəcərəsi barədə ilk dəfə əhatəli məlumat verilir. Bu böyük şəxsiyyətin musiqi məclislərinin bir konservatoriya kimi fəaliyyət göstərməsi, həmçinin muğamatın fəlsəfəsi və onun xalqımızın tarixində oynadığı əvəzsiz rolu da araşdırılır.

$\frac{4702000000}{N098-2014}$ **qrifli nəşr**

***Dövlətimiz müstəqilliyinin 20 ili ərzində min illik tarixə bərabər misilsiz uğurlara imza ataraq intibah dövrünə qədəm qoydu. Müstəqillik bizə xalq kimi özümüzü daha dərindən dərk etməyə, mədəniyyətimizi, milli şüurumuzu mükəmməlliyə doğru inkişaf etdirməyə sonsuz imkanlar verdi. Sevindirici hal odur ki, Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə 2003-cü ildə UNESCO tərəfindən Azərbaycan muğamı bəşəriyyətin qeyri-maddi mədəni irsinin inciləri siyahısına alındı, muğam festivalları, beynəlxalq muğam simpoziumları keçirildi, muğam ensiklopediyası yaradıldı. Birinci xanımın bu nəcib əməlləri dövlətçilik tariximizdə baş verən ən nadir hadisələrdəndir. Heç vaxt muğamata belə qayğı göstərilməyib. Heç vaxt muğam bu qədər nəciblik və sevgi ilə mədəniyyətimizin şah əsəri kimi göylərə qaldırılmayıb. Birinci xanımın muğamı belə rəğbətlə himayəyə almasını minnətdarlıq hissi ilə qəbul edərək biz də bu möhtəşəm ideyadan ruhlanaraq, şirvanlı Mahmud Ağa, onun yaratdığı naməlum muğam universiteti və muğamın fəlsəfəsi ilə bağlı araşdırmalarımızı təvazökarlıqla oxuculara ərməğan edirik.***

***Müəlliflər***

# MƏNƏVİYYATLA SƏRVƏTİN VƏHDƏTİ

Tanrı insanı bütün canlılardan gözəl və mükəmməl yaratmışdır. İnsan idrakı sonsuzluğadək getmək, kainatın müəmmalarını açmaq gücünə qadirdir. Bəlkə elə buna görə də kainatla, fəzanın sonsuzluqları ilə insan arasında ecazkar bənzərlik mövcuddur, insan özünü fəzalar qədər intəhasız hiss edə bilər, eyni zamanda kainatla müqayisədə bəşər övladı gözə görünməyən bir zərrəcik qədər kiçik və köməksizdir. Bütün səmavi kitablarda insanlardan tutmuş nəhəng ulduzlara kimi hər şeyin əvvəlinin və axırının olduğu bildirilir. Lakin fərq ondadır ki, ulduzlar milyard illərlə, insanlar isə cəmi bir əsrə yaxın – qığılcım qisməti qədər kiçik ömür sürürlər.

Bu ani həyatda hərə bir cürə yaşayır: fatehlər və dahilər, aqillər və adilər, misilsiz mərhəmət sahibləri və zalımlar. Hər kəs yaşadığı günlərə, sürdüyü ömrə, nəcib əməllərinə görə özünü haqlı saya bilər. Makedoniyalı İsgəndərin, Çingiz xanın öz haqqı, Nizaminin, Nəsiminin də öz haqqı var. Lakin bir qayda olaraq bəşər tarixində ədalətli hökmdarlar, məzlumlara dayaq duranlar, böyük mərhəmət, ağıl, söz və istedad sahibləri müsbət nümunə kimi qalır, nəsillərdən nəsillərə onların nəcibliyi dastan kimi ötürülür.

Məhz bu baxımdan XIX əsrdə yaşamış Şirvanın sonuncu xanı, Mustafa xanın nəvəsi Mahmud Ağanın, varlı bir Azərbaycan mülkədarının, xeyriyyəçinin şəxsiyyəti və nəcib əməlləri haqqında xatirələri, arxiv sənədində olan məlumatları toplayaraq, onun surətini yaratmağa cəhd etmişik.

Kainat qalaktikalar, planetlər sistemi və milyardlarla ulduzlarla zəngin və intəhasız olduğu kimi, insan şüuru da öz ağ-

lının qanadlarında sonu bitməyən yaxşılıqların və nəcib əməllərin səfərinə çıxmaq qüdrətindədir. Mahmud Ağa da öz nəcibliyində bitib-tükənməyən yaxşılıqların, xeyriyyəçiliyin sadiq yolçusu olmuşdur.

Hər bir xalq gələcəyini dərk etmək, inkişafını düzgün qurmaq üçün istinad nöqtələrini tapmağı bacarmalıdır. Millətin, xalqın dayaq nöqtələri keçmişi haqqında bilgilərə, qorunub saxlanılan sənədlərə, mənəviyyatca zəngin insanların qoyub getdiyi milli-mənəvi dəyərlərə söykənir.

Müstəqilliyini bərpa edən gənc Azərbaycan dövlətinin gələcək inkişafı üçün belə araşdırmaların aparılması, Mahmud Ağanın nəsil şəcərəsinin öyrənilməsi də xüsusi əhəmiyyət kəsb edir. Biz bir nəslin davamlı surətdə, qərinələrdən qərinələrə keçdikcə əqidəsini dəyişməyən, ürəklərində vətənə, xalqa, milli-mənəvi dəyərlərimizə rəğbət bəsləyən, onun inkişafı yolunda canından keçən insanlarla, bir sözlə, xalqımızın genefondunun saysız təmsilçiləri ilə qarşılaşırıq. Bütün bunlar müəlliflərin əməyini müsbət dəyərləndirməyə imkan verir. Bu nəslin nümayəndələrindən vəzifələrə ucalanlar da, həyatın dözülməz sınaqlarından keçənlər də eyni dərəcədə soy-kökünə sadiq qala biliblər. Mahmudbəyovların bir qisminin keçən əsrin qanlı-qadalı 37-ci illərində təqiblərə məruz qalması, həbsxanalara atılması, sürgün edilməsi də bu nəslin ölkəmizin azadlığı uğrunda verdiyi saysız qurbanların bariz nümunəsidir. Onların proletar kürsülərində böyük vəzifələrə ucalması üçün şansları heç də başqalarından az deyildi. Lakin bu nəslin davamçıları sovet imperiyasına alqış deyərək, rəhbər vəzifələr üçün karyera savaşına qoşulmadılar. Vəzifəsində yüksələnlər elmin, biliyin inkişafına, xalqının tərəqqisinə xidmət etdilər. Digərləri əqidələrini dəyişmədən zindanlara atılaraq, məhbəsləri və sürgünləri vəzifələrdən uca tutdular. Bu gün hər birimiz Azərbaycan tarixində vicdanını, əxlaqını, vətən sevgisini azadlığından uca tutan belə insanların olması ilə fəxr edə, öyünə bilərik.

Digər bir tərəfdən Mahmud Ağanın həyatı, məclisləri ilə bağlı burada verilən saysız-hesabsız məlumatlarda, tarixi faktlarda, xatirələrdə qarşılıqlı bir bağlılığın, harmoniyanın və **bu vaxtadək açılmayan müqəddəs bir amalın, ideyanın mövcud olduğunu** inkar etmək də mümkün deyildir.

Kitabın fəsillərini vərəqləyəndə, Mahmud Ağanın musiqi məclislərini, iştirakçıların və qonaq qismində, dost kimi dəvət olunanların şəxsiyyətinə, kimliyinə, dünyagörüşünə və biliklərinə fikir verəndə, məclislərin keçirilmə qaydalarını, qaliblərin mükafatlandırılmasını nəzərdən keçirəndə sadə məntiqə söykənən belə bir nəticəyə gəlirsən ki, müəlliflərin qələmə aldığı musiqi məclisləri daha çox muğam universitetini xatırladır. Bu universitetin ünvanı Şamaxı – Mahmud Ağanın öz sarayı olmuşdur. O burada böyük səxavətlə məşhur xanəndələrə, tarzənlərə, rəqqaslara, rəqqasələrə yer ayırmış, yaşamalarına imkan yaratmış, onların sənətin sirləri ilə məşğul olması, zirvələri fəth etməsi üçün sarayında adi musiqi məclisi və eyş-işrətə yığılan kef əhlindən fərqli **kübar ziyalı mühiti yaratmışdır.** Biz saraya dəvət olunan musiqiçilərin, şairlərin, burada qonaq qismində iştirak edən ziyalıların məqsədlərinə, amalına fikir verəndə zamanın aynasından bizə **boylanan əzəmətli musiqi, söz məbədinin ucaldığını görürük.** Söhbət böyük Şərq universitetindən, musiqi akademiyasının inkişaf tarixindən gedir.

Ümid edirik ki, bu kitab ölkəmizin ədəbi mühitində, mədəniyyət və maarifçilik tarixində Mahmud Ağanın irsinin, onun yaratdığı **muğam universitetinin** öyrənilməsinə tədqiqatçıları yönəldəcək, daha dərin və ətraflı araşdırmaların aparılmasına təkan verəcəkdir.

***Məhərrəm QASIMLI,***
*filologiya elmləri doktoru, professor*

# GİRİŞ

Mahmud Ağa haqqında ilk dəfə geniş məlumatı görkəmli yazıçı-alim, xeyirxah ustadım Əzizə Cəfərzadənin söhbətlərindən eşitmişəm. Sonra ötən əsrin 70-ci illərində onun danışdıqlarının bir qismini yazıçının «Aləmdə səsim var mənim» romanından oxudum, öyrəndim ki, bu şəxş öz xeyirxahlığı, əliaçıqlığı, qonaqpərvərliyi, poeziyaya, musiqiyə, muğamlarımıza bağlılığı ilə XIX əsrdə təkcə Şamaxı-Şirvan mahalında deyil, bütün Qafqazda ad çıxarmış, hörmət-izzət sahibi olmuşdur.

İnstitutda oxuduğum illərdə sevimli müəllimim, akademik Feyrulla Qasımzadə bizə «XIX əsr Azərbaycan ədəbiyyatı tarixi» fənnini tədris edərkən Şamaxıdakı iki - Mahmud Ağanın **musiqi** və Seyid Əzim Şirvaninin «**Beytüs-Səfa»** məclisi barədə verdiyi məlumatlar məni bir daha cani-dildən Şamaxı ədəbi-musiqi mühitinə bağladı. Odur ki, bu mühiti əvvəl sevdim, sonra öyrəndim, daha sonra da dərindən araşdırmağa səy göstərdim.

Görkəmli akademik F.Qasımzadə ilə ayrıca Şamaxı ədəbi mühiti, S.Ə.Şirvani, M.B.Nadimlə, B.Şirvani, M. Səfa, A.Səhhət və b. Şirvanilərin sağ olan doğmaları ilə bağlı çox söhbətimiz olurdu. Sinif nümayəndəsi, əlaçı tələbələrdən olduğum üçün akademiklə vaxtaşırı oxu zalında, kafedrada uzun-uzadı söhbətləşərdik. Hətta oğlu Fuad Qasımzadəyə bəzi yazılarını mən çatdırmalı olurdum. Ona görə də mənimlə mehriban davranar, Şamaxının keçmişindən, XIX əsr Azərbaycan ədəbiyyatı tarixi dərsliyinə, S.Ə.Şirvaniyə aid dərsliyinə salmadığı, bəzi materialları Şamaxı qocalarından eşitdiyi xatirələrdən, baməzə, maraqlı əhvalatlardan söz salardı. Tanınmış alim XIX əsrin II yarısında Şamaxı ədəbi mühitini öyrənmək üçün 1930-

50-ci illərdə Şamaxıya etdiyi səfərlərdən, S.Ə.Şirvani, M.A.Bixud, Didə, M.Ə.Sabir, M.Hadi, A.Səhhətin əqrəbaları, dostları, həmyaşıdları ilə görüşlərindən ürəkdolusu danışardı. Şamaxıdakı ziyalı-müəllim tanışlarına mənim vasitəmlə salamlar da göndərirdi. **Əhməd Veysov, Hacı Quliyev, Ələsgər Sadıqov, Əjdər Nemət oğlu, Xaliq Xaliqov, İsmayıl bəy Fitdağlı, böyük rəssam Uğurlu Adil oğlu, Baxış Əliyev, Fəxri, Əziz Seyidov, Ağalar Nuhov, Baba Əfəndiyev və** başqalarına...

Bu illərdə dostum, filologiya elmləri doktoru Əhməd Cəfərzadədən də Mahmud Ağanın məclisi barədə bəzi məlumatları öyrəndim. Beləliklə, müəllimliyə başladığım ilk vaxtlardan Şamaxı ədəbi, pedaqoji, aşıq, muğam mühitini öyrənməyin təməlini qoydum. Bəxtim bir də onda gətirdi ki, aspiranturada oxuduğum illərdə elmi rəhbərim arxivlərimizə - XIX-XX əsr əlyazmalarına dərindən bələd olan, səriştəli, ciddi alim, professor Xeyrulla Məmmədov oldu. O, Şamaxı ədəbi mühitini uzun illər araşdıran, onun incəliklərinə dərindən bələd olan, bütün arxivləri mükəmməl bilən mütəxəssislərdən biri idi.

Bir sözlə, tanıdığım ziyalılar, tarixçilər və tədqiqatçılarla qurduğum ünsiyyət muğamsız bir gün yaşaya bilməyən Mahmud Ağa məclisi, o məclisin üzvləri, qonaqları ilə bağlı məlumatların əldə edilməsi, toplanması, öyrənilməsinin təməlini qoymaqda mənə uzun illər yardımçı oldular.

Bu illərdə «**Beytüs-Səfa**» məclisi üzvləri, haqqında da xeyli məlumat əldə edə bildim. Şamaxıda fəaliyyət göstərmiş hər iki məclisin üzvlərinin ötən əsrin 70-90-cı illərində bu şəhərdə yaşayan qohumları və tanışlarını axtardım, birlikdə keçmişi vərəqlədik.. Əldə etdiyim materialların, xatirələrin zənginliyinə heyrətlənməmək mümkün deyildi...

Topladığım məlumatlar əsasında belə qərara gəldim ki, ilk əvvəl Mahmud Ağanın ən yaxın dostu, səsinin, avazının vurğunu görkəmli xanəndə Mirzə Məhəmməd Həsən haqqında kitab hazırlayıb, oxuculara çatdırım. Ustad xanəndənin anadan olmasının 150 illiyinə... **Özü də ilk dəfə...**

Keçən bu zaman kəsiyində görkəmli mesenat, musiqini, şeiri canından əziz bilən Mahmud Ağa haqqında da Səadət xanım Veysova ilə xeyli maraqlı və nadir məlumatlar topladıq. Həm atasının, həm də özünün şeirlərindən nümunələr əldə etdik, nəvə, nəticələri haqqında bilgilər öyrəndik, xatirələr topladıq, nəsil şəcərəsinin böyük qismini müəyyənləşdirə bildik....

Təbii ki, ötən əsrin 70-ci illərində XIX əsr musiqi, poeziya təsnələri, xeyriyyəçi bəy-bəyzadələrin bir çox uzaq qohumları, qonşuları, tay-tuşları, 80-90 yaşında məhəllə dostları hələ sağ idilər. Dünyagörmüş belə insanların yaddaşları maraqlı xatirələrlə zəngin idi. Ümumiyyətlə, **Şamaxının son yüz ilinə aid** bilgilər, məlumatlar, şəxsi arxivlərində isə əlyazmalar, sənədlər, şəkillər hələ də mövcud idi. O zaman onlara sual verib dinləmək, onlarla birlikdə sənədləri vərəqləmək, keçmişi xatırlamaq sadəcə maraqlı və dəyərli idi. Bu gün isə zamanın aynasından keçmişə nəzər salanda topladığımız xatirə və sənədlərin əvəzsiz sərvət olduğuna sevinməmək mümkün deyil. Xalq artisti **A.Gəraybəyli, Yavər Kələntərli, tarzən Hacı Məmmədov, general Tərlan Əlyarbəyovun oğlu Pərviz, xanəndə Sənəm, tarzən Qulam, Molla Məmmədağa, Şeyx Bayram, xanəndə Atamoğlan Fətəliyev, görkəmli pedaqoqlardan Əhməd Veysov, Davud Orucov, Ələsgər Sadıqov, İsmayıl bəy Fitdağlı, Ağasəf Məmmədov, Məhəmməd Əfəndiyev (Sündü), Bilal Nuriyev (Söylər), Xəlil Rəhimov (Şamaxı), Baba Əfəndiyev, Gülsüm Əfəndiyeva, Firidə xanım Paşabəyova-Veysova, Gülalı Əmrahov, Aşıq Barat, Əlhəmzə** və başqalarından zamanında az da olsa müəyyən bilgilər, məlumatlar əldə edə bildik. Çox əfsuslar olsun ki, onların bildiklərini, danışdıqlarını bizdən asılı olmayan səbəblərə görə videokameranın yaddaşına köçürə bilmədik. Əgər bu insanların xatirələrini, danışdıqlarını videogörüntülərdə, günümüzədək qorumaq mümkün olsaydı, tariximizin qaranlıq səhifələrinə nur çiləyərək erməni faşistlərinin 1918-ci ildə Şamaxıda törətdikləri vəhşiliklərin

miqyas və amansızlığına ətraflı aydınlıq gətirmək olardı. Stalin xofu ötəndən 30 il sonra, təxminən, 70-80-ci illərdə 37-ci ilin repressiyası haqqında ömürləri boyu vahimədən susan insanlar artıq cəsarətə gəlib danışırdılar. Onların gözlərinin dərinliyindəki iztirablar, üzlərinin ifadəsi və bildikləri minlərlə fakt onlarla sənədli filmin ən faciəvi epizodlarını, ana xəttini və süjetini təşkil edə bilərdi. Etiraf etməliyik ki, biz həmçinin Azərbaycan mədəniyyətinin, musiqisinin tarixi ilə bağlı onlarla məşhur sənətkarın canlı görüntü və xatirələrini kinolentin yaddaşına almaq şansını birdəfəlik itirdik. Təəssüf ki, zamanın öz hökmü və insanların da öz qisməti var...

Uzun illər sonra yazdığım **«Şamaxı», «Şirvanın 350 şairi», «Aşıqlar, el şairləri», «Şirvanlı Aşıq Mirzə Bilal», «1918-ci il Şamaxı soyqırımı», «Şirvan folklor mühiti», «Mirzə Məhəmməd Həsən Nalə»** və s. kitablarımda həmin xatirələrdən xeyli istifadə etsəm də, şahidlərin canlı görüntülərinin qalmamasına bir vətəndaş kimi dərindən təəssüflənirəm. Çünki oxumaqla, canlı şahidləri görmək arasında yerlə göy qədər fərq var.



Şamaxılı rəqqasə. J.P.Moyne. Qravüra

Bir çox dünya səyyahları kimi Avropa səyyahları da Azərbaycanı kəşf etmək, tanımaq və öyrənmək üçün ölkəmizi ziyarət edirdilər**. Marko Polo, Klavixo, Kafarino, Zeno, İosof Varbaro, Antom Çenkinson, Aleksand Düma, Silberger, Engelbert Klimpoer, Adam Oliar** və başqalrı müxtəlif əsrlərdə Azərbaycana gəlmiş, bir çox şəhərlərlə yanaşı, Şamaxıda da olmuşlar. Şamaxının tarixi, təbiəti, sənət elm və iman sahibləri, milli bayramları haqqındakı təəssüratlarında dəyərli və qiymətli fikirlər söyləmişlər…

Belə qərara almışdım ki, yayda oğlumun yanına Almaniyaya gedəndə bu ölkənin səyyahlarının şəxsi arxivləri ilə maraqlanım, onların əsərləri, əlyazmaları olan kitabxanalarda mütləq axtarışlarımı davam edim. Səfərimin uğurlu olacağına inamım da güclü idi. Ankara "Hacat Təpə" Universtetinin alman dili (tərcüməçi) ixtisası üzrə magistr təhsilini başa vuran oğlumdan şad xəbər aldım: "Ata, anamla səni yay tətilində Almaniyaya dəvət edirəm. Mütləq gəlin ha". Biz hazırlığa başladıq. İkinci bir xəbər səfərimizə əlavə bir sevinc də qatdı.

Belə ki, may ayının ortalarında alim dostum **İbrahim İbrahimov** məni şad xəbərlə muştuluqladı ki, Almaniyadan səyyah-alim dostumuz – **Jothar Veiss** qonaq gəlir, özü də Şamaxını görmək üçün... May ayının 15-də qonaqlarımı qarşlıladım. Jothar Veiss həyat yoldaşı, alim dostum Cəfər Qiyasi ilə Azərbaycana gəlmişdi. Onları tərcüməçi və bir də İbrahim müəllim müşayət edirdi.

**Haşiyə:** XVII əsrdə daha dəqiq desək, 1683-cü ildə Şamaxıda bir aya qədər qonaq qalmış səyyahlardan biri də **Engelberq Kempfer (1651-1717)** olmuşdur. Bu tədqiqatçı alım Almaniyanın Zemqor şəhərində anadan olub. Ömrünün böyük hissəsini səyahətlərə həsr edib: Rusiya, Azərbaycan və İranda uzun müddət olub. Orta Asiyanı gəzib, İranı dolaşıb və hətta uzaq Yaponiyaya qədər gedib çıxıb. Sonda səyahətləri

maraqlı tədqiqatlara, əsərlərə çevrilib. Bizim qonağımız professor Jothar Veiss də artıq neçə il idi ki, Kempferin olduğu




Samaxı. E.Kempfer, 1683-cü il

ölkələrə onun marşrutu ilə səfərə çıxmağa qərar verir. İllər üzünü Veiss səyyahın bütün marşrutu boyu gəzib-dolaşır, onun olduğu ölkələri gəzir. Axırda Şamaxıya gəlib Kempferin xəritəsi üzrə araşdırmalar aparmağı qarşısına məqsəd qoymuşdu ki, biz də bu müqəddəs işində ona əlimizdən gələn yardımı etdik. Onunla birlikdə Şirvanşahlar sarayında olduq, İşərişəhərin qədim küçələrini gəzdik, Qız qalasına qalxdıq və onu maraqlandıran bütün suallara ətraflı cavab verdik. Jother Veiss Almaniyaya qayıdanda bizə mütləq məktub yazacağına söz verdi. Alman səyyahını yola saldıqdan bir neçə ay sonra, daha dəqiq 2011-ciililn yayında oğlumun dəvətiu ilə həyat yoldaşımla Almaniyaya yola düşdük. Orada professor Veislə görüşdüm. O bir daha Azərbaycanda keçirdiyi günləri səmimiyyətlə xatırladı, ona verdiyimiz məlumatlara, köməyə görə təkrar minnətdarlığını bildirdi. Eyni zamanda Almaniyada bizi maraqlandıran məlumatların əldə edilməsində bələdçilik

edəcəyinə söz verdi. Pedantlığı sevən almanlar kimi vədinə də xilaf çıxmadı. Bizi Detmold şəhərindəki böyük kitabxanaya apardı. Orada mən alman dilini mükəmməl bilən oğlumun köməyi ilə vaxtilə Şamaxıda olmuş, böyük səyyah Kempferin arxivi ilə tanış oldum. Onun əsərindən Şamaxı şəhəri ilə bağlı maraqlı məlumatlar yazıb götürdüm. Bundan başqa Jothar Veissin köməyi ilə böyük alman səyyahının atası Ollearın (1599-1671) arxiv əlyazmaları ilə tanış oldum. Öyrəndim ki, türk dilində yaxşı bilən Ollear 1836-cı ilin dekabırında Şamaxıya gəlmiş və burada **üç aya qədər qalmışdır.** O əlyazmalarında bu şəhərdəki insanların hamısının "türkcə" danışdığını qeyd edir. Şamaxıdakı karvansaralar, hamamlar, Gülüstan qalası və şəhərdə olan mədrəsələr barədə ətraflı məlumat verir. Ollear Şərqin **yeni ili - Novruz bayramının** keçirilməsini öz gözləri ilə görmüş, şamaxılıların Novruz bayramını necə keçirdiyini ətraflı təsvir edə bilmişdir.



Şamaxının əsas küçəsi. V.Timm. 1849-cu il

Azərbaycan və Şamaxı ilə bağlı qədim səyyahların xatirələrinin toplanmasında Jothar Veissin mənə əvəzsiz yardım göstərdiyini mütləq qeyd etmək istəyirəm. Bundan başqa o bizə öz qonaqpərvərliyini də elə şərqsayağı nümayiş etdirdi. **Dəfələrlə evinə dəvət etdi, bizim üçün çay süfrələri açdı. Əyləşdiyimiz**

**qonaq otağında bir Şərq, Azərbaycan abu-havası var idi. Divanın qənşərindəki Azərbaycandan gətirilmiş "al palaz" isə özümüzü evimizdəki kimi hiss etməyə imkan verirdi.**
Bir sözlə, doktor Jothar Veiss və alman dili mütəxəssisi, oğlum Təhmasibin köməyi və tərcüməçiliyi ilə vaxtilə Şamaxıda olmuş səyyah Kempfer, Adam Ollearın arxivindən Şamaxı ilə bağlı xeyli dəyərli materiallar əldə etdim.

* * *

Ötən əsrin 80-ci illərindən ustad xanəndə Mirzə Məhəmməd Həsən haqqında məlumat toplayanda Mahmud Ağa ilə də bağlı, eləcə də adlarını yuxarıda qeyd etdiyim ixtiyar şamaxılılardan xeyli bilgilər əldə etmişdim. Nəticədə, 2000-ci ildə Mahmud Ağa məclisinin bülbül avazlı xanəndəsi **Mirzə Məhəmməd Həsən** haqqında yazdığım kitabı çətinliklə olsa da, ustadın anadan olmasının **150 illiyinə** hədiyyə edə bildim.

Kitabın işıq üzü görməsi münasibətilə Mahmud Ağanın nəslindən – Əhməd Ağa qolundan olan Səadət xanım və anası Firidə xanım məni təbrik etdilər. Səadət xanım ulu babası haqqında nənəsi, anası, həm də yaxın qohumlarından xeyli məlumat yazıb saxladığını mənə söylədi. Bir gün həmin məlumatları birlikdə saf-çürük elədik. Beləliklə, böyük araşdırmalar, zəhmətlər bahasına başa gələn kitabın təməli onda qoyuldu.

***S.Qəniyev,***
*filologiya elmləri doktoru,*
*AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi.*
*AYB,Samaxı bölməsinin sədri*

**I FƏSİL**

# ŞİRVAN MUĞAM MÜHİTİ

Azərbaycanımızın qədim diyarı, min ildən artıq qüdrətli Şirvanşahlar dövlətinin paytaxtı kimi şərəfli tarixə malik olan Şamaxı dini mərkəz, poeziya, pedaqoji, aşıq mühiti olmasıyla yanaşı, musiqi-muğam beşiyi kimi də bütün Yaxın Şərqdə məşhur olmuşdur. XII əsrdən üzü bəri cahanşümül klassik şairlər - Ə.Xaqani, Fələki Şirvani, altı xarici dil bilən Zülfüqar Şirvani, üç dildə əsərlər yazan İ.Nəsimi, eləcə də Nişat Şirvani, S.Ə.Şirvani və başqalarının yaradıcılığına nəzər saldıqda muğamla, musiqi alətlərinin quruluşu, xanəndəlik sənəti ilə bağlı müxtəlif məlumat və fikirlərə rast gəlmək mümkündür. Bu da inkaredilməz faktdır ki, Şirvanşahlar dövləti və eləcə də xanlıqlar dövründə sarayda şairlərlə yanaşı, xanəndələr, musiqiçilər və hətta rəqqasələr də fəaliyyət göstərmişdir. Bu sənətkarlar arasında aşıq və muğam ustadlarının ayrıca yeri olmuşdur...

Təbii ki, Şirvanda bu ulu sənətin nə vaxt intişar tapdığını bilmək mümkün deyildir. Muğam sənətinin tarixindən söz açan görkəmli musiqişünas-alim F.Şuşunski yazır: «Muğamatımız musiqimizin təməl daşı, onun bünövrəsi, onun dayaq sütunudur. Əsrlərdən bəri xalqımızın yaratdığı mahnılar, təsniflər və oyun havaları muğamat üzərində yaranmışdır. Öz tarixi etibarilə qədim keçmişlə bağlı olan muğamatın harada, nə vaxt, kim tərəfindən yaradıldığını konkret şəkildə demək çox çətindir» **(52-10).** Bu qədim diyarda - Şirvanda da bu müqəddəs sənətin intişar tarixi də sirlərə bələnmişdir. Buna baxmayaraq, Şirvanda yaşamış musiqişünas, ifaçı, xanəndələr haqqında mənbələrdə müəyyən məlumatlar yaşamaqdadır: **Məhəmməd İbn – Əbubəkir Şirvani (XII əsr), Hacı Nəcəf Şirvani (XIV əsr), Abdulla, Şirvani (XV əsr), Zakir İbn Mustafa (XVII əsr)...**



Şamaxı. Alman alimi Adam Olearinin "Moskvaya və İrana səyahətnamə" (1636-1639) əsərindən götürülmüşdür

**Rzaddin Şirvani** haqqında XVII əsrdə Şamaxını ziyarət etmiş böyük türk səyyahı **Övliya Çələbi «Səyahətnamə»** sində yazır: «Şeşxanə - icad edən Rzaddin Şirvanidir. Bu da telli sazdır. Ud kimi burğu yerləri əyridir. Qolu uddan uzundu, gövdəsinə balıq qursağı çəkilmişdir. Amma **pərdələri yoxdur**. Altı telli olduğundan şeşxanə adlanır. Çətin bir sazişə də bütün **muğamat** (seçmələr bizimdir - S.Q) bunda icra oluna bilər».

Deməli, yuxarıda qeyd etdiyimiz əsrlərdə Şirvanda musiqi-muğam bilicilərinin və ifaçılarının yaşaması inkaredilməzdir. Məqsədimiz heç də **Şirvanda muğam sənətinin tarixini araşdırmaq deyildir.** Sadəcə olaraq, XII-XIV əsrlərdə Şamaxıda muğam sənətinin yayıldığını təsdiq edən bir neçə faktla oxucuları tanış etməkdir. Məsələn, XII-XIV əsrlərdə yaşamış klassik şairlərin - Nizami, Xaqani, Nəsiminin əsərlərində 30-dan artıq musiqi alətinin - **saz, cifti saz, ud, bərbət, setar,**

**cəng, qanun, ərqanun, rübab, kamança, təmbur, şurna, nəfir, nay, qaranay, daxul, dəf, zəng** və s. adlarına rast gəlirik. Və yaxud, bütün Yaxın Şərqin tanıdığı - ana dili ilə yanaşı, ərəb, fars dillərində sanballı əsərlər yaradan Nəsimi yaradıcılığı təsdiq edir ki, bu dövrdə muğam sənəti Şamaxıda geniş şəkildə yayılmış və təbliğ olunmuşdur. Xanəndə və hürufi dərvişlərin avazı ilə Nəsiminin aşağıdakı məşhur qəzəli sübutsuz-filansız təsdiqləyir ki, şair təkcə Şamaxıda deyil, bütün Yaxın Şərqdə XIV əsrdə ifa olunan muğamları, muğamların şöbə və guşələrini bütün incəliklərinə qədər bilirmiş:

Həsrət yaşı, hər ləhzə qılir bənzimizi saz,
Bu pərdə kim, nəsnə bizə olmadı dəmsaz.

Üşsaq meyindən qılalı işrəti - **«Novruz»,**
Ta **«Rasta** gələ **«Cəngi-Hüseyni»də** sərəfraz.

Bu **«Çahargahı»** lütf qıl, ey hüsnü «büzurgi»,
Kuçik dəhanından bizə, ey dilləri-Tənnaz.

Zəngülə sifət nalə qılmaz zar **«Segaha»,**
Çün əzmi – **«Hicaz»** eyləyə məhbubi-xoşavaz.

Ahəngi- **«Sifahan»** qılır ol nami - **«Əraqi»,**
**«Rəhavi»** yolunda yenə canın qıla pərvaz.

Könlümü **«Hisar»** eylədi ol ruhi **- Mübərriğa,**
Gəl olma **«Müxalif»** bizə, ey dilbəri – «**Şahnaz».**

Çün **«Şurə»** gəlib eşq sözün qıla Nəsimi,
Şövqündən anın cusə gəlir Sədiyi-Siraz.

Qəzəldən tam aydın olur ki, hürufi şair Yaxın Şərq xalqlarının 12 əsas muğamını, eləcə də Azərbaycan musiqisinin yeddi əsas məqamlarını, hətta bəzilərinin şöbələrini aydınca açıqlaya bilmişdir. Qəzəlin birinci beytində əvvəl **«Novruz»** (**«Humayın» da** şöbə); **«Rast»** (on iki muğamdan biri); sonra **«Hüseyn»i** (12 əsas muğamın on birincisi və **«Rast»** dəsgahında şöbə); ikinci beytində **«Çahargah»** (12 əsas muğamdan biri); **«Segah»** (12 muğamdan biri, bizdə «Segah»ın üç növü var), **«Hicaz»** (12 əsas muğamdan biri və ya «Rast» dəsgahında şöbə), dördüncü beytdə **«Əraq»** (12 əsas muğamdan beşincisi və ya bir çox muğamların ən zil şöbəsi); **«Rəhavi»** (12 əsas muğamın onuncusu və ya ayrıca dəsgah); beşinci beytdə **«Hisar» («Çahargah»** dəsgahında şöbə); **«Mübərrigə» («Zabul», «Rahab»** dəsgahında şöbə); **«Müxalif» («Cahargah»** dəsgahında şöbə) göstərilir. Bu qəzəllə Nəsiminin o dövrdə geniş təhlilə ehtiyacı olmadan muğamlarımızın o vaxtdan geniş yayılmasını və şairin muğamların kamil bilicisi olmasını təsdiq edə bilərik.




***İ. Nəsiminin Hələb şəhərində məzarı. Şəkil prof. Q.Pasayevin əsərindən götürülmüşdür.***

Sufi - **şəriət, təriqət, mərifət, həqiqət** mərhələlərinə yetən dərvişlərin bu şöbələri ifa etdikləri məlahətli səsi, avazı olmasını da bura əlavə etsək, deyə bilərik ki, şair özü də muğamlarımız, onun şöbələrini də xüsusi şövqlə ifa edə bilirmiş. Burada belə bir məntiqi sual yaranır: XlV əsrin sonunda Nəsimi mu-

ğam dərsini kimlərdən almışdır? Cavab isə dəqiq olmasa da, müəyyən mənada aydındır. Təbii ki, hələ orta əsrlərdən musiqi beşiyi olan Şamaxının muğam biliciləri və ya ustad sənətkarlarından.

* * *

Mənbələrdə qeyd olunur ki, Şamaxıda xanlıq dövründə də sarayda muğam məclisi olduğu kimi, rəqqasələr də fəaliyyət göstərmişdir. Bir sözlə, muğam sənəti XIX əsrdə Azərbaycanın bir çox bölgələrində - **Bakı, Qarabağ və Şamaxıda** daha geniş şəkildə intişar tapmış, muğam məktəbləri yaranmış və bu məktəblərdə onlarca istedadlı sənətkar yetişmişdir. Odur ki, həmin dövrdə **Lənkəran, Şuşa, Ağdam, Bakı və Naxçıvanda yaranan ədəbi** məclislərin sorağı bütün Azərbaycana yayıldı. Ədəbi **məclislərlə yanaşı**, Şuşada həm də ayrıca **«Xanəndələr məclisi»** də yaradılmışdı. Şamaxıda isə zəngin insanlar XIX əsrdə öz imarətlərində musiqi gecələri təşkil edirdilər. Məsələn, Şamaxıda ilk musiqi məclisinin təməlini Mahmud Ağanın atası **Əhməd Sultan** qoymuşdur. Düzdür, indiyə kimi Mahmud Ağanın **xeyriyyəçilik, qonaqpərvərlik** və **mesenatlıq** fəaliyyətindən bəhs edənlər - akademik F.Qasımzadə, professor Ə.Cəfərzadə, musiqişünas F.Şuşinski, filologiya elmləri namizədi N.Qarayev, musiqişünas V.Məmmədov və başqaları Əhməd Sultanın şairliyi və musiqi təbliğindən söz açmamışlar...

Mənbələrdən artıq bəlli olur ki, Mustafa xanın sarayında fəaliyyət göstərmiş xanəndə, sazəndə və rəqqasələrin çoxu Əhməd Sultanla dost idi.

Əhməd Ağa musiqi aşiqi olduğu kimi, klassik poeziyaya da bələd idi. Mənbələrin qeyd etdiyi kimi, o, XIX əsrdə yaşayıb-yaradan sairlərin çoxu ilə dost olmuş, özü də şeirlər yazmışdır. Bir təsadüf nəticəsində əldə etdiyimiz bəyazdan, eləcə də filologiya elmləri doktoru Ə.Cəfərzadənin şəxsi arxivindən şairin bir neçə tam və yarımçıq şeirlərini əldə etmişik.

Aşağıdakı qəzəl şairin dünyagörüşü, klassik poeziyaya necə bələd olması barədə günümüzə lazımi söz deyə bilir...

Şükür olsun xudapərvərə məclisimə yar gəlibdir,
Min naz ilə qədəm qoyub yəqin lütvü var gəlibdir.

Behiştin məlayikidir cənnəti-rizvandan çıxıb,
Açıbdır ayinəmizi kama səbəbkar gəlibdir.

Ol əbrü kamanım, cahu-cəlalım, ol qibləgahım,
Duyub hər arzumu, etməyib inkar gəlibdir.

Bu xoş günlər düşməz ələ, saqi, ver badə xürrəm olaq,
Eynimizi xoş etməyə, təgəni ilə tar gəlibdir.

Pərvanə tək qoy dolanım, yanım qətrə-qətrə şamə,
Gör nə qədər bəxtiyarəm, nazlı sahibkar gəlibdir.

Dur düş yarın payinə Əhməd Ağa dili-qafil,
An ötüb, gedir ömürdən şadlan salqar gəlibdir.

**Haşiyə:** XIX əsrdə Şamaxıda bir çox - **Hacı Zeynal, Hüseyn Ağa, Məşədi Süleyman, Kərbəlayi Nağı, Mürsüd Zəki oğlu, Hacı Xəlil, Mirzə Tapdıq, Kərbəlayi Muxtar, Məşədi Səlim** və s. kimi bir çox imkanlı şəxslərin karvansaraları mövcud olmuşdur. Şəhərin İmamlı məhəlləsində olan məşhur karvansaralardan biri də atası Cavad Ağanın tikdirdiyi Əhməd Ağa karvansarası idi.

Mahmud Ağanın babası Cavad Ağaya, atası Əhməd Sultandan qalma Şamaxının müxtəlif məhəllələrində dörd karvansarayı olmuşdur. Ən böyük karvansarası Şamaxının Bakı tərəfdən gələn yolundaydı. Şəhərin o girişindəki olan körpünü də ona görə tikdirmişdi.

***

XIX əsrdə Şamaxıda təşkil edilmiş **«Beytüs-Səfa»** ədəbi məclisi haqqında bir çox alim - **F.Köçərli, F.Qasımzadə, Ə.Cəfərzadə, K.Məmmədov, N.Qarayev** və başqaları bəhs etmişlər. Bu müəlliflərin hamısı qeyd etmişdir ki, məclis 1867-ci ildə «Seyid Əzimin dostu Ələkbər bəyin təşəbbüsü ilə **Əhməd Ağanın karvansarasında** təşkil edilmişdir. “**(110).** S.Ə.Şirvani, Mirzə Məhəmməd Həsən Nalə, Aşıq Bilal, eləcə də, Mahmud Ağa və «Beytüs-Səfa» məclisi ilə bağlı apardığımız tədqiqatlar nəticəsində və dövlət arxivində **«Samaxı bəyləri»** haqqında olan sənədlərdən müəyyən etmişik ki, S.Ə.Şirvaninin dostu Ələkbər bəy şeirin, sənətin pərəstişkarı olan imkanlı şəxs olmuşdur. Bu cəhətinə görə o, Şamaxı ziyalıları arasında böyük nüfuz və hörmət sahibi idi. **O, Mahmud Ağanın atası Əhməd Ağa ilə də «saqqaldaş», «cur» olmuşdur. Onun musiqi məclisində bəy dostları - Süleyman bəy, Xəlil bəy, Mürsəl bəy, Ağa bəy, Nəcəf bəy, Nağı bəy vaxtaşırı iştirak etmişlər**. Professor Ə.Cəfərzadənin məlumatına əsasən «Beytüs-Səfa»nın keçirildiyi karvansara elə Mahmud Ağanın atasının olubmuş. Deməli, bu xeyirxah insanlar S.Ə.Şirvani məktəbinin yaşamasına maddi kömək göstərdikləri kimi, onun şeir məclisinin fəaliyyətinə də hər cür qayğı bəsləmişlər...

Musiqi aşiqi olan Əhməd Sultan həmişə onların məclisinin dinləyicisi və seyrçilərindən olmuşdur. Musiqiyə uşaqlıqdan həvəsi olduğuna görədir ki, Əhməd Sultan oğlu Mahmud Ağanı mollaxana və dövlət məktəblərində oxutdurmaqla yanaşı, Şamaxının ustad sənətkarları tərəfindən evində ona musiqi təhsili də vermişdir. Mahmud Ağanın pəsdən səsi olduğu kimi, o, gözəl də tar çala bilirmiş və musiqiyə - muğamlara dərindən bələd olmuşdur. Bu barədə professor F.Şuşinski yazır: **«Mahmud Ağa musiqi tariximizdə görkəmli bir musiqişünas kimi yer tutur. O, özü pəsdən oxuyur, həm də şirin tar çalırdı. Mahmud Ağa özünün bir gününü də musiqisiz keçirməz, necə**

**deyərlər, «Şüştər»**lə yatıb, **«Osmanlı»** ilə oyanarmış» **(52-20).**

Təbii ki, bu vərdişi ona atası Əhməd Sultan uşaqlıqdan aşılamışdı. Hərgah Əhməd Sultanın sarayında musiqi məclisləri təşkil olunmasaydı, şübhəsiz Mahmud Ağa bəstəçi və musiqişünas və muğam bilicisi, təbliğatçısı kimi yetişə bilməzdi...

**Haşiyə:** XX ərin 80-ci illərində ixtiyar yaşlı şamaxılılardan - **Hacı Quluyev, Ağasadıq Gəraybəyli, Ümud İsrafilov, Aşıq Barat, Sənəm Xudaverdi qızı, Bilal Nuriyev (Göylər kəndi), Abdulla Rəcəbov (Calov kəndi), Mir Haşım Ağa (Qubalı kəndi), Əzizə Cəfərzadə, Kərəm kişi (Cəyirli kəndi), Murad Sənəm oğlu, Aşıq Əhməd, Molla Səbizalı, Şeyx Bayram, Gülalı Əmrahov, tarzən Qulam** və başqalarından **Mahmud Ağa** haqqında eşidib, bildiklərini toplamışdıq. Həmin xatirələrdən bəlli olur ki, **Əhməd Sultan Ağa Cavad oğlu** XIX əsrin əvvəlində Şamaxının İmamlı məhəlləsində, kiçik tacir ailəsində doğulmuşdur. O, Şamaxıda mollaxana və mədrəsə təhsili almışdır. Dini elmlərə yiyələnmiş, klassik poeziyaya bələd olmuş, həm də Ə.Cəfərzadənin şəxsi arxivində hifz olunan xatirələrdən bəlli olur ki, Əhməd Sultan İmamlı məhəlləsindən olan **Gövhər xanım Sultan bəy qızı** ilə ailə qurmuşdur. Sonralar Mahmud Ağa övlad və nəvələrinə nənə və babalarının adını vermişdir.

Əhməd Ağanın **üç övladı - bir oğlu, iki qızı olmuşdur**.

**Haşiyə:** Əhməd Sultan Cavad Ağa oğlu Şamaxı xanı Ağası xanla yaxın olub. Başqa bir məlumata görə, Ağası xanın oğlu Abdulla bəyin **(1780-1842)** (Mustafa xanın qardaşı) bir arvadı onun xalası olub. Əhməd Sultan da bu qohumluqdan istifadə edərək saraya yaxınlaşa bilib. Nəhayət, ticarətlə məşğul olmuş, varlanıb, geniş torpaq sahələri, dəyirmanlar, bağ-bağat, yaylaq və qışlaqlar əldə etmişdir. Mahmud Ağanın varlanmasına səbəb əsasən, atasının var-dövlətli olmasıdır. Daha doğrusu, ata və oğul birlikdə çalışmış, xeyirxah işlər görmüş, musiqi-şeiri sevən, yoxsulların qeydinə qalan, Şamaxının inkişafında xüsusi xidməti olan, maarifin-məktəbin çiçəklənməsinə

kömək edən insanlar olmuşlar. Mahmud Ağanın bütün əməlləri, gördüyü işlər onun gözü qabağında baş vermiş, atasının iştirakı ilə həyata keçmişdir. Məsələn, açdığı məktəb və S.Ə.Şirvaninin «Beytüs-Səfa» məclisinə maddi yardım edilməsi həm də atanın – Əhməd Sultanın təşəbbüsü idi və ya tarın ustadı sayılan Sadıqcanın Şamaxıya dəvəti, onun xanəndələri müşayiət etməsini Əhməd Sultan da yəqin ki, görmüşdür. Fransız yazıçısı A.Dümanın onların **«Qızılı salon»**unda qonaq edilməsi başqa sənətkar, sairlərlə yanaşı, təbii ki, atanın da iştirakı ilə baş vermişdir. O zaman Mahmud Ağanın **33,** Aleksandr Dümanın (1802-1870) **57,** Əhməd Sultanın da təxminən, **55-58** yaşı olmuşdur...

***

XIX əsrin 30-cu illərindən sonra Şamaxının elmi, dini, poeziya, aşıq, muğam və pedaqoji mühitində xüsusi canlanma başladı. Hökumət tərəfindən 1829-cu il avqustun 2-də Zaqafqaziya məktəblərinin ilk nizamnaməsi təsdiqləndi. Nizamnaməyə görə, bu məktəblərin **Gəncə, Nuxa, Şuşa, Şamaxı, Quba, Bakı, Naxçıvan, Ordubad** şəhərlərində və **Qazax distansiyasında** açılması təsdiq edildi. Daha dəqiq desək, Şamaxıda qəza məktəbinin yaradılması 1830-cu ildə nəzərdə tutulurdu. Amma iki il – dalbadal 1828-1829-cu illərdə şəhərdə baş verən zəlzələ məktəbin açılmasını on ilə yaxın ləngitdi. Odur ki, Şamaxıda **qəza məktəbi 1838-ci il may ayının 20-də** fəaliyyətə başladı. Məktəbdə azərbaycanlılarla yanaşı, rus, gürcü, erməni uşaqları da oxuyurdu. Faktlar sübut edir ki, imkanlı ailələr övladlarını dövlət məktəbində oxutmağa daha çox üstünlük verirdilər...

**Haşiyə:** XVIII əsrin ikinci yarısından - Mustafa xan hakimiyyətə **(1792-1820)** gələndən sonra Şamaxı şəhəri yenidən dirçəlməyə başladı. Şamaxıda məhəllə və şəxsi məktəblərin sayı çoxaldı. Sarayda vaxtaşırı şair məclisləri də təşkil edilməyə başladı. Eləcə də şəhərin ziyalıları şəxsi

məktəblər **(qız məktəbləri də)** yaratdı. XIX əsrin otuzuncu illərinə kimi bir çox insanlar övladlarını əsasən bu məktəblərdə oxutmuşlar. XIX əsrin 30-cu illərinə kimi yetişmiş ziyalılar ordusu ilk təhsillərini belə məktəblərdə almışlar. Sonra Şamaxı və ya Yaxın Şərq ölkələrində ali mədrəsələrdə təhsillərini davam etdirmişlər. Görkəmli şair S.Ə.Şirvaninin atası **Seyid Məhəmməd**, Hadinin atası **Əbdülsəlim**, **Mahmudbəyin atası Polad bəy,** Ünsizadə qardaşlarının atası **Əbdülrəhman Əfəndi**, Didənin atası **Qurban bəy**, Məmmədtağı Əlizadənin atası **Hacı Səməd bəy,** Qənizadənin atası **Hacı Murtuzəli**, Səhhətin atası **Molla Əlabbas,** Mahmud Ağanın atası **Əhməd Sultan**, eləcə də bəy-bəyzadə, tacir övladları Şamaxıdakı şəxsi məktəblər, mollaxana və mədrəsədə təhsil almış, sonradan müəyyən iş, elm və sənət sahibi olmuşlar. Uzun illər apardığımız araşdırmalar zamanı əldə etdiyimiz faktlar əsasında onu deyə bilərik ki, XVIII əsrin sonundan XIX əsrin II yarısına kimi Şamaxıda **əllidən artıq** şəxsi məktəb (qız məktəbləri də) olmuşdur. **Mirzə Məhəmmədin, Molla Tağının, Saleh Mirzənin, Molla Pərvinin, Mirzə Süleymanın, Gülübəyim Mir Mahmud qızının, Sona Məşədi İsmayıl qızının, Məşədi Salehin, Fatma xanımın, Gövhər xanımın, Kərbəlayi Musanın, Cavid Əfəndinin, (142) Rza bəyin** və daha kimlərin, kimlərin ev məktəbləri...

Bu məktəblərin bəzilərinin yaranmasında Əhməd Sultanın xüsusi maddi köməyi olmuşdur. Ümumiyyətlə, Əhməd Sultan xeyirxah işlərlə məşğul olmuş, nəticədə Şamaxıda xüsusi hörmət qazanmış, sayılıb seçilmişdir. O, öz oğlu ilə yanaşı, qızlarına da ev təhsili verdirmişdir.

***

Əhməd Sultan Mustafa xanın sarayında yaşamış **Əbülhəsən, Çopur Nəcəfqulu, Qasım Əliqulu oğlu, Mirzə İbrahim,** eləcə də musiqi nəzəriyyəçisi **Hacı Nəcəf bəylə** yaxın olmuşdur. Mahmud Ağanın musiqi bilicisi kimi yetişməsində bu

dostların xüsusi əməyi olmuşdur.

Bu sənətkarların, sazəndələrin xüsusi ansamblları da vardı. Qarabağ məclislərindən fərqli olaraq, Şamaxıda musiqi ansamblı XIX əsrdə əsasən, tar, yastı balaban, nağaradan (bəzən qoşa nağara) ibarət olmuşdur. Çox sonralar ansambla kaman da əlavə edilmişdir. Daha doğrusu, kamança ifa edən sənətkarlar keçirilən yarış və müsabiqələrə gələn qonaqların ansamblına qatılardı. Mənbələrdə təəssüf ki, XIX əsrin sonuna qədər Şamaxıda fəaliyyət göstərmiş ansambllarda xanəndəni müşayiət etmiş azərbaycanlı kaman ustası, sənətkarın adı çəkilmir...



*Şamaxı. Mahmud Ağanın uyuduğu"Laləzar" qəbristanlığından "İmamlı" məhəlləsinin görünüşü*

# II FƏSİL

## MAHMUD AĞANIN ÖMÜR YOLU

Mahmud Ağa Əhməd Sultan oğlu 1826[1]-cı ildə Şamaxının Yuxarı İmamlı məhəlləsində sayılıb-seçilən, möhtərəm və şeirə-sənətə ehtiram göstərən bir zadəgan ailəsində doğulmuşdur. Belə bir ailədə doğulan Mahmud Ağanın tərbiyəsi ilə əsasən dayələr, xüsusi tərbiyəçilər məşğul olmuşlar.



Mahmud Ağa Əhməd Ağa oğlu (portret Ağanın doğmalarının cizgiləri əsasında işlənilmişdir).

**Haşiyə:** Mənbələrdə Şamaxının 35-50 məhəlləsi olduğu qeyd edilir. Şamaxı ilə bağlı apardığımız tədqiqatlar zamanı həmin məhəllənin otuzunun adını və yerini müəyyənləşdirə bilmişik. Bunlar aşağıdakılardır: ***İçəri qala (Narın qala), Aşağı qalabazar, Yuxarı qalabazar, Qaladibi, Piram Şirvan, Ağası İmamlı, Sarıtorpaq, Dərə mə həl-***

---

ğanın 1824,1825-ci illərdə doğulduğu, ...diyi göstərilir. Bizsə məzar daşının üzərindəki tarixi götürmüşük.(S.Q.)

***lə, Minaxor, Şahpirli, Çaparlı, Cırtta-pırtda, Qırmızı məhəllə, Narlı, Ucarlı, Ərdəbilli, Garslar, Gürcü, Şıxzərli, Məlhəm, Kövsərli, Talışlar, Şıxminas, Qurdlar, Cuhudlar, Quşçular.***

Mahmud Ağa ilk əvvəl mollaxana, sonra mədrəsə təhsili almışdır. Bu illərdə Şamaxıda dövlət məktəbi də fəaliyyətə başlamışdır. Odur ki, Əhməd Sultan yeganə oğlunu həmin məktəbdə oxutmuşdur.

Atasının istəyi ilə o, evlərində musiqi təhsili almış, tar çalmağı öyrənmişdir. Atasının evində təşkil etdiyi **musiqi yığıncağı** onun taleyində xüsusi rol oynamışdır. Şamaxıda yaşayan xanəndə dostu - ustad **Əbülhəsən (Həsən Çəp)** məclisə xüsusi dəvətli olardı. Belə bir yaxınlığa görə Mahmud Ağanın musiqini öyrənməsi, əxz etməsi ilə əsasən Əbülhəsən özü məşğul olmuşdur... Həsən Çəpdən əlavə, Əhməd Sultanın musiqi-muğam bilən dostlarından biri də **Hacı Nəcəf bəy** idi. O da uzun illər Mustafa xanın sarayında çalışmışdır. Hacı Nəcəf bəy həm şair, həm də pəsdən füsunkar səsə malik ustad sənətkar idi və həm muğamları, həm də onun nəzəriyyəsini bir alim kimi dərindən bilirdi.

Mahmud Ağaya musiqi nəzəriyyəsini öyrədən də ustadı Hacı Nəcəf olmuşdur. Ona görə də məclislərdə Mahmud Ağa ona həmişə ustad - deyə müraciət edərdi.

Sonralar o, Mirzə Məhəmməd Həsənə də bu çətin sənətin bütün sirlərini öyrətmişdir. Daha doğrusu, «Mirzə Məhəmməd Həsənin musiqiyə bələd olması üçün ona bir risalə də yazıb hazırlamışdır» **(6-15).**

Mahmud Ağa 20-25 yaşında bir tarzən, muğam bilicisi, xeyriyyəçi, qonaqpərvər olduğu qədər də Şamaxıda məşhur olan sənətkarlarla dost olmuş, qüdrətli şairlər – S.Ə.Şirvani, Sağəri, Molla Əlabbas, Bixud, Qafil və başqalarından əruzun sirlərini və qəzəlin qayda-qanunlarını öyrənmişdir. Beləliklə, o, atasının musiqi yığıncağında püxtələşərək muğam, poeziya sərrafı kimi ustad məqamına yüksələ bilmişdir.

**Haşiyə:** Atası oğlunun istəyini nəzərə alıb yeni bir üçmərtəbəli saray inşa etdirir. Onun ikinci mərtəbəsində yerləşən ən böyük- **«Qızılı salon» u** ona muğam-musiqi məclislərinin təşkili üçün ayrıldı. Sonralar həmin sarayda xüşusi müsabiqə, yarışların keçirilməsinə başlandı. Bu yarış, müsabiqənin proqramları Mahmud Ağa tərəfindən tərtib olunurdu.

Mahmud Ağa məclisinin sorağı tez bir zamanda Azərbaycanın musiqi-muğam təşnələrinin çox olduğu bölgələrə - **Qarabağ, Bakı, Gəncə, Tbilisi, Naxçıvana,** hətta **İrana** və **Orta Asiyaya** da gedib çatdı. Artıq Şamaxıda musiqi-muğam və rəqs məclisinin daimi üzvlərinin sayı çoxaldı - **S.Ə.Şirvani, Bahar, Didə, Raqib, Molla Əlabbas, Hacı Nəcəf, Süleyman bəy, Məşədi Zeynalabdın (Sabirin atası), Sadıq bəy, Əşrəf bəy,** bir sözlə, Şamaxının tacirləri, ziyalıları, dərvişləri, aşıqları və şairləri.

Şamaxı o dövrdə ticarət mərkəzi olduğu üçün Mahmud Ağa məclisinin adı, sorağı Avropa, Rusiya, İran, Yaxın Şərq səyyahlarının da çoxuna bəlli idi. Odur ki, Mahmud Ağa həm də şəhərə gələn qonaqları, səyyahları qəbul edər və qayğısına qalardı. Onun səxavəti və nəcibliyi, qonaq və səyyahlara göstərdiyi təmənnasız köməyi artıq Mahmud Ağanı dövlət adamlarının da hörmət bəslədiyi ləyaqətli bir insana, böyük nüfuz sahibinə, şəxsiyyətə çevirdi. Odur ki, Şamaxıya dəvət olunan qonaqlar, səfirlər Mahmud Ağa sarayında, məclisində əylənməyi şərəf sayardılar.

Şamaxıya qədəm qoyan möhtərəm insanlar bu möhtəşəm sarayda muğam dinləməmiş, rəqqasələrə tamaşa etməmiş, bənzərsiz təam dadmamış getməzdilər...

***

Əhməd Sultanın şəhərin İmamlı məhəlləsində atası Cavad Ağadan qalma birmərtəbəli, kürsülü evi vardı. Bu evi atası Cavad Ağa öz imkanı və zövqünə uyğun inşa etmişdir. **Xalq artisti A.Gəraybəyli** deyirdi ki, «atam söyləyərdi, onun

kürsülü evinin geniş həyətində böyük bir **tehranı** qol-budaq atmışdır. Qocaman ağac yayda sərinlənmək üçün əvəzsiz idi və onun çətirinin kölgəsində azı 20-30 nəfər rahat dincələ bilirdi. Tut ağacından aralı yerləşən çarhovuzun dörd tərəfi gül-çiçəyə bürünmüşdü. Əsrarəngiz çiçəklərin ətri lap gendən həyətə ayaq basanları məst edər, ayrı bir sehirli dünyaya alıb aparardı».

Mahmud Ağa 5-6 yaşı olanda, babası Cavad Ağa 60-70 yaşında ağsaqqal, sinədəftər və müdrik bir insan idi. Bu illərdə Əhməd Sultan Mustafa xanın övladları ilə oturub-dururdu. Özünə yaxşıca şərait də qura bilmişdi. O, həm də Şamaxının ziyalıları - şair, xanəndə və aşıqları ilə yaxınlığından zövq alardı. Bəzən onları qurduğu məclislərə dəvət edirdi. Bu məclislər getdikcə böyüyər, püxtələşər və kamilliyi ilə bütün şəhərə səs salardı. 15-16 yaşlı Mahmud Ağanın musiqiyə, poeziyaya rəğbəti get-gedə artır, tara meyil salır. Pəstən oxumağa, muğam və təsnifləri ifa etməyə başlayır. Atasının qurduğu musiqi məclisinə dəvət etdiyi, vaxtilə Mustafa xanın sarayında məşhurlaşan sazəndələrlə tanış olur, onlarla ünsiyyətdən faydalanaraq, muğamların sirlərinə dərindən yiyələnir.

Bax beləcə, aylar ötdü, illər dolandı. Əhməd Sultan qızlarını ərə verdi. Artıq kamilləşən Mahmud Ağa atası ilə Şamaxıda mükəmməl ədəbi-musiqi məclisi qura bildi. Nəhayət, o, musiqi və klassik poeziyaya bilicisi kimi, ərəb-fars dillərini kamil bilən, eyni zamanda rus dilinə aşina olan mükəmməl ziyalı kimi yetişərək Şərq və Qərb mədəniyyətlərinin incəliklərinə sahib oldu. Ata-ana belə qərara gəlirlər ki, ilk əvvəl bircə oğulları üçün gözəl bir saray tikdirsinlər. Saray-mülkün yerini İmamlı məhəlləsinin **Pirani-Şirvan** məhəlləsi səmtindəki bağlarında müəyyənləşdirirlər.

Bu illərdə qonşuları, böyük memar, dostu **Qasım bəy (1711-1874) Şamaxıda** çox saraylara layihələr hazırlamışdı. Əhməd Sultan fikrini Qasım bəyə açır, o da xüsusi bir layihə hazırlayır; üçmərtəbəli füsunkar bir saray layihəsi. Əhməd bəy Şamaxının məşhur ustalarını bir araya gətirir, Sündü kənd daş

karxanalarına da adamlarını göndərir. Daşların gətirilməsi üçün 20-30 kəl arabası təşkil edirlər. Sündü kəndindən 20 nəfər tağ yonan usta tapırlar. Bu işləri qonşusu, İmamlıda, Sarıtorpaqda tikilən imarətlərin baş ustası olmuş Kərbəlayi Mürşüdə **(o, Azərbaycanda ilk ali təhsilli memar Zivər bəy Əmədbəyov Gəray bəy oğlunun (1873-1925)** dayısı) həvalə edilir. Sultan Əhməd imarətin hazırlanmasında alış-veriş işlərinə nəzarəti **qızı Səlminin** ömür-gün yoldaşı Səlim bəyə həvalə edir.

**Baş usta Kərbəlayi Mürşüd saray-mülkün layihəsini sonuncu dəfə Qasım bəylə müzakirə edib,** Əhməd Sultana təqdim edir. Əhməd Sultan oğlu Mahmud Ağa ilə layihəni xeyli müzakirə edir, məsləhətlərini baş ustaya bildirdilər. Üçmərtəbəli sarayda qonaqlar üçün geniş salonlar, ədəbi və musiqi məclisləri, musiqi alətləri, kitabxana və qonaqların qəbulu və. s. üçün zallar və otaqlar nəzərdə tutulur.

Ata və oğul böyük zalları genişləndirmək, külafirəngini artırmaq, girişdə çarhovuzun yaradılması şərti ilə inşaat işlərinə başlanmasına qərar verirlər.



*Mahmud Ağa sarayında musiqi məclisi*



Şamaxılı rəqqasə. Q.Qaqarin, XIX əsr

Sarayın həyətində istirahət guşəsi - gül bağçaları və s. yaradılır. Təəssüf ki, Azərbaycan memarlığının əsrarəngiz nümunələrindən biri olan bu saray 1859-cu il zəlzələsində yerlə-yeksan olur. Mahmud Ağa da sarayı ikinci dəfə bərpa etdirir. Qəzavü-qədərin tərsliyindən 1902-ci il zəlzələsi də divarlarına Azərbaycanın qüdrətli sənətkarlarının səsi, avazı hopan, ən gözəl və unudulmaz musiqi məclislərinə qollarını açan və bənzərsiz səhnələrə şahidlik edən sarayı minlərlə hədiyyə, əlyazma, musiqi alətləri və şəkilləri ilə birlikdə təkrarən yerlə-yeksan edir.

**Haşiyə:** O zaman artıq nə Əhməd Sultan, nə də ki Mahmud Ağa sağ idilər. Ata və oğulun ucaltdığı saray dağılsa da, onlar özləri ilə axirət dünyasına gördükləri saysız-hesabsız nəcib işlərin, xeyirxah əməllərin və yaxşılıqların uzun siyahısı ilə qovuşdular.



*Şamaxı. Mahmud Ağanın 1902-ci il zəlzələsi vaxtı dağılmış sarayının görünüşü*

***

Vaxtilə fransız yazıçısı A.Düma Şamaxıya gələndə Ağanın qonağı olur. Sarayı görəndə təəccübünü gizlədə bilmir və sonralar heyrət içində yazır: **«Mahmud bəyin evi Dərbənddən Tiflisə qədər gördüyüm evlərin ən gözəli idi. O, Şərq memarlıq üslubunda tikilimiş qiymətli bir imarət idi. Biz adamı valeh edən, gözəlliyini sözlə ifadə etmək, qələmlə təsvir etmək mümkün olmayan, çox zəngin, şərqsayağı bəzədilmiş bir salona daxil olduq. Qonaqlar qızılı haşiyəli döşəkçələrin üstündə oturmuş, al-əlvan, qumaş mütəkkələrə dirsəklənmişdir. Salonun o başında incə naxışlarla bəzədilmiş, şəbəkəli böyük və hündür pəncərələrin yanında üç rəqqasə və beş çalğıçı vardı» (2; 86-87).**



Şamaxılı sazəndə. Q.Qaqarin, XIX əsr.

***

Aylar ötdü, illər dolandı. Əhməd Sultan ömür-gün yoldaşı Gövhər bəyimlə yeganə oğlu Mahmud Ağa üçün toy etməyi qərarlaşdı. Valideynlər gəlinlərini də tez zamanda seçdilər. Yaxın qohumu, dostu, məclisin ən fəal iştirakçısı, muğam aşiqi S.Ə.Şirvaninin yaxını, **Sultan bəyin qızı Qəmər xanımı.**

Həhayət, sarayda heç vaxt, heç yerdə misli görünməyən dəbdəbəli bir toy quruldu. Toya Şamaxının bütün ziyalıları, bəy-bəyzadələr, sazəndələr, **Bakıdan, Qarabağdan, Təbrizdən, Dərbənddən, Orta Asiyadan** dəvət alan musiqiçilər, bir sözlə, hər yerdən Əhməd Sultanın dostları, tanışları təşrif buyurmuşdu. Məclisdə iştirak edən xanəndələrin sayı bəlli deyildi. Düz üç gün, üç gecə toy çalındı. Demək olar ki, bu günlərdə Şamaxıda böyük el bayramı yaşandı, aylarla səsi-sədası dillərdən düşməyən bu toyun ağsaqqalı Əhməd Sultanın dostu **Mirzə Nəsrulla Qurban bəy oğlu (Didə)** idi. Didə ərəb, fars, rus dillərinin kamil bilicisi, quberniya idarəsinin katibi, dilmanc, istedadlı şair və muğam bilicisi idi. Bu ziyafətdə Qafar Məmmədsəid oğlu onun köməkçisi idi. Qabaqcadan tərtib edilmiş siyahı əsasında şəhərin bütün məhəllələrindəki kasıblara, ehtiyacı olanlara xələt və hədiyyələr paylatdı Əhməd Sultan. Şamaxıda yüzlərlə ailə toy şirinliyi daddı.

Mahmud Ağa və Qəmər xanımın bu izdivacdan beş övladı - dörd oğlu, bir qızı oldu: **Ağa bəy, Əhməd bəy, Cavad bəy, İbrahimxəlil bəy və Bəyim xanım.**

***

XIX əsrin 60-cı illərindən sonra Şamaxıya yolu düşən İran, Rusiya və Avropa səyyahlarının, şərqşünaslarının çoxu bu ailənin, məclisin, sarayın, imarətin qonağı olmuşdur. Çox əfsuslar ki, Mahmud Ağanın qonağı olmuş məşhur insanların hamısı haqqında mənbələrdə o qədər də geniş, tutumlu məlumat yoxdur. Sadəcə hamının bildiyi, müraciət etdiyi bir neçə səyyahın xatirələri, yol qeydləri məlumdur: fransız yazıçısı **A.Düma** (1802-1870), rus etnoqrafı **İ.Yevlaxov** (1816-1884), Sankt-Peterburq Rəssamlıq Akademiyasının vitse-prezidenti, knyaz **Qriqori Qriqoryeviç Qaqarin** (1810-1893).

**Haşiyə:** XII-XX əsrlər arasında Şamaxıda zəlzələlər çox

olmuşdur. Onlardan 16-20-sinin dağıdıcı zəlzələ (8-10 baldan yuxarı) olduğu məlumdur. A.Dümanın səfərindən bir il sonra 8-10 bal gücündə olan zəlzələ şəhəri yenidən yerlə-yeksan etdi. Tarixlər şahidi olan şəhərdə xanlıqlar dövründən yadigar qalan saray tikililəri, qala, mülkədar, tacir evləri ilə yanaşı, təməli 773-cü ildə qoyulmuş təkcə Cənubi Qafqazda deyil, Yaxın Şərqdə, Dərbənddə inşa edilmiş məscidlərdən **(733-734)** sonra ən qədim məscid sayılan Şamaxı Cümə məscidi də dağıldı.

Uzun əsrlər boyu paytaxt olmuş Şamaxı şəhəri bir daha əvvəlki əzəmətini özünə qaytara bilmədi və onu aramsız olaraq dağıdan, viran qoyan zəlzələlərin əlindən möhtəşəmliyini itirərək adi əyalət şəhərlərindən birinə çevrildi.



*1902-ci il zəlsələsində dağılmış Cümə  məsçidinin görünüşü*

**Haşiyə:** rus knyazı, rəssam Q.Qaqarin 1847-ci ildə Şamaxıda olmuşdur. O, 1859-cu il zəlzələsindən 12 il əvvəl naturadan Şamaxı Cümə məscidini kətanın yaddaşına fırçayla həkk edən nadir rəssamdır. Q.Hacıbababəyov tərəfindən

sonralar məscid yenidən bərpa olunsa da, 1902-ci il zəlzələsi bu abidəni təkrar dağıdaraq xarabazarlığa çevirdi.

VIII əsrdən günümüzədək şahidlik edən möhtəşəm Cümə məscidinin görkəmi haqqında real təsviri ancaq knyaz, rəssam Qaqarinin rəsm əsəri yaradır.

**Haşiyə:** 1902-ci il yanvar ayının 31-də baş vermiş güclü zəlzələ nəticəsində böyük ziyan dəymiş məscidin bərpası dövlət tərəfindən şamaxılı, mülki mühəndis **Zivər bəy Əhmədbəyova (1873-1925)** həvalə edildi.



*Memar Zivər bəy Əhmədbəyov*

Zivər bəy Gəray bəy oğlu Əhmədbəyov Şamaxıda, İmamlı məhəlləsində 1873-cü ildə doğulmuş, mollaxanada və realnı məktəbdə təhsil aldıqdan sonra Sankt-Peterburq Mülki Mühəndislər İnstitutuna qəbul olmuşdu. Onun atası Mahmud Ağanın, S.Ə.Şirvaninin, Səid Əfəndinin dostlarından idi. Zivər bəy hər iki məclisdə iştirak etdiyi kimi, Mahmud Ağanın qonaqlarının da çoxu ilə dost olmuşdur.

Z.Əhmədbəyov 1902-ci ildə Bakı Quberniya idarəsində, sonralar isə Bakı şəhər idarəsində memar işləmişdir. O, 1918-22-ci illərdə Bakının baş memarı olmuşdur.

Artıq yuxarıda dediyimiz kimi, 1902-ci il zəlzələsi zamanı Şamaxı Cümə məscidi də böyük zərər çəkdi. 1903-cü ilin oktyabr ayında məscidin ianə yolu ilə bərpası üçün yaradılan komitə məscidin bərpasını Zivərbəy Əhmədbəyova həvalə edir. Özülün mərkəzi və arxa divarı bərkidilib yan hissələrində işlər görülürdü. Lakin Zivər bəylə komitə arasında fikir ayrılığı

yarandığından o, tikintidən imtina etmək məcburiyyətində qalır. Komitə məscidin işini **mülki mühəndis İ.Polşkoya** etibar etdi. Polşkoy öz variantını təklif etməklə yanaşı, həm də Z.Əhməd-bəyovun memarlıq variantını saxladı. Məscidin inşası maddi çətinliklər üzündən ləng getsə də, mərkəzi və yan günbəzlərdən başqa bütün işlər tamamlandı. Məscidin daxili həcm məkanını bəzəyən günbəzin **metal karkasları Varşavada hazırlanıb** gətirildi.

***



*Bakı şəhəri, Zivər bəyin heykəli*

Onu da deyək ki, Zivər bəy Əhmədbəyov 52 illik ömrünün çoxunu memarlıq sənətinə həsr etmiş, Bakı, Şamaxı, Göyçay şəhərlərində neçə-neçə inzibati binalar, yaşayış evləri, məscid-lərin layihəsini vermiş, xalq memarlığının mütərəqqi ənənə-lərini Şərq və Avropa memar-lığı ilə üzvü surətdə əlaqələn-dirmişdir. 1918-ci ildə erməni cəlladları Şamaxı əhalisini qır-dığı kimi, şəhəri, eləcə də Cü-mə məscidini odlara qalamış-dılar. Erməni vəhşiliklərindən ruhdan düşməyən görkəmli ziyalı Zivər bəy 1919-cu ildə şəhərin yenidən bərpası üçün **«Yeni Şirvan» cəmiyyəti** təşkil edir.

**Zivər bəy Əhmədbəyov Sovet hakimiyyəti qurulduq-dan 5 il sonra haqsızlıqlara dözməyərək 1925-ci ildə Bakı şəhərində** intihar etmişdir. Onun doğmaları hazırda Bakıda yaşayırlar.

**Haşiyə:** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2009-cu il dekabrın 24-də Şamaxı Cümə məscidi Dövlət tarixi memarlıq abidəsinin bərpası ilə əlaqədar imzaladığı sərəncama əsasən, Prezidentin Ehtiyat Fondundan Şamaxı Rayon İcra Hakimiyyətinə dörd milyon manat məbləğində vəsait ayrılmış, Şamaxı Cümə məscidində bərpa və yenidənqurma işləri uğurla başa çatmışdır.

***

Şamaxıda dağıdıcı zəlzələlərdən biri də **1192-ci ildə baş** vermişdir. Bu dəhşətli zəlzələdə Şirvanşaha və onun ailəsinə böyük bədbəxtlik üz verdi. Gürcü salnaməsində bu barədə belə yazılır: «Şirvanşah və Əmr Mirman çarəsiz vəziyyətə düşdülər. Belə ki, Şirvan ölkəsi o vaxt Allahın qəzəbinə düçar oldu, yerin silkələnməsindən Şamaxiyyə şəhərinin divarları və qalası uçub dağıldı, hər şey məhv oldu, eləcə də Şirvanşahın arvadı və uşaqları həlak oldular... Şamaxını bərk dağıdan bu zəlzələdən çoxlu adam, o cümlədən Şirvanşahın ailəsi, onun arvadı, İsmət Əddin, oğlu və vəliəhdi Məniçöhr, qızı Əmir Əmiran Ömərin arvadı və digər qızları həlak oldu. Bu fəlakət nəticəsində Axistandan sonra Şirvanı... onun qardaşları idarə etməyə başladılar» (5-171). Bu zəlzələ ilə yanaşı **1226, 1467, 1667, 1669, 1796, 1828, 1829, 1851, 1855, 1859, 1869, 1872**, **1902-ci** illərdə Şamaxıda dağıdıcı zəlzələlər baş vermişdir...(Bu məlumatlara əsasən professor S.Aşurbəyli, və professor Ə.Cəfərzadənin əsərlərində yer verilib).



*A. Dümanın Mahmud Ağaya hədiyyə etdiyi saat (1858)*

***

1859-cu il zəlzələsi də şəhəri alt-üst etdi. Şəhər tam məhv oldu. İstər-istəməz

bu zəlzələdə Əhməd Sultanın da imarəti-sarayı dağıldı. Təbii ki, bu sarayda olan var-dövlət, bundan daha dəyərli olan kitab-əlyazma, xatirə əşyaları da məhv oldu.

Yalnız A.Dümanın hədiyyə etdiyi bir divar saatı, bir xalı və dörd gümüş qaşıq o vaxtdan salamat qalır və günümüzə şahidlik edir. Hazırda **154 yaşı** var həmin saatın.

Ata və oğul sonra sarayı yenidən qurdular. Əvvəlkindən də möhtəşəm. Ancaq xatirə əşyaları, kitab, sənəd, şəkilləri xilas etmək mümkün olmadı... 1902-ci il zəlzələsi yenidən qurulmuş sarayı və oradakı tarixlər şahidi olan sənədləri də yox etdi. 1902-ci il zəlzələsi zamanı Şamaxının 20 məhəlləsi dağılmış, eləcə də Ağanın ata-baba məkanı, İmamlı məhəlləsində olan məscid də uçmuş, ta 1908-ci ilə kimi belə vəziyyətdə qalmışdı.

Odur ki, Zivər bəy 1908-ci ildə «İmamlı» məscidinin bərpa layihəsini hazırlayır. Şamaxının imkanlı insanları və eləcə də Mahmud Ağanın qohumlarının köməyi ilə «İmamlı» məscidi yenidən qurulmuş, tikilmişdir. Əfsuslar olsun ki, erməni daşnakları 1918-ci ildə bütün şəhəri yandırır, eləcə də, Zivər bəyin layihəsi ilə yenidən qurulmuş «İmamlı» məscidini...



*1918-ci ildə Xalq Cümhuriyyəti tərəfindən "İmamlı" məsçidində qətlə yetirilən insanların adına qoyulmuş məzar daşı*

**Haşiyə:** Erməni cəlladları «İmamlı» məscidinə pənah gətirən insanları, eləcə də məscidin Axundu Cəfərquluya olmazın işgəncə verərək öldürmüş, sonra məscidin qapısını bağlamış, oradakı insanları yandırmışlar **(39-60).** 1919-cu ildə yerlərdə təhqiqat aparan insanların məsləhəti ilə erməni cəlladları tərəfindən yandırılan insanlar məscidin həyətində dəfn edilmişdir. Məzarın üstünə Cümhuriyyət dövründə sinə daşı qoyulmuşdur. İllər sonra məzar daşının üstünü torpaq örtmüş və qanlı məzarı Sovet dönəmində torpaq salamat saxlamışdır... Sinə daşı günümüzə şahidlik edir…

***

Mənbələrdən o da bəllidir ki, Mahmud Ağa böyük şair Natəvan xanımla uzun zaman məktublaşmışdır. Natəvan 1874-cü ildə Bakıya səfər edərkən, vaxt tapıb Şamaxıda Mahmud Ağa məclisinin qonağı olmuşdur.

***Xatirələrdən…*** Natəvan əvvəlcə onun məclisinin üzvləri ilə maraqlanır. Bu zaman Qarabağın məşhur musiqiçiləri - Hacı Hüşü, Humayın Mahmud Ağanın sarayında yaşayırdılar. Natəvan bu vaxta qədər ustad şair S.Ə.Şirvani ilə qiyabi tanış idi. Amma görüşməmişdilər... Ağa Xan qızını böyük hörmətlə, təmtəraqla qəbul edir.

…Son gün Mahmud Ağa, Natəvan və S.Ə.Şirvani bir yerdə - sarayın qonaqlar üçün təşkil edilmiş guşəsində əyləşdilər. Üç şair şeirdən, sənətdən söhbət edir, məsləhətləşirlər. Natəvan 1864-cü ildə Şuşada Mirzə Əbdülqasım mədrəsəsində şairlər - **Mirzə Kərim Fəna** və **Hacı Abbas Aşıqın** təşkil elədiyi **«Məclisi-üns»** barədə onlara məlumat verdi. Bildirdi ki, belə bir məclisin Şamaxıda da təşkili lazımdır. Axı burada istedadlı şairlər çoxdur. Bir də ki, Şamaxı kimi böyük bir şəhərdə iki məclisin fəaliyyəti daha münasibdir. Mahmud Ağa şair kimi hər iki məclisə qatıla bilər. Onsuz da Şamaxıda tacir, bəy, bəyzadələr, şair, ziyalılar Ağanın məclisində mütəmadi iştirak edirlər.

Həmin şəxslər şairlərin məclislərində də təbii ki, iştirak edəcəklər. Məclisin ağsaqqalı da olar Seyid - dostunuz. Belə təklif etdi Natəvan xanım.

Bu təklif Mahmud Ağanın ürəyindən olur. Hər gün musiqi, şeir sədaları eşitmək üçün lazım gəlsə, canından keçən Mahmud Ağa bu təklifə necə də sevinməyə bilərdi... Qabaqcadan o, dostu Seyidi təbrik edir və məclisin xərcini də mən özüm çəkərəm, - deyə onların əllərini sıxır...

Xan qızı da Mahmud Ağanın **«Qızılı salon»**unu çox bəyənmişdi, xoşuna gəlmişdi. Şeirin, sözün, musiqinin, ümumiyyətlə insan ağlının, təfəkkürünün bu kübar sarayda uca tutulması onu valeh etmişdi. Eləcə də məclis qurulan zaman iştirakçılara edilən qulluğu: **pür-rəngi, ətirli, mixəkli, darçınlı çay, şərbətlər, çərəzlər, gülablar, hilli, zəfəranlı, mixəkli paxlavalar, halvalar, sulu qəlyanlar və sair.**



*Xurşidbanu Natəvan*

Xan qızı da söz verir ki, Şuşaya çatan kimi, **«Məclisi-ünsi»** öz sarayına köçürəcəkdir. Beləliklə, dostlar görüşüb-ayrıldılar. Mahmud Ağa Xan qızını öz **«qızıllı faytonu»** ilə Şuşaya yola saldı.

Doğrudan da, tez bir zamanda Şamaxıda «Beytüs-Səfa» məclisi qurulur, Şuşada isə «Məclisi-üns» Xan qızının sarayına köçür. Qarabağ xanəndələri, sazəndələrinin iştirak etdiyi bu məclisə də Natəvan özü rəhbərlik edir».

***

**«Beytüs-Səfa»** ədəbi məclisinin yaranmasına ən çox sevinənlərdən biri də Əhməd Sultan oldu. O, Seyid Əzimə dərin hörmət bəsləyər, ehtiramla yanaşardı. Oğluna tapşırıq vermişdi ki, Seyidin **məktəbinə və məclisinə** yaxşı baxsın, maddi köməyini əsirgəməsin, onu sıxıntılarla sınağa çəkməsin.

Mahmud Ağa da atasının tövsiyələrinə sadiq qalaraq Seyidi bir şair, söz səltənətinin sahibi kimi uca tutur, onun məclisində həmişə iştirak edir. Mahmud Ağa Seyidin məclisini daha da şöhrətləndirmək üçün onun sarayına təşrif buyuran sənətkarları başqa bir gün «Beytüs-Səfa»ya qonaq aparırdı. Və ya muğam müsabiqəsi təşkil ediləndə, başqa bir gün müsabiqə qaliblərini «Beytüs-Səfa» məclisinə qatardı. Xanəndələr oxuyar, şairlər şeirləşərdilər. Kamil qafiyə tutanlar, qəzəldə üstünlük əldə edənlər, münsiflər tərəfindən **«baş yerə»** çıxanları mükafatlandırmağı Mahmud Ağa özünün müqəddəs vəzifəsi sayardı.



*Bahar Şirvani*

Belə bir maraqlı məclisə - «Beytüs-Səfa»ya təkcə şair, sənətkarlar deyil, ziyalı, bəy, tacirlər də qatılardı: **Şahbaz bəy, Nuru bəy, Məşədi Fərəc bəy, Nəcəfqulu bəy, Səid Əfəndi, Şıxali bəy, Qocaman bəy, Mahmud bəy, Hacı Salman bəy, Udlu Musa, Nağı bəy, Kərim bəy, Mehdi bəy, Sultan bəy Veysov, Kərbəlayi Yusif bəy, Molla Əlabbas, Məşədi Mürsəl bəy...**

**Haşiyə:** Həmin vaxtdan sonra Mahmud Ağanın musiqi və

«Beytüs-Səfa» məclisləri ilə Qarabağ məclisi arasında əlaqələr yarandı və yazışmalar daha da gücləndi. Qarabağ sənətkarları - Hacı Hüsü, Sadıqcan Şamaxıya gələndə Natəvanın sifariş və salamlarını, xəbərlərini Mahmud Ağaya yetirir, onun da sözlərini sovqatları ilə birlikdə Natəvana çatdırırdılar, «Beytüs-Səfa» üzvlərinin məktubları da Şuşaya yetirilərdi...

Məsələn, «Beytüs-Səfa» məclisində M.Füzulinin **«Ram olmaz»** rədifli qəzəlinə nəzirə yazılması qərara alınır. S.Ə.Şirvani, Raqib, Bixud, Qafil, Salik, Səfa, Zövi, Zuhuri və b. məclis üzvləri yarışa qatılırlar.

Qəzəllər o qədər ustalıqla yazılır ki, «Beytüs-Səfa» üzvləri qalibi müəyyən etməkdə çətinlik çəkirlər. Məclis üzvləri belə qərara gəlirlər ki, nəticələri Şuşaya göndərsinlər, Qarabağ şairləri qalibi müəyyən etsinlər. Bu barədə ədəbiyyatşünas F.Köçərli yazır: «Qarabağ şüarələri kamalıdiqqətlə «Beytüs-Səfa» əhvalının göndərdikləri qəzəllərə baxıb, onlardan **əvvəlinci dərəcədə** Bixud həzrətlərinin, **ikinci dərəcədə** Hacı Seyid Əzimin, **üçüncüdə** Zövinin, **dördüncü də** Səfa ilə Salikin, **beşincidə** Qafilin, **altıncıda** Zuhurinin, **yeddincidə** Raqibin qəzəllərini qoyublar» **(52-106).** Hətta Qarabağ şairlərinin bir çoxu da bir növ bu müsabiqəyə qatılıblar; bu rədifli qəzəllər yazıblar...

Beləliklə, Şamaxıda olan iki məclisin üzvlərilə Natəvanın rəhbərlik **etdiyi məclis arasında əlaqələr genişlənməyə** başlayır.

***Böyük Füzulinin «Ram olmaz» rədifli qəzəlinə nəzirələr...***

**Molla Ağa Bixud:**
Riyazətsiz, könül, bu nəfs bir tövsəndi, ram olmaz,
Buna cövlangəhi-ərsə ərz ola, seyri tamam olmaz.

**Seyid Əzim Şirvani:**
Mənə ol mahi-bimehrim yəqinimdir ki, ram olmaz,
Nedim kim, mehri çıxmaz sinədən ömrüm tamam olmaz.

**Məhəmməd Səfa:**
Bu ahu gözlülər aləmdə hər səyyad ram olmaz,
Və gər xud olsa kami-dili-aşiq tamam olmaz.

**Agabala Zuhuri:**
Gər desəm sərv sənə, sərvdə rəftar olmaz,
Gər desəm mah sənə, mahda küftar olmaz.

**Ələkbər Qafil:**
Mənə ol dilləri ahunigar müddətdi ram olmaz,
Əcəb kim, ruhsuz cismim ilə ömrüm tamam ram olmaz,

**Qafar Raqib:**
Mənim ruhumda bir dilbər, vəli cisminə ram olmaz,
Əcəb kim, ruhsuz cismim ilə ömrüm tamam ram olmaz.

**Salik Şirvani:**
Nə sərkeşdir mənə bu sərvqəd, voslilo ram olmaz,
Uzanır qəmli ömrüm, müddəti-hicri tamam olmaz.

**Binəva Şirvani:**
Sənin tək nazəninlər, eybdir, əğyara ram olmaz,
Nə kim sağər vurub məsti-şərabi-təmam olmaz.

«Beytüs-Səfa»nın şöhrəti artıq Şamaxının kəndləri və tərəkəmə obalarına da yayılır. Tərəkəmə obalarında olan aşıq, şairlər **- Allahverdi Rəfi oğlu, Udulu Musa, Padar Ağabala, Cəyirli Mürşüd, Aşıq Xəlil, Aşıq Xeyrulla, Aşıq İbrahim Aşıq Bilal,** və başqaları da məclisdə iştirak etməyə can atırdılar **(41-16).** Bəli, həmin vaxtdan sonra Şamaxıda hər iki məclis baş-başa verib nə az, nə çox - 25-50 il arasında fəaliyyət göstərdi, sözün, sənətin qüdrətiylə insanlara xidmət etdi. Qədim Şamaxının möhtəşəm mədəniyyət, poeziya, aşıq, muğam

mühiti olduğunu Avropa, Rusiya, Orta Asiya, Yaxın Şərq ölkələrinə çatdıra bildi.

***

Şamaxı səhəri İpək yolu üzərində yerləşən məşhur ticarət mərkəzi idi.

Mahmudbəyovlar nəslindən olan **Xəlil Həbib oğlunun** xatirələrində Şamaxının unikal və maraqlı təsviri vardır. O möhtəşəm Şərq şəhərinin keçmişini belə təsvir edir: «Şamaxı şəhərinin yaşı minilliklərlə ölçülür. Tarixi mənbələrdə göstərilir ki, hələ 1500-cü illərdə Şamaxıda dünyanın bir çox ölkələri ilə geniş ticarət əlaqələri qurulmuşdu. **İngiltərə tacirlərinin bu şəhərdə xüsusi nümayəndəliyinin olması da şəhərin dünya ticarətindəki vacibliyinə dəlalət edir.** Əcnəbi tacirlər və sahibkarlar o zaman buradan yun, ipək, dəri məmulatları və digər şeyləri alaraq ölkələrinə aparardılar. İngiltərədən başqa burada İran və Hindistanla da geniş əlaqələr mövcud idi. Eyni zamanda Şamaxı tacirləri də qonşu dövlətlərə ticarət məqsədləri ilə karvanlarla yola düşər, geriyə də boş qayıtmazdılar. Şamaxı ilə Xəzəryanı dövlətlərin, Rusiya vilayətlərinin də sıx əlaqələri mövcud idi. Bütün bu münasibətlər Şamaxının inkişafında, bu şəhərdə elmin, maarifin tərəqqisində vacib rol oynayırdı. Ona görə də Şamaxıda təhsilli, savadlı insanların sayı ölkənin digər bölgələrinə nisbətən dəfələrlə çox idi. Burada insanların bir neçə dili bilməsi və bu dillərdə rahat yazışması adi hal idi. Belə böyük ticarət eyni zamanda mədəniyyətin və elmin inkişafına ciddi təkan vermişdi. Ona görə də Şamaxıda İmadəddin Nəsimi, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir kimi dahi şairlərin yetişməsi qeyri-adilik yox, qanunauyğunluq idi".

***

Böyük **bəstəçi, muğam** və **klassik poeziyaya** dərindən bələd olan Mahmud Ağanın təşkil etdiyi müsabiqələrə hər sənətkar qatıla bilmirdi. Mahmud Ağaya görə, müsabiqəyə qatılan kəsin məlahətli səsi olduğu qədər də, klassik poeziyanı dərindən bilməli, **ifa zamanı sözləri aydın tələffüz etməli və gözəl də ritm tutmalıydı. Bir də ki, seçdiyi qəzəl muğamın şöbələrinin ruhuna, ahənginə, motivinə uyğun olmalıydı; sözlə şöbə bir ahəngdə sadə və gözəl bir tərzdə uzlaşmalı idi,** muğamın qəmli şöbəsində kədərli, xürrəm guşələrində isə şad notlu şeir oxunmalıydı. İfaçıların davranışı da münsiflərin gözündən qaçmazdı. Oturuşu, duruşu, baxışı, hərəkətləri də eyni biçimdə - ədəbli-ərkanlı nəzakət qaydaları ilə vəhdət təşkil etməliydi. Mahmud Ağa bu tələbləri ödəyən sənətkarın məclisində iştirakına icazə verirdi. Təbii ki, bu şərtləri müsabiqədə iştirak etmək istəyənlərə onun adamları qabaqcadan çatdırırdılar. Bu tələblər Mahmud Ağaya atası Əhməd Sultanın buyurduğu qanun idi. Ondan heç kəs kənara çıxa bilməzdi. Elə Mahmud Ağa özü də.

Mahmud Ağanın xanəndədən qəbul etmədiyi yalnız bir cəhət - səsinin xaric olması idi. O, həmişə məclislərdə deyərdi: xanəndə **pəsxan da, miyanxan da, zilxan** da ola bilər. Hər birinin öz yeri var. Bundan keçmək olar. **Xarici səsi olan** xanəndələri isə bağışlamaq olmaz, bu muğama, məclisə hörmətsizlikdir.

**Haşiyə:** Bir dəfə Əlibala adlı bir xanəndə onun məclisində **«Mahur-Hindi»** oxuyurmuş. O, muğamı bitirər-bitirməz Mahmud Ağa soruşur ki, bir başbilənin varmı ki, xaricə gedəsən? Hamı təəccüb qalır. Mahmud Ağa deyir:

- A zalım oğlu. Axı sən xaric oxuyursan, bu hünərlə gedib xariciləri aldada bilərsən, Mahmud Ağanı yox.

***

Mahmud Ağanın **şair** olduğunu tədqiqatçılar qeyd etsələr

də, bunu təsdiq edən mənbələr və şeir nümunələri son vaxtlara kimi yox idi. Bir təsadüf nəticəsində əldə etdiyimiz qəzəlləri onun klassik poeziyaya, əruz yoluna, əruz elminə necə aşiq olduğunu təsdiqləyir. O, həm də əruz vəznində olan şeirləri ustalıqla qiraət edə bilirdi: Uzun heca uzun, qısa heca da öz yerində...

**Haşiyə:** Ötən əsrin 90-cı illərində Şamaxının «**İmamlı**» məscidində təmir işləri gedirdi. Bir gün mən də ora gəldim. Qədim abidələrin bərpasında ən vacib məsələ ehtiyatlı səliqə-sahmanın olması, işlərin ardıcıllıqla və təmiz görülməsidir. Burada isə təmir işləri nizamsız görülürdü. Divardan, ta-vandan qopan ərəb əlyazmaları yerə tökülmüşdü. Onların çoxu toz-torpaq içində qalmışdı. Bəzi əlyazma, kiçik bəyazları götürdüm. Nə qədər çalışsam da onları axıradək oxuya bilmədim. Torpaq altında uzun illər qaldığına görə əlyazmalar oxunmaz olmuşdu. Bu əlyazmaları oxumaq üçün dostum, filologiya elmləri doktoru Əhməd Cəfərzadəyə müraciət etdim. Birlikdə də əlyazmaları yaxşı oxuya bilmədik. Əhməd müəllimin təkilfi ilə bəyazı Hacıqabulda olan dostuna – qədim ərəb əlifbasını daha yaxşı oxuya bilən mollaya göndərdik. O da əlyazmaların bəzisini oxuya bilir. Məlum olur ki, «bəyaz» şeirlər məcməsi imiş. Həmin əlyazmadakı şeirlərin biri Əhməd Ağaya, üçü isə Mahmud Ağaya məxsus imiş. Əhməd müəllimin əski ərəb əlifbasından başı çıxan dostu o biri əlyazmaları da oxuyacağına söz verir. O, oxuya bildikləri əlyazmaları Əhməd müəllimə qaytarır. Sonra həmin şeirləri Əhməd müəllim mənə qaytardı. Əlyazma isə onlarda qaldı...

Mahmud Ağa böyük **mesenat** olmuşdur. Mesenat latın sözüdür. Bir yozumu da **«ədəbiyyat-incəsənətə himayəlik edən səxs və ya təşkilat»** deməkdir. Mahmud Ağanın bu titulunun təsdiqinə o qədər də ehtiyac yoxdur. Məclisinin şahidlərinin yazdıqları, iştirakçıların xatirələrindən bəlli olur ki, onun adamları Şamaxı sənətkarlarının çoxunu lap cavan yaşlarında axtarmış, tapmış və Ağaya təqdim edirmişlər. Mah-

mud Ağanın diqqəti sayəsində o insanların hamısı müqtədir sənətkarlar kimi yetişmiş, Şamaxının adına şan-şöhrət gətirmişlər. **Məşədi Əkbər, Mirzə Məhəmməd Həsən, «Beytüs-Səfa»nın çox üzvləri, Aşıq İbrahim, Aşıq Bilal, Əli Kərimov, Topal Nəcəfqulu, Mehdi, İsgəndər, Davud Səfyarov** və b. kimi.

**Tək bircə fakt:** Davud Səfyarov Bakıdan anası ilə Şamaxıya gəlir. Qadın Mahmud Ağa sarayında özünə iş də tapır. Xidmətçi işləyir. Mahmud Ağaya gənc Davudun da yaxşı səsi olduğu barədə məlumat veriləndə onun səsini yoxlayır və bəyənir. Davudu ustad xanəndə Mirzə Məhəmməd Həsənə həvalə edir. Tez bir zamanda o, Mirzənin səyi nəticəsində gənc xanəndə kimi yetişir, məclislərə dəvət alır və zaman keçdikcə bütün Azərbaycanda məşhur olur.

***

Mahmud Ağa **əliaçıq, xeyirxah, qonaqpərvər** şəxs olduğu qədər də zəmanəsinin ən işgüzar adamlarından biri kimi məşhur idi. Şamaxı və ətraf ərazilərdə bağ-bağat saldırmış, körpü, dəyirman tikdirmiş, yol, bulaq çəkdirməklə yanaşı, bayram günlərində yoxsulları, əlsiz-ayaqsızları sevindirər, ehtiyacı olanlara əl tutardı. Ümidi hər yerdən kəsilib, sıxıntı, ehtiyac içində üzülən adamlar onun necə xeyirxah mülkədar, əsilzadəli bəy olduğunu biləndə, nəcibliyindən xəbər tutanda yaxından-uzaqdan, yolları, məsafələri gözünə almadan böyük ümidlə Mahmud Ağanın ünvanına pənah gətirərdilər. Heç kimin qəlbi qırılmaz, heç kim onun qapısından naümid, əliboş geri qayıtmazdı. Bu barədə ötən əsrin 70-80-ci illərində qocaman Şamaxı sakinləri xeyli rəvayətlər söyləyirdilər.

Bəli, Mahmud Ağa torpağı, vətəni, Şamaxını, onun istedadlı ziyalı övladlarını cani-dildən sevən görkəmli, əqidəli, xalq arasında böyük nüfuz sahibi olan nadir bir şəxsiyyət idi. Onun mərhəməti, səxavəti və qeyri-adi insanlara məxsus

nəcibliyi böyük dənizlər kimi hədsiz, ümmanlar kimi sahilsiz idi.

Mahmud Ağadan bəhs edən müəlliflər bir faktı da qeyd edirlər ki, o, ömrünün bir gününü də musiqisiz keçirməz, necə deyərlər, **«Şüştərlə»** yatıb, **«Osmanlı»** ilə oyanırmış. Görəsən niyə? **Mirzə Məhəmməd Həsənin «Şuru», «Cahargah»ı, Zülfüqarın «Gəray»ısı, Çopur Nəcəfqulunun «Humayın»ı, Cabbarın «Orta Mahuru», Haci Hüsnünün «Kürdü-Şahnaz»ından** doymayan Mahmud Ağa nəyə görə axşam yatanda ancaq «Süştər»in sədaları altında uyğu tapar, sübhün şirin yuxusundan «Osmanlı» avazı ilə oyanırmış? Çox musiqi bilicilərindən soruşanda, cavablar müxtəlif və təxminən, belə oldu: «şakəri olub», «o muğamları çox sevirmiş», «bəlkə özü də həmin muğamları yaxşı ifa edə bilirmiş».

**Haşiyə:** Məlum olduğu kimi, «Süştər» Azərbaycan musiqisinin yeddi əsas məqamlarından biridir, əsasən, **«Bərdaşt», «Əmiri», «Şüştər», «Tərkib»** şöbələrindən ibarətdir. «Şüştər» həm də vaxtilə «Humayın» məqamında «Feli» ilə «Tərkib» arasında ifa olunurdu.

Qədim «Şüştər»dən söz açan **professor Fərahim Sadıqov** yazır: «Bu muğamın... «Sarənc», «Məsnəvi», «Mənəvi», «Əfşari», «Heydəri», «Osman-Gəraylı», «Qara kürd», «Mani», «Keşişoğlu» kimi şöbələri də olmuşdur» **(52-187-188).**

Fikrimizcə, XIX əsrdə də başqa muğamlar kimi, «Şüştər» muğamı geniş və klassik variantda ifa olunurmuş. Deməli, Mahmud Ağa bu məqamın bütün şöbələrini bəyənir, sevirmis. Göründüyü kimi, muğam iki hissədən ibarət imiş. **Bir hissəsini** klassik muğamın – «Tərkib» (Təkibi-bidad), «Feli», «Məsnəvi», - o biri hissəsini isə **zərb-muğamlar** – «Heydəri», «Osman-Gərayi», «Əfşari», «Mani» təşkil edirmiş. Deməli, «Şüştər» muğamı oxunanda Mahmud Ağa (muğam məqamlarında) yuxuya gedər, zərb muğamları oxunanda oyanarmış. Sonralar belə qərara gəlir ki, yatanda «Şüştərin» məqam şöbəsini («Tərkib-bidadi»), səhər ayılanda isə «Osmanlı» - «Gərayı» («Os-

manlı»nı) ifa etsinlər. Maraqlıdır ki, Şirvan klassik aşıq havalarından biri də «Gərayı»dır.

Bu hava aşıqdan zilxanlıq tələb edir. Bütün bunlara görə ustad Aşıq Bilal vaxtilə Mahmud Ağanın adına xüsusi gərayı bəstələyib adını da **«Mahmud Ağa gərayısı»** qoymuşdur.

**Haşiyə:** Aşıq Barat deyərdi ki, ustadımız Aşıq Abbas Mahmud Ağa və Mirzə Məhəmməd Həsəndən çox danışardı. Həmin əhvalatları da ustadı Bilaldan eşitdiyini söyləyirdi. Ustad Bilal Mahmud Ağa məclisinin iştirakçıları, oradakı xanəndələrinin ifalarından da bəhs edərdi.

Özü də ustadı Aşıq Bilalın Mahmud Ağanın adına bəstələdiyi «Gərayı»nın tarixindən, Sabir və Səhhətlə dostluğundan şirin-şirin danışar, sonra həmin «Gərayı»nı da xüsusi şövqlə ifa edərdi. Onun oxuduğu, yəni Mahmud Ağanın sevdiyi,onun



*Aşıq Bilal (ortada) sənətkar dostları ilə.*
*1928-ci il.*

adına bağladığı «Gərayı» bizim hazırda oxuduğumuz zil **«Gərayı»**dan bir qədər də **«zil»** idi.

Aşıq Barat onu da deyərdi ki: Ustadım Bilal oxuduğu «Gərayı»nın ortasında bir döndərmə boğaz edirdi ki, bu da hər oxuyanın hünəri deyildi. Ustadın orada etdiyi boğaz, «Mahur» muğamında **oxunan zil boğaz idi.** Aşıq Barat belə söyləyirdi: «Gərayı»da ifa etdiyi şeiri də vaxtilə onun yaddaşından yazıya almışam:

Ruhum hərrac-bazar oldu,
Yar camalın görən yerdə.
Qollarımdan bəndə düşdüm,
Zülflərini hörən yerdə.

Vəsli-halı yaxşı billəm,
Mətləb qanmağa qailəm,
Kafər olsam dinə gəlləm,
Sinəsini görən yerdə.

Bilalam yanmaz imanım,
Ölsəm də halaldı qanım,
Olsun yara fəda canım,
Qoşa narı dərən yerdə.

***

Mahmud Ağanın sarayında Şirvanşahlar sarayında olduğu kimi xüsusi rəqqasələr dəstəsi fəaliyyət göstərmişdir.

Rəqqasələr gələn qonaqları əyləndirərək feyziyab edəndə, xanəndələr dincələr, istirahət edərdilər. Bir sözlə, sarayda musiqi ilə yanaşı, incəsənətin bu maraqlı növü də təbliğ olunar, xalqımızın bu qədim rəqs sənəti əcnəbilərə də əyani şəkildə təqdim edilərdi.

Məclisin şahidi olan qonaqların xatirə və qeydlərində rəqqasələr haqqında, onların geyimləri, ifaları və hətta adları barədə maraqlı məlumatlar verilir.

**Bu xatirə və qeydlərdə XIX əsrdə Şamaxıda bütünlükdə mədəniyyətin inkişafı barədə günümüzədək geniş məlumatlar gəlib çatmışdır. Belə maraqlı məlumatlardan biri də knyaz, rəssam Qaqarinin kətana köçürdüyü rəqqasələrin tablosudur.** Bundan savayı Şamaxı rəqqasələrindən **Nisə, Rəna, Sona, Səkinə, Məleykə və rəqqas Hikmətin** adları çəkilən mənbələrin də günümüzədək qalması sevindirici haldır.

Knyaz Qaqarinin o dövrdə çəkdiyi rəsm əsərində həm ifaçıların alətləri, həm də rəqs edən, oxuyan xanımlar aydınca görünür. Tamaşaçı keçmişə dönə bilir, onun gözləri önündə Mahmud Ağanın bənzərsiz sarayı bütün gözəlliyi ilə canlanır. Şamaxı mədəniyyətinin keçmişini araşdırarkən bir günü də musiqisiz keçməyən Mahmud Ağanın bir şəhərlə məhdudlaşmadığını, Azərbaycanın hər yerindən ustad sənətkarları ətrafına toplamasının, onları himayəyə götürməsinin şahidi oluruq. Məşhur sənətkarların Şamaxı kimi musiqi məbədində səxavətli xeyriyyəçinin başına toplanması Azərbaycan mədəniyyətinin, Azərbaycan xalq musiqisinin inkişafında əvəzsiz rol oynamışdır. Məhz bu nəcib addımlar sayəsində xalqımızın qədim mənəvi sərvəti təbliğ edilmiş, qorunmuş və geniş yayılmışdır. Özü də görkəmli musiqişünasın sarayına hər zaman yaxşıların yaxşısı, bir sözlə, ustad sənətkarlar dəvət olunmuşlar. Onlar böyük ehtiramla qarşılandıqları kimi, böyük hörmətlə, hədiyyələrlə də yola salınardılar.

Mahmud Ağa Sadıqcan üçün **qızıldan tar** düzəltdirmişdi. Əfsus ki, o tar bizə gəlib çatmadı. O, Qaryağdıoğlu Cabbar üçün də **qızıldan qaval** sifariş vermişdi. Həmin qavalı Cabbar 1913-cü ildə Şəmsi Əsədullayevin qızının toyunda Seyid Şuşinskiyə bağışlayıb. Sonralar bu qaval da itib, gəlib bizə çatmayıb **(1-63).** Mahmud Ağanın muğam ustadları, müsabiqə qalibləri, şair və aşıqlar, rəqqasələrə verdiyi hədiyyələrin tükənməyən siyahısını saymaqla qurtarmaq olmaz: **qızıldan hazırlanan təsbehlər, üzüklər, saatlar, camlar, bazubəndlər, kə-**

**mərlər, boyunbağılar, sinəbənd, araqçın, sırğalar, qolbağlar, qızıl əsalar və Buxara papaqları, zərli-baftalı əbalar, çərkəzi çuxalar...**

**Haşiyə:** Bununla yanaşı, Mahmud Ağa müsabiqəsinin başqa bir dəyərli tərəfi o idi ki, bu məclisdə təkcə Azərbaycanda deyil, Təbriz, Tiflis, Dərbənd, hətta Orta Asiyada yaşayan həmyerlilərimiz bir-birinin sənətlərinə bələd olduqları qədər də uzun illər dostluq edər, sənətlərini təbliğ etməklə öyünərlərmiş. Yəni Mahmud Ağa məclisi ilk **dəfə, muğam dünyası, muğam dünyasının təsnələrini bir ocaqda - qədim Şamaxıda bir araya cəm edə bilmişdir.** Cabbar, Mirzə Məhəmməd Həsənin «Şur»da vurduğu xalları, Davud Səfyarov, Məşədi Zeynal zəngulələrini, Məşədi İsi, Səttarın oxuduğu xalq mahnılarının şirinliyini, Hacı Hüsü, Topal Məmmədqulunun alt-üst mizrablarının ecazkarlığını, Malıbəyli Cümşüd, Sərənc Zeynalın, Sadıqcanın bülbül ləhcəli ününü, Natəvanın qəzəllərini, söz sərrafı Seyidin şah beytlərini, Ağanın öz şirin səsindəki məlhəmini, Bülbülcan, Aşıq İbrahim, Aşıq Bilalın ərşə bülənd avazının bu məclisdə şahidi olmuş, özü də rübəru...

***

Mahmud Ağanın yeni sarayı tikiləndən sonra Şamaxının bəy-bəyzadələri, tacir dostları daha çox məclislərə qatılmağa başladılar. Artıq şəhərin bütün - **Şıxminaş, Sarıtorpaq, Ucarlı, Gürcübazar, Kövşərli, İmamlı, Nar ağacı, Meydan, Yuxarı Qalabazar, Pirani Şirvan məhəllələrinin zəngin, varlı-karlı** insanları - Hacı Kərim, Hacı Dadaş, Zeynalov qardaşları, Azad bəy, Cavad bəy, Rüstəm bəy, Camo bəy, Salamovlar və hətta dövlət adamları mütəmadi olaraq məclisə qatılır, dəyər verir, ora gələn qonaqlarla tanış olaraq, onları evlərinə - saraylarına mehman aparırdılar... Bu xeyirxah zənginlər Şamaxını dağıdan zəlzələlərdən **(1859, 1902)** sonra yenidən qurulmasına, abadlaşdırılmasına, məktəblərin yaradılmasına, karvansara və məscid-

lərin bərpasına, tikilməsinə böyük köməklik göstərmişlər. Çox əfsuslar olsun ki, həmin bəy-bəyzadələrin 1902-ci il zəlzələsindən sonra tikdikləri malikanə, saray və evlərini erməni cəlladları zəlzələlərdən betər 1918-ci ildə yerlə-yeksan etdilər, yandırdılar. Əsilzadələrin bir tikilisi də qalmadı. Hətta Mahmud Ağanın nəvələrinə yadigar qalmış mülklərini də od vurub yandırdılar. Onun doğmalarının çoxu həmin faciədən sonra Şamaxıdan köçüb getdilər; Bakıya, Moskvaya və Orta Asiyaya səpələndilər.

**Haşiyə:** Azərbaycanın çox bölgələri və eləcə də Şamaxıda erməni cəlladlarının 1918-ci ildə viranə qoyduğu imarətlərin xarabalıqlarının şəkillərini professor **S.Rüstəmova**[1] yaxın vaxtlarda Parisdən böyük çətinliklə əldə edə bilmiş, respublikamıza gətirmiş, həmin faciəli tarixi özündə əks etdirən şəkilləri çap edərək, oxuculara çatdıra bilmişdir. Dağıdılmış mülkləri görəndə insanın təpədən-dırnağa qədər vücudu silkələnir. Qədim Şərq üslubunda, bir-birindən yaraşıqlı mülklər dursaydı, Şamaxı bu gün **muzey-şəhər** kimi dünyanın ən məşhur və qədim muzey şəhərlərindən biri sayılardı. Belə olan təqdirdə Şamaxının vaxtilə mədəniyyət mərkəzi olması barədə gələn qonaqlara artıq söz deməyə ehtiyac da qalmazdı...

***

Ümumiyyətlə, Əhməd Sultan və oğlu Mahmud Ağa musiqidən sadəcə zövq alan, ona qulaq asan insanlardan olmayıblar. Onlar xalq musiqisini, aşıq sənətini, muğamlarımızı, oyun havalarını sevdikləri qədər, bu mənəvi sərvətin qorunması, təbliği, inkişafı üçün varından-dövlətindən «uf demədən» keçməyə, qurban verməyə hazır olan musiqi xiridarları idilər...

**Haşiyə:** Mahmud Ağa bir tərəkəmə oğlanın gözəl səsi

---

[1] Şamaxı faciəsinin şəkilləri prof. S.Rüstəmovanın əsərindən götürülüb. 2012

olduğunu eşidib, səsini bəyənir və sənəti öyrətmək məqsədilə onu evinə gətirir. Oğlan tez bir zamanda poeziya və muğamları yaxşı öyrənir. Lakin o, daima açıq havaya, köçəriliyə öyrəşdiyindən, ya da nəsə başqa bir səbəbdən bir ildən sonra vərəm xəstəliyinə tutulur. Mahmud Ağa onu adlı həkimlərə, kurortlara göndərsə də, nəticəsi olmur, oğlan vəfat edir. Mahmud Ağanın yanına gələn tanışlarından biri deyir:

- Heyif o qədər pulu tökdün, bir xeyri də olmadı.

Mahmud Ağa deyir:

- Muğamat üçün milyonlar versəm, «uf» demərəm. Onda qala ki, muğamatı oxuyan gözəl səsli adam ola. Onun sağalmasına bütün mülkümü verərdim...



*Şamaxı. "İmamlı" məhəlləsində Kərbalayi Məhəmmədəli Əliyevin ermənilər tərəfindən yandırılmış mülkü. (Mahmud Ağaya məxsus olan malikanələrdən biri)*



Rus-Yapon müharibəsinin iştirakçısı şamaxılı Azad bəy Qocamanbəyovun evinin xarabalıqları (1918)



Samaxı. "İmamlı" məhəlləsi. Camo bəyin dağıdılmış mülkü (1918)



*Şamaxı. "İmamlı" məhəlləsi. İskəndərovların dağıdılmış mülkləri., ( 1918)*



*Şamaxı. Cümə məsçidi 1918-ci ildə ermənilər tərəfindən yandırılmışdır.*

## *MAHMUD AĞAYA MƏXSUS OLAN MALİKANƏLƏR*



*1918-ci ildə ermənilər tərəfindən dağıdılmışdır.*
*M\ərzəndiyə kənd məsçidinin xarabalıqları*



*1918-ci ildə ermənilər tərəfindən dağıdılmışdır.*
*Şamaxı. Çarhan kəndi, Səftər Heydər oğlunun dağıdılmış evi*

***

Əhməd Sultan və Mahmud Ağa XIX əsrdə Şamaxıda böyük bir muğam məktəbi yaratmağa, demək olar ki, Azərbaycanda ilk dəfə şəxsi varidatı hesabına **muğam müsabiqələri keçirməyə** müvəffəq olmuşlar.

Bu məktəbdə kamil sənətkar səviyyəsinə yüzlərlə istedad yüksəlmişdi; **xanəndə, aşıq, rəqqas, balabançı, tarzən, şair, nağaraçı** və b. Məktəbin əsas uğurlarının ən başlıcası təkcə Şamaxı üçün yox, bütün ölkə üzrə **muğam müsabiqəsi** keçirmək olmuşdur. O muğam müsabiqələrinə Azərbaycanda zamanına görə ən böyük ustad sənətkarlar qatılardı və o istedadlar bir-birilərini yaxından tanıdıqları kimi, bir-birinin ifalarını eşitmiş, məsləhətlər almış və məsləhət vermişlər. **Qırx ildən artıq bu muğam məktəbinin və məktəbdə keçirilən müsabiqələrin rəhbəri Mahmud Ağanın özü olmuşdur.**

Əslində bu təhsil ocağı adi məktəbdən daha çox bir universitetə bənzəyirdi. XIX əsrin əvvəllərində Rusiyanın ali təhsil sistemində böhran yaşanırdı. Müəllim çatışmırdı. İmperiyadan xaricə müəllim kimi təhsil almaq üçün cəmi 100 nəfər göndərilmişdi. Mahmud Ağanın universitetində isə zəmanəsinin ən güclü və dahi sənətkarları, söz xiridarları sənətin və şeirin sirlərini davamçılarına öyrədirdi.

Bu təhsil və elm məbədinin özünəməxsus kitabxanası var idi. Kitabxanada dövrünə məxsus əlyazmalar, risalələr, gündəliklər, bəyazlar, kitablar yerləşdirilmişdi. Məktəbdə o dövrün qədim musiqi alətləri də cəmlənmişdi. **1902-ci il zəlzələsi zamanı Mahmud Ağanın evi də dağıldı. Evdə olan qiymətli əşyalarla yanaşı, dəyəri heç nə ilə ölçülməyən həmin kitab və əlyazmalar** da məhv olmuşdu. Qalanlarını da erməni cəlladları 1918-ci ildə məhv etdi.

Yuxarıda qeyd etdiyimiz kimi, Mahmud Ağanın beş övladı olmuşdur. Bu övladların hamısı musiqiyə, poeziyaya bələd gənclər idilər. Ağılları söz kəsəndən evlərində ancaq musiqi dinləmiş, tanıdıqları və tanımadıqları məlahətli səs sahiblərinin

avazları, çalğılarına qulaq asmışlar. **Özləri də mənəviyyat sahibi kimi yetişmiş, böyümüşlər.** XIX əsrin 90-cı illərinə kimi Əhməd Ağa və Gövhər xanım nəvə-nəticələrin sevinci ilə ömür sürdülər, Mahmud Ağa da nəvələrinin...

**Haşiyə: Ə.Cəfərzadənin yazdığına görə,** Mahmud Ağanın oğlanlarından Cavad bəy həm şair imiş, həm də pəsdən səsi olmuş və həm də atası kimi gözəl tar çala bilirmiş. Özü də muğamların yol-yolacağını yaxşı bilmişdir. Cavan xanəndələr ondan muğamların sirrini öyrənmişlər. Bəzi yarışlara o da qatılardı. **Cavad bəy böyük şair S.Ə.Şirvaninin oğlu Seyid Cəfər, M.Ə.Sabir və Hadinin ən yaxın dostlarından idi.**

Mahmud Ağanın qızı Bəyim xanımın da məlahətli səsi vardı. Atasının ölümündə dediyi ağılarla o, bütün qadın məclisini kövrəldə bilmişdi.

Bu illərdə ailəyə ağır itki üz verdi. Ağanın anası Gövhər xanım soyuqdəymədən qəfil xəstələndi, heç iki ay keçməmiş dünyasını dəyişdi. Vəsiyyətinə əsasən, əqrəbalarının uyuduğu **Şamaxının «Laləzar» qəbiristanlığında dəfn** olundu.

**Əhməd Sultan ömür-gün yoldaşı, Mahmud Ağa isə ana** itkisinə görə yanıb-yaxılırdı. Ailənin ümman sevinci az bir vaxt içində əriyərək qeyb oldu. Dalğa dalınca dalğa gəlirmiş kimi dərd dərd üstünə qalaqlandı. Bu hadisə sən demə, ailənin faciəsinin birinci dalğası imiş. Bir il sonra, Mahmud Ağanın oğlu Ağa bəy azara tutuldu. Neçə yerdən həkimlər, təbiblər, türkəçarələr dəvət olundu. Çarə tapılmadı ki, tapılmadı. Nənəsindən il yarım sonra bir uşaq atası olan Ağa bəy də dünyasını dəyişdi. Ömrünün çoxunu musiqi məclislərində keçirən, kədəri, qəm-qüssəni o qədər də özünə yaxın qoymayan, ona boyun əyməyən Mahmud Ağanın qara günləri başladı.

Əhməd Sultan da yaşının yüzə yaxınlaşan çağında ömür-gün yoldaşının itkisinin yarası qaysaqlanarkən ona nəvə dərdi də yükləndi. Özünü bədbəxt insan sayan Əhməd Sultan hüzrə gələn adamları görəndə: **«Əcəl mənim qismətimiydi, Böyük Yaradan cavanlarımı apardı»,** - deyib ağlayardı.

Mahmud Ağa nə edəcəyini bilmirdi. Oğlu Ağa bəyi də **«Laləzar»da** - anasının yanında dəfn etdi.

Günlər, aylar ötdükcə Mahmud Ağa qismətilə barışmalı oldu. Cümə günləri əvvəl oğlu ilə anasının «Laləzar»dakı məzarını, sonra, «Şaxəndan»da uyuyan dostu - S.Ə.Şirvaninin məzarını ziyarət etməklə təsəlli tapırdı.

Ağa bəyin ölümü bütün ailəni, qohum-ərqəbanı başdan-başa sarsıtdı. Bu ağır itki şamaxılıların çoxunu, Mahmud Ağanın Qarabağ, Tiflis, Bakı, Naxçıvan, Gəncə, hətta İrandakı sənətkar dostları və tanışlarını da çox məyus etmişdi. Xatirələrdən bəlli olur ki, Mahmud Ağanın evi bir ildən çox gəlimli-gedimli olur, ona hərə bir yolla təsəlli verməyə çalışırdı. Nəhayət, Ağa bəyin ili verildi. Qonaqlı-qaralı, çal-çağırlı saray sükuta qərq olaraq ildən sonra da lal qaldı. Buna baxmayaq məclis üzvlərinin **- Seyid Cəfər, Mirzə Məhəmməd Həsən, Topal Nəcəfqulu, Məbud, Camo bəy** və başqalarının ayaqları bu evdən kəsilmədi. Onlar öz söhbətləri, söylədikləri əhvalatlarla Mahmud Ağanı ovundurmağa, fikrini dağıtmağa çalışırdılar...



*Buzovna qəsəbəsi. Qəsəbə sakini Hacı Muxtar və f.e.d. Hacı Seyfəddin Seyid Cəfərin  məzarını ziyarət edirlər.*

Artıq oğlunun ölümünün ikinci ili də arxada qaldı. Nəhayət, Mahmud Ağanın nəvə, Əhməd Sultanın isə nəticə toyları da başladı. Dost-tanışlar həmin məclislərə cəm oldular. Heç kəs Mahmud Ağaya cürət edib, - «Gəl məclisini yenidən quraq, Ağa», - deyə bilmirdi.

***

Bir gün Şamaxı ziyalıları bir yerdə toplaşdılar. Seyidin yadigarı **Seyid Cəfəri** də Bakıdan dəvət etdilər. Xeyli söhbət edib danışdıqdan sonra qərarlaşırlar ki, Mahmud Ağadan məclisini bərpa etməyi, yenidən qurmağı xahiş etsinlər.



*S. Ə. Şirvaninin oğlu Mir Cəfər Ağa*

Axırda Mahmud Ağaya musiqi məclisini yenidən qurulmasını təklif etməyi **Seyid Cəfərin boynuna qoydular. Səhəri gün Seyid Cəfər Mahmud** Ağanın sarayına getdi. Əvvəl Əhməd Sultanla danışdı və onu razı sala bildi ki, musiqi məclisinin yenidən başlamasına icazə versin. Sonra Əhməd Sultan oğlu Mahmud Ağanı otağına dəvət etdi. Ən nəhayət, Mahmud Ağa atası və Cəfər Ağanın təklifini qəbul etdi və dedi: - Musiqi də elə mənimlə qardaşdı, övladımdı. Düzü, oğlum Ağa bəyin ölümündən sonra onlardan ayrı düşmüşəm. Övladımın qismətini Allah-Taala yazıb, qisməti beləymiş. Musiqi-Muğamı, mən dəfn edə bilmərəm Şamaxıda. Sabahdan tapşıracam nəvələrimin hər ikisi tar dərslərinə də başlasınlar və məclisə oğlum Cavad bəy rəhbərlik etsin. Muğamlarımızı yaxşı bilir. Nəcəf bəydən dərs alıb, səsi də pis deyil, özü də mənim kimi yaxşı tar çalır. Seyid Cəfər, sən də Şamaxını ertə tərk edib getdin Bakıya. Yoxsa deyərdim ki, cavan şairlər atanın, «Beytüs-Səfa»sını yenidən qursunlar. Gərək çalışıb quraq da. Əks tədqirdə, Seyid Əzimin ruhu bizdən inciyər ki, onun məclisi yenidən canlanmadı...

Beləliklə, bir həftə sonra Mahmud Ağanın məclisi öz işinə başladı. Amma əvvəlki hüsnlə, təmtəraqla deyil, bir qədər sönük. Mahmud Ağa da əsasən, Qarabağ, Bakı və Tiflisdən qonaqları gələndə məclisdə iştirak edərdi. Qalan vaxtlarda oğlu Cavad bəy və dostu Mirzə Məhəmməd Həsən rəhbərlik edərdi

məclisə.

Şamaxıda əlli ildən artıq Əhməd Sultan və Mahmud Ağanın maddi vəsaiti, rəhbərliyi ilə fəaliyyət göstərən bu məclis yenidən coşdu, öz adət-ənənəsi, səsi, sorağı ilə bütün Qafqaza səs saldı. Bu illər ərzində Ağanın muğam məktəbi yüzlərlə sənətkar yetirdi. Hər biri də ustad məqamına çata bildi, məşhurlaşdı, sevildi, nəhayət, Şamaxı muğam mühitinin səsi-sədası yenidən aləmi başına götürdü.

***

Ağa bəyin ölümündən sonra xanımlar xanımı, yetim-yesirin pənahı, qəriblərin dayağı Gövhər xanım solub saralmağa başladı, əridi. Üz-gözündən oğul nisgili, itkisi sezilməsə də, sən demə o, ürəyində çəkirmiş bu ağır dərdi. Heç çox da xəstə yatmadı. Yazın güllü-çiçəkli vaxtında dünyaya əlvida dedi. Qırx ildən artıq bir yastığa baş qoyduğu, cani-dildən sevib əzizlədiyi, gözəlliyinin tayı-bərabəri olmayan Gövhərini itirdi Mahmud Ağa. Deyilənlərə görə, Mahmud Ağanın öz baş yoldaşına olan məhəbbət və sevgisinin qədəri-qəsəmi bilinməz olmuşdur. Odur ki, belə bir var-dövlət, sərvət sahibi Mahmud Ağa **Şamaxının başqa zənginlərindən fərqli olaraq tək bircə dəfə evlənmişdi.** Onun sarayında ögey uşaqlar, günülər olmamışdır...

Düz qırx gün Şamaxının bütün qadınları - zənginlərin xanımları, eləcə də yoxsulların qadınları Gövhər xanımın evinə toplandılar. “Quran” oxuyan kim, mərsiyə deyib ağlayan kim... Kişilər də eləcə ... Mahmud Ağa bu itkidən deyəsən, çaşıb-qalmışdı. İnana bilmirdi xanımının ölümünə. Yasa Ağanın Bakıda, Qarabağda olan dost-tanışları ailələri ilə gəlmişdilər. Yenə Bakıdan gələnlər arasında S.Ə.Şirvaninin **oğlu Seyid Cəfər, qızları - Seyid Həcər və Seyid Fatimə** də vardı. Seyid Cəfər kişilər məclisinin ağsaqqalı, Seyid Həcər və Seyid Fatimə isə qadın məclisinin ağbirçəyi idilər. Mərsiyə deyirdilər

atalarının yazdıqları və şamaxılı mərsiyə aşıqlarının sözlərindən. Əvvəl kiçik bacı Seyid Fatimə yanıqlı səslə başladı:

Bir çarə qıl, ey əmma, mən ölsəm kəfən olmaz,
Tabutu cənazəmi götürüb dəfn edən olmaz.

***

Qəslimə mən ölsəm əgər kim xəbər eylər?
«Quran» kim oxur, bir üstə kim güzar eylər?
Axır ki, yetiməm, mənə bu çox əsər eylər,
Qardaşım ölub, başımın üstün kəsən olmaz.



*Seyid Cəfərin ailəsi (Ağa ortada, solda qızı Həcər, sağda yoldaşı Seyid Bikəxanım).*

Ara kəsilən kimi daha hüznlü səslə böyük bacı Seyid Həcər bacısının səsinə səs verirdi:

Ağla bu matəmdə, ey Seyidi, bəxti qara,
Nəzm elə bu matəmi, şövq ilə sübhü məsa,

Əcrini axır verir- padşahı-Kərbəla,
Həşrdə fəryadını safıyi-üsyan gəlir.

Seyid adını eşidən məclis qadınları daha da fəryad qopardılar...

***



*Şamaxı. "Laləzar" qəbristanlığı, Mahmud Ağanın (soldan üçüncü) və doğmalarının məzarları.*

**Haşiyə:** Şamaxı ətrafında günümüzə **beş müsəlman** qəbiristanlığı gəlib çatıb. Təbii ki, əsrlərdən bəri Şamaxıda baş vermiş 15-20 dağıdıcı zəlzələlərdə dağılan, yerlə-yeksan olan məzarıstanlıq da olmuşdur. Məlum olan beş qəbiristanlığın ikisi Şamaxının şərqində - günçıxan tərəfində - üçü isə Şamaxının cənubunda yerləşir. Qədim şəhərin cənubundakı, **«Şah Xəndan» və «Yeddi günbəz»** qəbiristanlıqları ta **XII-XVIII** əsrlərdən bu günə kimi minlərlə insanı, eləcə də mömini, din xadimini, şəhidi, sənətkarı, cahangiri, oğrunu, alimi, nadanı,

halalı, haramı da ağuşuna almış, digəri isə - özünə qəsd edənlərin, Allah-Taalanın qədərindən qaçan insanların uyuduğu məzarlıqdır. Sovet dönəmində həmin məzarlığın böyük hissəsi dağıldı. Yerində Yağ-pendir zavodu tikildi. Qalan hissəsi də getgedə yox oldu.

Şamaxının şərqində isə əsasən iki qəbiristanlıq yerləşir: **«Qəriblər»** və **«Laləzar».**

Şamaxı uzun əsrlər ticarət mərkəzi olmuş, keçmiş **«İpək yolu»**nun üstündə yerləşmişdir. Qərib diyardan gələnlər, bu məkanda rəhmətə gedəndə, savaşda, qırğınlarda, yurdu bilinməyənlər, bivarislər öləndə həmin qəbiristanlıqda torpağa tapşırılmışdır. Zaman ötdükcə məlum insanlar da həmin məzarlıqda dəfn olunmuşlar. Qəbiristanlıq **«Qəriblər»** adı ilə bu gün də durur.

O biri qəbiristanlıq **«Laləzar»** adlanır. Deyilənlərə, eləcə də görkəmli alim S.Mümtazın yazdığına görə, bu ərazi yaz aylarında qızılı laləyə bürünürmüş. El arasında həmin yer laləlik adlandırılmışdır. **Bura yaz aylarında sanki lalələrin dalğalanan al dənizinə bənzəyərmiş.** Bu ərazi qəbiristanlığa dönəndə «Laləzar» adlandırmışlar...

Mahmud Ağanın İmamlı məhəlləsində olan sarayının birinin yeri məlumdur. Rəhmətə gedəndə belə qərarlaşır ki, onu «Laləzar»da dəfn eləsin. Ona görə ki, sarayının külafirəngindən anasının dəfn olduğu məkan aydınca görünür. Lap ovuc içi kimi. Sonra cavan oğlu nənəsinə “qonşu” köçür. Daha sonra yoldaşı...

**Haşiyə:** «Laləzar» qəbiristanlığının yuxarı başında altı məzar cərgələnib. Bu məzarların dördünün üzərində kitabə vardır.Sanduqələrin üçünün üzərində olan yazılar oxunur. Dördüncünün üstündəki kitabə pozulmaq üzrədir. Cərgənin cənubundakı məzarın ikisinin yazısı oxunmur. Şimaldan hesablayanda dördüncü məzar (o birinə nisbətən balaca) Mahmud Ağanın rəhmətə getdiyi vaxt hicri tarixi ilə göstərilib - 1317-ci il (miladi tarixlə **1901);** sonra atası Əhməd Sultan da burada hicri

tarixi ilə 1318-ci ildə dəfn edilib (miladi tarixlə **1902**); **arvadı Qəmər xanım isə hicri tarixi** ilə 1314-cü ildə torpağa tapşırılıb (miladi tarixlə 1898); **oğlu Ağa bəyin məzarı** üzərində 1314-cü il yazılıb (miladi tarixlə 1896). Düzdür, mənbələrdə Mahmud Ağanın vəfat etdiyi tarix 1896-cı il kimi göstərilmişdir. Yəqin ki, ilk dəfə bu tarixi qeyd edənlər məzarı heç görməmiş, ya da ki, kitabəni oxuya bilməmişdir. Kitabələr isə tutarlı fakt-dır.(S.Q)

Mahmud Ağa və doğmaları qəbiristanlığın ən hündür yerində dəfn olunub. Hansı ki, Ağanın sarayının eyvanından baxanda qəbirlər aydınca görünürdü. Sonra da atası **Əhməd Sultanın**, anası Qəmər xanımın, oğlu Ağa bəy və ömür-gün yoldaşı Gövhər xanımın və nəticəsi Qəmər xanımın məzarları durublar cərgə ilə...

***

Az vaxt içində bu ağır itkidən Mahmud Ağa çox dəyişdi. Əvvəlki görkəm, yeriş-duruş, baxışından əsər-əlamət qalmadı. Xəstəlik onun yaxasını bərk tutmuşdu. Gecələr yaxşı yatmırdı. Bəzən yuxudan hövlənk ayılırdı. Dərdi başından aşsa da onu düşündürən başqa bir dərd də vardı. Doxsan yaşı yola salmış atası - Əhməd Sultan, var-dövlət içində üzən, yoxsulların pənahı, dövlət idarələrində, şəhərin zənginləri arasında sayılıb-seçilən Əhməd Ağa. Bir gün Mahmud Ağa oğlanlarının hər ikisini və qızı Bəyim xanımı otağına çağırdı. Bir qədər susub, sonra aramla dilləndi:

- Allah-Taalanın hamı üçün qoyduğu bir qanun var: bir gün yaranan, bir gün də getməlidir. Ürəyimə damıb. Deyəsən, atamdan əvvəl öləcəm. Bu illər ərzində yaxşı yaşamışam, xeyirxahlıqla məşğul olmuşam. Bir yanı Qarabağ, Dərbənd, o biri yanı İranda, hətta Ərəseydə də məni tanıyırlar.Yaşadığım illər ərzində Şamaxını, onun insanlarını lap çox sevmişəm. Dünyada məşhur olan bu diyara xidmət etməyi şərəf işi hesab etmişəm.

Onun istedadlı övladlarına məktəb açdırmışam. Məscid, dövlət idarələri, məktəblər, hamam, karvansara, dəyirman tikilməsinə, körpülər, yollar salınması, bulaqlar çəkilməsi, bağ-bağatların əkilməsinə pullar xərcləmişəm. Bunları kimsə məndən sonra görə bilər və biləcək də. Amma sizə bir neçə şeyi qorumağı, ənənələrimizi yaşatmağı məsləhət bilirəm, vəsiyyət edirəm.

**Birincisi,** Şamaxı torpağını sevməyi, qoca-pirani atamın qeydinə qalmağı; onu da anamın, Gövhərimin, ciyərparam Ağa bəyin və mənim yanımda dəfn edərsiniz.

**İkincisi,** sizə qoyub-getdiyim var-dövlətdən Şamaxıda muğamın yaşamasına, nəvələrimin təhsil almasına halallıqla xərcləyin.

**Üçüncüsü,** babalarımızın, nənələrimizin yolu ilə gedin, xeyirxahlığınızı yaşadın. Amma sağ əlin verdiyini, sol əl bilməsin ha...

Sən demə, bu zaman Mahmud Ağanın son nəfəsi imiş. Sözü ağzından qurtarar-qurtarmaz nəfəsi kəsildi... Oğlanları - **Əhməd bəy, Cavad bəy**, qızı Bəyim xanımın «atam vay» harayı pozdu sükutu. Bir anda saraydakılar bir-birinə dəydi. Bütün Şamaxıya, dövlət idarələrinə səs düşdü.

Mahmud Ağa dünyasını dəyişəndə qışın oğlan çağı idi. Özü də üç gün idi ki, dayanmadan qar yağırdı. İnsanlar qarın qalınlığından doqqazlarının qapısını belə aça bilmirdilər. Buna baxmayaraq, həm dövlət adamları, həm də ziyalıların məsləhəti, səyi ilə Mahmud Ağa sarayından Cümə məscidinə, eləcə də oradan «Laləzar» qəbiristanlığına kimi yol qardan təmizləndi. Bundan sonra Şamaxının Axundu Seyid Əli Ağa başda olmaqla dövlət məmurları, ziyalılar, sadə insanlar da xeyriyyəçinin cənazəsini qəbiristanlığa kimi çiyinlərində apardılar. Camo bəyin xatirələrindən aydın olur ki, dəfndə iştirak edən izdihamın əvvəli qəbiristanlığa çatanda, sonu hələ Mahmud Ağanın evindən çıxmamışdı. Bu dəfn mərasimində bütün Şamaxı iştirak edirdi. Qəbiristanlıqda böyük mitinq oldu. **Seyidəli Ağa, Seyid Cəfər, Mirzə Ələkbər, Abbas Səhhət, Mahmud**

**bəy, S.M.Qənizadə, Mirzə Məhəmməd Həsən, Ağali bəy Naseh, Məhəmməd Tağı, Məhəmməd Hadi**, bəy-bəyzadələr, kasıblar və başqaları... Havanın soyuq olmasına baxmayaraq, mitinq uzun çəkdi. Şəhər komendantının göstərişi ilə qəbiristanlığa gedən yolun hər gün qardan-palçıqdan təmizlənilməsinə fikir verildi. 40 gün şəhərdə ehsan paylandı. Havaların sərt, yolların çətin olmasına baxmayaraq, uzaq yerlərdən də hər gün eşidib bilənlərdən yasa gələnlər çox idi.

Mahmud Ağanın tədqiqatçılarından olan musiqişünas alim F.Şuşinskinin Mahmud Ağa ilə bağlı belə bir məşhur kəlamı var: «O dövrdə Qafqazda elə bir məşhur xanəndə, tarzən olmamışdır ki, Mahmud Ağanın məclisində iştirak etməmiş olsun». Bu ifadəni böyük xeyriyyəçinin ölümü ilə bağlı da təkrarlamaq olar: «Qafqazda elə bir məşhur xanəndə, təkcə xanəndə deyil, musiqiçi-aşıq, şair, ziyalı olmadı ki, Mahmud Ağanın hüzüründə iştirak etməmiş olsun...»

***

Mahmud Ağa haqqında ilk dəfə dünya şöhrətli fransız yazıçısı **A.Düma**, şair **S.Ə.Şirvani**, daha sonra məşhur xanəndə **C.Qaryağdıoğlu** bəhs etmişdir... Sovet dönəmində bir çox musiqişünaslar da xatirələr söyləmiş, bundan başqa Azərbaycanın görkəmli mütəxəssisləri də bu nəcib xeyriyyəçi haqqında ürək sözlərini demişlər. Akademik **F.Qasımzadə «XIX əsr Azərbaycan ədəbiyyatı» kitabında, yazıçı Ə.Cəfərzadə «Aləmdə səsim var mənim»** romanında Mahmud Ağa məclisi, qonaqları, dostları barədə mükəmməl məlumatları bədii və şirin dillə - Şamaxı dialektində oxuculara çatdırmışdır. Görkəmli musiqişünas **F.Şuşinski** Mahmud Ağa haqqında ciddi tədqiqatlar aparmış, **«Azərbaycan xalq musiqiçiləri»** əsərində mənbələrə söykənərək onun barəsində ilk dəfə daha geniş söz demişdir. Bununla yanaşı, başqa alimlər - prof. **R.Hüseynov, f.e.d. Ə. Cəfərzadə, prof. Q.Paşayev, prof. A.Bayramoğlu, prof. A. Nuruyev,**

**musiqişünas V.Məmmədov, eləcə də Şamaxı ziyalılarından İ.Etibar, A.Nafiz, A.Rəcəbov, S.Quliyev və b.** Mahmud Ağa məclisi barədə müxtəlif səpkili məqalələr yazmış, xatirələr dərc etdirmişlər.

Ən nəhayət, bizdə uzun illər ərzində öyrəndiklərimiz, topladıqlarımız və araşdırmalarımızı bir kitabda cəmləşdirdik. Bu kitab həm də Şamaxı musiqi mühiti ilə yanaşı XIX əsr muğam mühitinin salnaməsini əhatə edir.

***

Mahmud Ağa ilə bağlı ən böyük tədbir - **«Muğamla yoğrulmuş ömür - Mahmud Ağa ədəbi musiqili-xeyriyyə gecəsi»** 19 dekabr 1989-cu il tarixində rayon partiya komitəsi, rayon XDS İcraiyyə Komitəsinin köməyi ilə **Bakıda - M.Əzizbəyov adına Akademik Dövlət Dram Teatrında** keçirilmişdir. Həmin tədbirin təşkili və keçirilməsində şair İ.Etibarın xidmətləri əvəzsiz olmuşdur. Tədbirin ssenari müəllifı də şairin özü idi. Ədəbi-musiqili gecəyə gözəl ziyalı **Əbdül Mahmudov** rejissorluq etmişdir...

Tədbirin proqramına diqqət edəndə görürsən ki, respublikamızın elm, sənət adamları həmin gecənin bəzəyi olmuşlar; **prof. Ə.Cəfərzadə, prof. Ə.Cəfər, f.e.d. Əhməd Cəfərzadə, f.e.n. R.Hüseynov, f.e.n. V.Məmmədov, musiqişünas F. Şuşinski, xalq artisti, bəstəkar R.Mustafayev, əməkdar incəsənət xadimi, rəssam Nəcəfqulu (ilk dəfə Mahmud Ağanın şəklini doğmalarının** şəkillərindəki cizgilər əsasında yağlı boya ilə o, işləmişdir.); **şairlərdən F.Sadıq, O.Şamil, Z.Sarıtorpaq; xanəndələrdən -** xalq artisti A.Qasımov, M.Əyyubova, Q.Quliyeva, Ə.Xankişiyev; **balabançılardan** A.Seyidov. R.Ələskərov; şamaxılı **mügənnilərdən** A.Nazif, Ə.İsrafilov, A.Novruzov, S. Feyzullayev; **aşıqlardan -** M.Ələsgəroğlu, Aşıq Abbas, M.Baratoğlu və başqalarının

bənzərsiz çıxışları məclisə xüsusi dad qatmışdır. Maraqlı gecəni əməkdar artist Bəsdi Cəfərova və Əli Nurzadə aparmışlar.

**Mahmud Ağa** adına bağlanan mötəbər məclis tamaşaçıların sonsuz marağına səbəb olmuşdur. Tədbirin təşkilində rayon mədəniyyət şöbəsinin **cəfakeş əməkdaşı** R.Tağızadənin də böyük zəhməti olmuşdur. Bu barədə onun respublikanın qəzet və jurnallarında müxtəlif səpkili məlumat və yazıları dərc olunmuşdur...

Həmin vaxtdan 25 ildən artıq bir müddət keçmişdir. Əfsus ki, bu illər ərzində böyük xeyriyyəçi, söz sərrafı, əruz bilicisi, Şamaxı və şamaxılıları canından əziz tutan poeziya və muğam məktəbinin inkişafına təmənnasız xidmət edən, suyu, çörəyi, hətta havası da muğam olan Mahmud Ağa barəsində bəhs edilməmiş, danışılmamışdı.

Zənnimcə, bundan sonra - böyük zəhmətlər bahasına ərsəyə gətirdiyimiz bu kitab oxuculara ətraflı məlumat çatdıracaq, əməli, əqidəsi, tutduğu yol və şəxsiyyəti bir-birini başa-baş tamamlayan Mahmud Ağa Əhməd Sultan oğlu Şirvani haqqında dəyərli bir mənbə kimi yad ediləcək, xatırlanacaq və qorunacaq.

Biz ilk dəfə Mahmud Ağa haqqında xeyli məlumat toplaya bildik, onun qəzəllərindən nümunələri əldə etdik, muğam məclisi və məclis üzvləri barədə bilgiləri cəmlədik və nəsil şəcərəsini müəyyənləşdirməyə nail olduq. Oğul, qız, nəvə, nəticə, kötücələrini ardıcıllıqla təyin edərək bir fəsli də oxuculara təqdim etdik.

## Mahmud Ağanın əqidə dostları



I Rus – Dumasının üzvü
Məmmədtağı Əlizadə



Məlikov Rza bəy



Camo bəy Cəbrayılbəyli



S.M.Qənizadə

# *III FƏSİL*

# KAMİLLİYİN ÇALARLARI

Bu fəsildə Mahmud Ağanın şeir və lətifələrindən toplaya bildiyimiz yarpaqları təqdim etməyi vacib sayırıq. Kamillik elə bir anlayışdır ki, ona can atmaq istəyən insan üçün intəhasız olur. Ona görə də kamilliyin zirvəsi tükənməzdir, deyən dahilər haqlıdır. Mahmud Ağanın qoyub getdiyi poeziya nümunələri də onun təbiətinin zənginliyindən, fəaliyyətinin müxtəlif istiqamətlərdə uğurla şaxələnməsindən və həmçinin poetik təfəkkür sahibi olmasından xəbər verir. Mahmud Ağanın lətifələri də fərqlidir. O lətifələrində mərhəmətini, onu tanımayıb haqqında layiq olmadığını deyənləri nəcibliklə bağışlaya bildiyini göstərir. Eyni zamanda həm lətifələrdə hazırcavablıq, müdriklik, nikbin əhval-ruhiyyə və güclü yumor hissi də sezilir bu lətifələrdə. **Elm, poeziya, maarifçilik, muğam Mahmud Ağa kimi kamil insanın biliklərinin müxtəlif çalarlarıdır.** Ona görə də onun poetik aləminə də **"səyahət"** etməmək mümkün deyil.

## Mahmud Ağanın şeirlərindən nümunələr

Eşqin muğu-düsəri ən qatı zənciri kəsər,
Bu halım zərrə qədər ədulara etməz əsər.

Nəzmidə naşıların üzün görməsin gözüm,
Dəyərin tapar ancaq ol zərgərin əlində zər.

Arif can sərf eləməz hər yetən bihudilərə,
Səyyad seyri gülzara ahusun bular sərasər.

Bihuşam müşkü dildən san məğrubu Minadayam,
Edibdir bu canıma "Şür", nəvası zövqü əsər.

Mahmuda, sovqat gəlib ol sürahi dilü süxənim,
Onçu halaldır deyəm, yolunda fədadı bu sər.

***

Ey xüdaya, nə sirrdir düşmüşəm bu ümmanə mən,
Zəmanə mənə mərhəmdir, öylacə də zəmanə mən.

Əndəliblər yurdu Şirvan avazilə zövqümdədir,
Hansı sirri-qüdrət ilə vuruldum tarü kamanə mən.

Seyidin nur çeşməsinə, Mirzə Məhəmməd əsəri,
Alıb sərimdən huşumu, döndüm Davudu-zarə mən.

Fəcalləyi eşqi zarəm, bəxtimdən yoxdur gileyim,
Xeyirxahlıqdır əməlim çıxmaram heç kənarə mən.

Seyyidi zar olan yerdə, müydan sürmə, Mahmud Ağa,
Bəsimdir sədayi «Şur»la bal qatıram röyayə mən.

***

Niqabın görüb yarın, dedim, yəqin gün tutulub,
Ol cənnəti rizvanın, camalı gülgün tutulub.

Kipriklərin hər tiği söykənib kaman qaşına,
Elə bil viran edib, bu könül mülkün tutulub.

Titrədi cismi canım, oldu tamam sədparə,
Dedim; məşhərdi məyər, yox qeyri mümkün tutulub.

Bir şirin lisan ilə, aldım onun qadasını,
Sən demə, aşiqinə ərk-naz üçün tutulub.

Az qaldı şəkki məni, Məcnunu girifdar edə,
Dedim; ey Mahmud Ağa, necəsən, dilün tutulub?

***

Nə qədər ki, musiqi var, sədasından usanmaram,
Sözün ruha məlhəm verən qidasından usanmaram.

Məzarımın üstündə də, nalə çəksin «Çargah»,
«Rastü», «Şurun» ərşə bülənd, nəvasından usanmaram.

Çağır gəlsin rəqqasələr, səda salsın avazı ney,
Ol can alan cananələrin, ziyasından usanmaram.

Hansı yerdən qonaq gələ, gözüm üstə yerləri var,
Canü-dillə qulluğunda, qayğımdan usanmaram.

Mahmud Ağa, dövran dönər, məramımı el yad edər,
Ellər mənə rəhmət oxur, duvasından usanmaram.

***

Keçməsin sənsiz hədər dilbərim, təkcə bir anım,
Sust olur cismi-canım, kəsilir tabı-təvanım.

Gəl-gəl tükəndi səbrim, zay oluban getdi bada,
Gəl, ey çeşmi xumarım, süsənim, ruhu rəvanım.

...Həsrətin çəkmək ilə, döndüm səhrada Məcnuna,
Düşdü kabab tək yandı, odlarda kül oldu canım.

Lütvü qıl, rəhm elə sən, biçarə Mahmud Ağaya,
Dur gəl qurbanım olum, vəslinlə bitsin hicranım.

**Mahmud Ağanın lətifələrindən nümunələr**

... Novruz adlı bir şəxs Muğanda xanəndəlik edirmiş. Bir gün o, Şamaxıya Mahmud Ağanın məclisinə dəvət olunur. Bir həftə ərzində o, 2-3 muğam oxuyur.

Həftə tamamında Mahmud Ağa ona bir at bağışlayıb yola salır. Novruz ata minib düşür yola və bir qədər gedəndən sonra görür ki, at axsayır. Geri dönüb deyir:

- Ağa, axı at axsayır. Mahmud Ağa cavab verir:

- A bala, elə sən də muğamatda axsayırsan. Taylı-tayını tapar.

***

...Qışın oğlan çağı hava qaralan zaman möhkəm çovğun imiş. Mahmud Ağa həyətə enir və görür ki, bir nəfər eşşəkli kişi haraylayır:

- Ay Mahmud kişi, ay evin sahibi!

Mahmud Ağa başa düşür ki, bu yad yerin adamıdır, çünki heç kim onu bu cür çağırmaz. Qapıya çıxıb soruşur:

- Qardaş, kimi istəyirsən?

Kişi soyuqdan əsə-əsə deyir:

- Mahmud kişini, bu evin sahibini.

- Neynirsən onu?

- Qalmağa yerim yoxdu. Dedilər, get onun evində qal.

Mahmud Ağa soruşur:

- Əşşi, heç onu tanıyırsan?

- Yox!

- Bilirsən kimdir?

Kişi güclə dişini-dişinə qoyub deyir:

- Ədə, mən nə bilim nə köpəy oğludur, soyuqdan donuram. Kişidir, çıxsın çölə, mənim özümə, ulağıma yer göstərsin.

Mahmud Ağa kəndlinin bu səmimi sözlərinə ürəkdən qəh-qəhə çəkib gülür və onu qonaq saxlayır.

***

Şamaxı bazarında Cəfərqulu adlı bir kişi var imiş. Lotular ona pul verib onu-bunu söydürər, məzələnərmişlər. Günün birində Mahmud Ağa bazara çıxıb Cəfərqulunu görüb yanına çağırır. Kişi Mahmud Ağanı tanımırmış. Mahmud Ağa ona deyir:

- Mahmud Ağanın atasını 3 dəfə söy, sənə bir üçlük verəcəyəm.

Kişi qorxsa da pul onu tamahlandırır, bir dəfə astadan söyür.

Mahmud Ağa deyir:

-Yox, bu ko deyil[2], gərək bərkdən söyəsən. Kim sənə söz deyə bilər? Söy, başuva dönüm!

Kişi cəsarətlənib 3 dəfə də Mahmud Ağanın atasını söyür və pulu istəyir.

Mahmud Ağa deyir:

- Hələ bir 3 dəfə də Cəfərqulunun atasını söy, sonra pulunu verim.

- Hansı Cəfərqulunun?

- Belə özciyəzüvün! Mənim dədəmi söydüyün kimi gərək özüvünkünü də söyəsən.

Cəfərqulu kişi Mahmud Ağanı tanıyıb üzr istəyir.

***

Mahmud Ağanı bir qohumu Salyana toya çağırır.

---

[2] «Ko deyil» - Şamaxı dialektində bu ifadə - sayılmır mənasında işlənir.

Gəlini qonşu kənddən gətirəcəklərmiş. Mahmud Ağa da gəlin gətirənlərlə gedir. Ev sahibi onu tanıyıb hörmətlə qarşılayır və sonra öz oğlanlarını bir-bir ona təqdim edir:

- Ağaəli, Ağahəsən, Ağahüseyn, Ağaməhəmməd, Ağabağır, Ağarza, Ağasadıq, Ağanəbi, Ağasəlim...

Mahmud Ağa tez yerindən durub deyir:

- Balam, bu qədər ağanın yanında mənə oturmaq düz deyil.

Ev sahibi də zarafatcıl imiş, deyir:

- Mahmud Ağa, qurbanın olum, hələ Ağaqulu, Ağaverdi və Ağamehdi də gəlsin görüşsün...

Mahmud Ağa deyir:

- Qardaş, bir evdə ki, 12 ağa ola, o evdə mənə ağalıq çatmaz, durum çıxım həyətə...

***

Mahmud Ağa musiqi ilə yatıb-durarmış, özü də bərk yatan imiş. Bir dəfə xahiş edir ki, mən yatanda əvvəlcə «Şüştər», sonra da «Zəng şotor» çalarsız.

Sazəndələr çalmağa başlayır və sonra hiss edirlər ki, Mahmud Ağa yatıb və «Şüştər»dən «Şura», «Mahura» keçirlər. Mahmud Ağa yuxudan hövlənk ayılıb deyir:

-Adə, ay zalım uşağı, yatmışam ey, ölməmişəm axı. «Zəng şotor» çətindi deyə hər yerə əl atırsız, fikriniz nədir? Siz öləsüz, öləm, tabuta qoyulam, yenə razı olmaram ki, muğamata xələl qatasız. Evimi dağıdın,

muğamatı yox...

***

Mahmud Ağaya xəbər verirlər ki, Kolanı elatında Məşədi Mustafanın evində musiqi və şeir məclisi təşkil edilib, bir el şairi orada iştirak edir. Mahmud Ağa buna inanmasa da, Küdrüyə - Mustafanın evinə adam göndərir və xahiş edir ki, məclis əhlinin hamısı çərşənbə günü ona qonaq gəlsin.

Çərşənbə günü qonaqlar gəlir: bunlar Məşədi Mustafa, Çürük İslam, Padar Surxay, Orucəli Gorani, Qasım və Baba idi. Mahmud Ağa, qonaqların əsl köçəri-tərəkəmə geyimində, əsasən 50-60 yaşlı qocalar olduğunu görüb təəccüblənsə də, özünü o yerə qoymur, onları məclisə dəvət edir.

Bunlar əldəqayırma saz, balaban, qoşa nağara və qaval ilə bir şənlik yaradır, gözəl satirik şeirlər deyirlər ki, hamı heyran qalır. Mahmud Ağa deyir:

- Sən öləsən, papaq altında oğullar var imiş. Mərhəba belə xalqa, qurban olum belə torpağa ki, bu cür oğullar yetirir...

***

Belə deyirlər ki, Mahmud Ağa yas yerlərinə az gedərmiş.

Bir tərəkəmə obasında adam ölür. Meyit namazına durmaq üçün cəmi dörd adam olur. Molla

deyir ki, görün bir adam da tapa bilirsinizmi ki, beş nəfər olsun.

Çobanın birisi el yoluna çıxıb görür ki, bir nəfər atlı gedir. Bu da Mahmud Ağa imiş. Çoban onu tanımır və xahiş edir ki, hüzr düşüb, gedək bizimlə meyit namazına dur.

Mahmud Ağa imtina edirsə də, olmur. Axırda çoban onun atının yüyənindən yapışıb obaya tərəf çəkərək deyir:

- Rəhmətliyin oğlu, sən də mənə Mahmud Ağa deyilsən ki, ölü yerinə getməyəsən.

***

Təbrizdən gəlmiş Məşədi Abbas adlı bir xanəndə bir axşam Mahmud Ağanın məclisində çox gözəl səslə «Bayatı-Qacar» muğamını fars dilində oxuyur. Adətən, qonaq sənətkarlara elə məclisdəcə hədiyyə verən Mahmud Ağa hərəkətə gəlmir.

Məşədi Abbas pərt soruşur:

- Məgər Ağanın xoşuna gəlmədi ki, lütf edib bircə kəlmə xoş söz də demir?

Mahmud Ağa deyir:

- Ay zalım oğlu, belə gözəl səslə, rəvadırmı ki, özün Şirvanda farsca qəzəl oxuyasan? Öz dilimizdə oxusaydın, mən verəsiydim, farsca oxudun, get haqqını onlardan al.

***

Mahmud Ağa həmişə saqqalını və saçını xüsusi bərbərə təraş elətdirərdi. Bir gün də o, bu məqsədlə bərbərxanaya gəlir və görür ki, bərbəri işə çıxmayıb. Qonşu bərbər Ağaya hörmət əlaməti olaraq onu öz stoluna dəvət edir. Mahmud Ağa bilir ki, bu bərbər yaman çox danışandı. Odur ki, qabaqca ona on qat haqq verib deyir: «Usta, səndən xahiş edirəm ki, mənim saqqalımı təraş edincə danışma». Bərbər Ağanın xahişinə əməl edir. Lakin işini qurtarınca bir təhər dözən bərbər hikkəsindən partlayır: «Ağa, xahiş edirəm ki, saqqalını bir də mənə təraş elətdirmə!».

**Bu rəvayəti başqa cür də deyirlər.** Bir gün də saçını təraş etdirməyə gələn Mahmud Ağa görür ki, bərbəri işə gəlməyib. Bu vaxt qonşu bərbər deyir: «Ağa, buyur, qulluq edim».

Həmişə şux danışmağı sevən Mahmud Ağa ərklə:

- Usta, neçə verəcəyəm? –deyə soruşur.

Usta arif adam imiş. Dərhal deyir:

- Baxır başın qiymətinə.

Ustanın hazırcavablığı Ağaya xoş gəlir. Odur ki, ona əvvəlcədən on qat artıq haqq verir. İşini qurtarandan sonra gözü tox usta pulları Ağaya qaytarıb deyir:

- Ağa, sənin başın elimiz üçün ucalıq, şöhrət rəmzidir. Ona qiymət qoymağa bizim ixtiyarımız yoxdur.

Mahmud Ağa yenə də zarafatla deyir:

- Pa atonnan, heç bilmirdim ki, belə qiymətli başım varmış...

***Söyləyəni, Əhməd Cəfərzadə,***
***filologiya elmləri doktoru.***
***(13-16)***

## *IV FƏSİL*

## MAHMUD AĞANIN İNCƏSƏNƏT MƏBƏDİNƏ BƏNZƏYƏN MUĞAM MƏCLİSİ
### (Muğam məclisləri, onun daimi iştirakçıları və dostları haqqında)

Mahmud Ağanın muğam məclisləri ilə bağlı topladığımız məlumatlar, xatirələr bizə tam əsas verir ki, onun muğam məclisini bütünlükdə bir **incəsənət məbədinə, muğam universitetinə** bənzədək. Mahmud Ağa bu məclisləri xüsusi ciddiliklə təşkil edərdi. Onun məclislərində iştirak etmək hər istəyənə nəsib olmazdı. Xüsusi qaydalar, məclis üzvlərinə ciddi tələblər var idi. Musiqi məclislərinin keçirilməsi, müğənnilərin seçilməsi, dəvət olunması muğam məclislərinin inkişafına, təkamülünə xidmət edirdi. Bura hətta qonaq qismində və ya dost kimi də hər kəsi dəvət etmirdilər. İştirakçıların şəxsiyyəti, kimliyi, dünyagörüşü, musiqi bilikləri, istedadı nəzərə alınırdı.

Müsabiqələrin keçirilməsi, qaliblərin mükafatlandırılması, bütünlükdə Şamaxı-Şirvanda muğamatın inkişafına təkan verirdi. Ona görə də Mahmud Ağanın musiqi məclislərini mübaliğəsiz zəmanəmizin ali təhsil ocaqları ilə müqayisə etmək mümkündür.

Günümüzədək tam qiymətini o qədər də ala bilməyən bu muğam universitetini Mahmud Ağa öz sarayında yarada bildi. O, öz sarayında böyük səxavətlə məşhur xanəndələrə, tarzənlərə yer ayırmış, yaşamalarına imkan yaratmış, onların sənətin sirləri ilə məşğul olması, zirvələri fəth etməsi üçün bütün şəraiti yaratmışdı. **Mahmud Ağanın muğam məclisləri var-dövlətini, sərvətini eyş-işrətə xərcləyən varlı xan** və **bəylərdən** fərqli olaraq xalqın və millətin milli-mədəni irsinin inkişafına xidmət edirdi. Əgər belə demək mümkünsə, onun XIX əsrin II yarısında keçirdiyi muğam məclisləri bu gün

dövlətimiz tərəfindən böyük diqqət, qayğı, həssaslıqla keçirilən muğam müsabiqələrinin XIX əsrdə qoyulantəməli, bünövrəsidir. Onun sarayında sənət fədailərinə **yardım edilir, bu günlərin dili ilə desək maaş verilir,** bütün ehtiyacları ödənilirdi. Biz saraya dəvət olunan musiqiçilərin, şairlərin, burada qonaq qismində iştirak edən ziyalıların məqsədlərinə, amalına fikir verəndə zamanın aynasından bizə boylanan əzəmətli musiqi, söz məbədinin ucaldığını görürük. Onu **Muğam Universitetinə** bənzətmək olardı.

***

Mahmud Ağanın **muğam universiteti** barədə danışarkən, o dövrün təhsil sistemini də nəzərdən keçirmək vacibdir. XIX əsrin 30-cu illərindən sonra Şamaxıda fəaliyyət göstərən mollaxana, mədrəsə, şəxsi məktəblərlə yanaşı dövlət məktəbi də yaradıldı. Dövlət tərəfindən Şamaxıda açılması bir qədər tez nəzərdə tutulsa da qəza məktəbi zəlzələ baş verdiyi üçün bir az gec, 1838-ci ildə fəaliyyətə başladı. Bu yeni təhsil ocağında azərbaycanlı uşaqlarla yanaşı rus və gürcü uşaqları da təhsil almağa başladı.

Ümumiyyətlə, bu illərdən başlayaraq yuxarıda qeyd etdiyimiz kimi Şamaxının zəngin adamları, mütərəqqi fikirli insanları övladlarının dövlət məktəblərində oxumalarına səy göstərirdilər. Nəticədə Şamaxıda Şərq ölkələrinə meyilli gənclərlə yanaşı, Avropaya meyilli gənclər də yetişməyə başladı. «Şamaxı bir zamanlar, XIX əsrin birinci yarısında yalnız Azərbaycanda deyil, bütün Zaqafqaziyada, hətta İran və Türküstanda belə ticarəti ilə, ipək məhsulları ilə, ürəfa və şüərası ilə şöhrət qazanmış bir şəhər idi. **1870-ci ilə kimi** qubernator orada oturar, Bakı, Quba, Salyan, Lənkəran, Göyçay kimi qəza şəhərləri ona tabe idilər. Zaqafqaziya dəmir yolu çəkilməmişdən əvvəl Tiflisə gedən əski karvan yolu oradan keçib gedərdi».

Mahmud Ağa da yeni fikirli gənclərdən idi. Uşaqlıq çağlarından evlərində musiqiyə, poeziyaya böyük hörmət və diqqət görmüş, Şamaxının neçə-neçə ustad sənətkarlarını eşitmiş və ya çalğılarına qulaq asmışdı. Atasının bədahətən dediyi və ya klassik şairlərdən bir nəfəsə söylədiyi şeirlərdən də əzbərləmişdi. Onun ilk əzbərlədiyi şeir atasının çox-çox zümzümə ilə oxuduğu böyük klassik şair Saleh Şirvanın şeiri olmuşdur. Sonralar məclis qurmaq sevdasına düşən Mahmud Ağa çaldığı tarın sədaları altında çox gözəl ifa edərdi həmin şeiri:

**Dedim**; alnın aydır, cəmalın günəş,
Dedi; Şəmsi Qəmər yerdə tapılmaz.
**Dedim**; məni səndən eyləmə mərhum,
Dedi; o namərdlik ərdə tapılmaz.

**Dedim**; illərəcək görməm vüsalın,
Dedi; mənsiz sənin necədir halın?
**Dedim;** mərdimazardan uzaq camalın,
Dedi; günəş üzrə pərdə tutulmaz?

**Dedim**; dilbər, olma munca sitəmkar,
Dedi; eşq əhlisən çəkginən azar.
**Dedim**; bir itinəm, ey gülüzli yar,
Dedi; məgər itim dərdə tutulmaz?

**Dedim;** qurulubdur peyvəstə yayın,
Dedi; ondanmışdır bu ahu vayın?
**Dedim**; gözəllərdə varmıdır tayın?
Dedi; mislim bəhrü-bərdə tapılmaz.

**Dedim**; sən Salehin olgil həmdəmi,
Dedi; həmdəminəm çəkməgil qəmi,

**Dedim**; kim dünyada degil adəmi?
Dedi; kim ki, xeyri şərdə tapılmaz.

**Haşiyə:** Şirvanlı **Aşıq Barat (1916-1994**) deyirdi ki, bu şeiri ustadım Aşıq Abbasdan, o da ustadı Bilaldan götürübmüş. Şöhbət də edərdi ki, Bilal bu şeiri Mahmud Ağa üçün oxuyardı. Özü də keyfinin duru çağında**, «Şikəstə» üstündə**. Bu zaman Ağa özü də qoşulardı aşığa.

Beləliklə, Mahmud Ağa atasının izni ilə ayrıca musiqi məclisi yaratmağı qərara alır. Düzdür, vaxtilə Əhməd Sultan Şamaxıdakı məşhur xanəndə, sazəndələri evinə dəvət edər, oxutdurardı. Onlara hədiyyələr, bəxşişlər də verərdi. Yaşlı şamaxılıların dediyinə görə, Mahmud Ağanın da atası sözə-sənətə ayrı qiymət verər, özü də ən çox xanəndələrlə oturub-durarmış.

Belə bir evdə, mühitdə böyüyən Mahmud Ağa da xeyir-xah, musiqisevən, muğamatı, poeziyanı bilən bir insan kimi yetişmişdi. Onun da Şamaxıda dostları musiqiçilər, şairlər, ziyalılar idi. Ustad şair S.Ə.Şirvani ondan bir az kiçik da olsa, qardaş kimi idilər. Mahmud Ağa məclisi yaranan gündən ora gəlib-gedən Məşədi Zeynalabdin **(M.Ə.Sabirin atası),** Bahar Şirvani, S.Ə.Şirvani, Bixud, Səid və başqa sənət adamları olmuşdur.

Mahmud Ağa həm də bir musiqişünas kimi də yetişə bilmişdi. O musiqinin sirlərini ilk dəfə atasının ətrafında olan musiqişünaslardan və öz dostlarından əxz etmişdi. Ona görə də mənbələrdə qeyd olunduğu kimi, **«Şüştərlə»** yatıb, **«Osmanlı»** ilə oyanarmış.

Mahmud Ağa məclisinə üz tutanlar, istər yerli xanəndələr olsun, istərsə də başqa yerdən gələnlər, onun hörmətini qazanmaq və ya daha çox hədiyyə əldə etmək üçün əsasən, bu muğamlara müraciət edirdilər. Muğam bilicisini, xüsusilə muğamlarda razı sala bilmək hər sənətkarın işi deyildi. Uzun illər ərzində Mahmud Ağa çox **«Şüştər»**, **«Osmanlı»** dinlədi.

Ancaq Mirzə Məhəmməd Həsən və Məşədi İsinin oxuduqlarını daha çox bəyəndi, mükafatlandırdı. Onları dinləməkdən heç vaxt usanmadı, yorulmadı.

***

İndi məşhur xeyriyyəçinin yaratmaq istədiyi məclisə qayıtmağın yeridir. Mahmud Ağa atasının məsləhəti ilə ilk əvvəl Mustafa xanın sarayında yaşayıb ustad adına ucalmış sənətkarları bir araya gətirir, onlarla məsləhətləşir. **Əbülhəsən** (Həsən Çəp), **Çopur Nəcəfqulu, Kəlbəlayi Ələkbər, Mirzə Salman, Hüseyn, Zərqələm, Kütahi** xanım; saray sairləri **Əhməd Şirvani** (1785-1848), **Cəlal Şirvani** (1768-1844), **Fəthi Şirvani** (?-1846), **Şüğli Şirvani** (XlX əsr), **Raci Şirvani** (XIX əsr) Mahmud Ağanın təklifini alqışlayanlardan olur. Əhməd Sultan da özünün qələm dostu **Didə** (1797-1870), **Əhməd Şirvani** (1790-1856), **Molla Əlabbas** (? -1918), **Mir Həmzə Mir İbrahim oğlu** (1812-1898), **Raqib** (1818-1892), **Hacı Nəcəf bəyi** (1825-1890) və sazəndə dostlarını məclisə dəvət edir. **Mahmud Ağanın həmtayları - Hacı Şirvani** (1824-?), **Səid Ünsizadə** (1831-1912), **Bixud** (1830-1892), **Ələkbər Qafil** (1828-1892), **Bahar Şirvani** (1834-1883), **S.Ə.Şirvani** (1835-1888), **Məşədi Muxtar bəy** (1824-1896), **Sultan bəy** (1829-1904), **Süleyman Məşədi Ağalar oğlu** (XIX əsr), **Murad Mirzah oğlu** (XIX əsr), **Mustafa Tağı oğlu** (1820-1889), **Hacı Muxtar bəy** (1824-1900), **Hacı Mürsəl bəy** (1825-1894) və başqaları.(Bəylərin adları arxivdən Şamaxı bəy-ləri siyahısından götürülmüşdür.S.Q.) məclisin ilk üzvlərindən olmuşlar.

Az bir müddətdə məclisin səsi-sorağı artdığı kimi, onun üzvləri və eləcə də qonaqlarının sayı çoxalmışdır. XIX əsrin 70-ci illərinə qədər Mahmud Ağa məclisinin daimi üzvlərinin – iştirakçılarının - **xanəndə, tarzən, aşıq, şair, balabançı, nağa-ra ifaçılarının sayı əlli nəfərdən** artıq olmuşdur. Rəqqasələrin

sayı isə 10-15 nəfər olduğu göstərilir. Artıq onun yaratdığı məclis kiçik bir universitet kimi fəaliyyət göstərirdi.

Məclisin ilk vaxtlarında Əhməd Sultan və Mahmud Ağa iştirakçılara xüsusi göstəriş də verdi: «Şamaxıda bütün cavan oxuyanlar, sənəti bilən, poeziya vurğunları kimliyindən asılı olmayaraq məclisə qatıla bilərlər. Tanıdığımız istedadlar kənarda qala bilməzlər. Axtarın, tapın, məclisimizə dəvət edin. Müsabiqəmizdə cani-dildən iştirak etsinlər.

Gənclərə S.Ə.Şirvani, Həsən Çəp, Nəcəf bəy, Aşıq İbrahim başda olmaqla muğam və klassik poeziyanın sirlərini öyrənmək üçün xüsusi təlimlər keçəcək, risalələr hazırlanacaq. Məncə, burada muğam müsabiqəsindən keçən qaliblərə, iştirakçılara bütün Şərqdə zaval olmayacaqdır». Əslində bu tələblər məclisdə qurulan təhsilin musiqi ilə yanaşı, poeziyanın da inkişafına təkan verə biləcək bir proqramı, layihəni xatırladırdı.

Mahmud Ağanın bir musiqişünas kimi fəaliyyətindən bəhs edən **F.Şuşinski yazır:** «Mahmud Ağa məclisinə gənc musiqiçiləri də dəvət edib, onlara klassik Şərq musiqisindən təlim verərmiş. Onun məclisi bütün Zaqafqaziyada çalan və oxuyanlar üçün bir növ **«təkmilləşdirmə institutu» idi».** F.Şuşinskinin Mahmud Ağanın məclisini ali təhsil ocağına bənzətməsi bizə də bu fikri bir qədər inkişaf etdirərək **universitet səviyyəsinə qaldırmağımıza haqq qazandırır.** Seçmələr bizimdir. (S.Q) Burada ifaçılıq təlimi alan və çalğısı bəyənilən hər bir musiqiçi təqdir olunurdu. O zaman Şamaxı musiqi məclisinin şöhrəti çox uzaqlara yayılmışdı. Azərbaycanın hər yerindən oxuyan, çalan, oynayan Şamaxıya gəlib Mahmud Ağa qarşısında öz sənətini nümayiş etdirməyə can atardı».

Məlum olduğu kimi, XIX əsrdə Şamaxının musiqi mühiti və xanəndələri - musiqiçiləri barədə bu vaxta kimi ciddi tədqiqat aparılmamışdır. Odur ki, mənbələrdə ancaq XIX əsrin II yarısında yaşayıb-yaradan xanəndələrin bir neçəsinin sadəcə adı çəkilir və ya haqqında xatirələr söylənilir. Amma məlumdur

ki, XIX əsrdə Azərbaycanın bir çox böyük şəhərlərində, ələlxüsus də Şamaxıda şeir və muğam məclişləri tüğyan etmişdir.

XIX əsrin 50-ci illərindən sonra Şamaxıda həm poeziya, həm maarif, həm aşıq sənəti, həm də musiqi sahəsində yeni-yeni istedadlar yetişib üzə çıxaraq şöhrət qazanmış, musiqi tarixində silinməyən iz qoymuşlar. Bizə belə gəlir ki, həmin dövrdə Şamaxı və onun kəndlərində yaşayan elə bir sənətkar tapılmazdı ki, onun az və ya çox dərəcədə Mahmud Ağa məclisi, «Beytüs-Səfa» məclisilə əlaqəsi olmasın. Sadəcə olaraq, bu sahə ilə bağlı ciddi təqdiqat aparılmadığı üçün XIX əsrin II yarısında Şamaxıda yaşamış sənətkarların ömür yolu, sənət uğurları haqqında yalnız seyrək məlumatlara rast gəlmək mümkündür. Eləcə də Mahmud Ağanın **muğam məktəbi, məktəbdə keçirilən müsabiqələr,** orada olan qaliblərdən bəhs edən yazılı sənədlər axtarılsa da hələlik ciddi nəticələr əldə edilmədiyini etiraf etmək lazımdır. Mahmud Ağa məclisinin yerli-daimi iştirakçları haqqında məlumatlar ya xatirələr, ya onların uzaq qohumlarının dedikləri, bəzən də məntiqi və intuitiv qənaətlər əsasında formalaşmışdır. Mahmud Ağa məclisinin daimi iştirakçıları əsasən, Şamaxı və ətraf oba, kəndlərdə yaşayan ziyalı, sənətkar, tacir və bəy-bəyzadələr olmuşdur. Xatirələrdə qeyd olunduğu kimi, bəzən məclisdə iştirak edənləri Mahmud Ağa sarayının **«Qızılı salonu»** güclə tuturdu. Bir müddət keçəndən sonra Ağanın məclisinə, muğam müsabiqəsinə qatılan sənətkarların **sayı yüzü keçərdi**. Ona görə müsabiqə hətta **bir həftə - on gün davam edirdi**. Bu müddət ərzində həmin insanlara sarayda xüsusi qayğı göstərilirdi. Qaliblər də həmişə olduğu kimi mükafatlandırılırdı.

Bu iştirakçıların çoxu barədə bilgilər əldə etsək də, kitabda bu muğam, poeziya sərraflarının yalnız bir qismi barədə məlumat verə bildik. **Kimlər olmuşdur o insanlar - muğam təşnələri?**

## Murad Mirzəli oğlu

O, XIX əsrin 30-cu illərində **Şamaxıda İmamlı** məhəllərində doğulmuşdur. Mollaxanada oxumuşdur. Uşaqlıqda qarğıdan düzəltdiyi tütəklə aşıq və oyun havalarını öyrənməyə başlamışdır. Sonra şirvanlı Aşıq İbrahim, Aşıq Xəlillə tanış olmuşdur. Sənəti öyrənmiş və onlarla yoldaşlıq etmişdir. Özü də Mahmud Ağanın qonşuları idi. Amma həmin məclisə ilk dəfə Aşıq İbrahimlə ayaq açmışdır. Mahmud Ağa Aşıq İbrahimin onunla ifa etdiyi **«Zarıncı»nın** məftunu idi. Murad ustad şair S.Ə.Şirvani və görkəmli pedaqoq M.Mahmudbəyovla da dost olmuşdur. O, təxminən, XIX əsrin 90-cı illərində vəfat etmişdir.

## Salam Məşədi Bağı oğlu
## (XlX əsr)

Aşıq Şamilin dediynə görə, balabançı Salam Aşıq Vəlicanın dayısı olmuşdur. O, balaban çalmağı qonşuları **Solaxay Mədətdən** öyrənmişdir. Mədət tərəkəmələrlə savaşda çomağı sol əli ilə vurduğundan Solaxay ayaması verilibmiş ona. O da Aşıq İbrahimlə sənətə ayaq açaraq bacısı oğlu Vəlicanı da arxasınca aparmışdır. Sonra ustad sənətkar bir çox havalar bəstələmişdir. Qocaman sənətkarların dediyinə görə, Aşıq Vəlicanın oxuduğu **«Vəlicanı şikəstəsi»ni** Salam bəstələmişdir. Mahmud Ağa məclisinə aşıqları dəvət edəndə Salamı da çağırtdırar, onun tütək çalğısını çox xoşlayardı. Çox zaman Ağa Salama tütək çaldırıb doyunca qulaq asar, mükafatlandırardı. Salam Məşədi Bağı oğlu XIX əsrin sonunda vəfat etmişdir.

## Udulu Musa
## (1802-1875)

**Udulu Musa Məhərrəm oğlu** 1802-ci ildə Şirvan mahalının Baba-Bozum adlı köçəri obasında doğulmuşdur. Sonralar Udulu kəndinə köçmüşlər. İlk təhsilini evdə atasından almış, ardını isə Şamaxıda oxumuşdur. Həm xalq şeiri, həm də klassik üslubda əsərlər yazmışdır. O, XIX əsrin görkəmli şairi X.Natəvanla da məktublaşmışdır. **Şamaxının ziyalıları, xüsusən S.Ə.Şirvani ilə dost olmuşdur.** Ona görə də «Beytüs-Səfa» məclisinə yaxın idi. Udulu Musa **1875-ci ildə vəfat** etmişdir.

Onun haqqında ilk dəfə professor **Ə.Cəfərzadə** tədqiqat aparmışdır. Sonralar bir çox alimlər - **F.Qasımzadə, N.Qarayev**, **Əhməd Cəfərzadə, S.Qəniyev** və b. onun yaradıcılığını tədqiq edərək şairin yeni şeirlərini üzə çıxarıb çap etdirmişlər.

Ey gözəl, səbr et, dayan, bir ləhzə mehman ol mənə,
Taqəti-canım, gedirsən? Getmə, bir can ol mənə!

Eylə bir zillətliyəm, hər kəs məni tərk eyləmiş,
Rəhmə gəl, ad eyləyib, qüdrətli sultan ol mənə.

Xəstəyəm, biçarəyəm, yoxdur təbibi-malicim,
Bari insaf eləyib şəfqəti-dərman ol mənə.

Görmədim dünyada mən zövqü səfadan bir nişan,
Bəxt yox, imdad yox, bir özgə dövran ol mənə.

Gün ötür, ömür keçir, cismin solur bir gül kimi,
Binəsib Musa ölür, sən ki, mehman ol mənə!

**Bir açıqlama:** Alim dostum f.e.d Əhməd Cəfərzadə nəsil şəcərəsi barədə danışarkən deyirdi: **«Mənim ulu babam Tağı Şamaxının Pirani-Şirvan məhəlləsindən» olmuşdur. O, Mustafa xanın sərdarlarından biri, həm də qohumu idi. Onların mülkləri Əhməd Sultanın İmamlı məhəlləsində olan mülkləri ilə yanaşı idi. Musa** babamın atası Məhərrəm də Mahmud Ağanın atası ilə dost olmuşlar. **Hər ikisinin Mustafa xana yaxınlığı və qohumluğu var imiş.** Tağı babam əvvəl Salyan ərazisində olan Baba-Barum obasında məskunlaşmış, sonra Udulu ərazisində (sonra ora Tağıl adlanmış) məskunlaşmışdır. Amma Şamaxıdan ayağını üzməmişdir. Oğlu Məhərrəm Şamaxıdakı mülkündə, ikinci oğlu Məmiş isə yanında yaşamışdır. Odur ki, o, Əhməd Sultanla yaxın olmuş, onun musiqi axşamlarında iştirak etmişdir. Musa da atasının vasitəsilə bu ailə ilə yaxınlaşır, Əhməd Sultanla möhkəm dostluq edir. Bir müddət sonra Musa həm Mahmud Ağa, həm də Seyid Əzimin məclisinin iştirakçısına çevrilir. Babam Musa sonralar köçəri elatlarda olan şairləri bir araya gətirib, **Küdrü düzündə tərəkəmə sinədəftərlərinin məclisini yaradıb**. Sonralar o, həmin məclis üzvlərini Mahmud Ağa ilə tanış eləmişdi. Babam Məhərrəm Əhməd Sultanla yaxın olduğu üçün oğlunun birinə onun atası – **Cavadın** adını vermişdir. Sonralar Mahmud Ağa da bir oğlunun adını Cavad qoyur. Mənə belə gəlir ki, babam Musa Natəvanla elə Mahmud Ağagildə tanış olmuş, sonralar məktublaşmışlar.

Yetişdi xoş namən bizə, Xan qızı,
Sən ağlarsan, mən gülmərəm, sızdaram.
Dərdlidən dərdliyə salam eylərəm,
Sən ağlarsan, mən gülmərəm , sızdaram.

Kim bilir işini çərxi-fələyin?
Qoymaz bir hasilə yetə diləyin,

Dərdin bəyan etdin, yandı ürəyim,
Sən ağlarsan, mən gülmərəm, sızdaram.

Mənim də bəxtimin olmadı ağı,
Dostlar əldən getdi, çoxaldı yağı,
Qocalıban ömrün qurtaran çağı,
Sən ağlarsan, mən gülmərəm, sızdaram.

Abamı götürüb biyaban gəzdim,
Şirvandan tapdayıb dağ, aran gəzdim,
Qolum gücdən düşdü, canımdan bezdim,
Sən ağlarsan, mən gülmərəm, sızdaram.

Şirvan eli Qarabağdan uzaqdır,
Bir il yağmır olsa, bir il quraqdır,
Yazıq Musa alacıqda dustaqdır,
Sən ağlarsan, mən gülmərəm, sızdaram.

## Mustafa Tağı oğlu
## (XIX əsr)

Mənbələrdə Mustafanın XIX əsrin əvvəllərində **Şamaxının İmamlı məhəlləsində** anadan olduğu göstərilir. Atası Tağı kişi çarıqçı imiş. Mustafa məhəllə məktəbində təhsil alıb. O, həm də **«Çarıqçı oğlu»** təxəllüsü ilə yazan şair imiş. Gənclik illərində balaban sənətini öyrənir. İlk dəfə Aşıq İbrahim, sonra Aşıq Nürəddinlə tanış olur, yoldaşlıq edirdi. O, S.Ə.Şirvaninin «Beytüs-Səfa» məclisinə yaxın olmuşdur. Uzun illər Aşıq İbrahimi müşayiət etmişdir. Onun şeirləri həm də Aşıq İbrahimin repertuarını təşkil edirdi. Mahmud Ağa məclisinə də Aşıq İbrahimlə getmişdir. **«Şirvanın yolları»** mahnısı Mahmud Ağanın sevdiyi havalardan idi. Aşıq İbrahim onu ustalıqla ifa etdiyi kimi, Mustafa da yastı balabanda xüsusi füsunkar bir ritmlə çalardı. Məclisdə əyləşən hər kəsin qəlbi belə qənirsiz

ifadan riqqətə gələr, coşar, kövrələrdi.

Mustafa Çarıqçı oğlunun şeirlərindən parçaları və nümunələri Ə.Cəfərzadənin şəxsi arxivindən əldə etmişik.

Səni gördüm əqlim çaşdı,
Belə baxma, zalım qızı.
Alma yanaq, süzgün baxış,
Canım yaxma, zalım qızı.

Səni xəlq edənə qurban,
Unudarammı bircə an?
Eşqimə sən də alış, yan,
Canım yaxma, zalım qızı.

Çarıqçı oğlu neyləsin?
Dərdini kimə söyləsin?
Kimə təmənna eyləsin?
Belə baxma, zalım qızı,
Canım yaxma, zalım qızı.

O, XIX əsrin sonlarında vəfat etmişdir.

## Həsən Çəp
## (XIX əsr)

Bu ustad sənətkar haqqında mənbələrdə o qədər də geniş məlumat yoxdur. Bəlli odur ki, uzun illər **Şamaxı mədrəsəsində dərs demişdir.** Həsən gənclikdən zil səsi ilə bəyənilmiş və Mustafa xanın sarayına yaxın olmuş, saray xanəndələri ilə dost idi. Çopur Nəcəfqulu ilə mötəbər məclislərə qatılmışdır. Əhməd Sultan və oğlu Mahmud Ağa məclisində ustad xanəndə kimi şöhrətlənmiş, uğurlar qazanmışdır. O, gənclərə muğamın sirlərini öyrətmiş, musiqiyə aid risalələr yazmışdır.

Ustad xanəndə təxminən, XIX əsrin 80-ci illərində vəfat etmişdir. Həsən də S.Ə.Şirvaninin şair dostlarından idi.

Ə.Cəfərzadənin şəxsi arxivindən şairin bir qəzəli əldə edilmişdir.

Sariban, çək ovsarı «Rast» məqamı haray salır,
Ürəkdən bir də duyum « Zənguşüturun» səsini.

An keçir, dövran dönür - deyək, gülək xürrəm olaq,
Dolansın çox sözümüz şövq ilə ərşi əlanı...

Saqi, mey gəzir bizə unudaq qəmü kədəri,
Yığışıb dust-aşınalar, xub qurublar məclisini.

Sərvin, qəm ümanıdır bağı dünya başdan-başa,
Sən əbəs sayma qafil, tar-kamanın naləsini.

Şükür olsun xüdaya, nəsib edib bizlərə xürrəm günü,
Dilərəm çox gəzməsin lütfunü, həm çarəsini.

Həsən Çəp, ver sözü Mirzə Məhəmməd Həsənə,
Sizlərə peşkəs edib Mahmud Ağa xanəsini.

**Haşiyə:** O, klassik muğamlardan **«Mahur»u, «Rəhab»ı, «Şur»u, «Nəva»nı** və həmin muğamların «Əşiran» şöbəsini özünəməxsus tərzdə bənzərsiz ifa edərmiş. Mahmud Ağa da bu şöbəyə valeh olardı. Bu cəhəti vaxtilə, S.Ə.Şirvani da belə qələmə almışdır

Təsiri-bahar ilə olur şimdi tənavür,
Səma ilə hər nəxl ki, dönmüşdü ufalə.
Durnalar oxur gah «Əşiran», gah Əbdülçəpə,
Gah şəkli-müsəlləs, gah uçar cümləsi nalə.

## Əbbürrəhman Əfəndi
## (1808-1890)

Əbdürrəhman Şamaxı şəhərində doğulmuş, mədrəsə təhsili almışdır. «Ünsi» təxəllüsü ilə şeirlər yazmışdır. O, oğlanlarının hər üçünə - **Səid, Cəlal, Kamala** mükəmməl təhsil vermişdir. Əbdürrəhman Əfəndi XIX əsrdə Şamaxıda yaşayıb-yaradan ziyalıların, sənətkarların yaxın dostu olmuşdur. O, Əhməd Sultanın da yaxın dostu və həmtayı idi. Onun sarayında təşkil olunan musiqi məclisində iştirak edərdi. Sonralar isə Mahmud Ağanın təşkil etdiyi muğam məclisinin də daimi iştirakçısı oldu. Əfəndinin hər üç oğlu şair olduğu kimi, Şamaxının mədəni, pedaqoji həyatında da yaxından iştirak etmişdilər.

O, Mahmud Ağa məclisinə yaxın olduğu qədər də «Beytüs-Səfa» məclisinin fəal üzvü olmuşdur. Onun şeirləri hələlik əldə edilməmişdir. Vaxtilə şairin yaxın qohumu, **xanəndə Ağakərim Nafizin şəxsi arxivindən** bir qəzəlini əldə etmişik. **(S.Q)** Bu yadigar şairin gözəl istedadından, əruza bələdçiliyindən böyük söz deyir.

Nə adətdir gözəllərdə, məni gördükdə neştərlər,
Çəkərlər tiği əbrudən nəzər əhlin qilişdərlər.

Vurarlar tiği tiğ üstən, tökərlər aşiqin qanın,
Dönüb bir xənddə ilən vurduğu zəxmin kirişdərlər.

Qarə xalə məni qoymaz baxım ol mərdümi-çeşmim,
Misaldır, danəyə qəsd eyləyən quşlan kişdərlər.

Əgər ləli-ləbin öpdümsə, qəhr etmə bu rəsm olmuş,
Ələ bir alma düşdükdə qızarmış olsa, dişdərlər.

Dedim, çaki-giribandı və ya sübhün dəmidi bu,
Nə kim hər qədri-pürqiymət, dedi olsa, gümüşdərlər.

Şikayət eyləmə, Ünsi, gözəllər cövrü-zülmündən,
Fitad altun ola hərçənd, genə axir çəkişdərlər.

## Kərbəlayi Əli Əkbər
## (XIX əsr)

Şamaxıda zəmanəsinin muğam ustadı sayılan Kərbəlayi Əli Əkbərdən bəhs edən **f.e.d. Əhməd Cəfərzadə yazır: «Mirzə Əli Əkbər XIX əsrin əvvəlində Şamaxı şəhərində doğulmuşdur. Mollaxana və mədrəsə təhsili almış, ərəb-fars dillərini mükəmməl öyrənmişdir. Ona görə klassik poeziyaya, həm də ərəb-fars dillərində olan musiqi ədəbiyyatlarına bələd idi».**

O, Mahmud Ağadan çox əvvəl Əhməd Sultanla dost olmuşdur. Öz məlahətli səsi ilə Əhməd Sultana xidmət etmişdir. Mahmud Ağanın muğam **məktəbi, məclisi** yarandıqdan sonra birdəfəlik saraya köçür. Muğam məktəbinə-məclisinə maraq göstərən gənclərə sənətin sirlərini öyrədir. Gənc xanəndə Mirzə Məhəmməd Həsən muğam dərsini Kərbəlayi Əli Əkbərdən almışdır. Ümumiyyətlə, gənc xanəndələr onun təlimini öyrənəndən sonra musiqişünas, tarzən Mahmud Ağaya imtahan verməli olurlar.

Çox mənbələrdə o da vurğulanır ki, Mirzə Məhəmməd Həsənin də ustadı **«Sirvanın məşhur xanəndəsi Kərbəlayi Əli Əkbər olmuşdur. Onlar qonşu idilər».**

Ustad xanəndə Əli Əkbər Şamaxıda səsi-avazı olan gəncləri bir yerə toplayıb təlim keçər, proqram **«sona çatandan sonra, Mahmud Ağanın ayrıca imtahanı» başlayardı.** Mahmud Ağa imtahanda gənclərin birinci növbədə **səsini, muğam və təsnifə bələdliyini**, ən başlıcası, seçdiyi qəzəlin, təsniflərin

sözünün aydın tələffüzünü, bir də səsinin kökdə olmasını əsas şərt hesab edirdi. İmtahandan qalib çıxan gənclər başqa bir gün yarışa qatılırdı. Yarışda qaliblər xüsusi **mükafata - hədiyyələrə** layiq görülürdü.

Ustad Əli Əkbər illərlə gənclərə muğamların qayda-qanunlarını öyrətməklə yanaşı, **Mahmud Ağa sarayında yerləşən məktəbə, sarayda keçirilən muğam müsabiqə və yarışlarına da** rəhbərlik etmişdir. Ustad xanəndə müsabiqələr və muğam dərsləri üçün xüsusi risalələr də hazırlamışdı. Muğam bilicisi XIX əsrin sonunda Şamaxı şəhərində vəfat etmişdir.

## Məşədi Zeynalabdin
## (1836-1892)

**Məşədi Zeynalabdin Hacı Tahir oğlu** 1836-cı ildə Şamaxı şəhərində doğulmuşdur. Hacı Tahir hər iki oğluna mollaxana və mədrəsə təhsili vermişdir. Hacının bazarda kiçik bir dükanı vardı. **O, qaratikan kötüyündən çubuq və qəlyanbaşı yonar, tənbəki çubuqları hazırlayıb satardı. Yalnız sünnilər arasında deyil, şiələr arasında belə Hacı Tahirin çubuq və qəlyanbaşları məşhur idi.** Oğlu Zeynalabdin özünü çox pis apardığı üçün Hacı Tahir ondan razı deyildi. Oğlunun boş-boşuna gəzməsi, küçələrdə veyillənməsi, bir işin, peşənin dalınca getməməsi Hacını çox narahat edirdi.

Zeynalabdin isə şiə məclisinə gedər, məhərrəmilikdə cani-dildən iştirak edərdi.

Zeynalabdin atasının dediyinə məhəl qoymayıb öz dostları ilə **Mahmud Ağa məclisində də müntəzəm iştirak** edirdi. Müsabiqəyə qulaq asar, rəqqasələrin oyunundan zövq alardı. Bu işlər Hacı Tahiri daha da hiddətləndirirdi. Bir gün o, Zeynalabdini yanına çağırıb deyir:

- «Sənin **Mahmud Ağanın otağında ölümün nədir?** Bir də görsəm ki, sən oraya getmisən, and olsun gəzdiyim Həcərə, sındıraram qol-qabırğanı...

Amma o, nə bir iş, sənət dalınca getdi, nə də Mahmud Ağanın evinə getməkdən qaldı» **(28-138).**

Məşədi Zeynalabdin illər boyu Mahmud Ağa məclisinin iştirakçısı oldu. Oğlu Sabir də gənc yaşlarından Mahmud Ağa məclisinə sidqi ürəkdən bağlandı. Məşədi Zeynalabdin 1892-ci ildə vəfat etmişdir.

## Allahverən Şıxı oğlu
## (XIX-XX əsr)

O, XIX əsrin 40-cı illərində Şamaxı qəzasının Kalva kəndində doğulmuşdur. Həm Allahverən, həm də Əli kişiyə sənətin sirlərini öyrədən Aşıq İbrahimin balabançısı Süleyman Məşədi Ağalar oğlu idi. Həm Süleyman, həm də Allahverən uzun illər ustad aşıqlar - **Aşıq İbrahim, Aşıq Oruc və Aşıq Bilalı** müşayiət etmişdir. Süleyman Mahmud Ağa ilə qonşu olduğu üçün onu yaxşı tanıyırdı və dost idilər. Onun məclisinə aşıqlar dəvət olunanda Süleyman da gələrdi. Allahverən Şıxı oğlunun çalğısı ustadlar tərəfindən bəyənilirdi. O, başqa havalarla yanaşı, **«Gərayı»**ları daha ustalıqla, xüsusi zövqlə ifa edirdi. Mahmud Ağa zərb muğamlar qədər «Gərayı»nı dinləməyi, qulaq asmağı çox sevirdi. Allahverən məclisə daxil olanda Mahmud Ağa ucadan deyərdi:

- Ustad, bilirsən də, nədən başlayacaqsan?

O da **«Zil-gərayı»**dan başlayardı. Mahmud Ağa da dinlədikcə dinləyirdi. Çalğıya doyunca qulaq asandan sonra Allahverəni mükafatlandırırdı.

Allahverən Şıxı oğlu XX əsrin əvvəllərində vəfat etmişdir.

## Güllübəyim Mir Mahmud qızı
## (1825-1897)

Mahmud Ağa təkcə poeziya, muğamlarımıza, xanəndələrimizə deyil, eləcə də Şamaxı maarifinin inkişafına, məktəblərin yaradılmasına xüsusi diqqət yetirmiş, hamilik etmişdir. Şamaxıda qız məktəblərinin yaradılmasına həm mənəvi, həm də maddi yardım göstərmişdir.

Güllübəyim 1825-ci ildə Şamaxının Pirani-Şirvan məhəlləsində, ruhani ailəsində doğulmuşdur. O, atasından təhsil almışdır. O, ərəb, fars dillərini yaxşı bilir, rus, ləzgi dillərini də başa düşürdü. Güllübəyim on beş yaşında Hacı İsmayıl adlı bir nəfərə ərə getmişdi. Güllübəyim təxminən, 1850-ci ildə evində qızlar üçün xüsusi məktəb açmağa qərarlaşır. Şamaxılı qızların təhsilə cəlb olunması xəbərini eşidən Əhməd Sultan və Mahmud Ağa Güllübəyimə yardım əllərini uzatdılar. Güllübəyim məktəbi 1880-ci illərə qədər fəaliyyət göstərir.

Maraqlıdır ki, Mahmud Ağanın qızına da Güllübəyim ev dərsi vermişdir. Daha sonralar Güllübəyimin ideyalarını, ənənələrini Şamaxıda **Gövhər Şirvani Füruzə Şəfi qızı, Böyükxanım, Gövhər Şövqiyyə** davam etdirir. Güllübəyim həm də istedadlı şair olmuşdur. Onun xalq şeiri üslubunda yazdığı şeirlərin bir qismi günümüzə çatmışdır. Güllübəyim **1897-ci ildə vəfat etmişdir.** Maarifpərvər şairin şeirlərindən bir yarpaq:

Nə günahın sahibiyəm?
Salmısan zindana, fələk.
Axıdırsan göz yaşımı,
Çalxayırsan qana, fələk.

Əymisən cavan belimi,
Kəsmisən deyən dilimi,

Uçurmusan bülbülümü,
Bəs gedim hayana, fələk?

Güllübəyim qalıbdı mat,
Qızlar edilər inayət,
Köməklik etmir camaat,
Qaldım yana-yana, fələk.

## Mirzə Cavad
## (1846-1920)

Hələ ötən əsrin 90-cı illərindən Şamaxıda musiqi-muğam sənəti, Mahmud Ağa ədəbi-məclisində fəaliyyət göstərmiş sənətkarlar haqqında məlumat əldə etməyi qarşımıza məqsəd qoyduq. Odur ki, Şamaxının ustad, qocaman musiqi xadimlərinə müraciət etməyə başladıq. Aşıq, xanəndə, balabançılarla görüşdük, söhbət etdik. Xeyli yeni məlumatlar, sənəd, şəkillər topladıq, məktublar aldıq. Həmin məktublardan biri də **Zoya xanımdan** gəlmişdi. Kimdi Zoya xanım? Böyük Azərbaycan dramaturqu, musiqi bilicisi Ə.Haqverdiyevin **«Qoca tarzən»** hekayəsinin qəhrəmanı, tarzən Cavadın nəvəsi Qulam müəllimin ömür-gün yoldaşı.

**Cavad Sayıl oğlu** 1846-cı ildə Şamaxı şəhərində doğulmuş, mollaxanada təhsil almışdır. Atası İsmayıl kişi S.Ə.Şirvani və Mahmud Ağanın dostlarından idi.

Atasının məsləhəti ilə Cavad Süleyman adlı bir tarzəndən sənəti öyrənmişdir. Sonra o da Mahmud Ağa məclisində iştirak etmiş, onun hörmətini qazanmışdır. Mahmud Ağanın Cavada münasibətini Ə.Haqverdiyev **«Qoca tarzən»** hekayətində belə təsvir edir: «Yay fəsli idi, Şamaxı cavanları məndən savayı da iki dəstə çalğıçı götürüb neçə gün müddətində yaylağa səyahətə getmişdilər... Cavanlardan biri təklif etdi, «hər kəsin tarına bülbül gəlib özünü toxundursa, mən ona yüz manat bağışlayacağam və onun adını da burada **«tarzənlər şahı»** qoya-

cağam»... Axır növbə mənə gəldi. Tarı sinəmə basıb həmən bu «Rast»ı başladım... Bir az keçmişdi, onda gördüm bülbül ağacdan sürətlə enib özünü tara çarparaq uçub getdi. O vaxt Şirvanda **Mahmud Ağa adında** bir musiqişünas var idi. Mahmud Ağa bu haləti gördükdə yerindən sıçrayıb gəlib mənim alnımdan **öpüb dedi: - Ölmə, yaşa».**

Bəli, Mirzə Cavad 40 ildən artıq tar sənətinin sirlərini həmvətənlərinə öyrətmişdir. Təkcə Mahmud Ağa məclisinə yaxın olan xanəndələri deyil, bəy, tacir məclisində iştirak edən xanəndələri də müşayiət etmişdir. Həmin illərdə xanəndələr əsasən şəhər məclisinə dəvət olunurdular.

Mirzə Cavad Şamaxı ziyalılarının çoxu ilə dostluq edirdi. **M.Ə.Sabir, Tərrah, Didə, Camo bəy, A.Səhhət, S.M.Qənizadə onun** sirdaşları idi. Özü də klassik üslubda şeirlər yazırdı. Cavadın iki övladı olmuşdur. Sənətini oğlu İsmayıla öyrədə bilmişdir. Mirzə Cavad 1920-ci ildə Şamaxı şəhərində vəfat etmişdir.

***

Mirzə Cavad hətta ustad xanəndə Mirzə Məhəmməd Həsəni uzun illər (Mahmud Ağanın vəfatından sonra da) müşayiət etmişdir. Bu barədə Mirzə Məhəmməd Həsən məclislərini görmüş böyük sənətkar **Yavər Kələntərli** xatirələrində yazır: **«Mirzənin bir tarçısı vardı, Cavad adında, ucaboy adam idi»...**

**Haşiyə:** Mirzə Cavadın **nəvəsi Qulam 1905-ci ildə** Şamaxı şəhərində doğulmuşdur. O da uşaqlıqdan musiqiyə həvəs göstərmişdir. Əmisi İsmayılın tarının səsi onu məftun etmişdir.



*Mirzə Cavadın nəvəsi , tarzən Qulam müəllim*

«Qulam böyük sənətkar, **xalq artisti Hacı Məmmədovla** uşaqlıq dostu idi. Həm də uzaq qohum idilər. Onların hər ikisi İsmayıldan öyrənmişlər tar çalmağı. Sonralar qardaşı İsmayıl Əhməd Bakıxanovla dost olur. Qulamı, eləcə də, Hacını Əhməd müəllimlə İsmayıl tanış edir».

**Zoya xanımın dediklərindən:** «Yayda Şamaxıya dincəlməyə gələn Əhməd müəllim İsmayıl dayıgildən çox bizdə qalardı. Onda Qulamgil bayram edirdilər. O zamanlar Hacı qardaş da Şamaxıya çox gəlirdi. Hacı qardaş ağa yurdunu (evləri uçmuş olsa da) ehtiramla ziyarət edərdi... Şamaxıda olan bəzi sənətkarlar da onlarla görüşər, məsləhətlər alardılar».

Qulam müəllim 80 il ömür sürmüşdür. O, Şamaxıda musiqi məktəbinin yaradılmasına və inkişafına böyük əmək sərf etmiş, ilk tar müəllimi olmuşdur. Özü də düz 30 il - 1939-cu ildən 1969-cu ilə kimi. Həmin ildən 1992-ci ilə kimi Şamaxı pionerlər evində və Nəsimi adına musiqi məktəbində tar müəllimi işləmişdir.

Bir sözlə, Qulam müəllim babası tarzən Cavadın 40 ildən artıq yaşatdığı müqəddəs sənəti 50 ildən çox Şamaxıda təbliğ etmiş, gənclərə öyrətmişdir. Bu gün də Şamaxıda o tar sənətinin sehrləri Qulam müəllimin şagirdləri - **Seyidxan Novruzov, Mehman Mikayılov, Seyran İsmayılov** və başqalarının barmaqları, xalları və ifalarında yaşayır.

Bəli, Mahmud Ağanın Mirzə Cavada dediyi «Ölmə, yaşa»! alqışının sədası sanki əsrlərin dərinliyindən ucalaraq, bu gün də Cavad sənətinin Şamaxıda ölməyib, yaşadığını təsdiq edir.

## Ünsizadə qardaşları

Əvvəldə qeyd etdiyimiz kimi, Əhməd Sultanın yaxın olduğu ailələrdən biri də dostu Əbdürrəhman Əfəndinin ailəsi olmuşdur. İki ailə arasında olan ünsiyyət, yaxınlıq övladlar, nəvələr arasında da uzun illər davam etmişdir. Əbdürrəhman Əfəndinin üç oğlu - **Səid, Cəlal və Kamal Şamaxının** mədəni-pedaqoji həyatında xüsusi yeri olan ziyalılardandır. Bu qardaşların hər üçü həm də şair idilər.

**Cəlaləddin (Cəlal) Ünsizadə** 1854-cü ildə anadan olmuşdur. Mollaxana və mədrəsə təhsili almışdır: ərəb, fars, rus, fransız dillərini bilmişdir. O, jurnalist, tərcüməçi kimi fəaliyyət göstərmiş, Şamaxıda Mahmud Ağa məclisinə yaxın olmuşdur. Cəlal sonradan Tiflisə - qardaşı Səidin yanına köçərək, 1883-cü ildə «Kəşkül» qəzetini nəşr etdirir. Cəlal «Kəşkül» adlı mətbəə də yaratmışdı. Görkəmli ziyalı 1892-ci ildə Türkiyəyə köçmüşdür.

**Kamal Ünsizadə** 1857-ci ildə Şamaxıda doğulmuşdur. O da qardaşları kimi mollaxana və mədrəsədə oxumuşdur. Bu qardaşların **dayıları Molla Bağı** məşhur din xadimi olmuşdur. Kamal Şamaxıda şəriət müəllimi işləmiş, Kamal da «Məzhər» adlı qəzet nəşr etdirmişdir. O da qardaşları ilə birlikdə Türkiyəyə köçüb getmişdir.

**Haşiyə:** Qeyd etdiyimiz kimi, Ünsizadə ailəsi Mahmud Ağanın ailəsinə yaxın idilər. Özləri də ataları ilə birlikdə həm Mahmud Ağanın, həm də «Beytüs-Səfa» məclislərinin fəal üzvlərindən olmuşlar. Onu da qeyd edək ki, **S.Ə.Şirvaninin vəfatı haqqında ilk nekroloqu Cəlal 1888-ci ildə çap etdirdiyi «Kəşkül» qəzetində** vermişdir.

Başqa bəy, mülkədarlar kimi Mahmud Ağa da müəyyən məsələlərlə bağlı Tiflisə çox gedərdi. Bu zaman o, Ünsizadə qardaşlarının evlərində qalardı. Qardaşlar Mahmud Ağanı böyük hörmət və izzətlə qəbul edər, ona lazımiköməklik göstərər

və yola salardılar.

## Xankəndli Əzi
## (XIX-XX əsr)

**Xankəndli Əzi Hüseyn oğlu** XIX əsrin ortalarında Şamaxı qəzasının Xan kəndində doğulmuşdur. Deyilənlərə görə, atasının yaxşı səsi olsa da, sənətə getməmişdir. Dörd övladının - **Səhab, Vahab, Musa, Əzi -** dördünün də səsi olmuşdur. Onlardan ikisi - Əzi və Səhab xanəndəlik etmiş, Vahab isə balaban sənətini atasının dostu Allahverən Şıxı oğlundan öyrənmişdir.

Əzi Şamaxıda molla məktəbində oxuyub. Gəncliyində məhərrəmlikdə mərsiyə deməklə məşhurlaşıb. Bu zaman Mirzə Məhəmməd Həsənlə tanış olur. Sonra Mirzədən muğam sənətini kamil öyrənir. Məlahətli səsi olduğunu görən Mirzə onu Mahmud Ağa məclisinə özü təqdim edir. Ondan sonra Əzi Mirzənin şagirdi kimi ad çıxarır, Mahmud Ağanın məclisinin bəzəyi olur. «Segah», «Şur» muğamlarını ustadı kimi oxuyarmış. «Mənsuriyyə»ni daha zil və şirin ifa edə bilirmiş. Mahmud Ağa həmişə ona ayrıca «Mənsuriyyə» oxutdurarmış.

O, həm də şair imiş... Odur ki, «Beytüs-Səfa» məclisinin üzvləri ilə dostluğu da vardı. Xan kəndindən olduğu üçün S.Ə.Şirvani onu **«Xanoğlu»** çağırarmış. Ondan sonra bütün məclis əhli də ona «Xanoğlu» deyərmiş. Şeirlərini də «Xanoğlu» təxəllüsü ilə yazarmış. Əzi qardaşı Səhabdan muğamları öyrənmişdir. Səhab da sonra Mirzə Məhəmməd Həsənə şagird durmuşdur. Mirzə özü şagirdini Mahmud Ağa məclisinə gətirmişdir. Onun da şakəri «Şur» və «Şüştər» olmuşdur. Səsi zil olduğu üçün qardaşı da, özü də «Şüştər»in zərb şöbələrini bənzərsiz oxuyarmış. **Mahmud Ağa qardaşların zərb-muğamlarını** çox bəyənirdi. Əzi həm klassik, həm də xalq şeir üslubunda şeirlər yazmışdır. Mərhum **Aşıq Baratın** yaddaşından onun qəzəllərindən bir neçə beyti bir qoşma, gəraylılarını

yazıya almışıq:

### İçində

Səhər-səhər, seyrə vardım,
Yarı gördüm bağ içində.
Yaxası güllü bostandı,
Şamamalar tağ içində.

Dodağının axar balı,
Canlar alır qoşa xalı,
Bir tamaşa gül camalı,
Tər böyrəkdir, yağ içində.

Əzi deyər, vardı qəsdim,
Bulaq üstə yolun kəsdim,
Onda bilər zərbi-dəstim,
Ələ düşsə, bağ içində.

* * *

...Xanoğlunun səsi təzə,
Məclislərə qatar məzə,
Əlbət ki, gələcəm sizə,
Məndən incik düşən, yarım.

## Xankəndli Səhab
## (?-1948)

**Səhab Hüseyn oğlu** Şamaxı qəzasının Xan kəndində anadan olub. O, Əzinin kiçik qardaşı idi. Şamaxıda qardaşı ilə mollaxanada təhsil alıb. Ona görə də dostları onu Mirzə Səhab çağırırdılar. Bu zaman artıq XIX əsrin 90-cı illəri olardı. Bu iki qardaş Mahmud Ağanın sevimli gənc xanəndəsi idi. Səhab da muğamatı Mirzədən öyrənir. Səhabın səsi Əzidən daha zil, daha məlahətli idi. Başqaları kimi Mahmud Ağanın daha çox sevdiyi «Şüştəri» isə ayrı cür oxuyurdu. Mirzədən sonra Şamaxıda mükəmməl «Şüştər» oxuyanlardan idi. Aşıq Şamilin ilk ustadı dayısı Soltan olmuşdur. Amma sonralar o, Səhabdan da muğamları öyrənir. «Şüştəri» isə daha ayrı cür...

**Sirvan aşıqlarının demək olar ki, hamısı - Aşıq Barat, Aşıq Şərbət, Aşıq Xanmusa, Aşıq Xanış, Aşıq Mahmud** deyərdilər ki, Aşıq Şamil kimi, **«Şüştər» oxuyan yox idi.** Biz də qədim «Şüştəri» ondan öyrənmişik...

Aşıq Şamillə çoxdan görüşmüşəm. Dediklərini və xatirələrini sonralar yaratdığım **«Şirvanlı Aşıq Şamil» (Bakı, 2009)** kitabında vermişəm. O, dayısı və Səhab haqqında da mənə xeyli məlumat vermişdi. «Mən, Səhabla tanış olanda 20-25 yaşım olardı. O, əsasən, Aşıq Bilalla toylara gedirdi, sonra mən də Aşıq Bilala xanəndəlik etdim. Həmişə ustadı Mirzədən, Cabbardan, Mahmud Ağadan çox danışırdı. Dayım Soltana görə ustad mənimlə daha şirin söhbət edərdi. 30-cu illərdə Səhab Şamaxıdan kəndə köçdü, sonra da müharibə başladı. İki qardaşı müharibədə həlak oldu. Səsi yerində olsa da, Səhab bir daha sənətə dönmədi»...Səhabdan söz açan xanəndə Ağakərim yazır: «Çox yaxşı xanəndə imiş. Ağam deyərdi ki, mən Mirzədən sonra Səhab kimi xanəndə görməmişəm. O çox güclü və zil səsə malik idi. Elə vaxt olarmış ki, zurnanın müşayiəti ilə oxuyarmış» **(6-55). Mirzə Səhab 1948-ci ildə vəfat etmişdir.**

## Mirzə Səlim
## (1850-?)

**Mirzə Səlim Məşədi Nağı oğlu** 1850-ci ildə **Şamaxının Sarıtorpaq məhəlləsində** doğulmuşdur. Deyilənlərə görə, o, S.Ə.Şirvaninin qohumu imiş. Mollaxana və mədrəsə təhsili alan bir şair idi. Gənclikdən saz və tar sənətinə meylini salmışdı. Özü də Mirzə Məhəmməd Həsənlə yaxın dost olub, onunla Mahmud Ağa məclisinə gedib-gəlib. İlk illərdə Mirzəni o müşayiət edib. Mirzə Məhəmməd Həsən sonralar Mahmud Ağa məclisinin əsas xanəndəsi olanda, onu Topal Məhəmmədqulu, Cavad, Humayi, Sadıqcan müşayiət etmişdir. Amma el məclisi, toylara Mirzə çox **vaxt Səlimlə gedərdi.** Bu barədə xanəndə Ağakərim Hafiz qeyd edir: «Mirzə Səlim tərifə sığmayan bir tarzən idi ki, Mirzə Məhəmməd Həsən ancaq onunla rahat çalıb-oxuyarmış» **(6-9).** Bununla yanaşı, Mirzə Səlim daha sonralar onun şagirdlərinin **Sarəng Zeynal, Mirzə Sahab, Mirzə Zülfüqarı da** müşayiət etmişdir. Mirzə Səlim Şamaxı ziyalılarının çoxu - **Seyid Cəfər, M.Ə Sabir, M.Mahmudbəyov, Səid Əfəndi, A.Səhhət və b.** ilə dost idi. Şamaxıda tar, saz sənətinin inkişafında Cavadla yanaşı, Mirzə Səlimin də xüsusi xidmətlərini qeyd etmək lazımdır.

Deyilənə görə, o, ötən əsrin 30-cu illərində vəfat etmişdir.

## Sarəng Zeynal
## (1869-1941)

**Sarəng Zeynal Mehdi oğlu** 1869-cu ildə (mənbələrdə o, **Sarəng** və ya **Çopur** ləqəbləri ilə də göstərilir) Şamaxının İmamlı məhəlləsində doğulmuşdur. Əvvəl mollaxana, sonra S.Ə.Sirvaninin məktəbində oxumuşdur. Gözəl səsə, rəvan təbə malik imiş. Onun atası Mehdinin də gözəl səsi vardı. Həm də Mahmud Ağa ilə həmtay, dost imiş. Muğamı Zeynal əvvəl

atasından öyrənmişdi. Zeynalı da Mirzə Məhəmməd Həsənlə atası tanış edir. Zeynalın 15-16 yaşı olanda, artıq Mirzə Mahmud Ağa sarayında fəaliyyət göstərən məşhur xanəndə idi. Bu illərdə Mahmud Ağa məktəbi üçün istedadlı gənclər toplanırdı. Zeynal da öz dərsini Mirzədən almış və Mahmud Ağaya verdiyi imtahandan da uğurla çıxmışdır.

Zeynal bütün məqamları xüsusi şövqlə, ustalıqla ifa edirdi. Şakəri isə «Şur», əsasən onun «Sarəngi» idi. «Sarəngi» demək olar ki, onun kimi oxuyan başqa xanəndə bəlkə də yox idi. «Sarəngi» özünəməxsus ecazkar, dinləyiciləri vəcdə gətirən bir səslə oxuduğu üçün ona həm Mahmud Ağa, həm sənət dostları, həm də şamaxılılar «Sarəng» təxəllüsünü vermişlər.

**Deyilənlərdən:** Zeynal, həm də çox mahir ovçu idi. Mahmud Ağa Kudri düzünə ova gedəndə öz adamları ilə Zeynalı da aparardı. Orada Zeynalı oxutdurar, zarafat edərdi. Xanəndə Ağakərim Nafiz yazır: «Ağam Əli bəy İsrafil bəy oğlu deyərdi ki, Sarəngi Zeynal oxuyanda elə zəngulə vurardı ki, elə bilərdin ki, Mirzə Məhəmməd Həsəndir. Zənguləsi uzun və sürəkli olardı.» **(6-51).**

Sarəng Zeynal elə həmin illərdə Aşıq Bilalla da yaxınlıq edib dostlaşır, onun səsinin vurğununa çevrilir. Sonralar o, uzun illər Aşıq Bilalın dəstəsində xanəndəlik eləmişdi. Səhab, Mirzə Zülfüqar, Aşıq Şamil kimi. Sarəng Zeynal həm də şair idi. Klassik üslubla yanaşı, aşıq şeiri üslubunda da əsərlər yazmışdır. Həm də bəstələri-təsnifləri olmuşdur. Mahmud Ağa Zeynalın baməzə şeirlərinin vurğunu idi. Mahmud Ağa özü də zarafatcıl olduğu üçün məclisdə ona məişət mövzusunda yazdığı şeirlərini də söylətdirər və ya bəzilərini də muğam üstündə oxutdurardı.

Köhnə şamaxılılar və qocaman sənətkarların yaddaşlarından Zeynalın bir neçə (yarımçıq) şeirlərini əldə edə bilmişik. Sarəng Zeynal Böyük Vətən müharibəsi başlayanda - **1941-ci ildə** vəfat etmişdir. Şeirlərindən yarpaqlar:

Nə baxırsan süzgün-süzgün?
Söylə, indi qəsdin nədir?
Qaşların da yaylı oxdur,
Söylə, indi qəsdin nədir?

***

Sən eylə bilirdin ki, sirrini aşkar edəcəm?
Həm səni dərdə salıb, hal əhlindən ar edəcəm.

## Bizim arvad

Gör nə günə saldı bu arvad məni?
Eylədi lap billahi bərbad məni.
Gündə deyir, ay kişi, ət alginan,
Mən yazığın bir halına qalginan.
Hər gecə də bir qoynuna alginan.
Yum gözümü xəyallara dalginan.

***

Ət yeməsəm, mən dönərəm lap çöpə,
Ay belə arvad nə ola tez köpə.
Salsa ayaq altına hərdən məni,
Durmağa qoymaz daha yerdən məni.
Ta ki, gərək lap soyuda hirsini,
Baş-gözümə endirəcək ərsini.

***

Yanbızıma bir-iki təpik endirir,
Gözlərimin lap işığın söndürür.
Gah da çırır üz-gözümü tərtəmiz,
Bax beləcə kef edirik gündə biz.
Döyülməkdə yox daha Zeynalda can,
Tümbətün olsun belə arvad doğan.

## Topal Məhəmmədqulu
## (1840-?)

**Topal Məhəmmədqulu** Əhməd Sultanın dostlarından olmuşdur. XIX əsr Şamaxının musiqi həyatından bəhs edən müəlliflərin əsərlərində quruca adı çəkilir. Həyatı, ömür yolu barədə geniş məlumat yoxdur. Tədqiqatçıların əsərlərindən onu öyrənə bildik ki, Şamaxıda yaşayıb, yaradıb, ziaylılarla dostluq edib; ilk dəfə Mirzə Məhəmməd Həsənin ustadı Kərbəlayi Mirzə Əkbəri müşayiət edib, məclislərə də birgə gedibdir. Mahmud Ağa məclisinə də Mirzə Əkbərlə gəlib.

Mahmud Ağa məclisini, Humayini, Sadıqcanı tanıyana qədər Mirzə Səlimlə məclislərdə daimi tar çalıbdır.

Mirzə dəvət aldığı Bakı, Tiflis, Qarabağ, İran məclislərinə də Topal Məhəmmədqulu ilə gedib. Bu barədə xanəndə Cabbar Qaryağdıoğlu xatirələrində yazır: **«Həmən bu Məhəmməd Həsəni 1888-ci ildə Bakıda olduğum vaxt şamaxılı Hacı Əlabbasın uşaqlarının toy məclisində görmüşdüm. O, toya tarzən Topal Məhəmmədqulu ilə gəlmişdi. Mən də yoldaşım tarzən Sadıqla dörd gecə həmin toyda iştirak etdim. Onun çox bilikli və gözəl səsə malik olduğunu orada yəqin etdim»...**

1888-ci ildə Mirzə Məhəmməd Həsən 36, Sadıqcan 42, Cabbar isə 27 yaşındaydılar. Belə hesab etmək olar ki, Məhəmmədqulu da 45 yaşlarında olub. Beləliklə, Məhəmmədqulunun doğum tarixi təxminən, 1840-cı ilə müvafiq gəlir.

Faktlar göstərir ki, Topal Məhəmmədqulu məşhur xanəndə Mahmud Ağa məclisində uzun illər tarzənlik etmiş, eləcə də bu sənətin Şamaxı mühitində təbliği, yayılması və gənc nəslə aşılanmasında ustad müəllim kimi çalışmışdır. O, ustad tarzənlər - Mirzə Səlim, Sadıqcan, Mirzə Fərəclə uzun illər dostluq etmişdir....

Ustad sənətkarın nə vaxt vəfat etdiyi məlum deyildir.

## Mirzə Mehdi
## (XIX –XX əsr)

Mahmud Ağa məktəbinin yetirmələrindən bir də **Mehdi** idi. O, həmin illərdə Mirzə Məmmədhəsəndən dərs alan ən istedadlı tələbələrdən idi. Özü də böyük şair Seyid Əzim Şirvani ilə dost, XIX əsrdə Şamaxıda məşhur xanəndə olmuşdur. Repertuarında Məhəmməd Füzuli və S.Ə.Şirvani qəzəlləri geniş yer tuturdu. Mahmud Ağa məclisinin sayılıb-seçilən üzvlərindən idi. Ustad xanəndələrlə çox müsabiqələrdə iştirak etmiş, Şamaxıda dəfələrlə birincilik qazanmışdı. Xatirələrdən bəlli olur ki, şakəri «Rast» olmuşdur. Dəsgahda **«Əraq» və «Pəncgah»** şöbələrini bənzərsiz ifa edirmiş. Mahmud Ağa və S.Ə.Şirvani Mehdinin «Rast»ının vurğunları idilər. S.Ə.Şirvani onun səsinin aludəçisi olduğu üçün məşhur **«Guş qıl»** müxəmməsinin son bəndində tövsiyə edir ki, bu dürlü müxəmməsi ancaq Mehdi ustalıqla ifa edə bilər. Özü də dostu, o illərdə **Şamaxının prokuroru olmuş Kərim bəy Şıxəlibəyovun (1844-1920)** hansısa olduğu bir məclisdə. Çünki prokuror olmasına baxmayaraq, zəngin ailədən olan Şıxəlibəyovlar poeziya-muğamatın pərəstişkarları olmuşlar. Bu nəslin bir çox üzvləri maarifçi, ziyalı olduğu kimi, S.Ə.Şirvani ilə dost olmuş, Mahmud Ağa məclisinə isə zinət verənlərdən idi.

Ey könül, məhrəmi-raz eyləmə biganələri,
Vermə nahəl əlinə bu dolu peymanəli,
Çək rümuzat ilə zülfü-süxənə şanəli,
Seyida, Mehdiya yalvar ki, bu dürdanələri,
Eyləsin məclisi-səhvari-Kərim bəgdə nisar.

O, ustad Aşıq Bilalla da bir müddət xanəndə kimi məclislərə getmişdir. XIX əsrdə Şamaxıda fəaliyyət göstərmiş aşıq və xanəndələrin yetişməsində ustad xanəndə **Mehdinin də** əməyi çox olmuşdur...

## Tağlabiyanlı Soltan
## (1870-1939)

**Soltan Haşım oğlu** təxminən, 1870-ci ildə Şamaxı qəzasının Tağlabiyan kəndində doğulmuşdur. Şamaxıda mollaxanada oxumuşdur. **O, Aşıq Şamilin dayısı idi.** Qeyd etdiyimiz kimi, vaxtilə Aşıq Şamillə lap ixtiyar yaşlarında görüşdük. Dediyinə görə, «ata tərəfində olduğu kimi, ana tərəfindən də saz, söz aşiqləri çox olmuşdur. **Anamın özünün və dayım Soltanın gözəl səsi olmuşdur.** Dayım aşıq xanəndəsi idi. Uzun müddət Şamaxıda yaşamışdır. Muğamların yol-yolağacını Mirzə Məhəmməd Həsəndən öyrənmişdi. Eləcə də şakəri olan «Şüştər» muğamını... «Mən də şakərim olan «Şüştəri» dayımdan öyrənmişəm. Şagirdlərim də məndən». Şamil bir də deyirdi ki, səsi zil olduğu üçün Mahmud Ağa dayım Soltana həmişə «Şüştər»in zərb muğamlarını və «Gərayı»nı zurnaya oxudardı. Mükafatını da əsirgəməzdi. Dayım Aşıq Bilalla da birlikdə Mahmud Ağa məclisinin ən cavan və istedadlı sənətkarlarından idi. Dayım ötən əsrin otuzuncu illərinə kimi Aşıq Bilalla məclislərə getmişdi. Mən də xanəndə və şagird kimi...»

Mahmud Ağa məktəbinin yetirməsi, Mirzə Məhəmməd Həsən və Aşıq İbrahimin şagirdi ustad sənətkar **Soltan Haşım oğlu 1939-cu ildə** vəfat etmişdir.

## Süleyman Hacı Qəni oğlu
## (1872-1940)

**Süleyman Hacı Qəni oğlu** 1872-ci ildə Şamaxının Şıxzərəli məhəlləsində doğulmuşdur. Mollaxanada oxumuşdur. Mirzə Məhəmməd Həsənin istedadlı şagirdlərindən biri olub. O, Mirzənin şagirdi kimi, Mahmud Ağa məclisində də iştirak etmişdir. **Nəvəsi Yaqut xanımın dediklərindən:** «Babam cavanlıqdan musiqi aşiqi, həm də Mirzənin səsinin vurğunu olub. Nəhayət, onunla tanış olur, dostlaşır. Babamın səsi çox zil olmasa da, muğam yollarını Mirzədən tam öyrənmişdi. Mahmud Ağa məclisində iştirak edər, «Segah»ı xüsusi şövqlə oxuyarmış. Mahmud Ağa babamın xətrini çox istəyirmiş. Oxuduğu «Segah»a yüksək qiymət verərmiş. Məktəbinin cavan xanəndələrinə «Segah»ı Süleymandan öyrənməyi məsləhət edərmiş. Babam Mahmud Ağa rəhmətə gedəndən sonra Mirzə ilə çox məclislərə gedib. Qardaş kimi olublar. Babam atamın və əmimin ustadı olmaqla yanaşı, sənəti çoxlarına öyrədib. Özü də Mirzə Məhəmməd Həsən yolunu... Atam Əliyusifin səsi, babamın səsi kimi pəs, əmimin səsi isə çox zil olub. Atam **Əliyusif (1911-1974), əmim İrza (1915-1945)** görkəmli xanəndə Xan Şuşinski, şair Əliağa Vahidlə dost olublar. Atam Şamaxı, Kürdəmir aşıq və xanəndələrinə muğam, xalq mahnılarını ustalıqla öyrətmişdir. Əmim dünyasını vaxtsız dəyişdi. Bu faciyəyə şair Əliağa Vahid şeir də yazmışdı:

Vahid, inanma ömrə ki, ölümsüz olmaz,
Fələkdir əldən alan Yusifin İrzasını bil.

1918-ci ildə erməni cəlladlarının Şamaxıda törətdiyi qırğın və faciələrdən sonra Süleyman kişi ailəsi ilə Kürdəmirə köçür və orada yaşayır. **O, 1940-cı ildə orada vəfat edir.**

## Molla Əli Abbas (XIX-1918)

**Molla Əli Abbas Ətşan (Sussuz) Şirvani** XIX əsrdə Şamaxı şəhərində doğulmuş və orada təhsil almışdır. O, məşhur şair Abbas Səhhətin atasıdır. Ərəb və fars dillərini mükəmməl bilmiş, fars və Azərbaycan dillərində şeirlər yazmışdır. Bu əsərlər məhəbbət mövzusunda olan qəzəllər, dini mövzuda mərsiyələr və ailə-məişət mövzusunda olan satirik şeirlərdən ibarətdir. Şairin şeirlərinin az bir qismi məlumdur. O, Mahmud Ağa və atası Əhməd Sultanla yaxın olmuşdur. Molla Əli Abbasın açdığı məktəbə Mahmud Ağa maddi dəstək vermişdir. Əli Abbas Mahmud Ağa və «Beytüs-Səfa» məclislərində də yaxından iştirak etmişdir.

Ətşan uzun müddət müəllimlik etmişdir... Əli Abbas, oğlu Səhhətlə eyni gündə Gəncə şəhərində vəfat etmiş və orada dəfn olunmuşdur. Əli Abbasın şeirlərindən bircə yarpaq:

Bilmirəm qəsdi nədir, dust məni yar eləməz,
O qədər cövr eyləyir kim onu əğyar eləməz.

Görübən hiss eləyir şəm kimi yanmağımı,
Sanki daşmış ürəyi, zərrə ona kar eləməz.

Başqa bir nakəs ilə hər gecə qarmışdan ötür,
Düşmürəm yadinə mən, görsə dəxi ar eləməz.

Bilirəm, ömür keçir, surəti-halim dəyişir,
Hansı məxluqdur axirdə fələk xar eləməz?

Öldürər zülmilə ol, söz deməyə verməz aman,
Belə birəhmliyi Şümru-xətakar eləməz.

Əmmədim ləblərini, axiri Ətşan oldum,
Tulladı bəhri-qəmə, indi də qəmxar eləməz.

## Naci Şirvani
## (1824-XIX əsrin sonu)

**Molla Qədir Naci (Qurtulan) Şirvani** 1824-cü ildə Şamaxının Sarıtorpaq məhəlləsində anadan olmuşdur. Mədrəsə təhsili almış, Seyid Əzimlə dost olmuşdur. Mahmud Ağanın həmyaşıdı olub, onunla qonşu məhəllədə böyümüşdür. Ağanın musiqi məclisinin daimi iştirakçılarından idi. Klassik üslubda şeirlər yazmışdır. Şairin şeirlərinin bir qismi müxtəlif cünglərdə, əlyazmalarda qorunub saxlanılır. Onun haqqında ilk dəfə **ədəbiyyatşünas Firidun bəy Köçərli** bəhs etmişdir. Nacı Şirvani XIX əsrin sonunda Şamaxıda vəfat etmişdir. Onun bir şeirini təqdim edirik.

Saqiya, bir cam ilə könlümü xoşhal qıl,
Eylə möhnətəm məni azad, fariğbal qıl.

Məsti-kamil et məni, gər bir də tutsam nami-qəm,
Xuşeyi-əzigurə nisbət cismimi pamal qıl.

Yox sənin rəyindən özgə xahişim, mən xəstəni,
Xatirin hər nəhv kim, istərsə, ol minval qıl...

Ey iki dünyadə ovqatın səlamət istəyən,
Rastguluq pişə et, yoxsa zəbanın lal qıl.

Nəfsi-şumə olma tabe, - işləmə əfali-bəd,
Olsa gər həqdən inayət, xoş olan əmal qıl.

Bu fəna sərmənzlində kam sürməkdən nə sud,
Cəhd qıl bir tuşə axır mənzilə risal qıl.

Kuyi-canan mənzilin olmaq dilərsən,
Naciya, keç cahanın ləzzətindən, tərkü-mülkü mal qıl.

## Əli Əkbər Qafil
## (1828-1891)

**Əkbər Namaz oğlu Qafil (Qayıdan)** 1828-ci ildə Şamaxının Sarıtorpaq məhəlləsində, baqqal ailəsində doğulmuş və orada mükəmməl mədrəsə təhsili almış, fars dilini öyrənmişdir. Böyük ədəbiyyatşünas F.Köçərli yazır: **«Qafil sinndə Hacı Seyid Əzimdən böyük imiş, Şamaxıda müsəlman məktəbindən başqa bir yerdə təhsil etməyibdir» (8-92).**

O, «Beytüs-Səfa» ədəbi məclisinin fəal üzvlərindən biri idi. Müasiri olan Şirvan şairlərinin əksəriyyəti ilə dostluq etmişdir.

Qafilin yaradıcılığı əsas etibarı ilə məhəbbət mövzusunda yazılmış qəzəllərdən və dini mövzulara həsr edilmiş mərsiyələrdən ibarətdir. Öz yaradıcılığında o, S.Ə.Şirvaninin yolu ilə getmiş, ona xeyli nəzirələr yazmışdır. Qafılin əsərləri pərakəndə haldadır, indiyə qədər toplanıb nəşr edilməmişdir.

O, Mahmud Ağanın qonşusu, həmtayı və yaxın dostu olmuşdur. «Beytüs-Səfa» məclisindən əvvəl Mahmud Ağa məclisində iştirak etmişdir. Qafilin atası Namaz Əhməd Sultanın həmtayı, yaxını idi və musiqi axşamlarında iştirak edərdi. Qafil 1891-ci ildə Şamaxıda vəfat etmiş və **«Şahxəndan»** qəbiristanlığında dəfn olunmuşdur.

Şeirlərindən bir yarpaq:

Mənə ol dilbəri-ahunigah müddətdi ram olmaz,
Nə bir vəsli mənə məqdur, nə də ömrüm tamam olmaz.

Könül, ol dilbəri xud kamidən çək kamə yeməkdən,
Neçün nakamlıqdan yaxşı hiç aləmdə kam olmaz.

Həbibim, Kəbeyi-kuyində sərkərdan olan aşıq,
Dolanıb başına qurbanın olsa biməqam olmaz.

Könül, olsa müyəssər vəsli-dilbər, nəqd candan keç,
Ki, bazari-məhəbbətdə bu sovdalar müdam olmaz.

Haram olmuş əgər qan tökmək, ey məh, leyk üşşaqın,
Gözün qurbani, tök qanın, halalındır, haram olmaz.

Ola hər mülki-dil ləşgəri-qəmzən güzərgahi,
Düşür rövnəqdən, əsla onda qanuni-nizam olmaz.

Verib canənə can, Qafil, gəl indi sən də bir ad et,
Ki, əhli-eşq namindən səya aləmdə nam olmaz.

## Aşıq İbrahim
## (1830-1916)

**Aşıq İbrahim Hacı Gülü oğlu** 1830-cu ildə Şamaxı qəzasının, Əhgəxaran kəndində anadan olmuşdur. O, sənətin sirrini həmyerlisi Aşıq İslam Bayram oğlundan **(1808-XIX əsrin sonu)** öyrənmişdir. Şirvan aşıq sənətinin inkişafında xüsusi xidmətləri olmuşdur. Bir çox havacatlar bəstələsə də, onlardan ancaq biri – **«İbrahimi peşviri»** gəlib günümüzə çatmışdır. Mənbələrdə yazıldığı və xatirələrdə deyildiyi kimi o, Mahmud Ağa məclisi və «Beytüs-Səfa»ya yaxın olmuşdur. İxtiyar yaşında Şamaxı Cümə məscidində məlahətli və zil səsi olduğu üçün azan verərmiş. 0,1916-cı ildə vəfat etmişdir. Onun da bir şeirini təqdim edirik.

### Gəlmişəm

«Nəzər haxdı», - doğru deyib atalar,
Qurulu yay idim gözə gəlmişəm.
Vurğunuyam bu müqəddəs sənətin,
Ülfət qılıb saza-sözə gəlmişəm.

Uca zirvələrdə mən də var idim,
Fələk vurdu qətrə-qətrə əridim,
Öz mülkümdə bir istəkli yar idim,
Dağlardan enmişərn, düzə gəlmişəm.

İbrahiməm, getməz könlün qubarı,
Vədəsiz itirdim vəfalı yarı,
Bir də görə bilsəm, o vəfadarı,
Sanaram dünyaya tazə gəlmişəm.

### Molla Ağa Bixud
### (1830-1892)

**Molla Ağa Hacı Molla Tağı oğlu Bixud (İxtiraysız)** 1830-cu ildə Samaxı şəhərində Qarabazar məhəlləsində ruhani ailəsində doğulmuşdur. Şamaxıda mollaxana və mədrəsədə ərəb, fars dillərini öyrənmişdir. Bir müddət memarlıq etmiş, sonra ticarətlə də məşğul olmuşdur. Bixud Şərq ölkələri, Orta Asiyaya səyahətlər etmişdir, klassik üslubda əsərlər yazmışdır. «Beytüs-Səfa» məclisinin müsabiqəsində M.Füzulinin «Olmaz» rədifli qəzəlinə nəzirə yazanlar arasında **Bixud birincilik** qazanmışdır.

S.Ə.Şirvani Şamaxıda olmayanda «Beytüs-Səfa» məclisinə Bixud rəhbərlik etmişdir. **S.Ə.Şirvani dostu haqqında yazır:** «Sinni-şərif otuz salda, qüvveyi-təbi sərhəddi-kəmaldə. Əlhəq ki, bir şairdir şirinkəlam və əşari-lətifi pəsəndideyi-xasü

əvzam. Əksər kəlami aşiqanə, bəlkə ataş-dərunundən bir təbanə» **(17-123).** Mənbələrdə qeyd edildiyi kimi, şairin «Divanı» olmuşdur. Amma həmin şeirlər toplusu hələlik əldə edilməmişdir. Ə.Cəfərzadənin dediyinə görə, 1902-ci ildə zəlzələ Bixudgilin də evini alt-üst etmişdir. Şeir əlyazmaları da yəqin ki, onda məhv olmuşdur. AMEA-nın Əlyazmalar İnstitutunda şairin bir qrup şeirləri saxlanılır. Molla Ağa Bixudun bir şeiri vaxtilə «Ziya» qəzetində işıq üzü görmüşdür.

Bixud Mahmud Ağa və atası Əhməd Sultanla simsar idi. **Əhməd Sultan** karvansarasının bir guşəsini «Beytüs-Səfa»ya verdikdən sonra daha da yaxın olmuşlar.

Natəvan məclisinin üzvləri Şamaxıya gələndə Bixud onlarla birlikdə dostu Mahmud Ağanın keçirdiyi musiqi yarışlarında ustad kimi iştirak edərdi. Bixudun oğlu **Molla Salman sonralar Şəkkak** təxəllüsü ilə şeirlər yazmış, 1902-ci il zəlzələsindən sonra Türkmənistana köçmüşdür...

Molla Ağa Bixud haqqında **F.Köçərli, S.Mümtaz, F.Qasımzadə, Əzizə Cəfərzadə, N.Qarayev, Əhməd Cəfərzadə** və bu sətirlərin müəllifi və b. bəhs etmişlər.

F.Köçərli şairin ölüm tarixi barədə yazır: **«Hicrətin 1310-cu sənəsində (m.1892) 62-63 yaşında axirət mənzilinə köç edibdir. Vəfatı vəba naxoşluğundan olubdur» (10-21). Onun bir qəzəlini ərməğan edirik.**

Hansı aşiq can sənə mən kimi qurban eyləmiş,
Hansı məşuq aşiqin sən kimi nalan eyləmiş?

Hansı bülbül gülçün etmiş sinəsin mən kimi çak,
Hansı gül sən kimi bülbül bağrını qan eyləmiş?

Hansı seyid olmuş kəməndi-zülfivə mən tək əsir,
Hansı səyyad öz şikarın təşnə büryan eyləmiş?!

Şəmi-ruyün hansı məfhil içrə olmuş şələvər,
Buyi-muyün hansı bəzmi ənbəristan eylərmiş?

Kim fənayə verdi nəqdi-ömrünü Bixud kimi,
Kim mənim tək canını cananə qurban eyləmiş?

## Seyid Əzim Şirvani
## (1835-1888)

**Seyid Əzim Seyid Məhəmməd oğlu Şirvani** 1835-ci il iyul ayının 10-da Şamaxının **Qalabazar məhəlləsində** ruhani ailəsində doğulmuşdur. Atası vəfat etdikdən sonra ana babası Molla Hüseynin himayəsində böyümüş və ərəb, fars dillərinə kamil yiyələnmişdir. Sonra o, ali ruhani təhsili almaq üçün İraqa gedir - Nəcəf, Bağdad və Şamda oxuyur. Təhsilini başa vurduqdan sonra doğma Şamaxıya qayıdır, əsasən məktəbdarlıqla məşğul olur. Bir müddət Şamaxıda yaşayır, ikinci dəfə səfərə çıxır. Məkkə, Mədinə, Qahirədə olur. Ömrünün sonuna kimi «Beytüs-Səfa» məclisinə rəhbərlik edir.



*S.Ə.Şirvani*

O, XIX əsrdə Şamaxıda yaşamış gənc ziyalıları – S.Ünsizadə, S.M.Qənizadə M.Mahmudbəyov və b. ilə dost, Mahmud Ağa ilə həmfikir, əməl yoldaşları olmuşdur. Mahmud Ağaya həsr etdiyi şeirlərində ona münasibəti aydınca bilinir. Hər iki əqidə, əməl dostu Şamaxıda maarifin, muğam sənətinin, poeziyanın inkişafına xüsusi köməklik göstərmişdir. Mahmud Ağa şairin «Beytüs-Səfa» məclisi və «Üsuli-Cədid» məktəbinin maddi durumuna köməyini əsirgəməmişdir.

XIX əsr Azərbaycan ədəbiyyatının qüdrətli sənətkarlarından sayılan S.Ə.Şirvani «... nəinki yalnız Şirvan vilayətinin, bəlkə tamami Azərbaycan türklərinin şüərasından biri olub» **(F.Köçərli).**

Mahmud Ağa məclisinə Orta Asiya, İran, Tiflis və Şuşadan gələn qonaqları da S.Ə.Şirvani qarşılar, müsabiqələrə başçılıq edərmiş.

**Haşiyə:** Atası Seyid Məhəmməd vəfat edəndən sonra o, Dağıstanın Yaqsay kəndində çalışan ana babası Molla Hüseynin himayəsində yaşamış, tərbiyə almışdır. S.Ə.Şirvani 1853-cü ildə anası Gülsüm xanımla Şamaxıya qayıdır. Bir il sonra Gülsüm xanım 19 yaşında olan oğlunu qohumu və qonşusu Bikə xanımın qızı Ceyran xanımla evləndirmişdir. Şamaxıda Seyid Məhəmmədin ocağına hörməti olan bütün insanlar Seyid Əzimin toyunda yaxından iştirak edirlər. O cümlədən, Seyid Məhəmmədin yaxın dostlarından olan Əhməd Ağa da. Həmin vaxtdan sonra Seyid Əzim bu ailəyə, eləcə də Mahmud Ağaya daha da yaxınlaşır. Bu yaxınlıq sonra da əqidə dostluğu, əməl dostluğuna, sənətə, poeziyaya, muğama bağlı olan insanların dostluğuna çevrilir. S.Ə.Şirvaninin dəfnini də Mahmud Ağa təşkil edir.

Seyid Əzim Şirvani 1888-ci il may ayının 20-də Şamaxı şəhərində vəfat etmiş və «Şah xəndan» qəbiristanlığında torpağa tapşırılmışdır.

Həmin gündən Mahmud Ağa atasının məsləhəti ilə S.Ə.Şirvani ailəsinin qayğısını çəkməyə başladı. Bu zaman şairin böyük ailəsi - **oğlu Seyid Cəfər (1852-1937)** otuz altı, qızları Seyid Həcər (1856-1935) otuz iki və Seyid Fatma (1860-1936) iyirmi səkkiz, həyat yoldaşı Gülsüm xanım (1840-1900) isə altmış yaşında idi. Bu böyük ailənin bütün qayğılarını Mahmud Ağa öz çiyinlərinə aldı. Azərbaycanın böyük şairinin ailəsini heç nəyin xiffətini çəkməyə qoymadı.

**S.Ə.Şirvaninin qız nəticəsi, şair Arif Səfa babası haqqında nənəsindən eşitdiklərini belə xatırlayır: "**Nənəm Şa-

maxı, onun istedadlı övladları, xeyriyyəçi Mahmud Ağa haqqında çox danışardı, özü də böyük həvəs və ehtiramla. Seyid babamla olan münasibətlərindən, bir-birinə ehtiram və dostluqlarından. Mahmud Ağa bu ehtiramı uzun illər qoruyub saxlamışdır. Onun qırxını, ilini də vermiş və qəbri üstünə sinə daşını da o, qoydurmuşdur. Məzarın üstündəki, qəzəli də Mahmud Ağa seçmişdir. Babam Seyid Cəfərlə birlikdə. Məzar daşının ikinci tərəfindəki «hədisdən» olan yazıları isə oğlu seçib, məsləhət bilmiş, həkk etdirmişdi".

## Mirzə Məhəmməd Həsən Nalə
## (1851-1917)



*Mirzə Məhəmməd Həsən*

**Mirzə Məhəmməd Həsən Fələkzadə Nalə dabbaq İsmayıl oğlu** 1851-ci ildə Şamaxının **Sarıtorpaq məhəlləsində** anadan olmuşdur. Mollaxana və mədrəsədə oxumuşdur. Ərəb və fars dillərini mükəmməl öyrənmiş, Şərq poeziyasına bələd olmuşdur. Atası onu ruhani görmək istədiyi üçün hələ 15-16 yaşında atası onu «İmamlı» məscidində axundun yanına aparır.

Həmin illərdə böyük xeyriyyəçi Mahmud Ağa Əhməd Sultan oğlunun adı-sanı, musiqi məclisinin sorağı çox yerlərə gedib çatmışdı.

Musiqi bilicisi Mahmud Ağa bir təsadüf nəticəsində onun səsinin bənzərsizliyini bilir, onu məclisində olan ustad xanəndələrə tapşırır.

Məclisin ən məşhur xanəndələrindən biri də Kərbəlayi Əkbər Hacı Tahir oğlu idi. Məhəmməd Həsənin məlahətli səsi onu da tutur. Odur ki, qonşusu Məhəmməd Həsəni özünə şagird qəbul edir. Gənc xanəndə sonra Çopur Nəcəfqulu, Mehdidən çox mətləbləri öyrənir. Azərbaycanın bülbül cəh-cəhli xanəndələri **- Hacı Hüsü, Məşədi İsi, Cavad, Segah İslam, Cabbar Qaryağdıoğlu** və başqaları Məhəmməd Həsən haqqında həmişə hörmətlə söz açmış, Cabbar isə daim ona öz ehtiramını bildirmişdir.



*Şamaxı. M.M.Həsən Nalənin anım gününün iştirakçıları – filialın tələbələri, f.e.d S.Qəniyev ( soldan ikinci) və mədəniyyət şöbəsinin əməkdaşları - Ə. Təhməzov, R. Tağızadə*

**Mənbələrdən:** Cabbar Qaryağdıoğlu Mirzə Məhəmmədin yaradıcılığına həmişə yüksək qiymət verərmiş, **pencəyinin döş cibində onun «Naləsi»ni gəzdirərmiş. Qaryağdıoğlunun «Xatirə» dəftərində «Çahargah» dəsgahından da bəhs olunur. Klassik şairlərin şeirlərindən, təsnif və muğam şöbələrindən nümunələr gətirirdi. Ustad xanəndə «Hisar»dan sonra gələn təsnifə farsca bu şeiri nümunə göstərir:**

**«...Əzçi pir süd,**
**Bəh, bəh, bəh, bəh!**
**Nə xürdə şir ariz əş cəra,**
**və cənk siri süd,**
**Bəh, bəh, bəh, bəh!**
**Carqədəş xoş-xoş mikunəd,**
**Yarəm biləm qəş mikunəd,**
**Qəş, qəş, qəş, qəş...**

Bundan sonra «Mənsuriyyə» başlanır. «Mənsuriyyə»də bu qəzəli Mirzə Ələkbərin şagirdi məşhur xanəndələrdən olan Mirzə Məhəmməd Həsən Şirvani çox gözəl oxuyardı...»

Hər ki zifirət və səlumat bu rəst,
Mi nətəvan quft ki, sahib dil əst.
Vəsmə hərəm əst fədun əbruvan,
Sürmə hərəm əst fədun çəşmi məst.
Mişənəvi Yusifi qissəyi,
Vay bəranan ki, buridənd dəst.
Seyyidi biçarə nə indəm fitad,
Dərd tələbət bud fəruzi əl əst.



*Şamaxı.Mahmud Ağanın dostu məşhur xanəndə Mirzə Məhəmməd Həsənin anım gününün iştirakçıları*

Bəli, Məhəmməd Həsən dostu Mahmud Ağanın məclisinin xarı bülbülü olur. Ağanın elə bir qonaqlıq məclisi, müsabiqəsi olmazdı ki, Mirzə orada başda əyləşməsin...

**Haşiyə:** Xanəndəlik sənətinin sirlərini mükəmməl öyrənən Mirzə Məhəmməd Həsən bütün muğamları cani-dildən oxuyardı, duzlu xalları, insanı bihuş edən zəngulələri ilə dinləyiciləri valeh edərdi. Şakəri olan «Şur»u ayrı cür ifa edərdi, sanki o, «Şur» üçün doğulmuşdu. Bir sözlə, Mirzənin «Şur»u o illərdə Mahmud Ağanın muğam məclisində iştirak edən gənc xanəndələr üçün bir məktəb idi.

Ustad xanəndə musiqişünas Mahmud Ağa kimi, muğam, təsnif üçün söz-qəzəl seçməkdə də mahir idi.

Bakı, Şuşa, İran xanəndələrinin qatıldığı məclisdə həmişə Məhəmməd Həsən xüsusi mükafata layiq görülərdi. Mirzə

Məhəmməd Həsən ömrünün ixtiyar çağına qədər fərəhlər içində yaşamış, yoxsulluq, aclıq, kədər-qəm nə olduğunu bilməmişdir. Atalar demiş, «kiminin əvvəli, kiminin axırı».



*Tədbir iştirakçıları (soldan) rayon Qadınlar Şurasının sədri N.Abdulrazaqova, f.e.d. S.Qəniyev, əməkdar incəsənət xadimi N.Axundov, f.e.n. E.Eminalıyev və rayon mədəniyyət evinin direktoru M.Kamilova*

Mirzənin ömrünün sonu təəssüf ki, sevincdən, qürrədən uzaqlaşaraq kədərə bələnir. Gözləri işığını itirib zəifləyir, qulaqları da tutulur. Deyilənlərə görə, Şamaxıda kimsəsi olmayan sənətkar əlacsızlıqdan 1916-cı ildə Göyçaya köçüb yaxınlarına pənah aparmış, l917-ci ildə burada haqq dərgahına qovuşmuşdur. Sağlığında dostu Ağaəlibəy Nasehə vəsiyyət etmişdi ki, onu dostu, musiqi xiridarı Mahmud Ağanın uyuduğu «Laləzar» qəbiristanlığında dəfn etsinlər.

**Əfsuslar ki, ustad xanəndə Mirzənin son arzusunu yerinə yetirən olmadı. Bu azmış indi məzarının da yeri kimsəyə bəlli deyil.**

Məhəmməd Həsənin yaradıcılığı haqqında əldə edilən bilgilər, xatirələr və onun şeirləri 2000-ci ildə nəşr olunan **«Mirzə Məhəmməd Həsən Fələkzadə, «Nalə»** kitabında işıq üzü görmüşdür. Şairin "Olsun" rədifli qəzəlini diqqətinizə çatdırmağı vacib bildik.

Nigara, zülfünə tapşır üzündən bir kənar olsun,
Tökülsün gərdənə çin-çin yerində bərqərar olsun.

Götür zülfün üzündən ta görünsün qəbqəbi xalın,
Sevənlər söyləsin əhsən, rəqibim şərmismar olsun.

Əgər zülfün tutar ruyin pərişan hal olur halim,
Rəva görmə sınıq könlüm, dağılsın tarmar olsun.

Səni məndən cuda qılmaqdı virdinaşı əğyarın,
Dolansın qoy o bədxanə qəsəm həşti cahan olsun.

Fələk cövr ilə sən Yusifliqadan mən cida düşdüm,
İnanma Yaqubun qəlbində mən tək intizar olsun.

Məni dəfn elə Mahmudun yanında ölsəm, ey Naseh,
Fəqət bu **Mirzənin də mədfəni qoy «Laləzar»[1] olsun.**

**Haşiyə:** 2011-ci il may ayının 14-də Şamaxıda Mirzə Məhəmməd Həsənin anadan olması münasibəti ilə möhtəşəm tədbir keçirildi. Həmin tədbirdə mesenat Mahmud Ağa da yad edildi, anıldı. Yubileydə Şamaxı Rayon İcra Hakimiyyəti,

---

[1] Mahmud Ağanın uyuduğu "Laləzar" qəbiristanlığı

aparatın bütün işçiləri qədirbilənliklə iştirak etdilər. Məclisə respublikamızın görkəmli alim, ziyalı və sənətkarları da dəvət olunmuşdu.



*Şəkildə (ortada), prof. S.Qəniyev, xalq artisti A.Qasımov və muğam müsabiqəsinin iştirakçısı M.Mirələmov (Şamaxı)*

## Səid Ünsizadə
## (1831-1912)

Hacı Səid Əfəndi Əbdürrəhman oğlu Ünsizadə **1831-ci ildə**[1] **Şamaxıda ruhani ailəsində** dünyaya gəlmişdir. İstanbul və Bağdadda mükəmməl təhsil almış, **«Ziya» və «Ziyayi-Qafqaziyyə»** qəzetlərinin naşiri və redaktoru olmuşdur. Səid **«Hami»** təxəllüsü ilə şeirlər yazmışdır. «Beytüs-Səfa» məclisinin üzvü idi. Mənbələrdə onun «Beytüs-Səfa» ədəbi şairlər məclisinə yaxınlığı müəyyən faktlarla təsdiq edilir. Səid 1883-cü ildə Tiflisdə nəzmlə yazılmış **«Qiraət»** kitabını nəşr etdirmişdir. Səidin atası və qardaşları da şair olmuşlar.

**Yaddaşlardan**: Onun qardaşları - **Cəlal, Kamal** mətbuat, maarif və məktəblərin inkişafında xüsusi xidmət göstərmişlər. Onun yazdığı «Şəriət» kitabının bir nüsxəsi yaxın qohumu, xanəndə Ağakərim Nafizin atasıgildə imiş. Kimsə aparıb qaytarmayıb.

Səid də 1890-cı ildə Türkiyəyə köçmüş **və 1912-ci ildə orada vəfat etmişdir.** S.Ünsizadənin xeyli publisistik məqalələri, poetik məktubları, mədhiyyə, zikr, minacat, qəsidə və s. formada əsərləri vardır. Onun poeziyasından bir yarpaq təqdim edirik:

Uçub könlüm quşu varmış yenə təlimi üqbayə,
Tapıb bir müğbeçə tərsa girib onla kəlisayə.

Odur ol Xosrovi-şöhrətinümayi-kişvəri-danış,
Dəyişməm yüz behiştin nəzmini şəhri-Buxarayə.

Həriri-nəzmi-rənginin edər payində payandaz,
Əgər ol Yusifi-sane gedə ol nəqşi-zibayə.

---

[1] Səidin anadan olma tarixi bəzi mənbələrdə 1845-ci il kimi də qeyd olunur

Xətasın bildirərdi Davudun ləhni bəlagətdə,
Əgərçı ol nəbi cürətlə gəlsəydi bu dünyayə.

O sərv, qamətə tuba demək, vallahı nöqsandır
Bərabər varmı bu dəhri-zamanda ol çəlipayə.

O çeşmi ləblərin, kirpiklərin qurbanı olum mən,
Fədda qıldım ona mülkü, zərü zibavü sənnayə.

Əgər Harmi desə yandım, yəqin ki, dilbəri gəlmiş,
Çəkir zəbh etməyə bu dəm Xəlili-Minayə.

## Mahmud Ağa və Abbas Səhhət məclisi



*Abbas Səhhət*

XIX əsrdə Şamaxıda fəaliyyət göstərən ilk şəxsi təhsil ocaqlarından biri Abbas Səhhətin atası Molla Əli Abbasın məktəbi olmuşdur. Mahmud Ağa Molla Əli Abbasın məktəbinə həmişə əl tutub. Abbas Səhhət gözəl şair idi, klassik üslubda şeirlər yazırdı. S.Ə.Şirvanı və Mahmud Ağa məclisinə yaxın insanlardan idi.

Əli Abbas Şamaxıda fəaliyyət göstərən hər iki məclisdə iştirak edər, oğlu Səhhəti də gənc yaşlarında - 1890-cı illərdə Mahmud Ağanın da məclisinə qatıb. A.Səhhət keçmiş «Beytüs-Səfa» məclisinin bir çox üzvləri ilə yaxından tanış olaraq, dostlaşmışdı.

Bu illərdə o, tay-tusları arasında musiqi vurğunu kimi də seçilirdi. Onun dostları M.Ə.Sabir, Ağaəli bəy Naseh, M.Mah-

mudbəyov, S.M.Qənizadə, İsmayıl bəy Veysov Şamaxıda maarifin, məktəblərin təbliğinə xüsusi diqqət yetirirdilər.

A.Səhhət İranda təhsil almağa gedəndə əqidə dostlarından, eləcə də musiqidən uzaq düşür. Şamaxıya qayıdanda isə görür ki, artıq «Beytüs-Səfa» məclisinin üzvlərinin bir çoxu, eləcə də Mahmud Ağa dünyasını dəyişmiş, məclislər bitmişdir. Amma onun canından-qanından həmin məclislərin havası getmir. Qəzələ də meyli çoxalmışdı. Belə ki, gənclik illərindən Mahmud Ağa məclisinə qatılanda M.Füzuli, Sədi, Hafiz, S.Ə.Şirvanini daha çox oxuyar, qələmini o səpkidə sınayardı. Sədi və Hafiz Şiraziyə həsr etdiyi şeirləri Səhhət, Mahmud Ağa məclisindən, oraya dəvətli olan xanəndələrin ifasından təsirlənərək yazmışdır. Sözsüz ki, Ətşan təxəllüsü ilə qəzəl yaradan atası Molla Əli Abbas da bu sahədə ona müəyyən qədər təsir edə bilibmiş. Amma Şeyx Sədini «Şairi-şirinkəlam» adlandırır. Hafizi isə «ustadı-şeirin hünəri» sayır. Özü də 23-24 yasında – Mahmud Ağa məclisində iştirak etdiyi illərdə. 1910-cu ildən sonra A.Səhhət Şamaxıda şeir və musiqi məclisi yaratmağa qərarlaşır. Bir çox Şamaxı şairlərini, xanəndələrini bir araya gətirə bilir. Hətta 1912-ci ildə şair M.Füzuli yaradıcılığına müraciət edərək onun bir qəzəlini tərbi edir.

Dərdə düşdüm əsərindən sitəmi-hicranın,
Çarədən ötrü dolaşdım nərəsin dünyanın,
Dərdimi dərdimə canan dedilər cananın.
Dilədilər dərdim; yoxdur dedilər dərmanın! **(1-56)**

Mahmud Ağanın qohumu, Abbas Səhhətin əqidə dostu Camo Cəbrayılın xatirələrində bu barədə müəyyən fikirlər vardır. 1925-ci ildə A.Səhhət böyük xanəndə S.Şuşinskini öz məclisinə Şamaxıya dəvət edir. Necə ki, Mahmud Ağa ustad sənətkarları Şamaxıya dəvət edərdi.

Bu barədə A.Səhhət belə yazır:

Dədəgünəş piri bir gün mənə məkan oldu,
Yerim mübağiləsiz çövzeyi-canan oldu.
Bütün məclisimiz Həqqi bəy, Məhəmmədəli,
Cəfər çalır. Oxuyurdu Ağayi Seyid qəzəli.
Görən deyirdi ki, cənnət yəqin əyan oldu.

Göründüyü kimi, məclis Şamaxı ziyalıları ilə qurulmuşdur. Həqqi Veysov (sonralar A.Səhhət onun oğlu Hacı İsmayıl Veysovu Volqa boyuna - Stavropola müalicəyə aparmış), Camo və Ağalar bəy olmuşdur. Az müddət də olsa, şair A.Səhhət Mahmud Ağa məclisini müəyyən mənada yaşada bilmişdir.

## Kalvalı Əli
## (1874-1962)

Azərbaycanda zurna-balaban sənətinin inkişafı, yayılması və təbliğində xüsusi xidməti olmuş insanlardan biri də **Əli Zülfüqar oğlu Kərimov** olmuşdur. O, 1874-cü ildə Şamaxı qəzasının Kalva kəndində dünyaya gəlib. Əli sənətin sirlərini ilk dəfə əmisi Mahirdən öyrənmişdir. O, 16-17 yaşlarında Kalvadan Şamaxıya köçür. Burada ustad balabançı Süleyman Məşədi Ağalar oğlu ilə tanış olur. Sənətini daha da kamilləşdirir. Ustad Aşıq İbrahim, Aşıq Daşdəmirlə el məclislərində iştirak etdikcə bəyənilir, sevilir, püxtələşir. Bu zaman artıq XIX əsrin 80-ci illərin sonu idi. Aşıq İbrahim Mahmud Ağa məclisinin fəal üzvlərindən, iştirakçılarından sayılırdı. Cavan sənətkar Əlini də Mahmud Ağaya Aşıq İbrahim təqdim edir.

Əlinin çalğısındakı şirinlik, yanğı Mahmud Ağanın ürəyincə olur. Mirzə Məhəmməd Həsənlə tanışlığı onu əbədi sənətə bağlayır. Odur ki, cavan Əli ulu muğam sənətini öyrənməyi qarşısına məqsəd qoyur. Bu zaman artıq Aşıq Bilal da Mahmud Ağa məclisinə ayaq açıb, Mirzə Məhəmməd Həsəndən dərs alırdı.

Bu illərdən başlayaraq Əli yastı balabanla şamaxılı xa-

nəndələrin çoxunu ustalıqla müşayiət edirdi. Zilxan xanəndələri isə zurnanın müşayiəti ilə. O, tez bir zamanda muğamlarla yanaşı, zərb muğamlar və xalq mahnılarının da mahir ifaçısına çevrildi. Muğam müsabiqələrində ifası həm məclis iştirakçılarının, həm də musiqi sərrafı Mahmud Ağanın könlünü oxşaya bilirdi.

Əhməd Sultan ixtiyar yaşında olduğu üçün mehrini salmışdı Əlinin yastı balabanının kövrək səsinə. Əli yastı balabanı dilləndirər, Əhməd Sultan isə kövrək səslə bayatı dünyasına səfər edərdi. Hamı da heyranlıqla dinləyərdi səksəni yola salıb, doxsanın behini almış Əhməd Ağanı. Özü də astadan deyirdi ki, bayatılar ona görə xalq mahnılarının canını-qanını təşkil edir ki, o, insanla doğulmuşdur. Uşaq layla ilə yuxuya gedir, gənclikdə bayatı ilə sevir, öləndə də ağı ilə yola salınır. Ona görə də xalq mahnılarını daha çox sevir, zümzümə edirik. Sonra da yol alırdı bayatılara:




Aşıq haradan gəlib?
Zülfü daradan gəlib,
Nə yağış var, nə duman
Bu sel haradan gəlib?

**Və ya:**

Dağlarda bostan oldum,
Bağ oldum, bostan oldum,
Bivəfa yar ucundan
Dillərdə dastan oldum.

Əli yastı balabanın müşayiəti ilə söylədiyi çeşidli bayatılar sona çatanda yavaşca gülümsəyirdi. Bu təbəssüm ətrafdakılara da siyarət edərdi. Əhməd Sultan Əlinin ifasını həmişə ayrıca mükafatlandırırdı.

## Qara Məhəmməd Səfa
## (1851-1876)

**Məhəmməd Məşədi Hüseyn oğlu Səfa (Saflıq)** 1851[1]-ci ildə Şamaxının İmamlı məhəlləsində, tacir ailəsində anadan olmuşdur. Mollaxana və mədrəsədə oxumuş, ərəb, fars dillərinə yiyələnmişdir. Gözəl təbli, bədahətən şeir demək istedadı olmuşdur. «Beytüs-Səfa» məclisinin üzvləri arasında böyük hörməti vardı, hətta bəzi araşdırıcılar şeir məclisinin onun evində keçirildiyini də iddia edirlər.

**F.Köçərli bu barədə yazır:** «...**bu haman Səfadır ki,** Şamaxı şüərası onun adına bir mənzil bina edib «Beytüs-Səfa» adı ilə onu təmsil qılmışdır. Səna və ürəfa araya cəm olub, şerü qəzəl deməklə və ruhani söhbətlə sərfö-övqat edərlərmiş». Şairin yaradıcılığını öyrənən Ə.Cəfərzadə onun həyatı haqqında yazır: «Məhəmməd Səfa məclisin ən fəal üzvlərindən biri, S.Ə.Şirvaninin yaxın dostu olmuşdur. O, bu məclisdə iştirak edərək özünün ən gözəl əsərlərini yaradaraq, bir şair kimi püxtələşmişdir».

Lakin Səfanın ömrünün son iki-üç ili çox faciəli keçmişdir; sevgilisi Qəmzəni ona verməmiş, ona böhtan atmışlar. Şamaxının nüfuzlu şəxsləri - **Mahmud Ağa, S.Ə.Şirvani, Ağa Seyidəli Ağa** və başqalarının onu müdafiə etməsinə baxmayaraq, Səfa xanənişin olmuş və axırda çox cavan ikən 1876-cı ildə qardaşı İsmayıl tərəfindən öldürülmüşdür».

Başqa bir mənbədə deyilir: «Şamaxı əhlindən bir nəfər Hüseyn Nam ilə sözləşib, aralarında münaqişəyə vüqua gəl-

[1] Bəzi müəlliflər onun 1852-ci ildə anadan olduğunu göstərirlər.

mişdi. Bu Hüseyn Nam gecə vaxtı onların darvazasına gəlib Məhəmmədi evdən eşiyə çağırıb qətlə yetirmişdi» **(15-95).**

F.Köçərlinin yazdıqlarından aydın olur ki, şairin mühafizə edilməsində başqa dostları ilə yanaşı, **Mahmud Ağa** da əlindən gəlini əsirgəməmişdir.

Məhəmməd Səfa 1876-cı ildə Şamaxıda «Laləzar» qəbiristanlığında dəfn olunmuşdur.

## Ağaəli bəy Naseh
## (1856-1915)

**Ağaəli bəy Əfəndizadə Naseh Şirvani** 1856-cı ildə Şamaxıda doğulmuşdur. Naseh ərəb və fars dillərindən başqa, rus dilinə də böyük həvəs göstərmiş və bu dili mükəmməl öyrənmişdir. Məntiq, dil, ədəbiyyat və tarix elmlərinə dərindən bələd olmuşdur. O, «Beytüs-Səfa» ədəbi məclisinin fəal iştirakçılarından idi.

Mənbələrdə göstərildiyi kimi, Naseh xoş xasiyyətli, mehriban olduğu üçün müasirlərinin böyük hörmətini də qazanmışdı. F.Köçərli «Azərbaycan ədəbiyyatı» əsərini yazarkən Naseh də Şirvan şairlərinin tərcümeyi-halını tərtib edib ona vermişdi. O, Seyid, Bixud, Qafil, Raqib və b. şairlərlə qardaş kimi idi. Naseh ömrünün axırına kimi dövlət idarələrində işləmiş, məhkəmədə katiblik etmişdir.

O, Mahmud Ağanın böyük hörmət bəslədiyi ziyalılardan idi. Naseh həm S.Ə.Şirvani, həm də Mahmud Ağa məclisində mütəmadi iştirak etmiş və çox müsabiqələrə rəhbərlik edənlərdən biri olmuşdur.

Naseh 1915-ci ildə ermənilərin Şamaxıda törətdiyi faciə zamanı həlak olmuşdur.

Varmıdı sinədə dərdü qəmü nihan, ölərəm,
Bu sirri eyləmədim kimsəyə bəyan, ölərəm.

Bacardığımca qəmi-eşqi gizlədim axır,
Kəsüdi taqətü səbrü qərarü can, ölürəm.

Səfayi-vəslidi aləmdə gərçi maqsudim,
Bəlayi-hicriylə bağrım olubdu qan, ölürəm.

Açılmamış gül idim gülşəni-nəzakətdə,
Bahari ömrümü eşq eylədi xəzan, ölürəm.

Şikayət eyləmədim möhnəti-fəraqindən,
Zəlilü xarü dilfıkarü bizəban, ölürəm.

Ümid idim çəkərəm dərdi-eşqi Naseh tək,
Qırıldı rişteyi, ümmid nagəhan, ölürəm.

## Vayıd qızı
## (XIX - XX)

**Vayıd qızı Sahibə** Şamaxıda musiqiçilər ailəsində doğulub. Sahibənin anası Tükəzban və xalası Fatma XIX əsrdə Şamaxının varlı-karlı sakinlərinin qadın məclislərində iştirak ediblər. Əhməd Sultanın məclisində də oxuyublar, nay (qarmon) çalıblar...

Uşaqlıqdan o da nay çalmağı öyrənmiş, 30 ilə yaxın Şirvanın qadın toylarında çalıb-oxumuşdur. Onun qoşduğu mahnılar ailə-məişət mövzusundadır: **«Sağrı başmaq», «Gəlin», «Qaynana», «Ay laçın»** və s... Mənbələrin qeyd etdiyi kimi, Mahmud Ağa məclisində qadın sənətkarlar - xanəndə və rəqqasələr də vardı. Onlardan biri də Sahibə xanım idi. Sahibə həm də varlı ailələrin qız toyunda iştirak edirdi.

O, həm də gözəl şeirlər yazırdı. Əfsus ki, şeirlərinin az bir qismi günümüzə gəlib çatmışdır. Onun haqqında prof. Ə.Cəfərzadə geniş tədqiqat aparmış, şerilərini çap etdirmişdir...

Vayıd qızı Şamaxının «Laləzar» qəbiristanlığında dəfn edilmişdir. Onun poeziyası qadın qəlbinin kövrəkliyi, misraların səmimiliyi ilə seçilir.

Bakının yolları tamam badımcan,
Qolumda bilərzik, boynumda mərcan,
Gedirsən kağız yaz, olum xatircəm,
Sən dəli, mən dəli, qayıt gəl bəri.

Bakının yolları tamamı əncir,
Qaşlarım kamandır, zülflərim zəncir,
Qayıt öldür məni, görüm kim incir?
Sən dəli, mən dəli, qayıt gəl bəri.

Bakının yolunda dərdim badarmı,
Çıxıb getdin, eşitmədin sədamı,

Sənə qurban olsun kəndin adamı,
Sən dəli, mən dəli, qayıt gəl bəri.

Bakının yolları tamamı püstə,
Dərdini çəkməkdən olmuşam xəstə,
Gözüm yolda qalıb, qulağım səsdə,
Sən dəli, mən dəli, qayıt gəl bəri.

Vayıd qızı deyər, şeiri, qəzəli,
Payız olcaq bağlar tökür xəzəli,
Mənim yarım Şamaxının gözəli,
Sən dəli, mən dəli, qayıt gəl bəri.

***

Haftamabildən bir qız düşdü dümqara saşdı,
Ayağında kimxa tuman üstü naxışdı,
Barmağında qızıl üzük, firuzə qaşdı,
Haftamabel, haftamabel anqırdı qaşdı.

Haftamabeldə oğlan gördüm, oğlanlar xanı,
Tamam əyan-əşrəf idi onun dörd yanı,
Sənə qurban-sadağadı qızların canı,
Haftamabel, haftamabel hara yol aşdı?
Haftamabel, haftamabel anqırdı qaşdı.

Haftamabeldə bir can gördüm ellər gözəli,
Ağzı qaymaq, dodağı bal, sözü məzəli,
Ona minən qocanın da ömrü təzəli,
Haftamabel, haftamabel yolumu çaşdı,
Haftamabel, haftamabel anqırdı qaşdı.

# *V FƏSİL*

# MAHMUD AĞA MƏCLİSİNİN QONAQLARI

## Səttar
## (XIX-1908)

Görkəmli xanəndə, sirli-sehirli səsi ilə insan qəlbini riqqətə gətirən Səttar XIX əsrin 20-ci illərində Cənubi Azərbaycanın Ərdəbil şəhərində anadan olmuşdur. O, cavan yaşlarından İranda şöhrət qazanmışdır. Hətta İran şahı Məhəmməd Mirzənin dəvəti ilə saraya gəlmiş və orada xanəndəlik etmişdir. Sonra o Naxçıvana köçmüşdür.



*Səttar*

Bir müddət İrəvanda yaşadıqdan sonra - 1845-ci ildən gedib Tiflisdə yaşamışdır. Burada tez bir zamanda böyük şöhrət qazanmışdır. Mənbələrdə qeyd edildiyi kimi, Tiflisdə keçirdiyi konsertlərdə görkəmli ziyalılar M.F.Axundzadə, N.Barataşvili, Y.Polonski və b. iştirak edər, onun çıxışlarına aludə olarmış. Bu səmimi ünsiyyət uzun illərın dostluğuna çevrilir.

Səttar təkcə azərbaycanlıların deyil, eləcə gürcülərin də toylarında, ziyafətlərində

vaxtaşırı iştirak etmişdir. O zamanlar «Tiflisdə yaşayan rus şairi Polonski Səttarın ifalarını çox bəyənmiş və ona xüsusi şeir də həsr etmişdir» **(52-80).** Ustad xanəndə təkcə Azərbaycanın xalq mahnılarını deyil, gürcü xalq mahnılarını da məharətlə ifa edə bilirmiş. Səttar Gəncə, Şamaxı, Bakı, Şuşa toyları, məclislərində də vaxtaşırı iştirak etmişdir. Görkəmli xanəndə Şamaxıya gələndə adını eşidib, üzünü görmədiyi Mahmud Ağa ilə əvvəl tanış olur, sonra isə həmişəlik dostlaşır. Onun məclis üzvləri - S.Ə.Şirvani, Mirzə Məhəmməd Həsən, Qənnadı, A.Nasehlə dostluqları uzun müddət davam etmişdir. S.Ə.Şirvani onun ecazkar səsinin vurğunu olmuşdur. Şair özünün məşhur **«Guş qıl ey ki, bilirsən özüvü vaqifı kar»** müxəmməsində «musiqidən zövq alanları əhli-bəsər» adlandırır, insanları musiqidən həzz almağa çağırır» **(35-415).**

Fəhm qıl, gör ki, nədir çəngü dəfü bərbərü ud,
Nədir onlarda bu ahəngü, bu ləhni bu surud,
Arif ol rəmz bil, bu mahəsəlli-qeybü şühud,
Ud hər ləhzə gəlib şurə deyər: ya Məbud
Tar hər ləhzə gəlib vəcdə deyər, ya Səttar.

Müxəmməsdən bəlli olur ki, Şamaxı şəhərinin prokuroru «Kərim bəy öz dostu, Nuh bəyin adına ziyafət qurur. Şeirin son bəndində «Naəhl» adlandırılan, adı isə çəkilməyən şəxs hərbi qulluqdan tərxis olunmuş çar zabiti Nuh bəydir ki, Kərim bəyin dostu idi. Qonaqlıq da onun şərəfinə verilmişdir. Həmin bənddə adı çəkilən Mehdi məşhur Mahmud Ağanın xanəndəsi idi ki, Kərim bəyin xahişi üzrə qonaqlıq məclisini ziynətləndirmək üçün dəvət olunmuşdur» **(35-416).**

Bir sözlə, Mahmud Ağanın yaxın dostu Səttarın adı S.Ə.Şirvani əsərlərində hörmətlə yad edilmişdir.

Ümumiyyətlə, o, Şamaxıda keçirilən muğam müsabiqələrində yaxından iştirak etmiş, Mahmud Ağa tərəfindən xüsusi mükafatlandırılmış və həmişə hörmətlə yola salınmışdır.

Görkəmli xanəndə **milli musiqimizi Qafqaz xalqları arasında yaymaqda böyük fəaliyyət göstərmişdir.**

## Hacı Hüsü
## (1830-1898)

**Hacı Hüsü Niftalı oğlu 1830-cu ildə Şuşanı**n Çölqala məhəlləsində, pedaqoq ailəsində dünyaya göz açmışdır. O, Xarrat Qulunun musiqi məktəbində oxumuş, muğamların sirlərinə dərindən yiyələnmişdir.



*Hacı Hüsü*

Vaxt keçdikcə, Xarrat Qulunun təşkil etdiyi məclislərdə xüsusi hörmət qazanır, sevilir. Hətta Xarrat Qulu onun məlahətli, gözəl səsi olduğu üçün özü ilə bir çox mötəbər məclislərə də aparır. Muğamları kamil bildiyi və ustalıqla ifa etdiyinə görə ustad Cabbar Qaryağdıoğlu da onun sənətini yüksək qiymətləndirmişdir.Nəhayət, Hacı Hüsü klassik muğam və təsniflərə də dərindən bələd olur. Odur ki, bu cəhətlərinə görə də gənc xanəndə həmyerliləri arasında dərin izzət və hörmət qazanır. O, yaxın dostu, muğam sərrafı M.Nəvvabla birgə Şuşada ilk «Musiqişünaslar məclisi»nin əsasını qoyur. Ustadı Xarrat Qulu vəfat edəndən sonra muğam sənətini Şuşada inkişaf etdirmək məqsədilə «Xanəndələr ittifaqı» yaratmışdır. Hacı Hüsü bir çox muğamlara da «yeni guşə və xallar» əlavə etmişdir.

Hacı Hüsü Şirvan torpağında da sevilmiş, pərəstişkarlar qazanmışdır. Mahmud Ağa dəfələrlə onu tarzən Sadıqla məcli-

sinə, təşkil etdiyi müsabiqələrə dəvət etmişdir. Bu barədə musiqişünas alim F.Şuşinski yazır: «Hacı Hüsü eyni zamanda məşhur musiqiçi kimi şöhrət qazanmış, şamaxılı Mahmud Ağanın və bakılı Məşədi Məlik Mənsurovun məclislərinə tez-tez dəvət edilərdi» **(52-44).**

Mahmud Ağa məclisində «Kürdü» ilə «Şahnazı» birləşdirib yaratdığı «Kürdü Şahnaz» muğamını xüsusi ustalıqla ifa etmişdir. Mahmud Ağa bu ifaya görə Hacı Hüsünü ayrıca mükafatlandırır.

İstedadlı xanəndə, musiqişünas **Hacı Hüsü 1898-ci ildə Aşqabad şəhərində** vəfat etmişdir.

## Malıbəyli Cümşüd
## (1845-1915)

**Cümşüd** təxminən, 1845-ci ildə Şuşanın Malıbəyli kəndində doğulmuşdur. Mənbələrin qeyd etdiyi kimi, o, gənc yaşlarından arabaçılıqla məşğul olmuşdur. Elə ilk dəfə həmtayları, dost-tanışları onun məlahətli səsi olduğunu bu zamanlardan bilmiş və onu təşkil etdikləri məclislərdə oxutmuşlar. Sonralar o, Şuşanın **«Xan bağı»** karvansarasının sahibi Tanrıverdi kişinin məclisində iştirak etmişdir. Beləliklə, Cümşüd yavaş-yavaş Şuşanın ustad xanəndələri ilə tanış olmuş, onlardan muğamların sirlərini öyrənmiş, böyük məclislərə ayaq açmışdır. Odur ki, Cümşüd 25-30 yaşlarında təkcə Şuşada deyil, Gəncə, Tiflis, Şamaxı, Bakı məclislərinə dəvət alar, hətta səsi-sorağı İrana da çatmış, orada tanınıb, sevilmişdir.

Malıbəyli Cümşüdün səsi çox zil olduğundan zərb muğamları daha ustalıqla ifa edirmiş. Eləcə də onun repertuarında «Segah», «Rast», «Şur», «Mahur» muğamları xüsusi yer tuturmuş.

**Haşiyə:** Mahmud Ağa məclisində yaxşı qarşılanan Sadıqcan Cümşüd barədə ona məlumat verir. Zil səslərin vurğunu olan Mahmud Ağa onu Şamaxıya dəvət edir. Şamaxı məclislərinin sorağını almış Cümşüd məmnuniyyətlə bu təklifi qəbul edir. Bu barədə danışan F.Şuşinski yazır: «25-30 yaşında bir xanəndə kimi Qarabağda şan-şöhrət qazanan Cümşüdün sorağı Şirvan elinə çatır. Şamaxılı Mahmud Ağa onu Şamaxıya dəvət edir. Cümşüd bir neçə ay Mahmud Ağanın qonağı olmuş, görkəmli musiqişünasın qurduğu məclis və müsabiqələrdə özünü kamil bir xanəndə kimi Şamaxının musiqi xiridarına təsdiqləmişdir».



*Malıbəyli Cümşüd*

Musiqişünas Mahmud Ağa sevdiyi «Şüştəri» ona dəfələrlə oxutdurmuş, xanəndənin zil səsini çox bəyənmişdir. Cümşüd də hər zaman Mahmud Ağa məclisinə və eləcə də Şamaxıya xüsusi hazırlaşıb gəlirdi. Öz halal adətinə əməl edən Mahmud Ağa onun bir neçə ay məsrəfini ödəmiş, hörmətlə qarşıladığı kimi, böyük təmtəraqla yola salmışdır. Onların dostluğu uzun müddət davam etmişdir. Deyirlər ki, Cümşüd Bakıya gələndə vaxt tapıb mütləq Şamaxıya dəyər, dostu ilə görüşərdi.

Ustad xanəndə **1915-ci ildə Şuşada vəfat etmişdir.**

**Haşiyə:** Vaxtilə Hacı Hüsünün istedadından söz açan görkəmli xanəndə C.Qaryağdıoğlu «Xatirə dəftər»ində belə yazır: «Hacı Hüsünün el arasında böylə hörməti və adı olmasına baxmayaraq, qocaldıqda isə ona heç kəs imdad əlini uzatmadı. Bir elə də hökumət olmadı ki, onun maddi yaşayışını təmin edə

idi... Odur ki, Hacı Hüsü kimi böyük bir şəxsiyyət ömrünün axırında ehtiyac içində vəfat etdi» **(36).**

Sonra Cabbar Qaryağdıoğlu Hacı Hüsünün repertuarından söz açır. «Humayın» dəsgahında oxuduğu Şıx Sədinin (Sədi Şirazi - S.Q) qəzəlini nümunə verir:

Hər şəb əndişəi digər xürrəm nəyi digər.
Rimən əz dəsti tu fərda burərəm cayı digər.

Bamydadan cu birun minəhəm əz mənzilipa
Hüsn əhdəm nəguzarəd rinənə, payi digər.

Hər kəsiri səri cizi təmənnayi kəs əst,
Ma fəqayrət tu nədarim təmannayi digər.

Vamqyi bud ki, divanəi yazra badi.
Mənəm imraz vaməq uzrayi digər.

Vəqt an əst ki, səhra qulu sünbül girəd,
Xəlq birun sudə hər qrem bə səhrayi digər... **(36).**

Sonra C.Qaryağdıoğlu Hacı Hüsünün «Humayın» dəsgahında oxuduğu **«Xocəstə», «Məsnəvi», «Mənəvi»ni** göstərir və «Məsnəvi»də oxuduğu qəzəli nümunə verir...

Daha sonra muğamın «Novuz», «Feli» guşəsini qeyd edir. Bu guşədə xanəndənin **Bahar Şirvaninin** ana dilində aşağıdakı qəzəlini ifa etdiyini söyləyir:

Hər kim ki, hicr yar ilə düşsə dəmagidən,
Hic acılarımı könül onun seyri bağidən.

Sordum sorağını, dedilər, qeyrə yar olub,
Ey kaş, lal olaydı dilim bu soraqidən.

Ölməgdən özgə yox rəhi əşqində bir vüsal,
Pərvanə yanmağın sevər ancaq çıraqidən.

Bir ala göz yar çəkib dağ sinəmə,
Yetdikdə gül dudağına mey bilmirəm alır.

Meydən dudaq nəşəni, ya mey duduqidən,
Sənsiz əgər bahar açıla istəməz Bahar.
Nə günçə bağida açıla lalı dağidən...

Ustad Cabbar sonra muğamda oxunan «Tərkib», «Bidad», «Uzzal» guşələri və eləcə də təsniflərdən bəhs edir» **(36)**

Bu faktlar təsdiq edir ki, ustad Hacı Hüsü Mahmud Ağa məclisində daha çox **«Beytüs-Səfa»** məclisinin üzvlərinin qəzəllərini ifa edirmiş.

**Mirzə Sadıq**
**(1846-1902)**



*Mirzə Sadıq*

**Mirzə Sadıq (Sadıqcan) Əsəd oğlu** 1846-cı ildə Şuşa şəhərində anadan olmuşdur. Sadıq da Şuşada Xarrat Qulunun təşkil etdiyi məktəbdə təhsil alır. Mənbələrin qeyd etdiyi kimi, «on səkkiz yaşında ikən Sadığın səsi batır». Bundan sonra musiqi alətlərində - tütək, ney, kamança, tarda çalmağı öyrənir. Sonda o, mehrini həmişəlik tara salır. Sevimli tar müəllimi Əli Əsgərdən muğam sənətinin tarda ifasının sirlərini yerli-yerində

öyrənir və məclislərə ayaq açır.

Mirzə Sadığın sorağı, tərifi Şamaxıya - Mahmud Ağaya da çatır. «Mahmud Sadıqcanı dəvət etmək üçün öz məclisində Humayi təxəllüsü ilə məşhur olan bir tarzəni Şuşa şəhərinə göndərir. Sadıq əvvəlcə gəlmək istəmir, sonralar isə necə olursa razılıq verir. Mahmud Ağa onun Şamaxıya gəlməsindən son dərəcə məmnun qalaraq Sadığa lazımi qədər hörmət edir. Hətta onu dəvət edib gətirdiyi üçün Humayiyə də mükafat verir. Sadıqcanın məclisdə kamali-zövqlə tar çalmağını alqışlayırlar. Humayi günəş qarşısında ay olsa da, günəşin qarşısında sönüklüyünü hiss edərək Şirvanda dəxi qala bilməyib təcili Şuşaya gəlir. Mahmud Ağanı həcv edib, Sadıq haqqında nalayiq sözlər söyləməyə başlayır» **(52-61).**

Humayinin həcvindən xəbər tutan Mahmud Ağa Seyid Əzimdən xahiş edir ki, ona tutarlı bir cavab yazsın. Seyid Əzim Humayinə daha kəskin şəkildə cavab yazır. Mahmud Ağanın ona etdiyi xeyirxahlıq, yaxşılıqlarını yadına salır, onun «şərm edib, gözləmədin həqqi-nəmək hörmətini» deyərək məzəmmət edir. Ustad sənətkar ilk dəfə diz üstündə ifa olunan tarı sinəsinə tutaraq çalmağa başlamışdır. Tarın simini artıraraq on birə çatdırmışdır.

Sonralar görkəmli sənətkar dəfələrlə Şamaxıda, Mahmud Ağa məclisində olmuş, müsabiqələrində çox sənətkarları müşayiət etmişdir. Şamaxıda şair S.Ə.Şirvani və «Beytüs-Səfa» məclisinin başqa üzvləri ilə tanış olmuş, dostlaşmışdır. O, 1902-ci ildə vəfat etmişdir.

Bəlkə, dostu Mahmud Ağa onu Şuşadan dəvət edəndən sonra S.Ə.Şirvani onu dinləmiş, vəcdə gəlib bu misraları yazmışdır:

Qoymaz ol tarı müğənni niyə ağuşundən?
Düşməz ol xanəbəndazələrin duşindən,
Huş ilə guş edə hər kimsə, qedər huşindən,
Ta ki, əsrari-nihanə olasan bərxurdar.

## Cabbar Qaryağdıoğlu
## (1861-1944)



*Cabbar Qaryağdı oğlu*

**Cabbar Məşədi İsmayıl oğlu Qaryağdı** 1861-ci ildə Şuşa şəhərində boyaqçı ailəsində anadan olmuşdur. Uşaqlıq illərində əmisi Məşədi Məhəmmədin yanıqlı səsi onu valeh etmişdir. Odur ki, o, gənc yaşlarından muğamlara böyük həvəs göstərmişdir. Bu illərdə Şuşada Xarrat Qulunun musiqi məktəbi fəaliyyət göstərirdi.

**«Odur ki, Cabbar da qardaşı Məhəmməd ilə Xarrat Qulunun məktəbində ilk dəfə xanəndəlik təhsili alır» (52-132)**. Cabbar bu məktəbdə muğam sənətinə kamil yiyələnir. Qardaşı «Məşədi Məhəmməd xanəndə kimi məşhur olduğundan, onu Şuşada toy və ziyafətlərə dəvət edərmişlər. Məşədi Məhəmməd həmin məclislərə kiçik qardaşı Cabbarı da aparardı».

Cabbar tez bir zamanda şöhrət qazanır. Böyük tarzən Sadıqcan onun möcüzəli səsinin şahidi olduqdan sonra onlar bir müddət yoldaşlıq edirlər. Həmin vaxtdan onlar Gəncə, Şamaxı, Bakı toylarına dəvət alırlar. Az sonra o, Tiflis, Orta Asiya, İranda ad-san qazanır. Ərəb və fars dillərini mükəmməl bilən Cabbar klassik Şərq poeziyasına da dərindən bələd idi. Onun repertuarında **Hafiz, Sədi, Füzuli, Natəvan, S.Ə.Şirvaninin** qəzəlləri xüsusi yer tutmuşdur.

Cabbar Qaryağdıoğlu XX əsrin əvvəllərində Bakı şəhərinə köçür. Burada Azərbaycan xalqının bir çox ziyalıları, ustad sənətkarları ilə yaxından tanış olur. Bakının musiqi həyatında şəhərdə təşkil olunan «Şərq konsertləri»ndə fəal iştirak edir və daha da böyük ad-san qazanır. Bunun nəticəsi olaraq «O zaman Yaxın və Orta Şərqdə, Qafqazda ən məşhur bir xanəndə kimi şöhrət qazanmış Cabbar Qaryağdıoğlu 1906-1912-ci illərdə «Sport-rekord» və «Qrammafon» aksioner cəmiyyətinin dəvətilə Qurban Pirimov və Oqanezaşvili ilə birlikdə Kiyev, Moskva, Varşava şəhərlərinə gedərək səsini qrammofon valına salmışdı» **(52.139).**

Xalq artisti, «Şərəf nişanı» ordenli Cabbar Qaryağdıoğlu muğamlarımızın mahir ifaçısı, təbliğatçısı, əsl müəllimi olmaqla yanaşı, «xalq musiqisindən gözəl nümunələri olan təsnif və mahnıların toplanmasına xüsusi həssaslıqla yanaşmışdır». Böyük sənətkarın topladığı mahnı və təsniflər kitab şəklində işıq üzü görmüşdür. Görkəmli xanəndə, bəstəkar 84 illik ömrünün qırx ilindən çoxunu vətənə, xalqına, onun mənəvi dəyərlərinin təbliğinə həsr etmişdir.

Cabbar Qaryağdıoğlundan bəhs edən müəlliflər göstərirlər ki, o, Bakı, Gəncə, Şamaxı və başqa şəhərlərdə konsertlər vermiş, müsabiqələrdə bir çox sənətkarlarla - Mirzə Məhəmməd Həsən, Humayin, Sadıqcan və b. iştirak etmişdir. O, şamaxılı sənətkarlarla dost olmuş, Mirzənin «Şur»unu çox sevmiş, qəzəllərindən əzbər bilmişdir. Aşıq Mirzə Bilalla yaxın olmuş, onun muğam boğazlarının pərəstişkarı idi. Mahmud Ağa Cabbara həmişə qayğı göstərmiş, maddi yardım etmişdir.

Xalq artisti Cabbar Qaryağdıoğlu **1944-cü ildə vəfat etmişdir.**

## Məşədi İsi
## (1860-1905)



*Məşədi İsi*

**Məşədi İsi** 1860-cı ildə Şuşa şəhərində doğulmuşdur. Mənbələrin qeyd etdiyi kimi, uşaqlıqdan məlahətli səsi olan İsi ilk musiqi təhsilini Xarrat Qulunun məktəbində almışdır. Özü də Hacı Hüsünün təşkil etdiyi «Xanəndələr məclisi»nin fəal üzvlərindən olmuş və o, tez bir zamanda Qarabağda məşhurlaşmışdır. Sonra Azərbaycanın başqa regionlarına da ayaq açmışdır.

Məşədi İsi eləcə də dəfələrlə Şamaxıda olmuş, Mahmud Ağa məclisinə qatılmışdır. «Məşədi İsi təkcə Qarabağda deyil, Azərbaycanın bir çox şəhərlərində - Gəncə, Ağdaş, Şamaxı və Bakıda dəfələrlə toy məclislərinə, şənliklərə dəvət edilmişdir. Məşədi İsi şamaxılı Mahmud Ağanın məclisində aylarla oxumuş və İran hakimi Nəsrəddin şah tərəfindən bir neçə dəfə Tehran şəhərinə çağırılmışdır» **(52-70).**

Şamaxıda Mahmud Ağanın məclisində aylarla iştirak etdiyi zaman burada olan ziyalılar, «Beytüs-Səfa» məclisinin üzvləri - ustad Seyidlə görüşmüş, dost olmuşdur. Mahmud Ağa onun bütün xərclərini öz üzərinə götürmüşdür.

Məşədi İsi **1905-ci ildə** Ağdam şəhərində vəfat etmişdir.

## Zülalov Əbdülbaği Bülbülcan
## (1841-1927)



*Bülbülcan*

**Zülalov Əbdülbaği (Bülbülcan) Kərbəlayi Əli oğlu 1841-ci ildə Şuşa şəhərində** anadan olmuşdur. O, başqa həmyaşıdları kimi ilk musiqi təhsilini Xarrat Qulunun məktəbində almışdır. Sonra həmyerliləri tərəfindən bəyənilmiş, sevilmişdir.

Natəvanın məclisinin bəzəyi olmuşdur. Bu istedadlı xanəndə Qarabağla yanaşı, Gəncə, Bakı və s. şəhərlərin də el məclislərinə dəvət alardı. Bülbülcanın istedadlı bülbül avazlı xanəndə kimi sorağını alan Mahmud Ağa onu təşkil etdiyi muğam müsabiqələrinə dəvət edir. **Bülbülcan aylarla Şamaxıda qalmış**, orada təşkil edilən musiqi müsabiqələrində həmişə birinci yer tutmuşdur. Halallıq adətinə əməl edən Mahmud Ağa onun məsrəflərini təmin edir və bundan savayı da onu xüsusi mükafatlandırır.

Bülbülcan bir müddət də Tiflis şəhərində yaşayıb, burada musiqi dəstəsi təşkil edir. Hətta yerli teatr həvəskarları ilə tamaşalar da hazırlayır. Ustad xanəndə 1920-ci ildən Bakıya köçmüş, Dövlət Türk Musiqi məktəbində muğamatdan dərs demişdir.

Fitri istedada, məlahətli səsə, təsirli nəfəsə və güclü zənguləyə malik olan ustad sənətkar **1927-ci ildə Bakı şəhərində** vəfat etmişdir.

## Məşədi Cəmil (1875-1928)



*Məşədi Cəmil*

Azərbaycan musiqi mədəniyyətində xüsusi xidmətləri olan **Kərbəlayi Əmiraslan oğlu Cəmil Əmirov** 1875-ci ildə Şuşa şəhərində anadan olmuşdur. O, Şuşada mollaxana və mədrəsədə oxumuşdur.

Atasını tez itirdiyi üçün məktəbə getməmiş, ailələrinə kömək etmişdir. Şuşada dərzilik sənətinə yiyələnmişdir. Cəmil, həm də tar çalmağı öyrənmişdi. Musiqişünas Nəvbabın məktəbində muğam dərslərini də öyrənir. Həmin vaxtdan sonra o, xanəndə və tarzən kimi məclislərdə püxtələşməyə başlayır. Onun sorağı Şamaxıya – Mahmud Ağaya da çatır. O, Məşədi Cəmili Şamaxıya dəvət edir. O, əvvəl bir ay musiqi məclisində iştirak edir, yerli xanəndə və şairlərlə tanış olur, onları müşayiət edir. Beləliklə, Mahmud Ağanın hörmətini qazanır. Həmin vaxtdan sonra Məşədi Cəmil Şamaxıya – Mahmud Ağa məclisinə təşrif buyuran bir çox Qarabağ xanəndələri - S.Şuşinski, M.Fərəc, Məşədi Zeynal, C.Qaryağdıoğlu ilə bir neçə dəfə gəlmişdir. Yenə də o, Mahmud Ağadan diqqət, hörmət və ehtiram görmüşdür.

Sonralar o, Gəncə və Tiflisdə yaşamışdır. Riqa şəhərində muğam və mahnılarını qrammafon valına yazdırır. Cəmil 1911-ci ildə Türkiyədə musiqi təhsili alır. Muğamlarımızı ilk dəfə nota salan da Məşədi Cəmil olmuşdur. Gəncədə ilk musiqi məktəbi onun təşəbbüsü və səyi nəticəsində açılmışdır.

İstedadlı xanəndə-tarzən Məşədi Cəmil **53 yaşında 1928-ci ildə Gəncə şəhərində** vəfat etmişdir.

**Haşiyə:** Cabbar Qaryağdıoğlu ustad xanəndə Xarrat Qulunun şagirdi Məşədi İsinin sənətinə yüksək qiymət vermiş, onun «Mahur» dəsgahında hansı qəzəl, təsnifləri ifa etdiyindən xüsusi bəhs edir. Onun Şamaxı məclisində əsasən, Seyid və Bixuddan oxuduğu qəzəli nümunə göstərir: «Şuşa şəhərində bütün Qafqazda məşhur olan Xarrat Qulunun şagirdlərindən xanəndə Məşədi İsi «Mahur» dəsgahını çox təntənə ilə oxuyardı. Özü də təsnifxanlıqda və qaval çalmaqda birinci sayılardı və hərdən **şamaxılı məşhur şair Bixudun** bu qəzəlini oxuyardı.

Əy qofan bağrıma qan oldumu hüsnün fani,
Dutdumu xar səsi xüsk o tər bostanı.

Aldımı bəd xəzan eylədimi əfsuzdə,
Baq hüsnündə qülü sünbülü həm rəyhanı.

Varmı yadında gədalar kimi boyun burulu,
Qabağında sənə icz edərdim pünhanı.

Həsrətində ləbinin əsk əvəzi didəmdən,
Qətrə-qətrə saçilardi ciyərimin qanı.

Qan qoyardım iki dəfə danışanda ürəgə,
Ta ki, bir kəlmə danışaydın alardın canı.

Arzu eylədim bircə təkəllüm edəsən,
Ta edim canımı şirin ləbinin qurbanı.

İndi səd şükür, o gül rənginə bənzər dodağın,
Olub əfsurdə solub rəngi qaçıbdır qanı.

Şükürallah ki, mənim surətə düşdün axır,
Yetdi tez başa o naz eylədiyin dövranı.

O gözəllik ki, həmişə ona fəxr eylərdin,
Al ələ ayinəni bax gör o gözəllik hanı?

Bəsdi Bixud ki, cəmal əhlinə adətdi bu,
Binəfa olmasa olmaz işimin samanı...

Sonra Cabbar Qaryağdıoğlu həmin muğamda Məşədi İsinin o zamanlar ifa etdiyi yeddi-səkkiz təsnifin sözlərini (farsca) nümunə verir. Məsələn, **Cabbar göstərir ki, «Şikəsteyi-farsdan» sonra Məşədi İsi bu təsnifi oxuyub.**

Dəmədəm bir nigarın tülfi ruyi yad edər könlüm
Gecə ta sübh olunca naləi fəryad edər könlüm,
Yıxıb bünyad səbri ah ilə bərbad edər könlüm,
Cigər qan ilə hərdəm çeşmimə imdad edər könlüm...

...«İndi hər bir kəs sual etsə ki, nə üçün «Mahur»da, bu qədər çox təsnif olar və başqa dəsgahlarda yox? O zaman cavab verirəm ki, «Mahur» «Rast» ilə «müxəmmər» bir mürəkkəb məqamdır ki, çox incəlikləri ifadə edir**... Avropalılar «Mahura» «Mazor» deyirlər ki, onların da çox mahnıları mazor üstə gəlir» - (*Cabbar Qaryağdıoğlu)***

## Davud Səfyarov
## (1875-1917)



*Davud Səfyarov*

Davud Səfyarov **1875-ci ildə Bakı şəhərində anadan** olmuşdur. O, atasını çox erkən itirmişdir. Bakıda ağır ehtiyac içərisində yaşayan başsız ailə 1884-cü ildə Şamaxıya köçür. Deyilənlərə görə, hələ kiçik yaşlarından Davudun gözəl səsi diqqəti cəlb edir. Yaxın adamlarının təkidi ilə anası onu Mahmud Ağanın yanına aparır. Mahmud Ağanın 14 yaşlı Davudun məlahətli səsindən çox xoşu gəlir. Təhsil almaq üçün onu mədrəsəyə qoyur. Onun musiqi təhsili alması, xalq mahnıları, muğamlarımızı öyrənməsində ustad xanəndə Mirzə Məhəmməd Həsənin çox böyük əməyi olmuşdur. Mirzənin məsləhəti ilə gənc yaşlarından Davud məclislərə ayaq açır. Mahmud Ağanın məclisinin kamil xanəndəsinə çevrilir. Mənbələrdə qeyd edildiyi kimi, onun ürəyə yatımlı və zil səsi olmuşdur. Şakəri də, **«Bayatı-Qacar», «Mahur», «Şur», «Çahargah», «Şahnaz» muğamları və «Mənsuriyyə», «Kəsmə Şikəstə», «Şah Osmanlı» və s. olmuşdur.** Mahmud Ağa məclisinin yarışlarında həmişə iştirak etmiş və birincilik qazanmışdır. O, Bakıya köçəndən sonra da şamaxılı şair, maarifçilər - C.Cəbrayılbəyli, M.Mahmudbəyov, S.M.Qənizadə, A.Səhhət, M.Hadi ilə dostluq etmişdir. D.Səfyaraov sənət dostları C.Qaryağdıoğlu, Məşədi

Məmməd, Q.Pirimovla birlikdə səslərini vala yazdırmışlar. **O, 1917-ci ildə Bakı şəhərində ermənilər tərəfindən öldürülmüşdür.**

## Dabbağ Məmmədqulu
## (1874-1929)

O, 1874-cü ildə **Şuşa şəhərində dabbağ ailəsində anadan olmuşdur.** Məmmədqulu ilk təhsilini «Kor Xəlifənin» hücrəsində almışdır. Atası oğlunun yaxşı səsi olduğunu yəqin edəndən sonra onu Mir Mövsüm Nəvvabın məktəbinə qoymuş və burada üç il muğamat dərsi keçmişdir. Nəhayət, məlahətli, zil səsi olan Məmmədqulu məclislərə ayaq açmışdır. Onun püxtələşməsində həmyerlisi xanəndə Dəli İsmayılın və Malibəyli Həmidin böyük xidmətləri olmuşdur. Beləliklə o, təkcə Şuşada deyil, Gəncə, Şamaxı və Tiflisdə məşhurlaşmışdır.



*Dabbağ Məmmədqulu*

**Haşiyə:** Məmmədqulunun sorağı Şamaxıya da çatır. Mahmud Ağa Məşədi İsidən Məmmədqulunun sənəti haqqında məlumat öyrənir, cavan xanəndənin sehirli zil səsi ilə zərb muğamları - «Qatar»ı, «Heyrat»ı, «Qarabağ şikəstəsi»ni və «Zabul Segah»ı, «Kürdü Şahnaz»ı, «Çahargah»ı xüsusi şövqlə ifa etdiyini biləndə onu Şamaxıya - məclisinə dəvət edir və müsabiqələrə qatır. Məmmədqulu öz məlahətli səsi, vurduğu zəngulələrlə Mahmud Ağanın hörmətini qazanır. Ustalıqla ifa etdiyi «Şüştər»lə Mahmud Ağanı ovsunlayır. Bu muğamlarda

vurduğu zəngulələrə, xallara görə Mahmud Ağa onu ayrıca mükafatlandırır.

Həmin vaxtdan Dabbağ Məmmədqulu Mahmud Ağa ilə dostlaşır, yerli xanəndələr və şairlərlə yaxınlaşır. İstedadlı xanəndə sonralar bir neçə dəfə Mahmud Ağanın ziyarətinə gəlir. Dabbağ Məmmədqulu **1929-cu ildə Şuşa şəhərində** vəfat etmişdir.

# *VI FƏSİL*

# MAHMUD AĞANIN ZİYALI, TACİR VƏ BƏY DOSTLARI

Mahmud Ağa məclisində, əsasən də müsaqibələrdə sənətkarlarla yanaşı, musiqi təşnələri, sənət qədri bilən, ona aludə olan ziyalı, bəy-bəyzadə, tacir, mülkədar və eləcə də dövlət qulluqçuları da vaxtaşırı iştirak edirdilər.

Mahmud Ağanın mülkədar, tacir, dövlət idarələrində çalışan və musiqi, poeziya sevən dostlarının bir çoxu haqqında ötən müddət ərzində qocaman Şamaxı ziyalıları, sənətkar və ağsaqqallardan müəyyən sənədləri, məlumatları, yaddaşlarından xatirələri  cəm edə bilmişik. **Cəfərqulu bəy, Mahmud bəy, Hacı Süleyman bəy, Tağı bəy, Hacı Nəcəf bəy, Mirzə Məhəmmədtağı Əlizadə** (sonralar rus dumasının deputatı), **Həsən bəy, Hacı Ələkbər bəy, Mirzə bəy, Vahab bəy, Kərim bəy (prokuror), Camo bəy, Rza bəy, Hacı Müslüm bəy, Kərbəlayi Süleyman bəy, mülk sahiblərindən Hacı Səfər, Hacı Hidayət, Hacı Dadaş, Hacı Həsən, tacirlərdən Məşədi Murad, Abdulla Dəmir oğlu, Səlim və başqa nüfuzlu şəxslərdən Qəzənfər bəy, Cavad bəy, Rüstəm bəy, Hacı Molla Qəni (Sultan Məcid Qənizadənin babası), Məşədi Əbdüləli, Hacı Mehdi, Kapitan Məşədi, Ağa bəy İsmayıl oğlu, Məşədi Kazım və b.** məclisin daimi iştirakçıları olmuşlar. Onu da qeyd edək ki, bəy-bəyzadə, mülk sahibi olan bu insanların bənzərsiz sarayları, imarətləri 1918-ci il erməni daşnakları tərəfindən dağıdılmış, yerlə-yeksan edilərək yandırılmışdır.

**Ağasadıq bəy Qocamanbəyov (1830-1908)**



**Ağasadıq bəy** İmamlı məhəlləsində doğulmuşdur. Mollaxana, mədrəsə təhsili almışdır. Şamaxının sayılıb-seçilən mülkədarlarından sayılırdı. Həm də Mahmud Ağagilin qonşusu idi. Şamaxının İmamlı, Pirani-Şirvan məhəllərində mülkləri, dəyirman və karvansaraları, Pirsaat boyunca Şamaxıdan Yekəxana Talıba qədər uzanan bağ-bağatları, indiki Sabir qəsəbəsi ərazisində yerləşən mülkü vardı. O, Şamaxı ziyalılarının çoxu ilə dostluq edərdi. Mahmud Ağa məclisinin iştirakçısı idi. Çox zaman Mahmud Ağanın qonaqlarını sarayına dəvət edər, onlarla şəxsən tanış olardı.

**Ağasadıq bəy 1908-ci ildə Şamaxı şəhərində vəfat etmişdir.**

**Azad bəy Qocamanbəyov (1860-1920)**

**Azad bəy Şamaxıda Şıxminas məhəlləsində** doğulmuşdur. Atası varlı-karlı bir mülkədar olmuşdur. O, əvvəlcə mollaxanada, sonra S.Ə.Şirvaninin məktəbində oxuyub. Azad çox dəcəl uşaq olduğundan S.Ə.Şirvani onun nadincliyinə vaxtilə şeir də həsr etmişdir:

Dad sənin əlindən, dad, Azad,
Yaz ki, fəryad əlindən, Azad,
Stolu, stulu sən sındırdın,
Ev oldu bərbad əlindən, Azad.



Azad bəy

Azad bəy sonradan şəhər məktəbində də təhsil alır. O, ərəb, fars dilləri ilə yanaşı, rus dilini də mükəmməl öyrənir.

Atası ali təhsil almaq üçün onu Peterburqa göndərmişdir. O, hərbi məktəbi bitirdikdən sonra Moskva və Peterburqda xidmət edir. 1905-1907-ci illərdə Rus-Yapon müharibəsində iştirak edir. Polkovnik rütbəsinədək yüksəlir. Müharibədə sağ ayağından ağır yaralanır. Polkovnik bir müddət Moskvada xəstəxanada yatır, sonra Azərbaycana – Şamaxıya dönür. Əvvəl məhkəmədə, sonra isə qəza rəisinin köməkçisi işləyir. Şamaxıda fəaliyyət göstərən Azad bəy muğam və musiqi məclislərinə qatılır. O, Şamaxı ziyalılarının yaxın dostlarından biri idi. 1918-ci ildə Şamaxıda ermənilərə qarşı könüllülər dəstəsinə başçılıq edir, vuruşur. 1920-ci ildə vəfat edib, Mahmud Ağanın uyuduğu **«Laləzar»** qəbiristanlığında dəfn olunub.

**... Azad bəy Mamud Ağanın qohumu İsmayıl bəy Fitdağlının xalası oğludur..**

Azad bəy qonşusu, xalası oğlu Əli bəylə Mahmud Ağa məclisinin daimi iştirakçısı olmuşdur. Özü də Mirzə Məhəmməd Həsənin səsinin vurğunu kimi **«Şur»** və **«Şüştər»** muğamlarını daha çox sevərdi. Müəllimi Seyid Əzimin qəzəllərinin çoxunu əzbər bilirdi. Azad bəy iki dəfə ailə qurmuşdur. Onun toy məclisinin xanəndəsi də Mirzə Məhəmməd Həsən idi.

**Azad bəyin Seyfulla adlı bir oğlu olmuşdur.** Onun da Azad və Nicat adlı övladları indi Bakı şəhərində yaşayırlar.

# Vahab bəy Rəhimbəyov
# (1854-1918).



*Vahab bəyin qızı Lətifə xanım və həyat yoldaşı*
*Ağa Kərim Məşədi Şahbaz oğlu*

**Vahab bəy Samaxının Sarıtorpaq məhəlləsində anadan olmuşdur.** Mollaxana və mədrəsədə oxumuş, realnı məktəbi bitirdikdən sonra Şamaxıda məhkəmədə çalışmışdır. Şamaxı ziyalıları ilə dostluq edərdi. M.Ə.Sabir, Didə, A.Naseh və b. ilə yoldaşlıq etmiş, dost olmuşdur.

Dostları ilə həm «Beytüs-Səfa», həm də Mahmud Ağa məclisində müntəzəm iştirak edərdi. Mahmud Ağanın atası

Əhməd Sultanın da yaxını idi. Odur ki, Vahab bəy Mahmud Ağaya ürəkdən bağlı idi. Vahab bəyin üç oğlu - **Xanlar bəy, Səfərqulu bəy, Səməd bəy**, iki qızı - **Facə, Lətifə** xanım olmuşdur.

1918-ci ildə ermənilər Şamaxıda misilsiz qırğınlar törədərək, əhaliyə vəhşicəsinə divan tutanda Vahab bəy əvvəl ailəsini Ağdaşa – dostu Qaraxanlı Əşrəf bəyin yanına göndərir, oradan da Şəkiyə, Hacı Ağa Cəfərgilə yola salır. Erməni qatilləri Şamaxıda qalan Vahab bəyi vəhşicəsinə öldürürlər.

**Haşiyə:** Vahab bəy Mahmud Ağa məclisinin daimi iştirakçısı S.Ə.Şirvaninin məktəbində oxuyan bacarıqlı şagirdlərdən idi. Qəzələ, muğama bağlılığı ilə seçilərdi. Klassik poeziyanı dərindən bildiyi üçün Mahmud Ağa ona xüsusi rəğbət bəslərdi.

## Qasım bəy Hacıbababəyov
## (1811-1874)



*Qasım bəy Hacıbababəyov*

Əhməd Sultanın tay-tuşları, dostlarından biri də Qasım bəy olmuşdur. **O, 1811-ci ildə İmamlı məhəlləsində** doğulmuşdur. Şamaxıda Mollaxana və mədrəsə təhsili aldıqdan sonra o, realnı məktəbi bitirmişdir.

Memarlıq sənətinə yiyələnmişdir. Əhməd Sultanın musiqi gecələrində iştirak etmişdir. Qasım bəy 1840-cı illərdə Şamaxıda qubernatorun müavini işləmiş, həm dövlət adamları, həm də Şamaxının gənc ziyalıları ilə dost olmuş, onların istəklərinə köməklik göstərmişdir. Şəhərdə görülən

bir çox nəcib işlər onun adı ilə bağlıdır. Məsələn, gənclərin istək və azrularına görə o, Şamaxıda ilk dəfə teatr binası tikdirmişdir. 1859-cu il zəlzələsində şəhərin bərpasına xüsusi köməklik edib. Onun layihələri ilə şəhərin plan strukturuna uyğun olaraq bir çox dini, yaşayış, ticarət və sair təyinatlı tikililər yenidən inşa olundu. Cümə məscidinin bərpasına, şəhərin baş memarı kimi bilavasitə rəhbərlik etmişdir.

Xatirələrində Qasım bəyin Şamaxı ziyalıları - M.Mahmudbəyov, S.Ünsizadə, M.Məhəmməd Həsən, Mirzə Cavad, M.Əlizadə, Bixud, S.Ə.Şirvani və b. ilə dost olması barədə xeyli məlumat verilir və onun iki böyük məclisdə vaxtaşırı iştirakından geniş söz açılır.

Görkəmli memar Samaxıda inşa edilmiş bəy-bəyzadə sarayları, dövlət binaları, karvansaraların bir çoxunun layihəsini də özü vermişdir. O, Bakı, Şuşa şəhərlərində inzibati binaların tikilməsi, park və bağların qurulmasında da yaxından iştirak etmişdir.

**Qasım bəy 1874-cü ildə Şamaxıda vəfat etmiş, «Laləzar»** qəbiristanlığında dəfn olunmuşdur. Qasım bəyin uzaq qohumları hazırda Bakı şəhərində yaşayır.

## Gəray bəy Əhməd bəy oğlu (XIX əsr)

**Gəray bəy Əhməd bəy oğlu (XIX əsr)** Şamaxının İmamlı məhəlləsində doğulmuşdur. Gəray bəy ( məşhur memar Zivər bəyin atası) Mahmud Ağanın uşaqlıq dostu və qohumu idi.

O, gənclik illərində Əhməd Sultanın təşkil etdiyi musiqi gecələrində, sonra da Mahmud Ağanın musiqi məclisində yaxından iştirak etmişdir. Xatirələrdə onun şair olduğu da söylənilir. Amma şeirlərindən nümunələr əldə edilməmişdir. Şair olduğu üçün gənclik dostu S.Ə.Şirvaninin **«Beytüs-Səfa»** məclisinə də qatılırdı. Gəray bəy Mahmud Ağanın dostları, məclisinin qonaqları ilə də yaxın idi.

Camo bəyin xatirələrində **(Camo bəy Zivər bəyin də dostu idi)** Gəray bəyin ustad xanəndə Məşədi İsi ilə yaxınlığından danışılır. Gəray bəy Mahmud Ağanın ən etibarlı dostlarından biri sayılırdı.

## Məşədi Ağa bəy İsmayıl bəy oğlu (1840-1918)

Şamaxının **"İmamlı"** məhəlləsində doğulmuşdur. Mollaxanada, sonra S.Ə.Şirvaninin məktəbində oxumuşdur. Qəza məktəbini bitirdikdən sonra atası Hacı İsmayıl onu Moskvaya hərbi məktəbə göndərir. Ağa bəy Moskvada oxuyur. Uzun illər orada xidmət edir, **kapitan** rütbəsinə kimi yüksəlir. Bu barədə mənbələrin birində oxuyuruq.

Otuz ildir ki, mülki-qürbətdə,
Gecikmişəm zəhməti-firavani.

Düşmüş idim vətəndən avarə,
Görməz idim cəmali-canami.

İmperaturə xidmət eylədim,
Şəhri-rus, ol ədalətin pakı.

Neçə bir günlər ki, almışdım,
Mənə lütf etdi, çini-kapitani.

Bəy idim, gərçi əvvəlindən özüm,
Leyk artırdı şöhrəti şanı.

Sonra təqaüdə çıxır və Şamaxıya - ailəsinin yanına dönür. Həmin vaxtdan Şamaxıda ziyalılarla oturub durur. Gəncliyində olduğu kimi, Mahmud Ağa və müəllimi S.Ə.Şirvaninin məclislərində mütəmadi iştirak edir.

Kapitan Ağa bəy **1918-ci ildə** vəfat etmişdir.

Onun nəvələri hazırda Bakı şəhərində yaşayır.

## Məşədi Əbdüləli Mustafa oğlu (1850-1920)

**Məşədi Əbdüləli** (O, **«ANS» şirkətlər qrupunun rəhbəri Vahid** və onun qardaşı, Milli Qəhrəman Çingizin atası **Fuadın babasıdır**). Şamaxıda sayılıb-seçilən ziyalılardan idi. Özü də Mahmud Ağanın yaxın dostu, şeir və muğam pərəstişkarı olmuşdur. Əbdüləli bütün övladlarına təhsil vermişdir. Oğlu şair-yazıçı **Əlməmməd Mustafayev** ADU-nun şərqşünaslıq fakültəsini bitirmişdir. Məşədi Əbdüləli 1920-ci ildə vəfat etmişdir.

## Hacı Rüstəm bəy Soltan bəy oğlu (1828-1896)

**Hacı Rüstəm bəy 1828-ci ildə Şamaxının "Pirani-Şirvan" məhəlləsində doğulmuşdur.** O, mollaxana və mədrəsədə təhsil alır. Atası Soltan bəy Şamaxıda böyük hörmət sahibi olmuşdur. Ona görə də Hacı Rüstəm də şəhərdə böyük nüfuza malik idi. O, həm də xeyirxahlığı ilə seçilər, yoxsullara, ehtiyacı olan ziyalılara əl tutardı. Şəhərə bir neçə bulaq çəkdirmişdi. Dəyirmanına dən gətirən yoxsullardan haqq alınmazdı.

Ona görə Mahmud Ağa Rüstəm bəyin xətrini çox istəyirdi. Həmişə məclis quranda onu xüsusi dəvət edərdi. O, Seyid Əzimlə də dost idi. Amma belə xeyirxah insanın övladı olmurdu. Ən nəhayət, böyük nəzir-niyazdan sonra bir övladı dünyaya gəlir. Bu şad xəbərə ən çox sevinən Mahmud Ağa və Seyid Əzim Şirvani olur. Mahmud Ağa bu münasibətlə xüsusi məclis qurur. Məclis bir həftə davam edir. Ustad S.Ə.Şirvani isə ona xüsusi şeir ithaf edir:

Ey Rüstəmi-siminbəri sərvər, gözün aydın,
Bəy gülşəni-dövlətə sənubər, gözün aydın.

Yəni ki, xuda Hacıya cudu kərəmindən,
Bəxş eylədi fərzəndi-mütəhhər, gözün aydın.

Yüz şükür ki, məqbuli-ilahi oldu dualar,
Məqsədü murad oldu müyəssər, gözün aydın.

Versin Hacıya bir neçə övladı mükərrər,
Qılsın səni hər ləhzə mükərrər, gözün aydın.

O, **1896-cı ildə** vəfat etmiş, **«Laləzar»** qəbiristanlığında dəfn olunmuşdur.

## Hacı Ömər bəy
## (1840-1909)

**Ömər bəy Murtuza bəy oğlu** Şamaxının **"Pirani-Şirvan"** məhəlləsində anadan olub. Mollaxana, mədrəsə və rus məktəblərində təhsil alıb. Atası Şamaxının sayılıb-seçilən mülkədarlarından idi. Şeiri, musiqi sevən və Mahmud Ağa məclisinə yaxın bəylərdən olub. O, ziyalılarla həmişə dostluq edən səxavətli bir insan imiş. S.Ə.Şirvani şeirlərində dostunun səxavətindən çox bəhs etmişdir.

Təmənna eyləsən hər şeyi ki, ol dünyada mümkündür.
Təvəqqüfsüz olur hasil bu gün Hacı Ömər bəydən.
Muradın olsa buğda tək etmə sinə,
Təvəqqe eylərəm Hacı Ömər bəy kimi hər bəydən.

Ömər bəy Mahmud Ağa ilə çox yaxın olmuşdur. Bəzən onun İran, Orta Asiya, Qarabağdan gələn qonaqlarını Ömər bəy ayrıca mehman da edərdi. Mahmud Ağanın vəfatından sonra onun ailəsinə himəyədarlıq edənlərdən olmuşdur.

## Möhsün bəy Hacı Cəlil bəy oğlu (1846-1922)

**Möhsün bəy 1846-ci ildə Şamaxının Sarıtorpaq məhəlləsində** doğulub. Mahmud Ağanın atası Əhməd Sultanın dostlarından idi. Təbii ki, Əhmədin başqa dostları kimi Hacı Cəlil də musiqiyə maraq göstərirdi. Özü də, oğlu da Şamaxının xeyriyyəçi bəylərindən olub. Möhsün bəy Mahmud Ağanın məclisinin daimi iştirakçılarından idi. S.Ə.Şirvaninin «Beytüs-Səfa» məclisində iştirak etdiyi kimi, onun məktəbinin yaşamasına maddi yardım edərdi. S.Ə.Şirvani öz şeirində Möhsün bəyin xeyirxahlığından bəhs etmişdir.

Bir kani-kərəm, kənfi-ümәm, növgüli-iqbal,
Möhsün bəyi-fərxəndəsiyəm, «damə cəlalə».

Bir tazə cavandır ki, dəxi bəxti cavandır,
Yatsin görüm ol Xızır təki dəhrdə calə.

…Cəd şükür ki, Səyyid tutub ol daməni-pakın,
Ümmidi budur kim, gələ lütfündə kamalə.

**Möhsün bəy 1922-ci ildə vəfat edib və Mahmud Ağanın uyuduğu «Laləzar» qəbiristanlığında** dəfn olunmuşdur.

Onun nəvələri - Cəlil və Xəlil hazırda Bakı şəhərində yaşayırlar.



*Şamaxı. Çuxanlı kəndi, Əbdül Alı  Mahmud oğlunun 1918-ci ildə ermənilər tərəfindən dağıdılmış evi*

## VII FƏSİL

# MAHMUD AĞAYA İTHAF OLUNMUŞ ŞEİRLƏR, BƏDİİ ƏSƏRLƏRDƏN PARÇALAR, XATİRƏ VƏ MƏQALƏLƏR

## S.Ə. ŞİRVANİ

## MAHMUD AĞAYA

Ey edən Adəmi avareyi-cənnət, buğda!
Ey verən həzrəti-Həvvayə cəlalət, buğda!
Səni Adəm yedi cənnətdə, müsibət gördü,
Çəkdi Həvvayi-bəladidə nədamət, buğda!
Adəmi eylədi şeytan səninlə iğva,
Gəldi Həvvayə səninlə dəxi töhmət, buğda!
Baisi-mələnətü məsiyəti-Adəmsən,
Kim ki, allansa səninlə, ona lənət, buğda!
Yeməşəydi səni cənnətdə əgər kim,
Adəm, qalacaqdır hamı firdovsi də rahət, buğda!
Bağı-fırdovsidə axır alacaqdır rahət,
Səndən oldu bizə bu rəncu məşəqqət, buğda!
Hansı xirməndəsən, ey daneyi-ənduhu bəla,
Hansı məskəndəsən, ey mayeyi-möhnət, buğda!
Bir tapaydım səni, daş ilə əzəydim başuvi,
Eyləyəydim səni un kimi xəsarət, buğda!
Bişireydim səni təndirdə, edəydim buryan,
Doğru yeydim səni hər ləhzə, ey afət buğda!
Nə üçün mülki-Şəmaxidə tapılmazsan sən?
Ta edəydim sənə yüz günə uqubət buğda!
Tapmışam mənzilüvü mən sənin, ey töxmi-cəfa,
Bilməmişəm hardasan, ey daneyi-rəhmət buğda!
Qaçmısan Mahmud Ağanın yenə anbarına sən,

Etmisən orda nihan olmağı adət, buğda!
Yazıb ol kani-səxadən səni xahiş qıllam,
Səni Ağa edəcəkdir mənə şəfqət, buğda!
Elə bildin ki, səni Seyyiddi-nalan tapmaz,
Qalsan guşeyi-xəlvətdə fərağət, buğda?
Sahiba, Mahmud Ağa, lütfü mürüvvət dəmidir,
Eyləyib Seyyiddi-miskinə xəyanət buğda!
İndi beş aydı ki, məndən qaçıb ol ruysiyah,
Qoyub avarə məni-zari bu nikbət buğda!
Tutmuşam indi sorağın, sizin anbardadır,
Qorxuram kim, qaça ordan dəxi xəlvət, buğda.
Babamız Adəmin ol qəlbiqara düşmənidir,
Eyləyib həzrəti-Həvvayə ədavət buğda.
Qoyma anbarda qalsın, onu ixrac eylə,
Nə bilir nanu nəmək, rəsmi-məhəbbəl buğda.
Ver mənə, ta ki, dəyirmanda onu un tək əzim.
Çox veribdir məni-biçarəyə xiffət buğda.
Sahiba, buğdanın əhvalın əgər şərh eləsəm,
Olar afaqda bir tul hekayət buğda.
Qərəz oldur ki, bu il həm dəxi bildirki kimi,
Edəsən Seyyidi-biyarə inayət buğda.
Bir tağarım ədədi qədri həq etsin ömrün,
O qədər Seyyidə olsun dəxi qismət buğda.

## MAHMUD AĞAYA

Əla, ey sərvəri-valaməkan kim,
Qənimətdir vücudun Şirvanə.
Sənə olsun mübarək eydi-əzha!
Fələk kamınca olsun hər zəmanə!
Cahan olduqca olsun ömrün əfzun,
Dönə aləm sənə baği-cinanə.
Ola dünyada daim xatirin şad,
Dili-düşmən həsəddən dönə qanə.

Ola dövri-qəzadən kur çeşmi,
O kim, bədxahdır bu dudmanə.
Deyil bu sözdən, ey sərvər, muradım,
Gətirmək vəsfüvü nəzmü bəyanə.
Səni mən vəsf qılmaqdan nə fəxrin –
Ki, fəzlin cümlə rövşəndir cahana.
Qərəz, fikrim sənə mütləq duadır,
Duadən qeyri sözlərdir fəsanə.
Sənə məlumdur ixlasi-Seyyid,
Dəxi hacət deyil çəkmək əyanə.
Vəli bir neçə müddətdir ki, məndən,
Kəsilmiş ol ədayi-müşfıqanə.
Nə cismi-zar üçün bir tazə xələt,
Hə quti-puh üçün bir abu danə.
Əgərçi mən özüm təqsirvarəm,
Gələndə kəsrəti-qəmdən amand.
Nə qıldım halımı ərz ol cənabə,
Nə tutdum bir üzüm ol asitanə.
Buna həm bais oldur ki, həyadən,
Utandım, almadım bir söz zəbanə.
Göründü zahirim xəlq içrə xürrəm.
Könüldə çəkdi nari-qəm zəbanə.
Əl-əttəxsis kim, bu fəsl bülbül,
Gəlir gölzardə gülçün fəğanə.
Əl-əttəxsis kim, gülşəndə sünbül,
Dönübdür zülfi-yari-dilsitanə
Əl-əttəxsis kim, xeyki-şüküfə,
Qılır tənə nucumi-asimanə.
Əl-əttəxsis kim, ahəngi-qumri
Qılır tənə nəvayi-nəğməxanə.
Əl-əttəxsis kim, əqsami-aləm,
Gedirlər eyş üçün hər gülsitanə.
Visali-yerdə eşq əhli yeksər,
Salıb meylin şərabi-ərğuvanə.

Ölüb həmdəmlərim yar ilə məhrəm,
Bisatında dəfu cəngü cağanə.
Vəli mən xislətimdən dilmükəddər,
Çəkib payi-nədamət bir nəhanə.
Nə meyli-gülsitan, nə fikri canan,
Olub qəm tirinə canım nişanə.
Rəvadırmı sənin əsrində olsun,
Əsrini-qəm məninı tək bir yeganə?
Bu halı ərz qılmaqçün hüzurə –
Bu eyd oldu əlimdə bir bəhanə.
Bu qərra nəzm ilə ərz oldu halım,
Sənin tək bir Ağayi-mehribanə.
Əgərçi şiveyi-nəzmi-kəlamın,
Lətafətdə deyildir şairanə.
Budur ümmid kim, təbi-kərimin,
Edə təhsinlər bu natəvanə.
Ola Seyyid cənabından sərəfraz,
Qıla daim dua bu xanimanə.
Mübarək olsun eydin lütfi-həqdən,
Dağılsın seyti-fəzlin hər məkanə.
Günün xoş, xatirin xürrəm, dilin şad,
Ola ömrün cahanda cavidanə!
Ola axır nəsibin baği-cənnət,
Budur axır duamız bəndəganə!

## MAHMUD AĞAYA

Mübarək eydi-novruzi sənə, ey şəhriyar, olsun!
Həmişə taleyin nasir, həmara bəxtiyar olsun!

Açılsın qönçeyi-bəxtin, cahanə ətrlər versin,
Həmişə gülşəni-eyşin cahanda novbahar olsun!

Cahan Mahmudisən, xidmətdə yüz ziba Əyazın var,
Şamaxı Qəzney asa dəhrə sahibiştihar olsun!

Adın Mahmud, bəxtin, taleyin mahmuddur daim,
Müinin Əbmədü Mahmud, lütfi-kirdigar olsun!

Zülali-çeşmeyi-heyvan ilə dolsun sənin canın,
Bəsani-Xızr ömrün ta cahan var, paydar olsun!

Xudavəndə, sənə bu dövlətü bu ömrü asayiş –
Nə qədri vardır dünyayi-fani bərqərar olsun!

Əgərçi qalmayıb dünyadə, qalmaz hiç kəs baqi,
Və lakin zikri-xeyrin aləm içrə yadigar olsun!

Bizə çox görməsin pərvərdigari-həqq Ağani,
Cavadın cudi ilə əhli-aləm kamkar olsun!

Edər tiri-cəlalın kür çeşmin fövci-udvanın,
Nə eybi Rüstəmin bədxahı gər İsfəndiyar olsun?

Bu üç novbavələr kim, qönçeyi-gülzari-ömründür,
Açılsın abiyari-feyzin ib ətrbar olsun!

Gəlib ol fəsl kim, dağ üzrə çıxsın laleyi-xudru,
Gəlib ol fəsl kim, fəsli-zimistan dağdar olsun!

Gəlib ol fəsl kim, gül çöhrə açsın səhni-gülşəndə,
Alıb buyi-küli-rənanı bülbül biqərar olsun!

Gəlib ol fəsl kim, gül-zarə çıxsın arifu daha,
Çəməndə sadə olsun, badə olsun, badəxar olsun!

Səhər sövti-humayun ilə bülbül başlasın nəğmə,
Həzaran şurlə məmluv bu firuzi həsar olsun.

Edib başinə bülbül cəmbağ içrə əşiranın,
Buzurgü küçigin dəstində hər yan cəngü tar olsun.

Əbülçəpvar ahəngi-çəp etsə zağ gülşəndə,
Gərəkdir rast bəzmi-basəfadə bərkənar olsun.

Gülün ruxsarını bülbül görən dəm şahə naz eylər,
Gərək şurə gəlib, ahəng edib, biixtiyar olsun.

Olur afaqə zahir bülbülün eşqi bahar olcaq,
Gərəkdir eşqi-kamil hər zamanda aşikar olsun.

Dügahi-razu şəbdə, carigahi-fəsli-aləmdə,
Gərəkdir aşiqin eşqi şəhiri-ruzigar olsun.

Xoşa ol rind kim, bu fəsli-ruhəfzayi-gülşəndə,
Yanında yari-ziba, əldə cami-xoşguvar olsun.

Gülüstan guşəsində sufreyi-biintizarında,
Mey olsun, dübər olsun, hər zaman busu kənar olsun.

Səbu zanudə, sağər əldə, məclis xali, mey hazır,
Vüsali-yari-gülmxsar, fəsli-laləzar olsun.

Bu günə məclisi verməz həqiqət cənnətə adəm,
O kəs şeytandı kim, bir böylə məclisdən kənar olsun.

Həmişə vaiz etsin qoy məzəmmət badeyi-nabi,
Nə hasildir məzəmmətdən əgər ki, səd hezar olsun.

Bizə nifrin edər gər şeyxi-Şirvan badə şürbündən,
Ona bizdən gərək xeyr-dualər bişümar olsun.

Bizə hərçənd mey şürbin duadə zəhrmar eylər,
Məzağında onun, yaəbb, kövsər xoşgüvar olsun.

Nə nifrin eyləsə, qoy eyləsin vaiz bizə, Seyyid,
Təki bəzmimdə badə, bir nigari-gülüzar olsun!

Təki gəlsin bahari-aləmara səhni-gülşənlər
Bəsani-səflieyi-Ərjəng pürnəqşü nigar olsun.

Gələ sultani-gutəxti-zümürrüdfam gülzarə,
Olub şabaş, əbri-tirədən dürlər nisar olsun.

Yazıb bir şər göndərsin dəxi Mahmud Ağayə,
Nəsibin gövhəri-qəltan, dürri-şahvar olsun.

Deyil rizişdə kim, əbri-bəhari-aləmaradən,
Zülali-feyzinə könlün onun ümmidvar olsun.

Əgər bilsə səni feyzinə layiq çox edər ehsan,
Bu xasiyyət gərəkdir onda gün tək aşikar olsun.

Deyil divanə kim, versin pulun hər bisərü payə,
Bu rəmzi bilməyənlər indi bilsin, huşyar olsun.

Hər il ondan səxalər görmüşəm mən lütfü ehsanlar.
İlahi, dövlətli payəndə, bəxti payidar olsun!

Fələk qədra, bu sözlərdən qərəz mədhin deyil, amma,
Budur fıkrim ki, mədhindən mənimçün iftixar olsun.

Mübarək badiyi-novruzdur bu fəsli-zibada,
Yazıb bu şeiri göndərdim ki, məndən yadigar olsun.

Deyildir eyb şair mədh qılsa sən tək Ağani,
Böyüklər mədhi şairçün gərəkdir hər bahar olsun.

Bəli olmasa istər ki, mədhdən bar bir təmənnası,
Təmanna olmasa istər ki, mədhi səd həzar olsun.

O kəs ki, mədh edəndə bir səxavət eyləməz zahir,
Gərəkdir şairin həcvində həm çox əşkbar olsun.

Nə ağzımdır ki, siz tək şuxi mən həcv eyləyim, haşa!
Kinayə özgədir bu sözdə, ol namərdə ar olsun.

Yazıb maiu mənalı qoysun anbarına Qarun tək,
Edib tez puç olan malı xəzinə, xəzinədar olsun!

Bu il bir neçə şəxsi eylədim tövsif, göndərdim,
Ki, şayəd xatirimdən feyzinə, rəfi-qubar olsun.

Həsən bəydən yetişdi, çox sağ olsun, nəqd ənamım,
Onun bədxahı, yarəb, aləm içrə tarü mar olsun!

Ağanın dəxli yoxdur bir kəsə bu rübi-məskunda,
İlahi, yavəri hər fəsldə həştü cahan olsun!

Bahari-ömrü olsun lütfi-həqdən tazəvü rəyyan,
Mühübbi kül təki xürrəm, onun bədxahı xar olsun!

## *MAHMUD AĞAYA*

Alişan həzrəti-Mahmud Ağa-
Ki, düşüb aləmə şöhrət səndən,
Kəsməsin sayə humayi-bəxtin,
Getməsin hiç bu dövlət səndən.
Hələ dünyadə yüz il ömr edəsən,
Getsin ləzzətü işrət səndən,
Vermisən hər kəsə bir növ səfa,
Şaddır əhli-vilayət səndən.
Bir mənəm şəfqətüvün məhrumi,
Yetmədi qəlbimə rahət səndən.
Sahiba, var dili-zarında mənim
Xeyli müddətdi cərahət səndən.
Salmadı zəxmimə lütfün mərhəm,
Görmədim hiç təbabət səndən.
Neçə illərdi ki, görməz Seyyid,
Sərvəra, hiç şəfaət səndən.
Keçən illərdə sənə şeir yazıb,
İstədim halıma rəfət səndən.
İki ildir ki, gözüm yolda qalıb,
Görmürəm hiç əlamət səndən.
Yoxsa eşqin kimi payanə yetib,
Qurtarıb kəşfi-kəramət səndən.
Əhli-dil Kəbə deməzlər qapuvi,
Gər rəva olmaya hacət səndən.
Gəlmişəm xidmətüvə gözləyirəm,
Lütf ilə çeşmi-inayət səndən.
Seyyidə lazımədir, vasil ola
Nəqd bir cameyi-xələt səndən.
Yaz, bəratimi bu gün eylə əta,
Ta yetə qəlbə məsərrət səndən.
Yazmış idim sənə də əşarı –

Ki, edim hasüi-hacət səndən.
Dedi bir şəxs mənə tənə ilə:
Məhv olub fəhmü fərasət səndən.
Bu sifət sən ki təməhkar oldun,
Eyləyib xəlq odu nifrət səndən.
Əqlü idrak kimi zail olub
Yoxsa iksiri-qənaət səndən?
Olacaqsan bəs ölüncə sail,
Gedə müşküldü bu halət səndən.
Bəsdir bir danə sənə köhnə əba,
Çün gedib zivərü zinət səndən.
İstəmə Mahmud Ağadan xələt,
Səhldir bir belə cürət səndən.
Seyyidi-pakə həram oldu sual,
Məhv olub yoxsa səyadət səndən?
Sahiba, ərzimi ki, güş etdin,
Gör nədir indi ləyaqət səndən.

## Dünya şöhrətli fransız yazıçısı Aleksandr Dümanın Mahmud Ağa və məclisi barədə təəssürratı (24 noyabr 1858-ci il)



*Aleksandr Düma*

...Hələ bazarda gəzərkən bir dəvətnamə aldıq. Şamaxının ən varlı adamlarından biri olan Mahmud bəy bizi həmin gün qonaq çağırırdı. Şərqsayağı qonaqlıqda musiqi və rəqs olacağını deyirdilər. Təkcə Şirvanda deyil, bütün Qafqazda məşhur olan Şamaxı rəqqasələri haqqında bizə çox danışmışdılar. Knyaz Dundukov bizə demişdi: «Şamaxı rəqqasələrinin oyununa tamaşa etməyi yaddan çıxarmayın!» – Baqration tapşırmışdı: «Şamaxıda rəqqasələrə baxmağı unutmayın!». «Şamaxıda rəqqasələrə tamaşa etməyi unutmayın!» – Bakıda da təkrar etmişdilər.

Bu rəqqasələr xanlıqlar dövründən qalmadır. Onlar saray rəqqasələri olmuşdular. Bir bədbəxtlik üzündən rəqqasələrin biri yox idi. İndi dəstə iki rəqqasə qızdan və bir balaca oğlandan ibarət idi. Həddindən artıq gözəl olan üçüncü qız Şamaxıya səs salan bir hadisənin ucbatından baş götürüb bu diyardan getmişdi. Onun adı Sona idi.

Lakin rəqs dəstəsi üçlükdən – üç qadından ibarət olmalı idi. Üç rəqəmi, xüsusilə, Şərq oyun havalarında müqəddəs və sirli hesab olunur. Odur ki, gözəl Sonanı qız paltarı geyinmiş balaca bir oğlan əvəz etmişdir. Maraqlıdır ki, bu əvəzetmə rəq-

sin bədii və estetik məzmununa xələl gətirmək əvəzinə, onu daha da canlandırmışdır. Azərbaycanlıların qədd-qaməti çox gözəldir! Gözəl qədd-qamət yalnız onların payına düşmüşdür.

**Mahmud bəyin evi Dərbənddən Tiflisə qədər gördüyüm evlərin ən gözəli idi. O, Şərq memarlıq üslubunda tikilmiş qiyamət bir imarət idi. (S.Q).**

Biz adamı valeh edən, gözəlliyini sözlə ifadə etmək, qələmlə təsvir etmək mümkün olmayan çox zəngin, şərqsayağı bəzədilmiş bir salona daxil olduq. Qonaqlar qızılı haşiyəli döşəkçələrin üstündə oturmuş, al-əlvan, qumaş mütəkkələrə dirsəklənmişdilər. Salonun o başında incə naxışlarla bəzədilmiş, şəbəkəli böyük və hündür pəncərənin yanında üç rəqqasə və beş çalğıçı vardı.

Bir azdan sazəndələr məharətlərini göstərməyə başladılar. Onlar milli musiqi alətlərində çalırdılar. Dəmir ayaqcıqlar üzərində yerləşdirilmiş, nəhəng yumurtanın yarısına bənzər təbil, bizim fleytanı andıran qədim şəkilli musiqi nəfəsli aləti – tütək, üstündə mis simlər olan və mizrabla çalınan, bizim mandalinaya oxşar tar və nəhayət, qonçuraya bənzər dəmir ayaqlı, bir növ musiqi aləti – kamança. Bu musiqi alətinin sol tərəfində bir dəstək vardır. Simlər bu dəstəyə dolanmışdır. Onu kaman yayı ilə çalırdılar. Orkestr böyük səs-küylə çalsa da, rəqqasələrin diqqətlə izlədiyi və ona uyğun oynadığı müəyyən bir ritm aydın duyulurdu.

Rəqqasə qadınlardan birinə o qədər də gözəl demək olmazdı. Digərinin isə cavanlıqda çox gözəl olduğu hiss edilirdi. Lakin yaş öz işini görmüşdü. İndi onun gözəlliyini payız günəşi ilə müqayisə etmək olardı. Parıldasa da, odlayıb yandıra bilmirdi. O, mənə 1826-cı və ya 1827-ci ildə tanış olduğum madmazel Jorju xatırladırdı. Jorj da çox gözəl idi. Lakin müqayisədə üstünlüyü Jorja verəsi olacağam. Əgər Nisə bir qəlbi ovlamış, ona hakim olmuşdusa, Jorj iki qəlbi ram etmişdi. Başqa bir tərəfdən də Jorj məclislər görmüş, çox ölkələr gəzmişdi. Gözəl Nisə isə bütün ömrü boyu Şamaxıdan bir yana çıxmamışdı.

Bütün şərqli qadınlar kimi, Nisə özünə xüsusi sığal verərək, bəzənib-düzənmişdi. Onun cazibədar qara gözləri, kamana bənzər qara çatmaqaşları, hind fındığına bənzər burnu və püstə ağzı vardı. Məftunedici, mərcan kimi qırmızı, ehtiraslı dodaqları hərdən açılır və mirvariyə bənzər ağappaq dişləri görünürdü. Onun gur, qara saçları kiçik məxmər araqçının altından çiyinlərinə tökülürdü. Nisə oynadıqca saysız-hesabsız xırda pul – Azərbaycan pulu yağış kimi onun başına səpilirdi. Əynində qızılı xətlərlə işlənmiş dar məxmər arxalıq vardı. Duvağı tüldən idi. Üzərində palma budaqlarının şəkli həkk olunmuş donu döşəməyə toxunduğundan ayaqları görünmürdü.

Nisbətən gənc olan rəqqasənin geyimi də özü kimi o qədər qəşəng deyildi. Vaxtında xəbər verməsəydilər, üçüncü rəqqasın da qız olduğunu güman edərdim. Çünki bu gənc oğlan çox gözəl idi. Oyuna oğlan başladı. Onun barmaqları arasında mis şaxşax vardı. Onu gurultulu alqışlarla qarşıladılar. Sonra o, gənc rəqqasə ilə oynadı. Nəhayət, Nisə də onlara qoşuldu.

Şərq rəqsləri hər yerdə bir-birinə bənzəyir. Mən bu rəqsləri Əlcəzair də, Konstantinopolda, Tunisdə, Tripolidə və Şamaxıda görmüşəm. Bu rəqsləri ifa edərkən, ayaqları gah iti, gah da yavaş hərəkət etdirir, bədəni və ombaları da buna uyğun oynadırlar. Nisənin rəqsi, doğrudan da, valehedici idi. Mən «Arılar» rəqsini ifa etmələrini xahiş etdim. Dedilər ki, bu rəqs kiçik məclislərdə ifa olunur.

Nisənin rəqsindən böyük ləzzət almış bu adamların yanında az əhəmiyyətli görünən təklifimi geri götürdüm.

Rəqs başa çatdıqdan sonra şam yeməyinə dəvət olunduq.

Xörəklərin ən əlası – yanında nardança və yağ olan, beçə ətindən turşulu-döşəməli plov idi.

Süfrəyə hər cür şərab qoyulmuşdu, lakin ev sahibi və bir neçə Məhəmməd ümməti sudan başqa heç nə içmədi. Yeməkdən sonra yenə rəqs başlandı. Qeyd etməyə dəyər ki, bu rəqs axşamı həddini aşmadı. Mən Parisdə çox bal gecələri görmüşəm ki, oradan adamlar səhər saat 3-də dağılışırlar. Parisdə ha-

mı, hətta qadınlar da qonaqlıqda şərab içdikləri halda, burada, bayaq dediyim kimi, kişilərin də çoxu şərab içmirdi. Bundan başqa, Parisdəkindən fərqli olaraq, Şamaxıda rəqqasələrin iştirakı ilə keçirilən bu qonaqlıq nisbətən tez qurtardı.

Siz gözəl başa düşürsünüz ki, belə tez çıxıb getməklə mən böyük hörmətlə qəbul edildiyim və bütün qonaqlarına dərin hörmət bəslədiyim bir evdən qaçmırdım, səyyahlar qrupunun rəhbəri kimi sabahkı gün haqqında düşünürdüm.

Düz gündüz saat 12-də, əvvəlcədən qərara alındığı kimi, şəhər komendantı və onun ailəsi ilə vidalaşdıq. Bizi Nuxaya qədər müşayiət etmək üçün o, ən cəsur yasavulu Nurmat-Matın başçılığı ilə 12 nəfərlik bir dəstə ayırmışdı.

Şamaxı ilə vidalaşmağımız orta əsrlərin vidalaşmağına bənzəyirdi. XIX əsrin 30-cu illərinə qədər Fransada dəbdə olan bir mənzərə ilə qarşılaşdıq. Mahmudbəy özünün ən mahir ovçusunu göndərmişdi ki, Şamaxı ilə Ağsu (Yeni Şamaxı) arasındakı dərələrdən birində şahinlə ov ovlamağı bizə göstərsinlər.

Qabaqda qollarının üstündə şahin olan ovçular, arxada isə biz, Şamaxını tərk edirdik.

Şamaxıdan Ağsuya gedən yol yaxşı idi. Bakıdan Şamaxıya qədər bir ağac belə görməmişdim. Burada isə üstündə hələ də yarpaq olan hər cür ağac və kol-kos vardı. Yol boyu murdarça ağaclarına tez-tez rast gəlirdik. Hava mülayim, səma aydın idi.

Saat yarım içində ov edəcəyimiz yerlə Şamaxı arasındakı iyirmi kilometrlik yolu qət etdik. Biz oranı hələ uzaqdan tanımışdıq. Çünki orada bizi Mahmud bəyin adamlarından daha ikisi gözləyirdi. Onların yanında üç ov tulası və bizim istifadəmiz üçün iki əlavə at vardı. Faytonlardan yerə tökülüşdük. Bütün yolboyu mən dovşanların oynaşdıqlarını görmüşdüm. Odur ki, yerə düşən kimi özümü sıx kol-kosun içinə verdim və mənim üçün atı hazır saxlayan azərbaycanlıdan xahiş etdim ki, dalımca gəlsin. Moyne də mənim kimi etdi. Heç yüz metr getməmişdik ki, adama bir dovşan vurduq. Bundan başqa mən bir qırqovul uçurtmuşdum, onun kolluğa düşməyini gözləyirdim.

Bir azdan qırqovul uzaqda yerə endi. Mən ata minib, ovçuları şahinlərlə ova dəvət etdim. Ovçular tez bizim yanımıza gəldilər. Onlara qırqovul düşən səmti göstərdim. Tulaların başını açıb buraxdıq və həmin səmtə tərəf getməyə başladıq.

Mənim göstərdiyim yerə gəlib çatanda başqa bir aləmlə qarşılaşdıq. Ətrafımızda dəstə-dəstə kəklik və qırqovul uçuşurdu. Biz onları izlədik. İki yüz addım atmamış artıq quş şahinimin caynağında idi. Onu diri-diri tutmaq üçün özümü lap vaxtında çatdırmışdım. Bu, gözəl bir qırqovul idi, təkcə başından – bircə yerdən yarası vardı.

Bizim şahingəzdirən öz dəri çantasından bir tikə qanlı ət çıxarıb, mükafat olaraq quşa verdi. Heç şübhəsiz ki, quşu bu adam uçurtmuşdu.

Biz faytonlarımızın yanına qayıtdıq. Moyne də elə mənim kimi xoşbəxt idi. Çünki onun əlində diri, lakin daha pis hala salınmış çox gözəl bir qırqovul vardı. Quşun başını bir anda üzüb, faytonun dalındakı iki dovşanın yanına qoydular. Sonra isə Moyne ilə bir yüksəkliyə qalxdıq. Buradan ətraf ovuc içi kimi görünürdü. Atların üstündə heykəl kimi dayanıb şahinlə ova tamaşa etdik.

Əllərində şahin olan ovçular kol-kosların arası ilə irəli cuman tazıların ardınca gedirdilər. Bir qırqovul havaya qalxdı. Şahinlərdən birini o saat onun dalınca uçurtdular. Lakin qırqovul uçub canını qurtardı. Bu vaxt tazıların önündən başqa bir qırqovul pırıltı ilə uçdu. İkinci şahin havaya qalxdı. Şahin üç-dörd dəfə caynaq atmaqla qırqovulu haldan saldı. Az vaxt içində ovçuların çantaları, demək olar ki, dolmaq üzrə idi. Şahinlər nəinki qırqovul, kəklik, torağay və başqa quşları, hətta dovşanları belə ovlayırdılar.

Qəribə bir hadisənin şahidi olduq:

Bizə tərəf uçan qırqovulu haqlamaqda olan şahin birdən güllə kimi kolluğa endi. Başımı qaldıranda, bir göz qırpımında baş verən bu hadisənin səbəbi aydınlaşdı. Yüz metr aralıda, böyük bir qartal səmada qıy vururdu.

Şahinin dalınca qaçdım və onu çox böyük çətinlikdən sonra tapa bildim. Özünü sıx kolluğa soxmuş quşun bütün bədəni qorxudan əsim-əsim əsirdi... Cidd-cəhdinə baxmayaraq, onu gizləndiyi yerdən ehmalca dartıb çıxartdım. Heyvancığazın ayaqları elə tutulmuşdu ki, nə çiynimdə, nə də əlimdə dayana bilirdi. Lakin onun qorxusu əbəs yerə idi. Qartal artıq uzaqlaşmış və səma göz işlədikcə bomboş idi. Elə bu vaxt ovçu da gəlib çıxdı. O, quşcuğazı mənim əlimdən alıb, sığallayaraq cürətləndirməyə başladı. Amma onun yenidən ov dalınca uçması o gün mümkün deyildi.

Müşahidə edə bildiyim bu görünməmiş hadisə mənim üçün həm təəccüblü, həm maraqlı, həm də xoş idi.

Vaxt keçirdi. Üstündə gecələyəcəyimiz Girdimançaya çatmaq üçün gün batmamış nəhəng bir dağ aşırımını keçməli, otuz kilometr yol qət etməliyik. Odur ki, ovu qurtardıq. Ovçular Mahmud bəyin göstərişini yerinə yetirib, ovun hamısını bizə verdilər. Biz də əvəzində ovçulara pul verib uzaqlaşdıq.

***

## Firidun Şuşinskinin «Azərbaycan xalq musiqiçiləri» əsərindən



*Firidun Şuşinski*

«Sadıqcanın gözəl çalğısı şamaxılı Mahmud Ağanın da nəzərini cəlb etmişdi. Bu barədə məşhur şair və musiqişünas Məhəmməd Ağa Müctehidzadə **«Qarabağnamə» adlı əsərində belə yazır:** «Şirvanlı Mahmud Ağa Sadıqcanın tərifini eşidib onun Şirvana tərəf gətirilməsini xahiş edir. Mahmud Ağa Sadıqcanı dəvət etmək üçün öz məclisində Humayi təxəllüsü ilə məşhur olan bir tarzəni Şuşa şəhərinə göndərir. Sadıq əvvəlcə gəlmək istəmir, sonralar isə necə olursa razılıq verir. Mahmud Ağa onun Şamaxıya gəlməsindən son dərəcə şadlanaraq Sadığa lazımi qədər hörmət edir, hətta onu dəvət edib gətirdiyi üçün Humayiyə də mükafat verir. Sadıqcan məclisdə kamali-zövqlə tar çalmağa başlayır. Məclis Sadığın böyük məharətlə tar çalmağını alqışlayır.

Humayi günəş qarşısında ay olsa da, günəşin qarşısında sönüklüyünü hiss edərək Şirvanda qala bilməyib təcili olaraq Şuşaya gəlir. Mahmud Ağanı həcv edib, Sadıq haqqında nalayiq sözlər söyləməyə başlayır.

Bu əhvalatı eşidən Sadıqcan Şirvana dönmək şərtilə Şuşaya səfər üçün Mahmud Ağadan icazə alır. O, Şuşaya qayıdarkən eşidir ki, Humayi yalan və böhtan ilə onun şəxsiyyətinə toxunub. Humayinin bu nalayiq işlərindən qəmgin olan Sadıq Şirvana qayıtmaqdan imtina edir.

Mahmud Ağa Sadığın qayıtmasından kədərlənir və Seyid Əzim Şirvanidən xahiş edir ki, məktub vasitəsilə Sadığın niyə gəlmədiyini sorsun. Seyid Əzim Şirvani məktub yazıb Sadıq-

dan gəlməməsi səbəbini soruşarkən, Sadıqcan həcvin surətini məktubla Seyid Əzimə göndərir».[1]

Sadıqcanın məktubunu alan Seyid Əzim Humayinin yazdığı həcvin müqabilində ona cavab olaraq **60 misradan** ibarət müxəmməs formasında bir həcv yazmışdır.

Ey Humayi, bu nə ətvar idi izhar elədin,
Çəxri bəd-mehr kimi zülmü pədidar elədin,
Sübhi-kasib kimi sadiq üzünü tar elədin,
Sadığın sabiti-əşkin üzə səyyar elədin.
Şəfəqi-eşqlə ruxsarım gülnar elədin.

Dustluqda nə üçün gözləmədin əndazə,
Düşmən oldun niyə ol sərvi-qədi tənnazə,
Qəleyi Şişəyə saldın gedibən avazə,
Ki, Filani ruxi-zibayə vurardı cazə.
Şabidi-istəmə məşşatəlik izhar elədin.

Sadığın naməsi gəldi mənə ey taübi-Vaz,
Sanki yazmışdı onu nazilə Mahmudə Əyaz,
Leyk başdan ay Ağa işvə idi suzi güdaz,
Görünür eşqi-həqiqin demisən eşqi-məcaz,
Ey bəradər, nə üçün sən belə rəftar elədin.

Sadığın vəsfini dəstanə gətirdin sən özün,
Gedibən kişvəri-Şirvanə gətirdin sən özün,
Töhfə tək bəzmi-Sülüymanə gətirdin sən özün,
Mindirib rəxşini meydanə gətirdin sən özün,
Vəsfini aləmə Firdövsi kimi çar elədin.

[1] M.A.Müctəhidzadə. Qarabağnamə (əlyazması). Azərbaycan SSR Mədəniyyət Nazirliyi Memarlıq və İncəsənət İnstitutunun elmi arxivi, qovluq № 78 «A»

Ey əzizim, gəlibən şur ilə köftarə özün,
Eylədin haqlı Züleyxa ruhi-dildarə özün,
Çəkdin ol Yusifi-gülçöhrəni bazarə özün,
Eylədin ərz məta eyni xiridarə özün,
Sonra döndün niyə bəs təlqi-xiridar elədin.

Ey Humayi-qəsəm ol padişahi-qəhharə,
Ki, veribdir qulağa səm necə gör nəzzarə,
Hüsn də Yusif ola gər o məhi səyyarə,
Olmayıb pirəhəni-isməti hərgiz parə,
Yox yerə sən bu işi böylə qərəz dar elədin.

Xub, tutaq Sadığa lazım görünürdü böhtan,
Neyləmişdi sənə Mahmud Ağa, ey ruhi-rəvan,
Şərm edib, gözləmədin həqqi-nəmək, hörməti-nan,
Gedibən Qələyə[2] haqqında danışdın hədyan,
Filhəqiqə nə onu, sən özünü xar elədin.

Ağanın neməti-əlvani gözündən gəlsin,
Süfreyi-bəzmi-Süleymani gözündən gəlsin.
Kababu şərabu buryani gözündən gəlsin.
Meyi olsun cigərin qani gözündən gəlsin,
Çünki həqiqində olan feyzini inkar elədin.

Gəlmisən bir neçə dəfə sən özün Şirvanə,
Hüsndə bənzər idin mehri məhi-təbanə,
Sənə də Mahmud Ağa etdi xəyanət ta nə?
Niyə bica yerə saldın kişini böhtanə,
Binəvanın nə üçün fısqini iqrar elədin.

Nəğəmat əhlinə Mahmud Ağanın rəğbəti var,
Bilməyən yoxdu bu əsrarə onun şöhrəti var.

[2] Qələ - Şuşa şəhəri

Gər ola həqqi də vardır kişinin dövləti var,
Dövləti, mərifəti, ləzzəti var, hörməti var,
Sən bu zahir işi bais nədir inkar elədin.

Saxlamaq adət olubdur kişiyə xanəndə,
Neçə xanəndə ona yeksər olub payəndə.
Biri Səttar, Həsən Çəpdi, bilirsən sən də,
...Ola hər kimsə məgər sazəndə?
Sadığa kəzbi nə üçün belə səzavər elədin.

Çəkməyirdin nə üçün bəs Şükürün qeyrətini,
...Həmi həm də yazığın övrətini,
Gəlibən, kəsib yeyərdin Mahmud Ağanın…
İndi bəs qeyrətü namusa gəlib var elədin.[3]

«Sadıqcanın sənətinə və şəxsiyyətinə son dərəcədə aludə olan Mahmud Ağa onu xanəndə Hacı Hüsü ilə tez-tez Şamaxıya qonaq dəvət edərdi. Bu isə Xan qızı Xurşidbanu Bəyim Natəvanı əsəbiləşdirərdi. Çünki Sadıqcan Xan qızının məclislərinin yaraşığı idi. İstər Xan qızı sarayındakı ziyafətlər, istərsə də «Məclisi-üns»ün yığıncaqları Sadıqsız keçinməzdi. Maraqlı burasıdır ki, Mahmud Ağa ilə Natəvan arasında uzun illər yazışma olmuşdur» **(52- 60-63).**

... «Məhəmməd Həsənin gözəl səsindən və musiqi istedadından xəbər tutan Mahmud Ağa gənc xanəndəni öz sarayına dəvət edir. Məhəmməd Həsən xanəndəlik sənətinin incəliklərinə burada bələd olur. Mahmud Ağa Kərbəlayi Əkbərdən sonra Məhəmməd Həsənin həyatında böyük rol oynayır. Mahmud Ağa varlı mülkədar olsa da, dindən, cəhalətdən uzaq idi. Buna baxmayaraq, tamahkar mollalar və seyidlər maddi cəhətdən Mahmud Ağadan asılı olduqlarına görə ona bir söz deməkdən çəkinir, xəlvətdə lənət oxumaqla təsəlli tapırdılar. Mahmud

[3] S.Ə.Şirvani. Divan, Təbriz, 1897, 5226-228

Ağanın sarayında Məhəmməd Həsən musiqi elminə daha dərindən bələd olur. Mahmud Ağanın müsabiqələrində yaxından iştirak edirdi. Bu məclislərdə bir xanəndə kimi püxtələşən Mirzə Məhəmməd Həsən nəinki Şamaxı müğənniləri arasında birinci yer tutmuş, hətta Hacı Hüsü, Əbdülbaqi Bülbülcan kimi böyük müğənnilərlə müsabiqəyə girmişdi **(səh; 111-112)**



*S.Ə.Şirvani "Divan", 1897, Humayina yazılmış həcvin bir səhifəsi*

## V.Məmmədovun «Muğam, söz, ifaçı» əsərindən


*Vəli Məmmədov*

«Hər şeydən əvvəl, Mirzə Məhəmməd Həsən məharətli bir ifaçı və musiqiçi idi. Qeyd etdiyimiz kimi, o, ömrünün yarıdan çoxunu doğma sənətə həsr etmişdi.

Onun ustadı həmyerlisi **Kərbəlayi Ələkbər** adlı bir musiqiçi olmuşdur. Gənc xanəndə onunla birlikdə böyüklü-kiçikli məclislər görmüş, xalqın nəfəsi, elin mizanı onu məhəkə çəkmiş, sənətin sirli, ağır imtahanından uğurla çıxmışdır. M.M.Həsən dəfələrlə musiqipərəst Mahmud Ağanın qonağı olmuş, onun tələbkar zövqünü oxşaya bilmişdir. Qeyd etmək lazımdır ki, Mahmud Ağa Şirvan xanəndələrini tez-tez evində qonaq edər, onların **çalıb-oxumasına qulaq asar, yarış keçirərmiş**. O, kənar yerlərdən də bu müsabiqəyə sənətkarlar dəvət edərmiş. O zaman Qarabağda məşhur, füsunkar müğənni Hacı Hüsü, novator tarzən Sadıqcan Əsəd oğlunu Şamaxıya dəvət etmiş, onların şəninə məclis düzəltmiş, könüllər fəth edən nəğməkarları yüksək qiymətləndirmişdi.

Mirzə Məhəmməd Həsən də bu məclislərdə iştirak etmiş, dövrün nəhəng sənətkarlarını dinləmiş, onlardan yeni-yeni guşələr, xallar əxz etmişdi».

## Ruhları şad olsun...

(Akademik Feyzulla Qasımzadənin xatirələrindən)



*Akademik Feyzulla Qasımzadə*

«Sevimli müəllimim, akademik, mərhum Feyzulla Qasımzadə bir gün dərs saatında tələbələrə danışırdı ki, Mahmud Ağanın az ədəbi-musiqili məclisi olardı ki, Seyid Əzim Şirvani iştirak etməsin.

Seyid olan məclisin öz ahəngi, öz ritmi var idi. Kasıbların, əlsiz-ayaqsızların dolanacağı daha ağır idi. O dövrdə Şamaxıda xeyirxah insanlar çox idi. İmkansızlara əl tuturdular... Bəzi varlılar isə gecələr yoxsulların həyətlərinə pay göndərirdilər. İstəyirdilər ki, ev yiyələri payın kim tərəfindən göndərilməsini bilməsinlər. Eləcə də Mahmud Ağa.

Bir gün Seyid Əzimin yaxşı tanıdığı bir nəfər onlara gəlir. Ailəsinin ac olduğunu bildirir. Seyid çıxılmaz vəziyyətdə qalır. Elə dünən Mahmud Ağanın göndərdiyi buğdanı əlsiz-ayaqsız, qohum-qonşulara paylamışdı. İndi bəs nə etsin? Qonağın isə ümidi təkcə ona idi…

Elə bu vaxt Mahmud Ağanın göndərdiyi adam içəri girdi.

Bildirdi ki, Ağası Seyidi məclisə dəvət edir. Qarabağdan qonaqları gəlmişdir. Bu xəbər Seyidə bir az təskinlik verir. Evdə qonağı rahatlamağı tapşırıb, Mahmud Ağagilə gedir.

Seyidin gəlişi məclisdə hamının qəlbini oxşayır, hamı Seyidin istedadı qarşısında səcdə edir. Məclisin belə canlı keçməsindən xüsusi ləzzət alan Mahmud Ağa Seyidə müraciətlə deyir:

- Çox sağ ol, ustad! Afərin, sənə afərin, Ağa! Hamımızın qəlbini oxşadın, qonaqlarımızı valeh etdin. Xələtim məndə! Təvəqqə edirəm, Ağa istəyini şeirlə de...

Bu sözdən sonra Seyidin gözləri gülür. Bayaqdan qonağı üçün Ağadan buğdanı necə istəyəcəyini düşünürdü. Belə fürsətin ələ düşdüyünə çox sevindi. Duyğularını bir yerə cəmlədi, ürəyi coşdu, qafiyələr Seyid istedadı qarşısında aciz qaldı. Buğda istəyini Mahmud Ağaya bədahətən dediyi aşağıdakı şeirlə bəyan qılır:

Sahiba, Mahmud Ağa, lütfü mürüvvət dəmidir,
Eləyib Seyyidi - miskinə xəyanət buğda!
İndi beş aydı ki, məndən qaçıb ol ruysuyah,
Qoyub avarə məni - zari bu nikbət buğda!
Tutmuşam indi sorağın, sizin anbardadır,
Qorxuram kim, qaça ordan dəxi xəlvət buğda.
Babamız Adəmin ol qəlbiqara düşmənidir,
Eyləyib Həzrəti-Həvvayə ədavət buğda,
Qoyma anbarda qalsın, onu ixrac eylə,
Nə bilir, nanu-nəmək, rəsmi-məhəbbət buğda!
Ver mənə, ta ki, dəyirmanda onu un tək əzim,
Çox veribdir mənə - biçarəyə xiffət buğda.
Sahiba, buğdanın əhvalın əgər şərh eləsəm,
Olar afqda bir tul hekayət buğda.
Qərəz odur ki, bu il həm dəxi bildirki kimi,
Edəsən Seyyidi - biyarə inayət buğda.
Bir taqarın ədədi qədri həq etsin ömrün,
O qədər Seyyidə olsun dəxi qismət buğda…

**(Qəsidəni Mirzə axıra qədər söylədi - S.Q).** Şeir tamam olan kimi hər tərəfdən alqış səsləri qopur. Yenidən bütün məclis əhli Seyid istedadı qarşısında səcdə edir. Bu alqışlar, heyran baxışlar qarşısında Seyidin nurlu üzü daha da işıqlanır. Məclis əhlinin təəccübü yerə-göyə sığmır. Yanıqlı bir səs hamını öz dünyasından ayırır. Cavan xanəndə Mirzə Məhəmməd Həsən «Şuri-şahnaz» oxuyurdu. O da öz ecazkar səsi və Seyid qəzəlləri ilə məclisə rövnəq verirdi:

Nə bu gün bağda yarım, nə meyim var mənim,
Seyri-gülzardə bihudə neyim var mənim?..

...Nəhayət, Mahmud Ağa dillənir:

- Seyid, cəddinə qurban olum, sənin istedadın qarşısında baş əyirik. Bu şeirinə isə bir tağar nədir, beş, on tağar da buğda yenə azdır.

Bilirəm ki, imkansızlara əl tutmaq fikrindəsən. Sabah sənin adına əlli tağar buğda göndərəcəyəm, kimə istəsən, payladarsan...

Seyid evə çatanda daha çox sevinirdi. Axı təkcə qonağa deyil, sabah onlarla kasıba əl tutacaqdı...

Bəli, bu üç böyük insanı - **Seyid Əzim Şirvani (1835-1888), Mahmud Ağa Əhməd Sultan oğlu (1826-1901) və Mirzə Məhəmməd Həsən Naləni (1851-1917)** birləşdirən ən başlıca cəhətlərdən biri də - xeyirxahlıq, imdada çatmaq olmuşdur.

***

## Mahmud Ağa və S.Ə.Şirvani

Azərbaycanın ən qədim mahallarından biri olan Şamaxı mədəniyyətimizin tarixində mühüm rol oynamışdır. Yalnız Azərbaycanda deyil, bütün Şərqdə şöhrət qazanmış Xaqani,

Fələki, Bahar, Nişat, Nəsimi, Hacı Zeynalabdin Şirvani, Seyid Əzim, Mahmud Ağa, M.Ə.Sabir, M.Hadi, A.Səhhət, S.M.Qənizadə, H.Nəzərli və bir çox başqa şair, ədib, alim və dövlət xadimi bu torpaqda yetişmişlər.

Geniş dünyagörüşünə malik, bir neçə Şərq və Avropa dillərini bilən, Azərbaycan Demokratik Respublikasının Fransada səfiri olmuş, 37-ci ilin faciəli qurbanlarından olan görkəmli yazıçımız Yusif Vəzir Çəmənzəminli «Yeni Şirvan» məqaləsində şirvanlılar və Mahmud Ağa haqqında demişdir: «Azərbaycanda hasil olan qənaətə görə şirvanlılar çox əhli-kef, şən yaşayışı sevən olarlar. Mahmud Ağa kimi bütün həyatını oxuyan-çalan məclislərində keçirmiş bir adamın Şirvanda yetişməsi təsadüfi deyil».

Tanınmış musiqişünas Firidun Şuşalı «Muğamla yoğrulan ömür – Mahmud Ağa» gecəsində çıxış edərkən dedi ki, XIX əsrin ikinci yarısında Şirvan mahalında xanəndəlik sənətinin inkişaf tapmasında Mahmud Ağanın böyük xidməti olmuşdur. Mahmud Ağa Şamaxının məşhur mülkədarı və bütün Qafqazda tanınan musiqi xadimi idi. Mahmud Ağa sənəti, şeiri, musiqini sevən, əliaçıq, qonaqpərvər bir mesenat kimi şöhrət tapmışdır.

Şamaxının başqa mülkədar və bəylərindən fərqli olaraq Mahmud Ağa alicənab, səxavətli, yoxsulların qayğısına daha çox qalan adam idi. Şamaxının abad və gözəl bir şəhər olmasında onun müstəsna xidməti olmuşdur. O, şəhərə su kəməri çəkdirmiş, hətta, «Beytüs-Səfa» adlı ədəbi məclisə maddi yardım göstərmişdir. Fransanın böyük yazıçısı ata Aleksandr Düma «Qafqaz səfəri» əsərində Mahmud Ağanın qonağı olmasından, onun cah-cəlalından, Mahmud Ağa məclisindən, rəqs dəstəsindən böyük məhəbbətlə söz açır.

**Əkrəm Hüseynov,**
**Şamaxı rayon mədəniyyət şöbəsinin müdiri,**
**“Yeni Şirvan qəzeti, 13, I, 1990.**

## Ə.Cəfərzadənin «Aləmdə səsim var mənim» romanından...



*Prof. Əzizə Cəfərzadə və f.e.d. S.Qəniyev*

«Bu gün Şirvanın, Şamaxının yetişdirdiyi elə bir insanın, elə bir sənətkarın, sənət hamisinin məclisinə yığışmışıq ki... Mahmud Ağa... Mahmud Ağa təkcə Şamaxının, Şirvanın, Azərbaycan deyil, bütün Yaxın Şərqin Mahmud Ağasıdır. O yerdə ki, musiqi-ədəbi məclisi var, o yerdə ki, musiqi var, o yerdə ki, muğam var... o yerdə Mahmud Ağa var, Mahmud Ağanın ruhu var. Mahmud Ağa... Bu böyük şəxsiyyətin həyatı, musiqi, muğam, ədəbi yumor, poeziya - şeyriyyət dolu həyatı, məni elə almışdı ki, mən onun haqqında roman yazmaq istəyirdim. XIX yüzilliyin ortalarını əhatə edirdi bu roman. Mahmud Ağanın o böyük ruhunun özü xəyalımdan, qəlbimdən, gözlərimin önündən çəkildi və yerini «cədda» dediyi, «Ağa» adlandırdığı gözəl şairimiz Seyid Əzimə verdi və beləliklə də, «Aləmdə səsim var mənim» romanım meydana gəldi. Onların böyük, ədəbi şöhrətlərindən xırdaca bir zərrə də mənim payıma düşdü.

Mahmud Ağa musiqi məclisinin gözü, döyünən ürəyi, böyük xanəndə Mirzə Məhəmməd Həsən Fələkzadə idi. Mən qəsdən onun soyadını Fələkizadə yox, məhz **«Fələkzədə»** kimi dilə gətirdim. Yəni fələyin vurduğu zədə, gözlərini əlindən aldığı insan. Məlumdur ki, böyük Seyid Əzimin «Ləhni-Davud»a

bərabər tutduğu, səsilə gəncliyində böyük şöhrət və məhəbbət qazanmış Mirzə Məhəmməd Həsən ömrünün sonlarına doğru gözlərindən, qulaqlarından məhrum olmuş bir fələkzədəydi. Tale - fələk onunla, bir sənətkarla həm də məhz səs, muğam, xanəndəlik sənətkarıyla belə amansız rəftar etmiş, onu sevdiyi təranələri eşitməkdən, məftunu və yaraşığı olduğu toy şənliklərini görməkdən məhrum etmişdi. Bu elə bir faciədir ki, misli sənət dünyasında nadir tapılar. Mirzə Məhəmməd Həsən həm də şair idi. Torpağın hər zərrəsi bir şair ürəyindən xəbər verən qədim Şirvan ocağında, şeir-sənət dünyasında, Seyid Əzim qulluğunda Azərbaycan xanəndələrinə «diplom» verən, uğurlu yol diləyən Mahmud Ağa məclislərində sanki şair olmamaq mümkün deyildi» **(44-58).**

Firidə xanım onu da deyirdi ki, Əzizə xanım "Aləmdə səsim var mənim" romanını yazanda bir aya qədər Şamaxıda onlarda qonaq qalıb, yaşlı insanların yaddaşından çox əhvalatlar öyrənmişdir..."

***

Mən də hər dəfə Şamaxıdan keçəndə Seyid Əzimin məzarını ziyarət etməsəm, ona baş əyməsəm, keçib gedə bilmərəm. Sabirin qəbri yoldan uzaq olduğu üçün ora gedə bilmərəm və bu günahımı boynuma alıram. Şirvan torpağının Azərbaycana verdiyi dahilər çoxdur. Azərbaycan onda itirdi ki, Şamaxı yandı, paytaxt Bakıya köçürüldü.

Çox yerdən, həm də sizdən yüzlərlə məktub alıram. Lakin Şamaxıya olan hörmətim şamaxılılardan aldığım məktublara daha diqqətlə yanaşmağıma səbəb olur. Qarabağla Şirvanın musiqi-poeziya əlaqələri heç də təsadüfi deyil. Məsələn, XIX əsrin böyük şairi Seyid Əzim Şirvani Qarabağ şairləri ilə çox əlaqədə olub.

Mahmud Ağanı ilk dəfə oxuculara mən tanıtdım. Bununla fəxr edirəm. Bu məqsədlə Tiflis, Sankt-Peterburq, Səmərqənd

arxivlərində material toplamışam. Mahmud Ağa çox böyük şəxsiyyətdir. Hacı Zeynalabdin Tağıyevin abidəsi açılanda mən dedim; həyatda milyonçunun da kişisi olub, kasıbın da. Və ya əksinə. Mahmud Ağaya varlısan deyib, onu unutmaq namərdlikdir. Kişinin varı olar. Bir gün məndən soruşdular ki, Şuşada kasıb olub? Dedim: - kasıb yox, tənbəl olub. Ticarət şəhərində kasıb olmaz.

Bu məclisdən ona görə narazıyam ki, gecəni Mahmud Ağa məclisi əsasında qurmayıblar. Mahmud Ağanın Xan qızı Natəvanla Sadıqcana görə uzun müddət yazışması olub. Bunlar əvvəllər çox dost olublar. Onu da qeyd edim ki, **Natəvanın anası Bədircahan xanım 1832-ci ildə Şamaxıda məktəb açılmasına** 150 min manat pul verib. Bu haqda «Qafqaz» qəzətində yazılıb...

....Mahmud Ağa çox əliaçıq olub. XX əsrin əvvəllərində Tağıyev kimi su kəmərlərinin çəkilməsində, karvansaralar tikilməsində, körpülər qurulmasında böyük xidmətləri olub. O həm də ictimai xadim kimi məşhur idi. Onun məclisinin yaraşıqlılarından biri Hacı Hüsü və Məşədi İsi olmuşdur. Qafqazın harasında bir xanəndə yetişşəydi, gərək o, Mahmud Ağanın yanında ola və xanəndəliyini təsdiqləyəydi. Mahmud Ağanın ən sevimli xanəndələrindən biri də Qaryağdıoğlu Cabbar olmuşdur. O, Mahmud Ağanın məclisində uzun müddət oxuyub. İndi deyirlər ki, musiqiçilərin müsabiqəsi keçirilir, halbuki ilk dəfə Azərbaycanda bu işi Mahmud Ağa görüb. Mahmud Ağanın yaxın dostlarından biri də Məşədi Zeynal Haqverdiyev, Əbdürrəhimbəy Haqverdiyevin əmisi oğlu olmuşdur **(13-60).**

***

«…Açıq deyilməsə də, Mahmud Ağa şairin vəziyyətini başa düşürdü: «Evində yenə də, yəqin ki, dəyirmanlığı yoxdu. Külfəti çətinlik çəkir, bəlkə, elə bunun üçün də gəlib, amma üzü gəlməz ki, desin. Nə qədər tapşırıb, xahiş eləyirəm ki,

vaxtaşırı yadıma salsın, başım gəlib-gedənə qarışıq olur, yadımdan çıxır, o da ildə bir yol heç olmasa belə bir işarə də vermir... Nə isə, lənət şeytana…»

-Ağa, yoxsa külfətin çətindədi?

Seyidin dodaqlarında incə, güclə duyula bilən kinayəli təbəssüm sezildi:

«Səndə nə günah var? Və niyə də təəccüb edəsən? Əkənim yox, biçənim yox...» Sonra birdən-birə şuxluğa salıb, vəziyyəti məclisdəkilər duymasın deyə, dilləndi:

- O da var, başqası da... Yanına başqa bir iş üçün gəlmişdim... Elə bir fərəh məclisinə düşdüm ki...

- Müsəlmanzadəliyi unudub, bütpərəst oldun yenəmi? Eh, Ağa, hayıf ki, bir az gec gəlmisən. Cavan bir şuşalı balası xanəndə gəlib bizə. Əhməd Ağanın ərvahına and olsun ki, onun kimi ürəyəyatan səsli xanəndə hələm bizim məclisdə oxumuyub. Əgəm bunu mən özüm dilimə gətirib deyirəmsə, inan mənə, Ağa! Səndən bir az irəli dincəlməyə təşrif aparıb. Xörəkdən sonra inşallah qulaq asarsan. Özü də sənin bir qəzəlini mənim təzə tərtibimlə «Sarənc» üstündə bir oxuyur ki! Vallahi elə bil bir bülbüldü güldən ötrü, siz şairlər demişkən, cəh-cəh vurur… Özün görərsən...Çox da ağıllı cavandı... Sabah yox, o birisi gün Dərgahqulu bəyin oğlunun toyudu, yazıb məndən cəngi dəstəsini xahiş eləyib, gedərik; gedəndə şuşalı balasını da apararıq. Qoy ona da, bizə də töhfə olsun. Nadir nəfəsi var...

Seyid sükut içində yenidən hər şeyi unudub öz musiqi və tarəb aləminə dalan Mahmud Ağanı dinləyirdi, nəhayət, dedi:

- Onda sizi və bütün dostlarımızı bu nadir səs və nəfəslə təbrik edirəm... Amma məni əfv buyurun, xahişim özgədir sizdən...

Mahmud Ağa heç bir çətinlik qarşısında durmayan və heç bir ağır, ciddi işlə özünü yormaq istəməyən adamlar kimi əlini cəld gözünün üstünə qoydu:

- Nə işin olsa, mənim bax, bu gözlərim üstə...

- Gözlərin var olsun.

- Amma mən ölüm, nə deyirsən eləyim,... ancaq çox dərinə çəkmə, qəmlə - kədərlə danışma. Yaxşı?

Onun gözlərində elə bir ifadə var idi ki, Seyid gülümsədi, əlini dostunun çiyninə qoydu:

- O da mənim gözlərim üstə...

- Ay sənin gözlərin var olsun.

Hər ikisi bu tələsik deyilmiş təkrarlara güldülər... Şair qəlbində «neyləmək olar, sənin də yaradılışın belədir, musiqidən başqa nə varsa, mənə haram olsun, - deyənlərdənsən! Musiqi sənin Leylin, sən musiqinin Məcnunusan. Və ondan başqa, yəni Leylimdən özgə nə varsa, mənə haramdır, demisən...»

Plovlar da yeyildi, ovşaralar da içildi. Mahmud Ağanın «Şuşalı balası» adlandırdığı cavan xanəndə oxumağa başladı. Başında bu nazik vücudlu, uca boylu, top birçəkli, əsmər üzlü dərisindən papaq vardı. Dəfi dizlərinin üstünə qoyub, sağ qolunun dirsəyi ilə dəfə dayaq vermiş, qumral gözlərini yumub oxuyurdu... Musiqini bu cavan təkcə ifa eləmir, ona bütün varlığı ilə dalırdı... Seyid seyr edirdi. Az sonra gəncin səsindəki qəribə, çox həzin və dərin kədər dolu sızıltı onun varlığına işləməyə başladı, elə bil ürəyini yerindən çıxarıb, bu səslə birlikdə harasa incə nəvalar, iniltilər ucalan bir aləmə apardılar... Bu yerdə insanların, bütün məzlum bəşərin göz yaşları, ah və nalələri toplaşmışdı... Bu yerdə bütün yazıq, əzilən adamlarını yalnız ürək dərdlərini, arzu və istəklərini deyil, məhz faciəli talelərini səhifə-səhifə, vərəq-vərəq çevirib oxuyurdular...

Şair heyrət etməyə belə macal tapmayıb bu dərdlərin tərcümanı olan səsin ecazına vuruldu... Özünü unutdu... Ona elə gəldi ki, kədər, ələm yaşları gözlərindən içəri, qəlbinə giləlenməyə başlayıb axır, hey axır.

Birdən musiqidəki nidalar, ahənglər dəyişdi, «Şuşalı balası»nın səsində indi kədər, hicran deyil, bu qəmləri törədənlərə, bu faciəni yaradanlara qarşı bir üsyan, bir etiraz ucalırdı. Bu səs getdikcə qüvvətlənir, güclənir, axan bir şəlalənin, təlatümə gələn bir ümmanın coşğun uğultusuna çevrilməyə başlayırdı. Onunla birlikdə şairin də ürəyinə ümidlər dolmağa, göz yaşları qurumağa, azadlığa, ucalara, əngin səmalara uçmağa, ucalmağa başlayırdı... Qəribə idi...elə bil bir az bundan əvvəl onun qəlbinin içərisinə, köz üstündəki kababın yağı təki gilələnən göz yaşları heç yox imiş... O elə azadlıq dolu, həyat dolu, şəlalə, ümman bir aləm imiş... Yavaş-yavaş şairin üzü gülməyə, qəlbinə ümid və fərəh enməyə başladı... «Sarənc»in yeni xalları hamını valeh etmişdi. «Afərin, əhsən» səsləri məclisi titrətdi, musiqi həvəskarları, musiqi biliciləri yığılan bu məclisdə Mahmud Ağanın «Sarənc»də etdiyi yeniliklərə xüsusi qiymət verib, onun muğama gətirdiyi təzə, tər xalları, tərtibi böyük bir fərəh və iftixar hissilə, sevinclə qarşıladılar.

- Afərin, cənab Mahmud Ağa, sizin bu tərtib xoş və ürəyəyatandır...

Mahmud Ağa təvazökar və utancaq bir səslə dilləndi:

- Mənim xidmətimi o qədər də yüksəltməyin, iş onu tarda səsləndirən barmaqlarda və nəva ilə oxuyan bu cənabların bacarığındadır,- deyə çalğıçılardan tarzəni və «Şuşalı balası»nı göstərdi.

Tarzən dizi üstünə qalxıb dedi:

- Cənab Mahmud Ağa, məni əfv buyurun, mən ifaçıyam, amma birimçilik bu "Sarənc" də sizə məxsusdur. Əgər mənim də musiqidə anlayacağım bir şey varsa, o da budur ki, sizin bu muğama əlavələr onu elə dəyişib ki, elə bil əvvəlki «Sarənc»i çalmıram; o daha xoş, daha həzin və ürəyəyatan olub, mənə elə gəlir ki, musiqi sevənlər bu muğamı bundan sonra «Mahmud Ağa sarənci» adlandırsınlar gərək...

Məclisdən yeni bir nida «əlbəttə, afərin» səsləri qopdu...

Mahmud Ağa daimi qaydasınca bardaş qurub oturduğu halda, əlinin altındakı tarı sığallayır və balaca oğlu Cavad bəyə baxırdı: «Görəsən, o da bu muğamı mən istəyən kimi oxuya biləcəkmi? Səsi pis deyil, babətdir... Amma hələ uşaqdır, həya ilə gizlin-gizlin oxusa da, arabir eşidirəm... Xanəndə olmayacaq, amma musiqini əməlli-başlı anlasa bəsimdir...»

Şair isə bir az öncə qəlbinə əvvəl kədər, sonra ümid dolu bir fərəh dolduran muğamın təsirilə artıq özünü əməl dünyasında deyil, mey, sevinc, fərəh dünyasında hiss edirdi…

«Yaxşı ki, artıq «ümmül-xəbaisə» vida eləmişik, yoxsa bu saatda yeri idi deyəsən ki:

Nə bu gün bağda yarım, nə meyim var mənim?
Seyri-gülzardə bihudə neyim var mənim?

Sizi tari, yetirin piri-xərabata məni,
Ki, bu gün saqi əlindən gileyim var mənim.

Mənə məcuni-meyi-ləli dəvadır, saqi,
Ki, qəmi-hicr ilə cismimdə keyim var mənim.

Can sənin, cism sənin, əmr sənin, fel sənin,
Cümlə sənsən, bu arada nə şeyim var mənim.

Məni seyyid təki çək guşeyi-meyxanələrə,
Artır qəm dəxi məsciddə neyim var mənim?!

O, əlini geyinməsinin altından qoltuq cibinə uzatdı, bayazını çıxaran təki elə bil bir sehrgahın işarətilə əlinin altında Şirazi qələmdan hazır oldu. Şair məclisə çökən qəfil sükutdan da bixəbər idi. O gülümsəmiş dodaqları, maraq və həvəslə baxan gözləri, sükut işarəsilə dodaqlara qoyulan barmaqları, ehtiyatla məclisdən stəkan-nəlbəki yığışdıran nökərləri görmürdü.

O, yazırdı... Yazdıqca da gözlərinin önündə əziz cizgiləri silinməkdə olsa da, doğma, çox doğma bir sima canlanır, mələk kimi başı üzərində qanad çalır, əllərini gah onun çiyinlərinə, gah yazıya tərəf enmiş gözlərinin qapaqlarına təmas etdirərək deyirdi: «Bəli, belə yaxşıdır, şairim, qoy sənin tərəb, eyş-nuş həvəsin, cismani tələbdən çox ruhani tələbə çevrilsin, qoy sənin cismani «ümmül-xəbais» arzuların məhz qəzəllərində tərənnüm olunsun! Nəfsini isə qoru! Xalqın, millətin, onların xırdaca balaları, bədbəxt həmvətənlərinin gələcəyi olan övladi-vətən üçün qoru... Hərənin alnına bir şey yazıldığı doğrudursa, sənin də alnına bu yazılıb!

Qoy adın bu qəzəllər üçün nə yamanlığa çəkilirsə-çəkilsin, təki, şurlə dilinə dəyib, məcazını korlamasın və saf arzu-əməllərinə mane olmasın... Şairim, yaz, yaz!» Pərilər soltanının incə barmaqları alnına toxunar kimi oldu, xəfif nəfəsi, sübhün incə mehi, nəsimi kimi dodaqlarında, gicgahlarında, yanaqlarında gəzdi... Şair son məqtə bəndini də yazıya keçirən təki, yuxudan ayılanlara məxsus bir xumarlıqla gözlərini ətrafına dolandırdı...

- Hə, mübarəkdir, Ağa, verin, lütfən görək nə yazdınız?

Mahmud Ağa Rza bəyin bu xahişinə əlini havaya qaldırdı:

- Yox, yox, bu qəzəldi. Qəzəldimi, Ağa, səhv eləmirəm ki?

Artıq özünə gəlmiş şair təvazökarlıqla gülümsəyərək dilləndi:

- Bəli... qəzəldi...

- Hə, bu qəzəli, cənab Ağa, bizim şuşalı qonağın, cavan xanəndəmizin səsindən ruhlanaraq yazıbdır. Mən belə bilirəm ki, həmin qəzəli birinci dəfə oxumaq şərəfi də ona verilməlidir.

Hamı «doğrudur, doğrudur»,- deyə təsdiq elədikdə, cavan xanəndə həya təri tökə-tökə yerindən qalxdı. Mahmud Ağanın işarə və təhriki ilə Seyidə yaxınlaşdı. Uzaq ellərdə qəzəllərini xanəndələrdən eşidib əzbərlədiyi, məftunu olduğu şairi birinci

dəfə görürdü, həm də bu «Seyyidi-ali nəsəb» haqqında o, vətənin şair və musiqişünaslarından - Asidən, Nəvvabdan nələr eşitməmişdi... Qəlbindəki titrəyişlə sevdiyi şairin qarşısında diz çökdü, əyilib qəzəli ona uzadan əlindən öpdü və qalxıb yerinə keçdi... Tarzənə nə çalmalı olduğunu pıçıldadı... Musiqi «Dəştiyə» keçəndə «Şuşalı balası» şairin ona təqdim elədiyi yeni qəzəli oxumağa başladı...

... Məclis dağılmış, onlar otaqda cəmi bir neçə nəfər qalmışdır. Bu gün şair Hacı Seyid Əzim Şirvani öz dost və həmsöhbəti Mahmud Ağa, əməl yoldaşı Rza bəy, Cavad və bir neçə başqa ziyalı cavanlarla açmaq istədiyi yeni məktəb haqqında ciddi söhbət etməli, hərənin bu yolda öz öhdəsinə nə götürəcəyini bölüşdürməli, nə vaxt, harda işə başlayacağını qərarlaşdırmalı idi...

...Yasovul Ağa Bəşir gələndə Seyid, Mahmud Ağagildə idi. Qalada təzə peyda olmuş bir tarzəndən söhbət gedirdi, musiqi aşiqi Mahmud Ağa danışırdı:

- Belə deyirlər ki, adı Sadıqdı, cavan adam olsa da, elmi-musiqiyə mahirdi, yaxşı bələddi. Qaladakı dostum Kərbəlayi Xudaverdiyə yazmışam ki, mümkün olan kimi onu Şirvana dəvət eləsin, gəlsin ki, bir görək nə əllaməlik açıb... Vallahi, Əhməd Ağanın ərvahı haqqı, musiqidə bir təzə hava, bir təzə qayda çıxdığını, bir yeni gözəl səsli xanəndə peyda olduğunu eşidəndə, Seyyida, çiçəyim çırtlayır, arvadlar demişkən. İndi onun təəşşüqündəyəm, gətirtdirib, çaldırıb görməsəm, təskinlik tapa bilməyəcəyəm.

Seyid Əzim gülümsəyərək Mahmud Ağanı dinləyir və Güllübəyim məktəbilə əlaqədar qulağına dəyən məsələləri ona nağıl etməyə hazırlaşırdı, amma Mahmud Ağanın musiqi haqqında söhbətləri onun özünü də maraqlandırmışdı:

- Elə siz özünüz də, cənab Mahmud Ağa, musiqidə az təbədüllat etməmişsiniz...

Yaxşı, Seyid, bəs o tələbəlik illərində, ya da cənab Hacı Əlabbas bəylə hicazı səyahət eləyəndə bizim bu musiqi məclislərimizsiz necə keçinirdiniz?

Seyid Əzim əlini xəttinə çəkib, çənəsini ovxaladı, adəti bir hərəkətlə barmaqlarını bığlarında gəzdirdi:

- Onu heç deməyin, ürəyimin içi göynəyirdi, xanəndələrimizin səsi qulaqlarımdan, rəqqasələrimizin şəkil və şəmayili gözlərimdən getmirdi. Hər zaman gözlərimi yumanda özümü sizin məclislərdə görürdüm.

Mahmud Ağa güldü, zarafatla barmağını ona tərəf silkələdi:

- Ya cədda, bəs dostlar?

- Dostlar öz yerində... Siz, cənab Ağa Tərlan, bədbəxt cavan! Heç unuda bilmirəm onu... Bir xəbəriniz varmı?

- Yox, xeyli var kağız da yazmır mənə namərd...

- Elə deməyin, o, Şirvanı yaralı tərk etdi... Bir də Sona... Ondan necə...

Mahmud Ağanın gözləri yol çəkdi:

- Eh, heç, bu keçən ay cənab Əlyar bəy bizə qonaq gəlmişdi, soruşdum, deyir, əl-ayağı dürüst, başı aşağı dolanır. Amma heç üzü gülmür...

- Bədbəxt cavanlar... Hərəsi bir fəlakətin qurbanı olur, bizim bu qurbanqulular - Məşədi alışlar dünyasında...

- Hə balam, məşədi Alış yamanca hörmət-izzət sahibi olub, Əhməd Ağanın ərvahına and olsun, deyirlər Molla Qurbanqulu döşünə çəkib onu, deyir tövbə ki eləyib, üzünü qəriblər Ağasının asitanına ki, sürtüb, dəxi əshabi-kəfin iti kimi yeri behiştdi...

Seyid Əzim kədərlə gülümsədi:

- Sədi rəhmətullah gözəl deyib, cənab Mahmud Ağa:

Xəri-İsa gərəş bə Məkkə bərənd, çün beyayəd hənüz xər başəd. Yəni İsanın eşşəyini Məkkəyə də aparsan qayıdanda elə eşşəkdi ki, var. Mahmud Ağa dərindən, uğunarcasına bir qəhqəhə sovurdu. Elə bu anda Mahmud Ağanın lovğa-pəsəd nökəri dilmanlı Kərim içəri girib baş əydi:

- Ağa, yasovul Ağa Bəşir gəlib... Deyəsən, nəysə yaman xəbərnən gəlib...

Mahmud Ağa yaylığını çıxarıb yaşarmış gözlərini sildi. Kərimin sözlərinin o qədər də fərqinə varmadan, hələ də gülməsində davam edərək dedi:

- Çağır gəlsin...

Nökər çıxdı, Mahmud Ağa Seyid Əzimə döndü:

- Bilirsən bu, Kərim dələduz dünən nə pəstaha açıb?

- Xeyr...

- Qapıda dayanmışmış...Birdən Təklədən bir fağırın biri soraq alıb bizə gəlir, məni soruşur, qapını nişan verirlər. Bu Kərimin də lovğalığı cənabına məlum olsun gərək...

- Bəli, bəli...

- Qərəz ki, təkləli yazıq bunu görüb təxəllüsündən bəy sanır, baş əyir, bu oyunbaz da özünü sındırmır, deyir:

- «Nəyə gəlmisən, kişi?» «Cənab Mahmud Ağa sənsən, başına dönüm?» deyir «hə». «Başına dönüm, uşaqlarım batır, gəlmişəm mənə bir az əl tut». - «İstədiyin nədi axı?» -«Nə olacaq, dərdin alım, buğda». Kərim də qayıdır ki: «Get bir araba gətir». Kişi qayıdır bazara, bir malağan arabası danışır, gəlir bizim qapıya (Söhbətin bu yerində yasovul Ağa Bəşir içəri girdi, baş endirib dayandı, Mahmud Ağanın sözünü kəsməyə cəsarət etməyib, söhbətin qurtarmasını gözlədi). Otur, Ağa Bəşir, bu saat qurtarıram. Hə... Mən də atlara baxmağçün tövlələrə getmişdim, mehtər xəbər vermişdi ki, kəhər day nəsə bir az axsayır, nalını dəyişirik. Qayıdam görəm darvazanın ağzında bir araba durub, nökərlər aralıda gülüşür, mənə işarə elədilər, həyətə girdim. Kərimi çağırıb soruşdum ki, bu kişiyə nə söz vermisən? Dili dolaşa-dolaşa deyir ki, «buğda». Çıxmışam həyətə, bunu vermişəm qabağa, deyirəm «Eşit dilman Kərim, bizim qapıdan boş qayıdan olmayıb»... Bu sözləri ona deditdirə-deditdirə özüm də dalına düşüb getmişəm. Kişi fağır Kərimin əlindən öpüb yalvardıqca kəndlilər arabaya bir miqdar buğda-arpa yüklədilər... özləri də uğunub gedirlər, Kərimin öldüyü gündü...

Mahmud Ağa həmin hadisəni yadına saldıqca bir də gülür, Seyid Əzim də özünü «Ağa» qələmə verən lovğa nökərin vəziyyətini təsəvvürünə gətirib gülümsəyirdi…

***

...Ağalar ayaqqabılarını çıxarıb xalıların üzərinə salınmış nimdərlərin üstündə oturdular. Məclisdə yuxarı aşağı baş olmasa da Mahmud Ağa, Seyid Əzim, İsgəndər bəy və başqaları ilə yanaşı, qismən çinli bəylər, onlardan aşağı cavanlar və sazəndələr əyləşmişdi. Tarzən Sadıqcan tarı kökləyirdi. Xanəndə Hüsü nökərlərdən birinin manqal üstündə qızdırıb ona verdiyi dəfi əli ilə sürtür, oxumağa hazırlaşırdı. Hüsü Sadıqcan kimi, səd çuxa və boz köynək geymişdi, çuxasının ətəklərini öndən təkbəndinə sancıb dizi üstə oturmuşdu. Hər ikisinin başında çalmayı papaq var idi. Hüsü əlini dəfin dərisinə sürtüb onu qızışdırdıqca, gözaltı Hacı Seyid Əzim Şirvaniyə baxır və düşünürdü; bu gün o öz böyük, şöhrətli müasirinin təzə bir müxəmməsini oxuyacaq idi. Hələ dünən gecə Mahmud Ağa müxəmməsi ona verib əzbərləməsini tapşırmış və hansı muğam üzrə oxuyacağı haqqında onunla məsləhətləşmişdi. Müxəmməsin məzmunu bu günkü məclisə uyğun, vəzni isə elə bil məhz «Rast» muğamına həmahəng idi. «Görəsən Ağa bəyənəcəkmi? Qalanları demirəm, bircə şair özü, bir də Mahmud Ağa bəyənsə, bəsimdi». O, təzəcə məclisə çıxan gənc xanəndə kimi həyəcan keçirirdi. Seyid Əzim kimi şairin qulluğunda, Mahmud Ağa kimi musiqişünasın qarşısında bu günkü məclis əsl bir imtahan idi. O bu gecə çox gec yatmışdı. Əvvəlcə Seyidin müxəmməsini əzbərləmiş, sonra da tamam dəsgahın başqa hissələrində oxuya bilmək üçün Füzuli qəzəllərindən, Gülüstan seyrəngahına müvafiq olan bir qəzəl də seçmişdi. Səhər sübh yuxudan oyanan kimi müxəmməsi yenidən təkrarlamışdı. Bununla belə yenə də arxayın deyildi. Həyəcanını büruzə verməmək, barmaqlarındakı titrəyişi gizlətmək üçün durmadan sol əli ilə dizinə dayadığı dəfi sağ əli ilə sürtməkdə davam edirdi.

Nəhayət, tar kökləndi, Mahmud Ağanın xəfif işarəsilə Sadıqcan «Rast»ı başladı.

Muğamın mayəsi eşidilincə Hüsü bütün varlığilə Sadığın mizrabından qopan fəryadlara daldı, hər şeyi, yığılan ağaları, ətrafda manqal başında əlləşən cavanları unutdu… Onun dodaqlarından, qəlbinin dərinliklərindən gələn bəm səslər qopub tökülməyə başladı:

Güş qıl, ey ki, bilirsən özünü vaqifi-kar,
Agəh ol, gör ki, nədir naleyi-ney, nəğməyi-tar!
Nədir ol xuşk olan çubda bu naleyi-zar ?
Ki, sədasından onun qarət olur səbru qərar?
Açmasın pərdəni hər pərdədə var yüz əsrar...

Seyid Əzim ilk kəlmələri eşidincə diksindi, gözücü yanında əyləşən Mahmud Ağaya baxdı. Mahmud Ağanın gözləri daxili bir fərəhdən gələn təbəssümlə qıyılmışdı. O, məxmər mütəkkəyə dirsəklənib sözlərin, sehrli pərdələrin ahənginə uyğun başını yırğalayır, qəlbində sanki muğamın mayəsini xanəndənin rahəngiz səsilə birlikdə təkrarlayır, oxuyur, zümzümə edirdi. Bu sözləri elə bil şair onun üçün yazmışdı, xanəndə də öz ecazkar səsilə təkcə onun üçün oxuyurdu.

Bu şeirdə müraciət olunan, «vaqifi-kar» o özü idi. O bu muğamdakı «naleyi-ney, nəğməyi-tar»a agah idi, quru taxtadan çıxan, «naleyi-zar» onun səbrü qərarını qarət edir, ona yüz əsrar açırdı. Bu nəğmələr sülləm-nərdivan olub onu ərş baminə - göylərə qaldırdı. O da xanəndə ilə birlikdə «kəsb elə elmü ədəb feyzin əgər adəmsən, fəhm qıl gör ki, nədir musiqiyü-müsiqar» - deyə təkrar edirdi...

Şair, gözlərini Sadıqcan və Hüsüyə çevirdi. Hər iki sənətkar Seyidin dili ilə dinləyicilərə nəsihət verir, onları arif huşyar, sənət aləmini, musiqini dərk edən olmağa çağırır, biganələri könül aləmindən qovurdu.

Sadıq elə bir aludəliklə çalırdı ki, Hüsünün nə zaman təsnifə, daha sonra **«Şikəstəyi-farsa»** keçdiyindən onun xəbəri olmadı. “Şikəstəyi-fars” üçün Hüsü, “Füzuli” qəzəlini seçmişdi.

Qəzəl bahar əyyamından, könül oxşayan güllərdən, çəmənlərdən, Gülüstan kimi seyrəngahdan bəhs edirdi.

Eyş üçün bir türfə mənzildir bahar əyyamı bağ,
Onda tutsun qonçəvəş hər kim ki, eyş istər, otaq.
Qönçələr açıldı, seyri-bağ edin, ey əhli-dil,
Kim, görüb güllər, könüllər açılan çağdır bu çağ.

Əgər Seyid müxəmməsi insanları musiqidən, arif məclisindən zövq almağa çağırırdısa, Füzuli qəzəli bu arifləri, əhli-dilləri təbiəti duymağa dəvət edirdi. «La şairə illa Füzuli» - deyə Seyid Əzim öz qədim məsəlini təkrarladı, əsərinin böyük ustadınkı ilə yanaşı oxunmasından bir daha fərəhləndi. Hüsü isə Gülüstanla həmahəng oxuyurdu:

Səndən, ey bülbül, füzundur məndə möhnət fəsli-gül,
Sənsənü min tazə gül, hala mənü min tazə dağ.

Birdən-birə ətrafa dərin bir sükut çökmüşdü. Elə bil susmuş təbiət, zümrüd təpələr, göy çəmənlər, uzaqlarda-yaxınlarda tək bir xəyal kimi firuzəyi göylərə ucalmış ağaclar nəfəsini gizləyib onun təranələrini dinləyirdi. Bu səslərdə, bu sehrəngiz zəngulələrdə dərin bir kədər, sirli, nakam bir məhəbbət inləyirdi. Muğam gah pərdə-pərdə zilə ucalır, gah da dalğa-dalğa bəmə enir, ümman kimi gah sahili yalayır, gah ənginliklərə çəkilir, Füzulinin, Seyidin ölməz əsərlərinin sözləri bu səslərdə kəpənək kimi qanad çalır, pərvanə kimi özünü şəmin alovlarına çırpır, qanadları qarsalanır, yanırdı... Əbədi, əzəli məhəbbət özünü bütün ehtirasları sonsuz qəmi, kədəri ilə naümid və nakamlığı ilə dillənir, sızlayırdı. Muğamın sonuna doğru Hüsü, qəzəlin möhrə bəndini oxuduqda:

Məhrəm olmaz rindlər bəzminə mey nuş etməyən,
Ey Füzuli, çək ayaq ol bəzmdən, ya çək əyaq.

Mahmud Ağa və məclisdəkilərdən bir çoxu son beyti təkrarladı və əllərini süfrələr üzərindəki piyalələrə uzatdılar.

Seyid Əzim şərbət piyaləsini yerə qoydu; qəlbi nə isə pıçıldayır, deyəsən, yeni bir qəzəl düzürdü. O, əlini cibinə atıb qələm və kağız çıxardı, elə süfrənin qırağındaca yazmağa başladı. İndi o nə məclisdəki söhbəti, nə hay-küyü, heç nə eşitmirdi. Elə bil bir anlığa təbiətdə susub böyük şairin qəlbindən qələmə, oradan da kağız üzərinə süzülən sözlərin yazılıb qurtarmasına, sonra da bu yeni incini dinləmək üçün gözləyirdi... Qəzəl bitdi, Seyid qələmi cibinə qoyanda Mahmud Ağa şuxluqla bayazı çəkib onun əlindən aldı:

- Özüm, özüm oxuyacağam, şair, sənin ilk oxucun özüm olacam. Bəri ver, ay uşaq, qulaq asın.

- Bu çağırışa ehtiyac yox idi, hamı onsuz da sükut içində qəzəlin oxunmasını gözləyirdi. Mahmud Ağa xüsusi bir bəlağətlə qəzəli oxudu və onun möhrə olan məqtə bəndini bir daha ucadan təkrar etdi:

Çağırın Qeys ilə Fərhadı yığılsın başıma,  
Seyyidəm, ərseyi-eşq içrə sipah istəyirəm.

Məclisdən afərin səsi ucaldı, quşların səsinə qarışdı. Mahmud Ağa üzünü şairə tutub dedi:

- Seyyida, cəddinin təsəddüqü olum, gözəl sərkərdəsən. Yaxşı da məşhur qoşunun var: Qeys, Fərhad... Yaxşı, bəs möhtərəm eşq sərkərdəsi, məni qoşununda kimə şəbahət edirsən?

Seyid Əzim dostunun zarafatına eyni şuxluqla cavab verdi:

- Sən elə Mahmud Ağasan, bundan özgə şöhrət nəyinə gərəkdi?

Mahmud Ağa ucadan, ürəkdən bir qəhqəhə sovurdu:

- Əhməd Ağanın ərvahına and olsun ki, doğru deyirsən, əhsənullah» **(44-136).**

## Xanəndə Ağakərim Nafizin «Ustadı əzəm» əsərindən...



*Ağakərim Nafiz*

«O dövrün Şamaxı varlılarından Mahmud Ağa Əhməd Ağa oğlu Məmmədzadə gözəl səsi olan, musiqi alətlərində çalmağı bacaranları axtarıb tapır və onların yetişməsinə yardım edirdi. Bir gün Mahmud Ağa Hacı Nəcəf bəy və xanəndə Kərbəlayi Əli Əkbər Şamaxı mədrəsəsinə gedirlər. Mahmud Ağa həm də mədrəsədə oxuyanlara maddi yardım göstərirdi. Onlar mədrəsəyə daxil olanda bir uşağın gözəl avazla Quran oxuduğunu görürlər. Səs bu üç böyük şəxsiyyəti valeh eləmişdi. Soruşub öyrənirlər ki, uşaq Dabbağ İsmayılın oğlu Məhəmməd Həsəndir. O gündən sonra Mahmud Ağa Məhəmməd Həsəni nəzarət altında saxlayır, onun Quran qiraəti dərslərini mükəmməlləşdirməsi üçün maddi yardım göstərir və mədrəsə mollasına əlavə haqq ayırır ki, onunla daha yaxşı məşğul olsun.

«Quran» dərsləri tamamlanandan sonra Mirzə Quran qaresi kimi məşhurlaşır. Çoxları onun ruhanilik etməsini istəyirdi. Çünki heç bir Quran oxuyanda belə avaz yox idi. Hamı onun Quran oxumağını eşidəndə valeh olardı.

Lakin Mahmud Ağa ondakı qeyri-adi səs imkanlarını görüb, Məhəmməd Həsəni xanəndəlik sənətinə çəkməyə çalışır. Bunun üçün əvvəlcə Məhəmməd Həsənin özündə xanəndəlik sənətinə həvəs oyatmaq lazım idi. Bir gün Mahmud Ağa bir

məclis qurub bütün Şirvan xanəndələrini bir yerə toplayır. O məclisə Dabbağ İsmayılın oğlu Məhəmməd Həsən də dəvət olunur. Məclis başlamamış Məhəmməd Həsənə təklif olunur ki, o, bir neçə Quran ayəsi oxusun. Məhəmməd Həsən Quranı elə gözəl avazla oxuyur ki, məclisdə oturan xanəndə və sazəndələr hamısı heyran qalır. Bu məclisdə vaxtilə Şirvan xanı Mustafa xanın sarayında xanəndəlik etmiş Əbülhəsən də (Həsən Çəp) iştirak edirdi. Sənət sirlərini dərindən bilən, səsilə aləmə meydan oxuyan, ilk dəsgah ifaçısı, qocaman xanəndə Həsən Çəp Mahmud Ağanın:

- Ustad, necədir, bəyəndinmi? - sualına belə cavab verir:

- Quranı çox gözəl oxuyur. Lakin bu səs bir xanəndədə olsa, daha gözəl olar. Bil bu səs insan boğazından deyil, ilan boğazından çıxır!!! **(6-17).**

***

«Mən bu gecədə deyilənləri təkrar etmədən qısaca onu deyərəm ki, Mahmud Ağa təkcə musiqidən zövq alan, ona yüksək qiymət verən tarixi şəxsiyyət yox, həm də muğam sənətimizin və xanəndələrimizin kamilləşməsi uğrunda fədakarcasına çalışan vətəndaş idi. Mahmud Ağa musiqi təhsilini kimdən, haradan almışdı? Necə olmuşdur ki, o, musiqi, xüsusilə ən mürəkkəb janr olan muğamlarımızı incəliyinə qədər bilmişdir? Bu qədər zəngin musiqi biliyinə, təcrübəyə malik Mahmud Ağa hansı musiqi əsərinin, kitabının, əlyazmasının belə müəllifidir? Hələlik bütün bunlara cavab verəcək tarixi sənədimiz yoxdur. Bəlkə də bütün bu sənədlər 1902-ci il zəlzələsində, yəni Mahmud Ağanın ölümündən 6-12 ay sonra baş verən dağıdıcı zəlzələdə məhv olub. Lakin bütün bunlar bizi o qədər də göynətmir. O, bunlarsız da musiqi tariximizdə yaşayır. Onun əsərləri canlı insanlar, yəni bayaq Firidun bəyin adlarını çəkdiyi muğam sənətimizin unudulmaz sənətkarları, o cümlədən Mirzə Məhəmmədhəsən və başqalarıdır».

***Yaşar Nuriyev, xalq artisti***

## VIII FƏSİL

# MAHMUD AĞANIN DOĞMALARI, QOHUMLARI

Mahmud Ağanı dərk etmək, **böyüklüyünü, nəcibliyini anlamaq üçün onun nəslindən olan insanlar haqqında qısaca da olsa, ensiklopedik məlumatları oxucuların diqqətinə təqdim etmək yerinə düşərdi.** "Ot kökü üstündə bitər" deyib atalar. Mahmud Ağa Azərbaycan tarixinə xan çinar əzəməti ilə daxil olan görkəmli və nüfuzlu simalardan biridir. Onun övladları, nəvələri, nəticə və kötükcələri bu möhtəşəm ağacın gövdəsi, qol-budaqlarıdır. Bu nəslin nümayəndələrinin qəribə və maraqlı taleləri olub. Yaşadığı zamandan və kimliyindən asılı olmayaraq onlar **Azərbaycan adlı bir vətənə, Azərbaycan adlı dövlətə sadiq** insanlar olublar. Qarşılarına çıxan faciələrdən və fəlakətlərdən sarsılmadan, çəkinmədən ulu babalarından qalan müqəddəs bir əxlaqı ömürlərinin sonuna kimi daşıyıblar. **Əksəriyyəti elmlə məşğul olub, ölkələrində elmin, maarifin və sənayenin müxtəlif sahələrinin inkişafı** üçün əlindən gələni əsirgəməyiblər. Məhz bu nəsildən olan insanların taleyini vərəqləyəndə, geri dönərək keçmişə Mahmud Ağanın həyatına yenidən nəzər salanda, onu adi musiqi məclisinin təşkilatçısı, muğam bilicisi kimi yox, daha böyük miqyasda – bir incəsənət məbədinin, muğam universitetinin yaradıcısı və hamisi kimi başa düşmək mümkündür. Bu nəcib xeyriyyəçinin dövrünü, onun gördüyü işləri göz önünə kim gətirsə etiraf edəcək ki, Mahmud Ağanın öz sarayında qurduğu muğam məclisi, bu məclislərin keçirilmə qaydaları, bura öyrətməyə və öyrənməyə cəlb edilən müğənnilər, aşıqlar, xanəndələr və söz xiridarları bir məclis üzvlərindən daha çox zəmanəsinin ən müasir təhsil ocağına - muğam, seir və sənət akademiyasına daha çox bənzəyir. Bu incəsənət məbədi Ağanın öz sarayında yerləşirdi, **"müəllimlər" bu sarayda yaşayırdı, bu sarayda**

**onların qayğıları həll olunar, maddi ehtiyacları ödənilərdi**. Bu sarayda məclisə, müsabiqələrə çıxarılan gənclər püxtələşdikdən sonra kamil sənətkarlar kimi yenilərinə sənətin sirrini öyrədərdilər. Əsl ali tədris müəssisəsində olduğu kimi. Ona görə də qürurla deməliyik ki, Mahmud Ağa Şərqin ilk "Muğam Universiteti"nin və sözün əsl mənasında "Poeziya Universiteti"nin özülünü qoyan nəcib xeyriyyəçidir.

**«Şamaxı»** kitabı üçün təxminən 1980-l985-ci illərdə Şamaxıda Mahmud Ağa ilə bağlı rəvayətlər, məlumatlar toplayanda hələ onun xeyirxahlığının şahidi olan, 80-90 yaşlı qohum-əqrəbaları yaşayırdılar. Bəziləri də nənə, babalarından eşitdiklərini yaddaşlarında o illərə çatdıra bilmişdilər. Ağanın **bulaqları, körpüləri, dəyirman və karvansaralarının yerləri** çoxlarına məlum idi. Həmin illərdən başlamış Şamaxı xeyriyyəçiləri, bəy-bəyzadələri, M.Ə.Sabir, M.Hadi, S.Ə.Şirvani, M.Mahmudbəyov və başqaları haqqında məlumat, sənəd topladım. Eləcə də Mahmud Ağanın qohumları haqqında. Əlbəttə, bu 30 illik axtarışların hamısı ilə bölüşmək çətin olsa da, ən vaciblərini qeyd etmək mümkündür.

Bizim araşdırmalarımıza görə, **Mahmud Ağanın Əhməd bəy, İbrahim Xəlil bəy, Ağa bəy, Cavad bəy adlı 4 oğlu və Bəyim xanım** adlı bir qızı olmuşdur. İki əsri əhatə edən bu nəslin yüzlərlə və hətta minlərlə nümayəndəsi olması başa düşüləndir. Təbii ki, Mahmud Ağanın nəsil şəcərəsi haqqında ətraflı məlumat vermək həm çətin, həm də ki, mümkün deyildir. Lakin biz Mahmud Ağanın nəsil şəcərisinin bir neçə budağı haqqında geniş, onun digər uşaqlarından olan nəvə, nəticə, kötükcələri haqqında isə qısaca bildiklərimizi, öyrəndiklərimizi qələmə aldıq. Onu da qeyd edək ki, kitaba Mahmud Ağanın böyük oğlu Hacı Sultan Əhməd Ağa və Hacı İbrahim Xəlil bəyin nəsil səcərəsi haqqında ətraflı məlumatlar verilmişdir.

# *MAHMUD AĞANIN BÖYÜK OĞLU HACI SULTAN ƏHMƏD AGANIN NƏSİL ŞƏCƏRƏSİ*

# Mahmud Ağanın böyük oğlu Hacı Sultan Əhməd Ağa

Beş barmağın beşi də bir olmadığı kimi, övladlarda da fərq olur. **Mahmud Ağa** övladlarının hamısına qayğı və məhəbbətlə yanaşsa da **Sultan Əhməd Ağanı** hamıdan çox sevərdi. Çünki ona atasının adını qoymuşdu. Ürəyində ata nisgili baş qaldıranda oğlundan alardı ətrini. Amma o ata kimi övladlarına qarşı mərhəmətli və rəhmli olduğu qədər də tələbkar və sərt idi. Elə bu ata tələbkarlığı, kökə, nəslə bağlılıq Sultan Əhməd Ağanı hər bir müsəlmanın arzusunda olduğu müqəddəs Məkkə və Mədinə torpaqlarınadək aparıb çıxarmışdı. O vaxt Həcc ziyarətinə gedən yolun təhlükələri də olurdu. Ziyarətə yola düşən karvanlara, zəvvarlara hücumlar da olurdu. Bu uzun yola çıxmaq üçün istəkdən, Tanrıya sevgidən savayı, mərdlik, cəsurluq və həm də təcrübəli olmaq vacib idi. Sultan Əhməd Ağa kamil tərbiyə aldığından, babalarından, kökdən gələn cəsarət və hünər sahibi olduğundan bu yolun qorxu və təhlükələrindən çəkinmirdi.

Mahmud Ağa da övladının dərrakəli və tədbirli olduğunu bildiyindən Həcc ziyarətinə Şamaxıdan ürəyi Məkkə eşqi ilə yanan, amma buna maddi imkanı çatmayan xeyli adamı da öz maliyyə vəsaiti ilə oğluna qoşardı. Hacı Sultan Əhməd Ağanını ən sevimli oğlu Soltan bəy olub.Ümumiyyətlə Soltan bəy nəinki atasını, hətta babası Mahmud Ağanın da ən istəkli nəvəsi olub. Çox cəsarətli, saf, vətənpərvər yoxsullara əl tutan bir insan olub Soltan bəy. Onun nəcibliyindən bəhs edən əhvalatları Şamaxıda bu gün də xatırlayan və bilənlər var. Deyirlər ki, bir gün Mahmud Ağanın həyat yoldaşı və gəlini Fərrux xanım (Əhməd Sultan ağanın həyat yoldaşı) toya hazırlaşırlarmış. Geyinib keçinirlər, bər-bəzəklərini, qızıl sırğa, qolbağlarını taxanda görürlər ki, nələrsə çatmır. Baxanda aydın

olur ki, bir xeyli miqdarda qızıl və ətəklərə sıra ilə tikilən qızıl pullar əskikdir. O vaxtı ailənin qanunu elə idi ki, kimsə əmanətə əl vurmazdı və belə əməlin cəzası da yüngül olmazdı. Mahmud Ağaya kəm-kəsir barədə xəbər verirlər. Ağa tövrünü pozmadan belə cavab verir:

- Mənim evimdə nökərdən tutmuş ailəmə qədər heç kim əmanətə xəyanət etməz. Bunu ağlınıza gətirməyin! Çünki mən hamının haqqını yetərincə ödəyirəm. O ki qaldı qeyb olan qızıllara, yəqin yenə Soltan bəy ehtiyacı olanlara əl uzadıb. Bu oğurluq deyil.

Mahmud Ağa özü uşaqlarını da, nəvələrini də öyrətmişdi ki, qazanılan varidatın bir qismi fəqir-füqaraya, çətinə düşən kasıba paylayın ki, Tanrı da sizin sərvətinizi artırsın. O xəsisliyi, kimlərinsə ehtiyacına xərcənmək üçün vacib olan pulu gizlətməyi sevməzdi. Övladları, nəvələri də babalarının xeyriyyəçiliyi ilə öyünər, vacib olanda da onun əməllərini təkrar edərdilər. Soltan bəy isə babasına demişdi ki, götürdüyü pulla şəhərdə mədrəsə açmaq istəyən savadlı, lakin imkansız bir müəllimə əl tutub. Mahmud Ağa da gülümsəyib cavab vermişdi ki, mənə də deyirlər ki, qızıllar itib. Xərclədiklərinin əvəzini mütləq görəcəksən. Savadlı adamların sayı artacaq, sənə dua edənlər, yaxşılıq arzulayanlar çoxalacaq. Çevrənə bilikli adamlar yığışacaq. Kasıba əl tutmaqdan, ehtiyacı olana dayaq durmaqdan, maarifə pul xərcləməkdən çəkinməyin. İtirməyəcəksiniz, əvəzini isə Allah artıqlaması ilə verəcək, tanrının gözündə ucalacaqsınız. Bundan böyük qazanc varmı? Soltan bəy də babasının tövsiyəsinə qulaq asar, tez-tez məhəllədə yaşayan kasıb yoldaşlarına əl tutardı. Allah belə səxavətli əməlləri dəyərləndirən və savaba yazandır. Mahmud Ağa nəvəsi Soltan bəyi, zadəgan, əsilli qohumu Mustafa xanın kökündən olan Surxay bəyin, Azad bəyin ciyərparələri olan Soltan xanım ilə evləndirir. **Dilçi–alim, akademik Məmməd ağa Şirəliyev** – Soltan xanımın **doğma qardaşı oğludur**. Soltan xanımın ailəsinin Kür sahillərində zəngin iqamətgahları və çox sayda at ilxıları olub.

Əhməd Sultan Ağa dərin biliklərə, gözəl musiqi duyumuna malik imiş və gözəl də şeir söyləyirmiş. Əhməd Sultan Ağa qardaşları ilə birlikdə atasının muğam gecələrinin təşkilində iştirak edirlərmiş.

## Hacı Əhməd Sultan Ağanın oğlu Soltan bəy (Mahmud Ağanın nəvəsi)

Soltan bəy Əhməd Sultan ağa oğlu Mahmud Ağanın ən sevimli nəvəsi idi. Lap kiçik yaşlarından balaca bəyzadə babasının təşkil etdiyi ziyafətlərdə, musiqi məclislərində iştirak edib. Soltan bəy fransız, ərəb, rus dillərini mükəmməl bilirdi. Xarici ölkələrdən dəvət olunan müəllimlər ağanın övladlarına və nəvələrinə xarici dillərlə yanaşı musiqini, riyaziyyatı da öyrədərdilər. Soltan bəy dəqiq biliklərə can atdığı qədər də poeziya və musiqi aşiqi idi. Təbii ki, bu məhəbbət onun qəlbində Mahmud Ağanın ziyafətlərində və müsabiqələrindəki incəsənət vurğunu olan qəzəlxanların, muğam ifaçılarının mükəmməlliyindən, onların kamilliyindəki zənginliklərdən boy verib pöhrələnmişdi. Soltan bəyin mükəmməl musiqi biliklərinə yiyələnməsi, qarmonda ən gözəl ifaçıları belə heyran etməsində babasının məclis üzvləri ilə qura bildiyi ünsiyyət vacib rol oynamışdı.

Nəvəsinin uğurlarına sevinən Mahmud Ağa Soltan bəy üçün xüsusi bir saray tikdirib, ona da babasının yolu ilə getməyi, onun əməllərini təlqin etməyi tapşırıbmış. Deyirlər ki, Soltan bəy bu sarayda Şərqin gözəl xanəndələrini, şairlərini qəbul edər, babası kimi musiqi müsabiqələri keçirərmiş. Qaliblərin, istedadlı gənclərin də aqibətinə biganə qalmazmış.

1918-ci ildə erməni millətçilərinin Azərbaycan ərazilərində xalqımıza qarşı törətdikləri amansız qırğınların dalğası Şamaxını da bürüdü. Mahmud Ağanın nəslindən olan neçe-neçə

insanın mülkləri, malikənələri, sarayları talan edildi, dağıdıldı, viran qoyuldu. Soltan bəy də ailəsini amansız erməni cəlladlarının əlindən xilas etmək üçün əvvəl Dərbəndə, sonra isə oradan Aşxabada köçmək məcburiyyəti qarşısında qalır. Lakin vətənə, elinə, xalqına bütün varlığı ilə bağlanan bu insan qürbətdə dinclik tapa bilmir. Sən demə qırğından qurtarmaq, sağ qalmaq, haradasa uzaqlarda əmin-amanlığa qovuşmaq xilas yolu deyilmiş. Yaşamaq üçün ayaqlarının altında vətən torpağı olmalıymış, başının üstündən üzən buludlar da doğma olmalıymış. Musiqinin, şeirin, sənətkarların inkişafına ömrünü həsr edən bir insana qürbətin azadlığı məhbəsdən betər gəlir. O dərk edir ki, torpaqdan, ana vətəndən ayrı düşmək kainatın dərinliklərinə atılmaq kimi bir şey imiş. Nigaran ruhu, vətən nisgili ilə yatağında didərgin salan yuxuları onu Azərbaycana haraylayır. O Şamaxıya dönə bilməsə də Bakıya qayıdır, təskinliyini də sevdiyi torpaqların bir addımlığında – Abşeron yarımadasında tapır. Övladları xatırlayır ki, atalarının o vaxtı Bakıda "Dəvəçinski" adlanan küçədə gözəl evi var imiş. Soltan bəyin **oğlu Əhməd Ağa** (Soltan bəy ona atasının adını veribmiş) 1930-cu illərdə Bakıda polis rəisi vəzifəsinədək yüksəlir. 37-ci illərin repressiyaları alovlananda bir çoxları oturduğu kürsülərdən məhbəslərə atılar, güllələnirmiş. Nəzərə alaq ki, o illərdə Azərbaycanda qeyri millətlər, xüsusən də ermənilər bolşeviklərin repressiya maşınını istədikləri kimi idarə edir və əsasən azərbaycanlılara - millətinə, xalqına bağlı insanlara qənim kəsilirdilər. Təbii ki, erməni faşistlərinin qənaətinə görə xan-bəy nəslindən olan, xalqını, mədəniyyətini sevən hər bir azərbaycanlı dar ağacından asılmalı, güllələnməli idi. Əhməd Ağa da **1937-ci görkəmli bir nəslin nümayəndəsi kimi repressiya qurbanı olur və minlərlə ziyalının kədərli aqibətini yaşayır.**

## Mahmud Ağanın nəticəsi – Paşabəyova Qəmərxanım Soltan bəy qızı

Qəmərxanım 1905-ci ildə Şamaxıda anadan olub. Təbii ki, Mahmud Ağanın soy kökü o zamanlar çox zəngin nəslin nümayəndələri idilər. Və atası Soltan bəy də Mahmud Ağanın sevimli nəvəsi kimi varidat sahibi idi. Belə zəngin ailədə qız uşağının tərbiyəsi də o dövrün adi və kasıb, bir qədər də xurafata meyilli ailələrindən fərqli idi. Babası Mahmud Ağa kimi Soltan bəy də  musiqiyə, mədəniyyətə və elmə bağlı olduğundan uşaqlarının da biliklərə uzanan yoluna qadağalara düzməzdilər. Əksinə, onun mükəmməl musiqi savadı alması üçün əllərindən gələni əsirgəməmişdilər. Qəmər xanım



*İsmayıl bəy  və  həyat yoldaşı  Qəmər xanım Paşabəyova*

çoxlarının qibtə edə biləcəyi kübar tərbiyə almışdı, dərin musiqi savadına malik bir qız idi. Əsrlər boyu musiqiyə rəğbət bəsləyən, muğamı bacardıqları qədər ucalıqlara qaldıran, elmin,

təhsilin, poeziyanın inkişafı üçün sərvətlərini səxavətlə xərcləyən nəsildə qız uşağının başqa cür böyüməsini əslində təsəvvür etmək də çətindir. Ailəsində muğam məclislərini, məşhur müğənni, şair və qəzəl xanları görən qızın poetik duyumu və musiqi təhsili də zəngin və kübar xanımlara xas olan bir tərzdə olmalı idi.

Soltan bəy qızı Qəmər xanımı yetkinlik yaşına çatanda Mustafa xanın nəticəsi Cəbrayıl bəyin və Safura xanımın oğlu İsmayıl bəylə izdivaclarına razılıq verir. Lakin ana tərəfi, xüsusən də dayıları uzun müddət etiraz edir, razı olmurlar. Qəmər xanım nəvələrinə toyunun necə gözəl təşkil edildiyini, bütün məclislərdən üstün bir ziyafət olduğunu fəxarətlə danışardı. Bu izdivacdan onların üç övladı dünyaya gəlir: Ramiz, Firidə və Akif.

Qəmər xanımın oğlu ***Ramiz Paşayevin*** 3 övladı olub: Paşayev Ərəstun, Soltan, Dilşad. Soltanın da bir oğlunun adı Mahmud, o biri də Mahmuddur.

***Kiçik oğlu Akif Paşayev.*** İkinci Dünya müharibəsi başla-yanda 1941-ci ildə cəbhəyə yola düşür və yüz minlərlə Azə-rbaycan əsgərlərindən biri kimi alman faşizminə qarşı gedən amansız müharibədə həlak olur. Taleyin sərt hökmü ilə barışan Qəmər xanım anadan olduğu 1905-ci ildən üzü bəri qismətinə yazılan yaxşı günləri də yaşayır, yaman günlərin də ağrısını ömrünün sonuna kimi çəkir. Bolşeviklərin hakimiyyətə qayıdışı, varlıların talanması, sərvətlərinin əlindən alınması, ən savadlı, ləyaqətli qohumlarının 37-ci illərin repressiyalarından keçməsi. Gizlincə ağlayardılar, yaslarını da içlərində qurardılar. Ona görə ki, bütün ölkə güllənən xalq düşmənlərinə nifrət etməyə alışmışdı. Azərbaycanlı ziyalıların da ot kimi biçilib güllənməsi adi bir hal idi. Hamı verilən raportlara sevinclə əl çalmağa alışmışdı. Tanrı Qəmər xanımı ən ağır sınaqlardan keçirdi. Oğlunu İkinci Dünya müharibəsinə yola salan bu nəcib qadın ömrü boyu onun ölümünə inanmadı, gizlində və aşkarda, ürəyində və yuxularında Akifin yolunu gözlədi, ölümünə də

inanmadı. O, 85 yaşına çatanda erməni faşizminin cilvələnən hiyləgər sifətini bir də gördü. Qanlı Yanvar hadisələrini yaşadı və xan nəslindən olan bəy qızı adi sovet adamının iztirablarını çiyninə qaldırıb 1990-cı ildə dünyasını dəyişdi. Yanvar hadisələri ərəfəsində qorxardı, pıçıltı ilə danışardı, deyərdi ki, siz bilmirsiniz onlar nəyə qadirdir. Ehtiyatlı olun. Heç kim onu başa düşməzdi. 20 Yanvar gecəsi yüzlərlə günahsız insan güllələnəndə, hamıya Qəmər xanımın pıçıltı ilə danışmasının səbəbi aydın oldu. Qəmərxanım **Şamaxıdakı "Laləzar" qəbristanlığında** babası Mahmud Ağanın yanında torpağa tapşırıldı.

**Haşiyə:** Biz Aleksandr Dümanın Mahmud Ağaya hədiyyə etdiyi divar saatı haqqında əvvəl də danışmışdıq. Bu saat Mahmud Ağadan üzü bəri fransız yazıçısının qiymətli hədiyyəsi kimi nəsildən-nəsilə ötürülüb. Əvvəlcə Mahmud Ağa bu saatı nəvəsi Soltan bəyə bəxşiş verir. Soltan bəy də öz növbəsində onu qızı Qəmər xanıma Mahmud Ağa nəslinin əziz bir yadıgarı kimi hədiyyə edir.

## Soltan bəyin nəvəsi, Mahmud Ağanın nəticəsi Veysova - Paşabəyova Firidə xanım

Firidə İsmayıl bəy qızı Azərbaycanda sovet hakimiyyəti qələbə çalandan xeyli sonra, **1927-ci ildə** anadan olmuşdur.



Atası İsmayıl bəy Cəbrayıl bəy oğlu zəngin bəy nəslindən olan ziyalı idi, Fitdağlı təxəllüsü ilə şeirlər yazmışdır. O, görkəmli Azərbaycan şairi Məhəmməd Hadinin xalası oğludur. O da **Şamaxı xanı**, Fit dağında əzəmətli qala tikdirmiş "Yeddi, qümbəz" memorial kompleksində anası Safura xanım üçün məqbərə tikdirmiş Mustafa xanın nəslindəndir. Firidə xanımın anası Qəmər xanım Soltan bəy qızı **1905-ci ildə** Şamaxı şəhərində doğulmuşdur. Onun atası Soltan bəy Mahmud Ağanın nəvəsidir. O da Ağanın oğlu Əhməd bəyin oğludur.

Qəmər xanımın anası da zəngin bir bəyin qızı olmuşdur. Onların Kür qırağında at ilxıları, Kürdə balıq pətəgələri, qışlaqları, İsmayıllı ərazisində isə yaylaqları olmuşdur.

Görkəmli dilçi alim, akademik M.Şirəliyev Qəmər xanımın dayısı oğludur.

**Haşiyə:** Firidə xanımın həyat yoldaşı **Veysov Əhməd Şeyx Babaşah oğlu 1922-ci ildə** mömin ailədə anadan olmuşdur. Görkəmli alim, fizik Əhməd Veysov dahi Azərbaycan şairi Əfzələddin Xaqanin əmisi Kafiyyədin ibn Osman, Soltan dədə Günəş sülaləsində dünyaya göz açmışdır. Atası kamil dini bilik sahibi olduğu üçün 1937-ci il repressiyasının qurbanlarından biri olmuşdur. Ə.Veysov orta məktəbi bitirdikdən sonra ADPU-nun (keçmiş V.İ.Lenin adına APİ) fizika

fakültəsinə daxil olmuşdur. Böyük Vətən müharibəsi başlayanda Əhməd təhsilini yarımçıq qoyub, cəbhəyə yollanır. Müharibədən sonra təhsilini davam etdirir və müəllimlik sənətinə yiyələnir... Təhsilini yenidən davam etdirməyi qarşısına məqsəd qoyan Əhməd 1952-ci ildə SSRİ Elmlər Akademiyasının Geofizika İnstitutunun aspiranturasına daxil olsa da, atası 1937-ci ildə tutulduğuna görə bir il sonra onu aspiranturadan xaric edirlər. Lakin bir az sonra 1937-ci ildə həbs olunanlar bəraət alır. Eləcə də Əhməd müəllimin atası - Şeyx Babaşah da. Odur ki, Əhməd müəlllim yenidən APİ-nin aspiranturasına daxil olur. Tez bir zamanda professor A.Abbaszadənin elmi rəhbərliyi ilə yazdığı dissertasiyanı uğurla müdafiə edir. Ə.Veysovun elmi məqalələri keçmiş SSRİ-nin mötəbər jurnallarında, məcmuələrdə işıq üzü görür, imzası tanınır...

O, Şamaxıda rayon partiya komitəsinin şöbə müdiri və katibi, maarif şöbəsinin müdiri və s. vəzifələrdə çalışmışdır. Azərbaycanda ilk qeofizika rəsədxanasının yaradılması da onun adı ilə bağlıdır. Ömrünün sonuna kimi böyük arzularla yaşayan, biliklərə can atan mükəmməl şəxsiyyət olub. Ən böyük arzularından biri də zəlzələlərin əvvəlcədən proqnozlaşdırılmasına nail olmaq olub. Bu məqsədlə Pirquluda onun təşəbbüsü ilə yaradılan poliqona da ömrünün sonuna kimi özü rəhbərlik edib. Görkəmli pedaqoq kimi müxtəlif medal, diplom, fəxri fərmanlarla təltif olunmuşdur. **Əhməd Veysov 1982-ci ildə Şamaxı şəhərində vəfat edib** və Soltan Dədə Günəş qəbristanlığında, babalarının yanında dəfn olunmuşdur.

## İsmayıl bəy Cəbrayıl bəy oğlu Paşabəyov ( Fitdağlı) (1890-1992)



Dahi şair Məhəmməd Hadinin xalası oğlu Paşabəyov İsmayıl bəy Cəbrayıl bəy oğlu 1890-cı ildə Şamaxıda zəngin bəy ailəsində anadan olmuşdur. Anası Şəfiqə xanım Fitdağından Şamaxının sonuncu xanı Mustafa xanın nəvəsidir.

Şamaxıda yerləşən **"Yeddi günbəz"** memorial kompleksinin sonuncu gümbəzini Mustafa xan öz anası Safura xanım üçün inşa etdirib. İsmayıl bəy Mustafa xanın nəvəsi Safura xanımın oğludur. Azərbaycanın dahi şairi Məhəmməd Hadi də həm Mustafa xanın nəticəsi, həm də Safura xanımın bacısı oğlu, İsmayıl bəyin doğma xalası oğludur. İsmayıl bəy ilk təhsilini mollaxanada almışdır.

**İsmayıl bəyin xatirələrindən:** «Mollamız çox zülmkar adam idi. Uşaqları fələqqəyə bağlayıb ayaqlarına o qədər döyərdi ki, hətta özündən gedənlər olurdu. Mollanın vəhşi hərəkətləri məndə ona qarşı nifrət hissi oyatdı. Mollaxanını buraxıb, rus məktəbinə daxil oldum.

İki il rus məktəbində oxudum. Qonşuluğumuzda **Ağası bəy** adında bir dərzi yaşayırdı. O, Bakıdan **"Zinger"** markalı tikiş maşını gətirmişdi. Dərsdən sonra boş vaxtlarımda maşınla maraqlanırdım. Bir gün dərzi olmaq istəyimi atama bildirdim. Onsuz da məktəbdəki müvəffəqiyyətim qənaətbəxş deyildi.

Dəcəl uşaqlardan biri də mən idim. Məktəb direktorunun məni görməyə gözü yox idi. Odur ki, atam mənim fikrimlə razılaşıb, məni Ağası bəyə tapşırdı. Mən məktəbi buraxdıqdan sonra bir gün M.Ə.Sabirə rast gəldim. O, məni görüb dedi:

- Cavan oğlan, deyəsən, məktəbi buraxmısan?

- Bəli, dedim – dərziliyi öyrənirəm. Sənət də yaxşıdır, amma oxumaq da lazım idi, - deyə Sabir cavab verdi.

Burada məndən başqa dörd şagird də var idi. O vaxtın savadlı adamlarından biri də bizim ustamız idi. O, qəzet və jurnalları həvəslə oxuyardı. Onun dükanı həmişə ziyalılarla dolu olardı. Oxuduqlarını müzakirə edərdilər.

«Molla Nəsrəddin» jurnalı təzə çıxmışdı. Hər dəfə jurnalın təzə nüsxəsi işıq üzü görəndə M.Ə.Sabir də Ağaəli bəy Nasehlə gəlib maraqlı söhbətlər edərdilər. «Molla Nəsrəddin» jurnalından başqa **«Babayi-Əmir», «Tutu»** və bir çox qəzet və jurnalları da oxuyub təhlil edərdilər.

Bir gün ustadım Ağası bəy Ağaəli bəy Nasehə dedi:

- Bu jurnalda ən çox sevdiyim «Hop-hop»dur. Hayıf ki, mənasını başa düşmürəm. Ağaəli bəy gülümsəyərək, Sabirə baxıb dedi:



*Əbdülrəhman Əfəndizadə və Məhəmməd Hadi*

- Biz də sizin kimi...

O vaxtdan məndə oxumağa, mütaliə etməyə böyük həvəs oyandı, və dərslərimə davam etdim. Bu həvəs hal-hazırda da öz

gücünü itirməmişdir. Bundan başqa Məhəmməd Hadinin də mənə köməyi az olmayıb. Şair Hadi mənim xalam oğlu idi, məni çox sevərdi. 1918-ci ildə Gəncədə bir neçə ay onunla olduın. O deyərdi:

- İnsanda gərək dünyagörüşü olsun. O da mütaliədən asılıdır. Sənət ölməzdir, dünyagörüşü sönməz...

...Nəhayət, sovet hakimiyyəti illərində bir çox işlərdə işlədim. 1928-ci ildən Şamaxıda açılmış Kirov adına dərzi sexində müdir vəzifəsinə təyin edildim.

1930-cu ildə Müsavat partiyasının üzvü olduğuma görə həbs olunmuşam. Bir müddət sonra azad edildim. Lakin qardaşım Paşayev Soltan Həmid Şamaxıda hərbi komissar işləyərkən 1937-ci il repressiya qurbanı oldu. 1966-cı ildə işdən azad oldum. Həmişə zəhmətə alışan adam üçün ağır olan işsizlik çətin oldu. Odur ki, gördüklərimi, eşitdiklərimi cəmləyib, özümü toplayıb **«Zadəgan»** romanını yazmağa başladım» **(1966-1969).**

**Haşiyə:** Azərbaycanın görkəmli yazıçısı Əzizə xanım Cəfərzadə, "Aləmdə səsim var" trilogiyasını, Şamaxıda İsmayıl bəyin evində onun gördükləri, eşitdikləri əsasında ərsəyə gətirib.

İsmayıl bəy Fitdağlı 1992-ci ildə Şamaxıda vəfat edib. O, həm də şair idi. Əsasən, Sabirsayağı yazırdı, şairin şeirlərindən birini təqdim edirik:

**Şairim, aləmə bax**
**(M.Ə.Sabirə)**

Şairim, aç gözünü, qalx ayağa, aləmə bax,
Satirik şeirimizin ildırımı, bir daha çax!

Gördüyün əski cahandan qalmayıb əla əsər,
Məhv olub molla, seyid mərsiyəxan, sözləri şər,
Günbəgün şad edir qəlbimizi tazə xəbər,

Şairim, aç gözünü, qalx ayağa aləmə bax,
Satirik şeirimizin ildırımı, bir daha çax!

Oxuyub, alim olub Fatma, Tükəzbanlarımız,
Yeni səyyarələri fəth edir insanlarımız,
Uzadır ömrümüzü təbibi-loğmanlarımız,
Şairim, aç gözünü, qalx ayağa, aləmə bax!
Satirik şeirimizin ildırımı, bir daha çax!

İndi azadə qələm də sülhü tərənnüm eyləyir,
Bu azadlıq yolunda odlu şəfəqlər çiləyir,
Haqq, ədalət işini kürreyi-ərzə diləyir,
Şairim, aç gözünü qalx ayağa aləmə bax,
Satirik şeirimizin ildırımı, bir daha çax!

Bir şeir bayramını ünvanına ad eylədik,
Doğma Şirvanımızı nəğmələrlə şad elədik,
Şöhrətli şeirimizə biz səni ustad eylədik,
Şairim, aç gözünü, qalx ayağa, aləmə bax,
Satirik şeirimizin ildırımı, bir daha çax!

## Mahmud Ağanın nəticələri,
## *Firidə və Əhməd Veysovun övladları*

Bütünlükdə Mahmud Ağanın nəsil şəcərəsini əhatə etmək, bura aid olan insanların hamısı haqqında ətraflı məlumatları təqdim etmək qeyri - mümkündür. Ona görə də bəzi insanlar haqqında qısa da olsa yazmağı vacib saydıq. Firidə xanımla Əhməd Veysovun 3 övladı olub: ***Zöhrab, Səadət və Nelli. Bu üçlük həm də Qəmər xanımın nəvələridir.***

***Veysov Zöhrab Əhməd oğlu*** hazırda həkim işləyir. Tiibb Universietini bitirib, Moskvada Ümumittifaq Elmi Cərrahiyyə Mərkəzində akademik Luvsanın yanında kurs keçib və onun sevimli tələbəsi olub. Hazırda seçdiyi ixtisas üzrə çalışır, bir oğlu və bir qızı var. Moskvada yaşayan qızı Yeganə xanımın da bir qızı var. Oğlu isə hələ orta məktəbdə təhsil alır.

***Veysova Səadət Əhməd qızı*** ixtisasca fizikdir, Azərbaycanın əməkdar müəllimidir. İki oğul anasıdır. Böyük oğlu Emil Qasımzadə Qahirə Universitetini bitirib, bir neçə dildə sərbəst danışır, diplomatdır. Emilin Ayan və Aylin adında iki övladı var. Səadət xanımın ikinci oğlu Tamerlan maliyyəçidir, biznes sahəsində çalışır.

***Veysova Nelli Əhməd qızı*** da həkim-terapevtdir. Nelli xanımın iki qızı var. Lalə həkim, Leyla isə iqtisadçıdır. Maqsud və Aydan adında iki övladı var.

# *Mahmud Ağanın oğlu Hacı İbrahim Xəlil bəyin nəsil şəcərəsi*

## Mahmud Ağanın oğlu Hacı İbrahim Xəlil bəy (1845 -1890)

Mahmud Ağanın oğlu Hacı İbrahim Xəlil bəy Şamaxıda böyük hörmət-izzət sahibi olmuşdur. O, öz şəxsi hesabına şəhərə su xətti (kəhriz) çəkdirmiş, şəhər əhalisini içməli su ilə təmin etmiş, məktəb açmış və digər nəcib işlər görmüşdür. O da atası kimi kasıb ailələrə yardımlar etməyi, elmin, maarifin inkişafında xeyriyyəçiliyi ümdə amalı saymışdır.

Tiflisdə yerləşən Qafqaz canişini Hacı İbrahim Xəlilin bu alicənablığını eşidib yanına dəvət edərək ona "bəy" titulu verir. Bu haqda Hacı İbrahim Xəlil bəyin nəvəsi **Xəlil bəy Həbib bəy oğlu Mahmudbəyov** 1975-ci ildə qələmə aldığı xatirələrində belə yazır: "Bizim babamız nəslimizin nəcib əməlləri ilə məşhurlaşmasında əvəzsiz rol oynayıb. Bütün övladları oxumağı, yazmağı bilirdi və hətta bəzilərinin ali savadı var idi. Babam müdrik bir xeyriyyəçi idi. Özü də, oğlanlarından bəziləri də ticarətlə məşğul olar, Rusiyanın başqa şəhərlərinə səfərə çıxardılar. Rus dilini yaxşı bildiklərindən bu səfərlərdə çətinlik çəkməz, əksinə, bu dilin imkanlarından yetərincə faydalanaraq əlaqələrini genişləndirərdilər. Babamın uşaqları – mənim əmi və bibilərim elə ötən əsrin əvvəllərində Azərbaycanda mövcud olan rus məktəblərində oxumuş, sonra isə biliklərini və dünyagörüşlərini daha da inkişaf etdirmək məqsədi ilə Sankt-Peterburq, Moskva və Kiyev kimi şəhərlərin məktəb və institutlarında təhsil ala bilmişlər.

Babamın gördüyü nəcib işlərin sırasında Şamaxıda məktəbin açılmasını və şəhər əhalisini içməli su ilə təmin etmək

üçün 3 kilometrlik məsafədən saxsı borularla su kəmərinin çəkilməsini qeyd etmək olar. Onun nəcib işləri, xeyriyyəçilik əməllərini şamaxılılar heç zaman unutmadılar. Aradan onilliklər keçdikdən sonra belə Şamaxıdan rast gəldiyimiz adamlara yeri düşəndə Mahmud Ağanın nəslindən İbrahim Xəlil bəyin nəvələrindən olduğumuzu deyəndə, babamızı hörmətlə xatırlar, onun xeyriyyəçiliyindən, əliaçıqlığından ürəkdolusu danışar, hətta ulu babamızın Qala-Bazardan olduğunu deməyi də unutmazdılar.

O zamanlar Tiflisdə yaşayan Qafqaz canişini babamın xeyirxah əməllərindən xəbər tutur və onu yanına dəvət edir. Qafqaz canişini çar Rusiyasında ən ciddi vəzifələrdən biri idi və bütün ərazidəki hökumət idarələri və hətta ordu birləşmələri də ona tabe idi. Canişin yerli əhalinin idarə olunmasına, rusların işğal edilmiş ərazilərə köçürülməsinə, ümumiyyətlə bütün işlərə rəhbərlik edirdi. Qafqaz canişini vəzifəsinə adətən rus imperiyasında dərin bilikləri və yüksək nüfuz sahibi olan məşhur dövlət xadimləri təyin olunardı. Bu baxımdan hər hansı bir adamın Tiflisə canişinin hüzuruna çağırılması da nadir və diqqətçəkən məsələ idi. Babamı qəbul edən Qafqaz canişini ona xeyirxah əməllərinə görə minnətdarlığını bildirir və gördüyü işləri imperiyanın təmsilçisi kimi dəyərləndirmək üçün mükafatlandırmaq istəyir.

Babam ayağa duraraq pul mükafatından imtina edir, hər bir imkanlı adamın xeyriyyəçiliklə məşğul olmağa borclu olduğunu bildirir. Bu işlərın mükafat naminə yox, xeyirxahlıq üçün, insanlıq naminə görüldüyünü deyir.

Xəlil bəyin cavabından razı qalan Qafqaz canişini babamı "bəy" titulu ilə mükafatlandırır. Ulu babam Mahmud olduğu üçün onun adının arxasına bəy sözü əlavə edilir və o zamandan bu günə kimi biz bu Mahmudbəyovlar familiyasını daşımağı özümüzə şərəf sayırıq. Qürurlanmağımın əsas səbəbi Qafqaz canişinin verdiyi "bəy" titulundan daha çox, ulu babalarımızın törəmələrinə qoyub getdiyi xeyirxah əməllərdir".



**Hacı İbrahim Xəlil bəy** XIX əsrin birinci yarısında **Şamaxı şəhərində** anadan olmuşdur. Onun əsas sənəti ticarətlə məşğul olmaq idi. Onun 6 **oğlu, 2 qızı** olmuşdur. O, uşaqlarının savadlanması üçün əlindən gələni etmiş, özü isə **1890-cı ildə** vəfat etmişdir. Həyat yoldaşı haqqında heç bir məlumat yoxdur. Lakin uşaqları haqqında aşağıdakı bilgiləri əldə etmək mümkün olmuşdur: ***1. Əsədulla bəy; 2. Həbib bəy; 3. Ələsgər bəy; 4. Abdulla bəy; 5. Seyfulla bəy; 6. Mahmud bəy; 7. Sübhi xanım; 8. Fərrux xanım. İbrahim Xəlil bəyin övladları, nəvə və nəticələri haqqında yazdıqlarımızın asan başa düşülməsi və anlaşılmazlıqlara yol verilməməsi üçün onun hər övladının nəsil şəcərəsini bir budaq kimi təqdim etməyi qərara aldıq.***

## *Birinci budaq*

### Əsədulla bəy İbrahim Xəlil bəy oğlu Mahmudbəyov

**Əsədulla bəy** 1860-cı ildə Şamaxıda anadan olmuşdur. O, ailənin böyük oğlu kimi atasının vəfatından sonra onun işini - ticarəti davam etdirmiş, ailənin qalan üzvlərinin savadlanması, biliklərə yiyələnməsi üçün hər şeyi etmişdir. Kiçik qardaşı Seyfulla bəylə uzun müddət ticarətlə məşğul olmuşdur. **Əsədulla bəy** özü savadlı olmuş, ticarət üçün başqa ölkələrə səfər edər, oradan mallar gətirərmiş. **1918-ci ildə** silahlı erməni quldur dəstələri tərəfindən Şamaxı yandırıldıqdan sonra o,

Bakıya köçür və böyük qızı Qəmər xanımın evində yaşayır. Əsədulla bəy böyük qardaş olduğu üçün ona Ağa deyə müraciət edərlərmiş. O, mədə xərçəngi xəstəliyinə tutulur və **1924-cü ildə Bakıda dünyasını dəyişir.**

Əsədulla bəyin iki arvadı olub. Birinci arvadından ***Ceyran xanım, Xəlil bəy, Soltan xanım, Bəylər bəy, Qəmər xanım və Lətif bəy*** adlarında **6 uşağı,** ikinci arvadı Ruqiyyə xanımdan da ***Sitarə, Sara, Aslan, Əjdər, Tahirə, Mərdan*** adlarında 6 övladı dünyaya gəlib.

## Əsədulla bəyin oğlu Bəylər bəy



*Bəylər bəy Mahmudbəyov*

***Bəylər bəy Əsədulla bəy oğlu Mahmudbəyov*** **1888-ci ildə Şamaxı şəhərində anadan** olmuş, Bakıda gimnaziyada oxuyub, 1906-cı ildə Sankt-Peterburqda Kommersiya İnstitutunda təhsil alır, 1910-cu ildə Bakı şəhərinə qayıdaraq, kommersiya bankında işləyir. Yüksək mədəniyyət və əxlaq sahibi olan Bəylər bəy özünə böyük hörmət qazanır. 1922-ci ildə Qacar nəslindən olan İşrət xanımla evlənir. İşrət xanım bundan əvvəl çar zabitinə ərə gedibmiş və ondan bir oğlu, 2 qızı olur. Ərindən boşandıqdan sonra Bəylər bəyə ərə gedib.

Bəylər bəyin ondan Tofiq adında oğlu olmuş və o, 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində həlak olmuşdur. Bəylər bəyin özü isə **1927-ci ildə Bakı şəhərində vəfat etmişdir.**

## *Əsədulla bəyin qızı Qəmər xanım*

***Qəmər xanım Əsədulla bəy qızı Mahmudbəyova 1890-cı ildə* Şamaxıda anadan olmuşdur.** O, ilk təhsilini 1902-1905-ci illərdə Tağıyevin açdığı qızlar seminariyasında almışdır.

Məşhur milyonçu-neftçi Hacı Zeynalabdin Tağıyev gənc yaşlarında bənna olmuş, aldığı torpaqlarda neft quyuları qazdırır, nağıllardakı kimi qısa müddətdə kasıblığın daşını ataraq, Bakının ən varlı adamlarından birinə çevrilmişdir. O, mesenatlıq işinə xüsusi yer verməyə başladı. Çadra altında gəzən, heç bir savad sahibi olmayan azərbaycanlı qızları üçün **gimnaziya-pansionat** açmağa nail oldu. Qəmər xanım da bu gimnaziyada təhsil alaraq 1906-cı ildə oranı bitimişdir. O, öz əmisi oğlu, Almaniyada təhsil almış, elektrik mühəndisi **Ağalar bəy Mahmudbəyova** ərə getmişdir.

***Ağalar bəy Mahmudbəyov 1882-ci ildə* Şamaxı şəhərində doğulub.** Bakıda realnı məktəbi bitirdikdən sonra, onu Almaniyaya oxumağa göndərirlər. İnstitutu bitirən Ağalar bəy elektrik mühəndisi olur. O, həm də son dərəcə ağıllı, ziyalı, gözəl xasiyyətli bir insan idi. Əvvəlcə o, Bakıda müxtəlif idarələrdə, sonra isə əslən şamaxılı Belçikada təhsil alan mühəndis Ağa Axundovun açdığı «Lyumer» elektrik avadanlığı kontorunda işləyir.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra o, Azərbaycan Neft Sənayesində Texniki-Material Təchizat İdarəsinə, sonra isə Azdövlətlayihə İnstitutuna rəhbərlik edir.

30-cu illərin əvvəlində Ağalar bəyi dövlətə *ziyanxorluqda* damğalayaraq həbs edirlər və Moskva-Volqa kanalı düşərgəsinə göndərirlər. 1935-ci ilə kimi o, həbsdə qalır. **1936-1937-ci illərdə yenidən həbs edili**r və bir daha geri qayıtmır. Onun həyat yoldaşı, uşaqları, İsmayıl (onun arvadı Antonina Afanasyevna), Niyaz, Ənvər və qardaşının arvadı ilə birlikdə anasını da Qazaxıstanın Petropavlovsk şəhərinə sürgün edirlər.

Bütün ailənin günahı onda imiş ki, Qəmər xanımın kiçik bacısı **Tahirə Mahmudbəyova** 1923-cü ildə Bakıda **İran konsulu İsmayıl xana** öz istəyi ilə ərə getmişdi. O vaxtlar xarici adamlarla münasibətdə olan yerli əhalini heç bir səbəb olmadan həbs edirdilər. O cümlədən, həmin adamların yaxın qohumlarını da. Ağalar bəy 1938-ci ildə həbsxanada vəfat edir.

***Ağalar bəylə Qəmər xanımın oğlu İsmayıl Mahmudbəyov*** 1908-ci ildə anadan olmuşdur. O, realnı məktəbi qurtarıb Kənd təsərrüfatı İnstitutuna daxil olur. Sonra isə o, Krasnodar Kənd Təsərrüfatı İnstitutuna köçürülür. 1931-32-ci illərdə iaşə-yeyinti mühəndisi diplomu alır. Krasnodarda ziyalı və tanınmış ailədən olan **Kalkutina Antonina** ilə evlənir. İsmayıl bəy uzun ömür sürməmişdir. Sürgündən sonra az müddət soyuducu kombinatında işləmiş, 40 yaşında - 1948-ci ildə vəfat etmişdir. Ölümündən 39 il ötdükdən sonra - **1989-cu ildə bəraət alır.** Antonina əri öldükdən sonra da Bakıdan getmir. 1931-ci ildə anadan olan yeganə qızı Novellanın tərbiyəsi ilə məşğul olur. Antonina özü Kuban Əkinçilik İnstitutunu bitirmişdi, ixtisasca aqronom idi. O, əməkdar aqronom adına layiq görülür. İttifaq Memarlar Birliyinin üzvü, bir neçə kitabın müəllifi olmuşdur.

Onun qızı **Novella Mahmudbəyova** Bakı Dövlət Universitetinin biologiya fakültəsini bitirmiş, elmlər namizədi olmuşdur. 1955-ci ildə EA-nın Geologiya İnstitutunun baş geoloqu işləyən **Tarik Hacıyevlə** ailə həyatı qurmuşdur. Onların Stella adlı bir qızı olub. Bakıda yaşayır.

***Ağalar bəylə Qəmər xanımın oğlu Niyaz Mahmudbəyov*** 1910-cu ildə Bakıda doğulmuşdur. Bədən Tərbiyəsi İnstitutuna daxil olsa da, Şimali Qazaxıstana sürgün olunması, həmin institutu bitirməyə imkan vermir. 1943-cü ildə müharibədə həlak olmuşdur, Edik (1938) və Rafıq (1940) adlı iki övladları dünyaya gəlir. Edik 1967-ci ildə məlum olmayan səbəblərə görə, qəsdən, Montin qəsəbəsindəki parkda qətlə yetirilir.

***Ağalar bəylə Qəmər xanımın oğlu Ənvər Mahmudbəyov*** 1913-cü ildə Bakıda anadan olmuşdur. 1936-cı ildə Bakı Neft

İnstitutunu bitirmişdir. 1949-cu ildə ailəsi ilə birlikdə Moskvaya köçür və SSRİ Neft Məhsulları Nazirliyində işləyir.

### *Əsədulla bəyin oğlu Lətif bəy*

***Lətif bəy Əsədulla oğlu Mahmudbəyov*** **1904-cü ildə Şamaxıda doğulmuşdur.** 1913-cü ildə Şamaxı realnı məktəbi bitirib Kiyev Tibb İnstitutuna daxil olur. 1918-ci ildə həkim kimi Bakıya qayıdır və Tibb İnstitutunda işləyir. İnfeksiya xəstəlikləri kafedrasının müdiri, professor olmuşdur. **1972-ci ildə Bakı şəhərində, 80 yaşında vəfat etmişdir.**

### *Əsədulla bəyin oğlu Aslan bəy*

***Aslan bəy Əsədulla oğlu Mahmudbəyov*** **1900-cü ildə Şamaxıda** anadan olmuşdur. Bakı realnı məktəbi bitirdikdən sonra Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna daxil olmuş və 1930-cu ildə oranı bitirmişdir. 1931-ci ildən ta 1972-ci ilədək Yeyinti Sənayesi Nazirliyində sıravi işçidən laboratoriya müdiri vəzifəsinədək yüksəlmişdir. 1972-ci ildən fərdi pensiyaçıdır. Heç vaxt ailə qurmamışdır.

### *Əsədulla bəyin oğlu Əjdər bəy*

***Əjdər bəy Əsədulla bəy oğlu Mahmudbəyov*** **1902-ci ildə Şamaxıda anadan olmuşdur.** Əvvəl Şamaxı realnı məktəbində, sonra isə Bakı realnı məktəbində oxuyub. 1924-cü ildə təhsilini başa vurduqdan sonra hərbi hissələrdə işləyir, sonralar Kirovabada (indiki Gəncəyə) köçür və burada da hərbi hissələrdə çalışır. 1937-ci ildə podpolkovnik rütbəsinə kimi yüksələn Əjdəri həbs edirlər. **Sonrakı aqibətindən heç bir məlumat yoxdur.**

1960-62-ci illərdə böyük oğlu **Aydın evdən** qaçır. Arabir əmisi Aslandan pul almağa gəlir. Lakin tüfeyli həyat keçirən

Aydın birdən-birə yoxa çıxır. Kiçik oğlu **Rafiq 1934-cü ildə** Kirovabadda (idiki Gəncədə) anadan olmuşdur. O, əmisi Aslanın himayəsi altında Azərbaycan Pedaqoji İnstitutunu bitirir. 1972-ci ildə anasını və xəstə əmisini tərk edərək həmişəlik **Moskvaya köçür.**

### *Əsədulla bəyin qızı Tahirə xanım (1905-1937)*

***Tahirə Əsədulla bəy qızı Mahmudbəyova*** **1905-ci ildə Şamaxıda dünyaya göz açıb.** Bakıya köçür və böyük bacısı Qəmər xanımın yanında yaşayır. Tahirə gözəgəlimli, maraqlı qız olub. 1924-25-ci illərdə Bakıda yerləşən İran konsulluğunda İsmayıl xana vurulur və ona ərə gedir. Kosulluğun əməkdaşı üçün kübar və zəngin bir ailənin üzvü ilə nikaha getmək təbii ki böyük əhəmiyyət daşıyırdı. Lakin sovet Azərbaycanın vətəndaşı üçün belə bir izdivac zaman keçdikcə ağır ittihama çevriləcəkdi. Rejim sərtləşdikcə, bolşevik diktaturası amansızlaşdıqca Tahirə xanımın bu izdivacı 1936-37-ci illərdə Mahmudbəyovların böyük bir qismi üçün əsl faciəyə, fəlakətə çevrildi.

Qəmər xanım, Aslan və anası, İsmayıl arvadı və qızı ilə birlikdə, Niyaz və Ənvər 1937-ci ildə Qazaxıstana sürgün edildilər. Tahirənin sürgünü əcnəbi şəxsə ərə getməsi ilə əlaqədar idi. Tahirə Mahmudbəyovanın əri vəfat etdikdən sonra Tehranda yaşayır. Onun uşağı olmamışdır.

***Mərdan Əsədulla oğlu Mahmudbəyov*** **1912-ci ildə Şamaxıda anadan olmuşdur.** O, səkkiz yaşında Bakı şəhərində xəstələnib ölür.

# *İkincı budaq*

## İbrahim Xəlil bəyin oğlu Həbib bəy
## *(1864-1928)*



*Həbib bəy*

***Həbib bəy İbrahim Xəlil bəy oğlu Mahmudbəyov*** **1864-cü ildə Şamaxıda doğulmuşdur**. Səkkiz yaşında ikən Həbib bəy Şamaxının əvvəl məhəllə, sonra isə şəhər məktəbində oxuyur. Elmə, təhsilə sonsuz marağı olduğu üçün Bakıya gələrək, real məktəbə daxil olur. Burada altıncı sinifədək oxuduqdan sonra daha dərin biliklərə yiyələnmək üçün 1883-cü ildə Sultanməcid Qənizadə ilə birlikdə Tiflisə gedərək Aleksandrov Müəllimlər İnstitutuna girir, 1887-ci ildə oranı bitirdikdən sonra yenə birlikdə Bakıya qayıdır və ilk rus-tatar məktəbini açırlar. Bu, Azərbaycanda maarifin inkişafında böyük hadisə olur. Bu dünyəvi məktəb kasıb uşaqlarının oxuya bildiyi yeganə təhsil ocağı kimi məşhurlaşır və sonralar dövlətin himayəsinə keçirilir. Həbib bəy 1896-cı ildə bir neçə ziyalı ilə birlikdə Bakıda ilk rus-tatar kitabxanasını yaradır. Bakıda rus - Azərbaycan məktəbinin təşkili, 1906-cı ildə Azərbaycan müəllimlərinin I qurultayının təşkilində xüsusi xidmətləri olmuşdur.

**Haşiyə:** Azərbaycan müəllimlərinin birinci qurultayının keçirilməsində başqa maarifçilər kimi Həbib bəy Mahmudbəyovun da xüsusi xidmətləri olmuşdur. 2013-cü ildə keçirilən müəllimlər qurultayında yüksək kürsüdən bu sözlər xatırlanmışdır: "Düz 107 il bundan qabaq 1906-cı ildə Bakıda Həbib bəy Mahmudbəyovun rəhbərlik etdiyi rus – Azərbaycan müəllimlərinin I qurultayı keçirilmişdir. Qurultayın işində Həsən bəy Zərdabi, Nəriman Nərimanov, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağa oğlu, Firudin bəy Köçərli, Üzeyir bəy Hacıbəyli, Süleyman Sani Axundov kimi o dövrün tanınmış maarifçiləri iştirak etmişlər. XX əsrin əvvəllərində maarifçilik ideaları ətrafında birləşən bu böyük ziyalıların istiqlal mübarizəsi Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə nəticələndi."

1917-ci il Oktyabr inqilabınadək H. Mahmudbəyov maarifləndirmə fəaliyyəti ilə məşğul olur, Bakı şəhər Dumasında məktəb komissiyasının üzvü kimi fəaliyyət göstərir. Onun tə-



*Həbib bəy Mahmudbəyov Bakı I rus – Azərbaycan məktəbinin şagirdləri arasında. 1920-ci il*

şəbbüsü və təşkilatçılığı ilə Azərbaycan müəllimlərinin birinci qurultayı hazırlanır və keçirilir. Uzun müddət müəllim, məktəb direktoru olub, şəhər dumasına deputat seçilir, Sosial təşkilat komissiyasının (1920) üzvü kimi o, **Ali Pedaqoji institutun təşkilində fəal iştirak edir və əvvəl burada direktor müavini, sonra isə direktor vəzifəsində çalışır.** Həbib bəy 42 il pedaqoji fəaliyyətilə məşğul olmuşdur. 1914-cü ildə Bakı şəhər Dumasının qərarı ilə həmin məktəbə onun adı verilmişdir. O, təkcə pedaqoji fəaliyyətlə məşğul olmaqdan başqa, həmçinin Azərbaycan dram teatrının yaradılmasında da bilavasitə iştirak etmişdir. Həbib bəy Azərbaycanda ilk teatr truppasını təşkil etmişdi, ona rəhbərlik edirdi və maliyyələşdirirdi. Həbib bəyin necə ata, ailə başçısı olması barədə oğlu Xəlil xatirələrində belə yazır: "1920-ci ildə - artıq 17 yaşımda atama payok gətirirdim. Burada ərzaqdan savayı tütün də olardı. Atam bilirdi ki, mən siqaret çəkirəm. Ona görə də öz tütün payından mənə də bir qədər ayırardı. Lakin bir dəfə də olsun onun yanında tütün çəkmədim. O zaman kimsə atasının yanında nə siqaret çəkərdi, nə də ki, araq içərdi. Biz 3 qardaş atamın qoyduğu qaydaları və elimizin müqəddəs adətlərini bir dəfə də olsun pozmadıq. Ataya hörmət etmək, anaya rəğbət bəsləmək ailəmizin kökündən gələn dəyişilməz bir qanun idi. Bu qanunları göz bəbəyi kimi qoruyurduq".

1923-cü ildə Bakı Şəhər Təhsil Şöbəsinin qərarı ilə 2 nömrəli Bakı şəhər məktəbinə Həbib bəyin adı verilir. **1928-ci ildə Həbib bəy vəfat edir.**

Təxminən, on il sonra, 1936-37-ci illərdə onun 3 oğlu sovet rejiminin düşməni kimi həbs edilir və bununla əlaqədar həmin məktəbdən Həbib bəyin adını tamamilə götürürlər. Həbib bəyin vəfatından 30 ilə yaxın vaxt keçsə də, onun Azərbaycanda maarifin, mədəniyyətin inkişafı üçün gördüyü böyük işlər; ilk dünyəvi rus-tatar məktəbi, ilk rus-tatar kitabxanası yaratması,ilk teatr truppasını təşkil etməsi, siyasi fəaliyyəti respublika hökuməti tərəfindən nəzərə alınır və onun adı yenidən

məktəbə qaytarılır. Ölümündən bir az qabaq Həbib bəy Mahmudbəyov həyat amalı haqqında belə yazırdı: «Mənim məqsədim həmişə təhsil sahəsində xalqıma xidmət etmək istəyi olmuş və çalışmışam ki, yeni məktəblər, institutlar, texnikumlar yaradılsın».

***H.Mahmudbəyovun həyat yoldaşı Kəbutər xanım Rza bəy qızı* 1874-cü ildə Şamaxıda dünyaya gəlib**, 1943-cü ildə vəfat etmişdir. O, gözüaçıq, ağıllı və mehriban qadın idi. Onun Şirvanda məşhur və tanınmış nəslinin kökləri əsilzadələrə çıxırdı. Oğlu Xəlil bəyin xatirələrində bir neçə cümlə ilə Kəbutər xanımın müqəddəs ana surəti belə cızılır: "Anam haqqında qısaca onu deyə bilərəm ki, Kəbubər xanım Rza bəy qızı 3 bacı, 3 qardaş olublar. Kişilərin hamısı yaxşı oxuyub yazmağı bacarır və həm də rus dilində kifayət qədər yaxşı danışırdılar. Anam da atalarından babalarından gələn bilik və təcrübəyə uyğun fərqli dünyagörüşü ilə hamıdan seçilərdi. Onun davranışlarında əsrlərin dərinliyindən soykökünə xas nəciblik və alicənablıq özünü büruzə verər, bu qadını dinləyənləri valeh edərdi. O, ürəyi riqqətə gətirəcək dərəcədə sadə, həlim və mehriban bir qadın idi. Biz - onun uşaqları aradan uzun illər ötdükdən sonra belə keçmişi xatırlayanda bir dəfə də olsun anamızın üstümüzə səsini qaldırmasını, bizə əsəbiləşməsini yadımıza sala bilmədik. Əksinə, onun həssaslığı, mehribanlığı və can yanalağı xatirələrimizin çələnginə çiçəklər kimi hörüldü.

Atama qarşı da qəlbində böyük rəğbət və sevgi yaşadardı. Atam dünyasını dəyişəndən sonra anamın necə **qəfildən solub şam kimi sönməsini görəndə onun atama necə dərindən bağlı olduğunu dərk etdik.** Həyat yoldaşının ölümü onu sarsıtmışdı. Bundan başqa əlil qızı və repressiyalara məruz qalan 3 oğula dəyən zərbələr də anamın nikbinliyini qırmış, ədalətin, haqqın gücünə olan inamını sarsıtmışdı. Anam Kəbutər xanım ömrünü və qalan sağlamlığını şam kimi bizim qismətimizə çökən qaranlıqları dağıtmaq üçün yandırdı və artıq

heç nəyə gücü çatmayanda dünyasını dəyişdi."

***Həbib bəyin Şamil, Kamil və Xəlil adlı üç oğlu və Sona adlı bir qızı olub. Mahmud Ağanın nəsil şəcərəsində bu dörd övlad nəticə yerini tutur. Onların haqqında da ayrıca danışmaq və xatirələri vərəqləmək gərəkdir.***

### *Həbib bəyin oğlu Şamil bəy Mahmudbəyov (1898-1937)*



*Şamil bəy Həbib bəy oğlu*

***Şamil bəy* 1898-ci ildə Bakıda doğulmuşdur.** 1915-ci ildə Bakı realnı məktəbi bitirmiş, 1916-cı ildə Kiyev şəhərində Politexnik İnstitutuna daxil olmuşdur. O, musiqini çox sevirdi. Skripkada və gitarada gözəl çala bilirdi. Lakin Birinci Dünya müharibəsi illərində, gizli partiya fəaliyyəti və səhhətindəki problemlər ona institutu qurtarmağa imkan vermədi. 1919-cu ildə xəstə Şamil Bakıya qayıdanda Petrov limanında onu şübhəli adam kimi tuturlar. Güllələnməyə aparıldıqda təsadüf nəticəsində uzaq qohumu çar ordusunun zabiti Şepelevlə rastlaşır və onun sayəsində ölümdən qurtarır.

Azərbaycanda sovet hakimiyyəti qurulduğu ilk gündən o, bolşevik dəstəsinə qoşulur və Bakıda işləyir. Şamil Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanovun katibi olur. Onun İnqilab Komitəsinin sədrinin katibi vəzifəsinə təyin edilməsinin maraqlı tarixçəsi var. Məsələ burasında idi ki, Nəriman Nərimanov şəxsən Şamilin atası Həbib bəylə tanış idi. Ümumiyyətlə bu nəsil və onların gördüyü nəcib işlər haqqında məlumatlı idi. Nərimanov bilirdi ki, XX əsrin əvvəlində Bakı milyonçularının gördüyü nəcib işlərin təməli XIX əsrdə Mahmudbəyovlar tərəfindən qoyulub. Azərbaycanın gələcəyini, xalqının inkişafını düşünən bir rəhbər üçün belə şəxsiyyətlərin seçilib irəli çəkilməsi ümdə bir vəzifə daşıyırdı.

**Sonralar o, Şuşa icrayə komitəsinin sədri, Qarabağ və Zəngəzurun fövqəladə komissarının müavini, Naxçıvan daxili işlər xalq komissarı, Naxçıvan SSR-in xalq komissarları şurasının sədrinin müavini və sədri, Azərbaycan Mərkəzi İcrayə Komitəsinin işlər müdiri olmuşdur.** Şamil Mahmudbəyov torpaqlarımızın ermənilər tərəfindən işğal edilməsinə qarşı çəkinmədən və qətiyyətlə mübarizə aparmışdır. Bununla əlaqədar Azərbaycan Respublikası Dövlət Arxivində və Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin siyasi sənədlər arxivində Mahmudbəyovun N.Nərimanova yazdığı gizli məktublar saxlanılır. **1924-1928-ci illərdə "Azərbaycan Dövlət Kino"sunun rəhbəri,** 1931-ci ilə kimi Kənd Təsərrüfatı İnstitutunun tədris bölməsinin prorektoru vəzifələrində çalışmışdır.

1932-ci ildə **Şamil bəyin Mir Cəfər Bağırovla münasibətləri gərginləşir. Bu barədə onun qardaşı Xəlil bəy xatirələrində ətraflı yazır:** "Bağırov mənim qardaşımı millətçi adlandıranda Şamil çəkinmədən onun üzünə qayıdaraq deyir ki, əgər mən millətçiyəmsə, sən də jandarmsan. Respublikanın birinci siması ilə qardaşım arasında baş verən bu insident sonralar Şamilin təqib olunmasına rəvac verir və onun uğurlu taleyini ağlasığmaz sıxıntılara düçar edərək büsbütün dəyişdirir. Bakıda işlədiyi üçün işi ilə bağlı Mir Cəfər Bağırovla tez-tez rastlaşmalı olan qardaşım öz qeydlərində onun haqqında çəkinmədən sərt fikirlərini deyərdi. Qeydlərinin birində qardaşım yazırdı ki, əgər yazdıqlarım Allah eləməmiş Mir Cəfər Bağırovun əlinə düşsə mənə rəhm etməyəcək. Qardaşımın gündəliyi onun qızı Elmira xanım tərəfindən 1959-cu ildə Bakı şəhərindəki Marksizm- Leninizm İnstitutuna təhvil verilib".

Şamil bəy Mahmudbəyov Bağırov tərəfindən aramsız olaraq izləndiyindən 1932-ci ildə Moskvaya gəlsə də, başa düşür ki, Mir Cəfərin yaxın dostu Beriyanın oturduğu şəhərdə də təqiblərin arası kəsilməyəcək.

Əslində Şamil bəyin **N.Nərimanovun yaxın silahdaşı**

**kimi qara siyahıya düşməsinin şəxsi ədavətdən çox** daha ciddi tarixi səbəbləri var idi. Hələ 20-ci illərdə Nəriman Nərimanovun Kreml qarşısında qaldırdığı məsələlərin sırasında Azərbaycan dilinin dövlət dili kimi nüfuzunun qorunması, milli kadrların hazırlanmasının və sair islahatların həyata keçirilməsi məsələləri dururdu. Təbii ki, belə mövqe bolşevikləri və Bakıda sovet hakimiyyətinin adından ağalıq edən erməniləri qane etmirdi. Getdikcə Bakıda ona qarşı artan təzyiqlərdən cana gələn N.Nərimanov 1923-cü ilin dekabrında Stalin və Trotskiyə müraciət edir, yerli rəhbərlərin "müttəfiq respublikanın" bayrağı altında yeridilən diktatura siyasətindən yazır, Azərbaycan xalqının maraqlarının pozulmasını qətiyyətlə pisləyir. Sovet hakimiyyəti Azərbaycanda güclənməyə çalışsa da, reallıqda erməni planları baş tutur, onların siyasi və iqtisadi maraqları təmin olunurdu. N.Nərimanovun AK(b)P, Bakı rəhbərləri və "gənc kommunistlərlə" münasibətləri getdikcə gərginləşirdi. Daşnak xislətli erməni kommunistləri N.Nərimanovu tamamilə zərərsizləşdirib sıradan çıxarmaq üçün çəkinmədən bütün siyasi vasitələrdən istifadə etməyə çalışır, ən iyrənc təxribatlardan iyrənmədən yararlanırdılar. N.Nərimanov Leninə müraciətlərində birmənalı şəkildə "Daşnak kommunistlərinin bütün Zaqafqaziyada, həmçinin Azərbaycanda bu murdar hərəkətlərinə son qoymağı" dəfələrlə xahiş edirdi. Ürəyi vətən eşqi ilə çırpınan, Azərbaycanın azadlığı, inkişafı üçün əlindən gələni əsirgəməyən N.Nərimanov "milli təmayülçülükdə" ittiham edilir, 1923-cü ilin əvvəlində SSRİ MİK sədrlərindən biri seçilərək Moskvaya çağırılır. Zahirən vəzifəsinin Kremlə qədər yüksəldilməsi kimi görünən bu təyinat mahiyyət etibarı ilə onun Azərbaycandan sürgün edilməsinə bərabər idi. Məhz bu konteksdə onun yaxın silahdaşlarının təqib edilməsi labüd və qaçılmaz idi.

N.Nərimanovun **şəxsi katibi vəzifəsində çalışdığına görə** Şamil Mahmudbəyov da Bakı bolşeviklərinin qara siyahısına düşməli idi. Sadəcə bunun geci-tezi vardı. Şamil bəyi təhlükələrdən bir qədər uzaq olmaq üçün Moskvaya gəlməsi də

onu xilas etmir. O, getdikcə daralan təqiblərin halqasını hiss etdiyi üçün Moskvadan uzaqlaşır. **1933-cü ildə Qırmızı Professura İnstitutunun Qorki filialına daxil olur. 1936-cı ilin fevral ayında bu filialın kollektivini «antisovet təbliğatçıları» adı altında həbs edirlər.** Şamil bəyin sonrakı taleyindən məlumat yoxdur. Deyilənlərə görə, 1937-ci ildə güllələnmişdir.

**70 illik yubileyi ilə əlaqədar 1969-cu ildə «Bakı» qəzetində onun ictimai dövlət xadimi kimi gördüyü işlərdən bəhs edən geniş məqalə verilmişdir.**

Ş.Mahmudbəyov Şuşa şəhərinin İcraiyyə Komitəsinin sədri işləyərkən 1923-cü ildə ***Mehmandarova soyadlı Məhbubə*** xanımla evlənir. Məhbubə xanımın atası Şuşada məşhur həkim olmuşdur. Onun adına indi xəstəxana və küçə adları vardır.



***Məhbubə xanım***

**Məhbubə Kərim bəy qızı Mahmudbəyova Azərbaycanın ilk ali təhsilli həkimi Kərim bəy Mehmandarovun və İran şahzadəsi Zəri xanım Qacarın qızıdır.** 1902-ci ildə Şuşada doğulub. Mehmandarovlar böyük nüfuz sahibi idilər və bütün Qarabağda ziyalı bir nəslin təmsilçilər kimi məşhur idilər. O, qızlar gimnaziyasında təhsil almış, sonra isə Bakı Tibb İnstitutunun ginekologiya fakültəsini bitirmişdir. Onun professor kimi onlarla gənc kadrların yetişməsində müstəsna rolu vardır. Lakin Məhbubə xanımın da həyatı dəbdəbələrdən uzaq olmuş, 37-ci illərin repressiyaları onu da taleyin ağır sınaqlarına çəkmişdir.

Əri Şamilin həbsi onun üçün gözlənilməz olur. O qadınlığına və zəmanənin sərtliyinə baxmayaraq ərinin xilas edilməsi

üçün bütün imkanlarından istifadə edir. Qohumları, yaxınları ilə məsləhətləşir, bütün ümidsizliklərə baxmayaraq bircə an da inamını itirmir.

Şamilin həbs olunmasının bir neçə səbəbi ola bilərdi. Çünki o, 1930-cu ildə **Marksizm-Leninizm Qırmızı Professura İnstitutuna qəbul olduqdan** sonra 1931-1932-ci illərdə o institutun yataqxanasında Azərbaycan KP MK katibi A.Q. Qarayevlə bir otaqda yaşayır. Xəlil bəy xatirələrində qeyd edir ki, "qardaşımın Qarayevlə tanışlığı biz 3 qardaşa çox baha başa gəldi. Biz məhz Qarayevlə tanış olmaqda ittiham edilirdik. Mənim qardaşım Kamil isə çox güman ki, həbsdə işgəncələrə dözməyərək, istintaq zamanı ifadə vermişdi ki, Qarayev tərəfindən Moskvada əksinqilabi millətçi təşkilatla casusluğa cəlb edilib. 30-cu illər 37-ci illərdən ciddi fərqlənirdi və hələ ki, insanlara sonralar şahidi olduğumuz hadisələrdəki kimi amansız divan tutmur, kütləvi qırğınlar aparmırdılar. Qardaşım 1932-ci ildə Moskvadan Qorki şəhərinə yola düşür və Marksizm-Leninizm İnstitutunun (MLİ) filialına qəbul olur. Tələbəlik illərində Şamil institut partiya təşkilatının katibi olur. 1935-ci ilin 31 dekabrında institutun direktoru onu yeni ili birlikdə qeyd etmək üçün evlərinə dəvət edir. Aradan 10 gün keçməmiş "Pravda" qəzetində belə bir məqalə dərc edilir ki, Qorki şəhərindəki MLİ – nın filialında başda institutun direktoru olmaqla əksinqilabi trotskist təşkilatının üstü açılmışdır. Bu təşkilatın üzvləri sırasında başqa adamlarla yanaşı qardaşım Şamilin də adı var idi. **Məhbubə xanım ərinin arxasınca Qorkiyə kimi gedib çıxır və onun işinə yenidən baxılması üçün çalışır. Saysiz-hesabsız müraciətlər edir.** Yalnız aldığı rədd cavabları onu geri qayıtmağa məcbur edir. 1937-ci ilə kimi Şamildən ara-sıra xəbərlər çatırdı, gah eşdirdik ki, guya onu istintaqa Bakıya göndəriblər, gah aylarla əlləşsək də bircə kəlmə belə öyrənmək mümkün olmurdu. Bəzən də xəbər gəlirdi ki, o da digər kommunistlərlə birlikdə güllələnib".

Uzun illər ərindən xəbər bilməyən Məhbubə xanım elmə,

tədqiqatlara, işində irəli getməyə çalışan bir həkim qinekoloq kimi mehrini peşəsinə salır. Həyatın çətinliklərinə mətinliklə sinə gərən bu qadın qalan ömrünü sənətinə və övladına həsr edir. Peşəsində professor elmi rütbəsinədək yüksəlir. **Tibb İnstitutunda akuşer-qinikologiya kafedrasının müdiri,** müəllimlər və tələbələr cəmiyyətinin sədri, respublika mama-ginekoloqları elmi cəmiyyətinin sədri, çoxlu sayda məqalələrin müəllifi idi. **Əməkdar həkim fəxri adına layiq görülmüşdü.** Qızını cəmiyyət üçün ləyaqətli və dəyərli insan kimi böyüdür. Onu həyatın istənilən çətinlikləri qarşısında ruhdan düşməməyi, biliklərin kəşf olunmayan zirvələrinə doğru inamla getməyi və bir də nə baş verməsindən asılı olmayaraq ataları, əmiləri və babaları ilə fəxr etməyi öyrədir. **Məhbubə xanım Bakıda dünyasını dəyişəndə 73 yaşı var idi.**

***Şamil Mahmudbəyovun qızı Elmira*** xanım 1924-cü ildə Bakıda anadan olmuşdur. O dünyanı dərk edəndə atasını nüfuzlu, ölkə üçün dəyərli bir şəxs kimi gördü. Anası ilə qürrələnər, atası ilə fəxr edərdi. Məktəbdə uşaqlar arasında biliyi, ağlı ilə seçilərdi. Lakin 37-ci illərin ölüm kabusu yaxınlaşdıqca hamını bürüyüb vahiməyə salan bolşevik xofu 12-13 yaşlı Elmiradan da yan ötmədi. Ölkədə illər boyu ad çıxaran, əməyi, biliyi ilə vətənə xeyir verən, millətini, xalqını sevən ziyalılar xalq düşməni elan edilərək həbs edilir, işgəncələrə məruz qalır, güllələnir, ən yaxşı halda isə sürgün edilirdilər.

Atasının, əmilərinin və onlarla başqa qohumlarının bolşevik qəzəbinə tuş gəlməsi balaca qızın da taleyində izsiz ötüşmədi. Ona Sovet İttifaqının qardaşlığa, bərabərliyə çağıran siyasətinin fonunda məhz bu ideyaların daşıyıcılarının xalq düşməni elan edilməsini anlamaq çətin idi. Bəlkə də ona güc verən, ailə faciələrindən aydın məqsədlərə doğru qaldıran anasının nikbinliyi idi.



Elmira xanım Şamil qızı

Elmira xanım Tibb İnstitutunu bitirir, **elmlər namizədi alimlik dərəcəsi alır.** İxtisasca kardioloqdur, Tibb inistinunun dosentidir. Elmira iqtisad elmləri namizədi, müxtəlif məsul vəzifələrdə çalışmış Əziz Əzizovla ailə həyatı qurmuşdur. İki oğlu olub. Bu gün də Elmira xanımın **iki nəvəsi onun anası Məhbubə xanımın və atası Şamilin adlarını vüqarla, ləyaqətli bir nəslin davamçıları kimi daşıyırlar.**

### *Həbib bəyin qızı Sona xanım Mahmudbəyova*

**Sona xanım 1900-cü ildə Bakıda anadan olmuşdur.** 1918-ci ildə Marin qadın gimnaziyasını bitirmişdir. Satıcı işləmişdir. 1964-cü ildə vəfat etmişdir.

## *Həbib bəyin oğlu Kamil Mahmudbəyov*

**Kamil 1902-ci ildə Bakıda doğulmuşdur.** Bakı realnı məktəbdə təhsil almış, 1930-cu ildə Moskva Plan İnstitutuna daxil olmuşdur. Şərq musiqisinin bütün alətlərində, o cümlədən kamançada çala bilirdi. 1937-ci ilin noyabr ayında onu həbs edirlər. Sonrakı taleyindən xəbər-ətər yoxdur.

## *Həbib bəyin oğlu Xəlil Mahmudbəyov*



Xəlil bəy Mahmudbəyov

**Xəlil** bəy **1904-cü ildə Bakıda anadan olmuşdur.** 1923-cü ildə Bakı realnı məktəbi bitirmiş, 1925-ci ildə Politexnik İnstitutuna daxil olmuş, 1930-cu ildə kənd təsərrüfatı mütəxəssisi fakültəsini bitirmişdir. 1929-ci ildə Kirovabad şəhərində traktorçular kursuna başçılıq etmiş və Dəlməmməd MTS-in yaradıcısı olmuşdur. 1930-cu ildə Moskvada Timirzayev adına Kənd Təsərrüfatı Akademiyasının aspiranturasına daxil olur. 1937-ci ildə onu dövlətə qarşı çıxdığına görə həbs edirlər və Komi ASSR-ə göndərir, daha sonra Qazaxıstana sürgün edirlər.

Xəlil bəyin xatirələrində həbsi barədə soyuqqanlıqla yazır: "1937-ci ildə bədbəxtliyin qara buludları ailəmizin başının üstünü gözlənilmədən aldı. Həbslərin zərbəsi qəfil çaxan ildırımlara bənzəyirdi. Noyabrın 22-də gecə Moskvada qaldığımız mənzilə qəfildən DİXK-nin (NKVD) əməkdaşları soxuldular. Axtarış keçirsələr də heç nə tapmadılar. Həbs olunmağımız barədə verilən orderi göstərərək qardaşımla məni ayrı-ayrılıqda Lubyankaya apardılar. Nə mən, nə də ki, qardaşım Kamil bu gözlənilməz həbsin səbəblərini anlaya bilmədik.

Mən elə fikirləşirdim ki, bu səhvdir, anlaşılmazlıqdır və aradan 5-10 gün keçən kimi hər şey yoluna düşəcək, bizi buraxacaqlar".

Lakin Xəlil bəy yanılırdı. Onun düşündüyü 5-10 gün illərə çevrildi. Lubyankadan o əksinqilabi millətçi təşkilatın üzvü kimi ittiham edilərək məhbəsə atılır, yalnız 1945-ci ildə Xanlar rayonuna göndərilir. Bir neçə ildən sonra yenə həbs edilərək sürgün edilir. O yalnız 1954-cü ildə azadlığa çıxır.

1954-cü ildə sürgündən qayıdır və 1956-cı ildə bəraət alır, 1957-ci ildə Moskvaya köçür. O, orada Azərbaycan SSR-in Baş Təchizat İdarəsinin Moskva şöbəsinin rəisi işləyir.

***Böyük qızı Kəbutər Mahmudbəyova*** 1951-ci ildə Bakıda anadan olmuşdur. 1974-cü ildə Lomonosov adına Moskva Universitetinin filologiya fakültəsini bitirmişdir.

***Oğlu Həbib Mahmudbəyov*** 1952-ci ildə Qazaxıstan SSR-in Volodoqovka kəndində doğulmuşdur. Həmin vaxtlar onlar sürgün həyatı yaşayırdılar. Həbib Moskva Neft Kimya İnstitutunu 1974-cü ildə bitirmişdir.

## *Üçüncü budaq*

### Ələsgər bəy İbrahim Xəlil oğlu Mahmudbəyov

***Ələsgər bəy* 1866-cı ildə Şamaxıda anadan olmuşdur.** 1885-ci ildə Moskvaya gəlir və indiki Bauman adına Texniki Məktəbə daxil olur. Oranı bitirdikdən sonra Bakıda milyonçu Z.Tağıyevin tikiş fabrikində mühəndis işləyir. Ələsgər bəy savadlı mühəndis idi. O, Tiflisdə tikiş fabriki açır. Əvvəl işləri yaxşı gedirdi. Lakin 19-cu ildə olan hadisələrlə əlaqədar o, birdəfəlik olaraq ailəsi ilə birlikdə Türkiyəyə köçür və ömrünün sonuna kimi İstanbulda yaşayır. 84 yaşında vəfat edib. Onun arvadı Aftab xanım Tiflis diyarının Borçalı qəsəbəsindəndir. Ələsgər bəyin böyük qızı Alya 1905-ci ildə Tiflisdə anadan olmuşdur. Alman məktəbini bitirmişdir. Əmisi oğlu **Məmmədrza Səid Əliyevə** ərə getmişdir. M.Əliyev 1919-cu ildə Parisə gedir və hüquq təhsili alır. 1923-cü ildə oradan birbaş əmisi Ələsgərin yanına - Türkiyəyə gedir. Məmmədrzanın bacısı Ziba xanımın dediyinə görə, Ələsgərin ölümündən sonra ailəsi Alya ilə birlikdə Qahirəyə köçüb orada yaşayırlar. Kiçik qızı **Lelya Mahmudbəyova 1912-ci** ildə Tiflisdə anadan olmuşdur. Deyilənlərə görə o, çox gözəl olub. Valideynləri ilə birlikdə o da Türkiyədə yaşayır və varlı bir ərəbə ərə gedir. Valideynlərinin ölümündən sonra o, bacısı ilə Qahirəyə gedir.

## *Dördüncü budaq*

### İbadulla bəy İbrahim Xəlil bəy oğlu Mahmudbəyov

***İbadulla bəy* 1868-ci ildə Şamaxıda anadan olmuşdur.** Bakı realnı məktəbdə təhsil almışdır. Bir müddət məhkəmə

pristavı işləmişdir. İbadulla bəy əməksevər, özünə hörmət qazanan bir adam idi. 1914-cü ilə kimi bu vəzifədə çalışmışdır. 73 yaşına kimi işləyib. O, sonuncu illəri internat məktəbində başa vurmuşdur.

***Arvadı Sima xanım (Axundova soyadlı)*** Şamaxıdan idi. Son dərəcə mülayim, istiqanlı və kübar qadın olub. Atası Heydər bəy Axundov olub. Onun 4 oğlu və 3 qızı var idi. Onlar hamısı ali təhsilli idilər. Yalnız Sima xanım nədənsə oxuya bilməmişdi. O, 1943-cü ildə dünyasını dəyişmişdir.

***İbadulla bəyin Surə, Şahlar, Sara, Əli və Bahadur adında 5 övladı olub.***

***Surə İbadulla bəy qızı Mahmudbəyova*** **1900-cü ildə** Bakıda dünyaya göz açıb. Marin qadın gimnaziyasını bitirib. **1922-23-cü illlərdə Dövlət Universitetinin tibb fakültəsinə** daxil olur və 1927-ci ildə oranı bitirərək göz həkimi ixtisasına yiyələnir. Onun həyatı heç də yaxşı olmur. 1937-ci ildə əri İlyas Mədətov həbs olunur. Surə 2 kiçik yaşlı qızı ilə tək qalır. Əri yalnız 1953-cü ildə qayıdır. Lakin Surə ilə yaşamır.

***Bəhram İbadulla oğlu Mahmudbəyov*** **1903-cü ildə** Şamaxıda anadan olmuşdur. **Seyfullanın** böyük oğludur. Bakı realnı məktəbi bitirib. Atası erkən vəfat etdiyi üçün ailənin ağırlığı onun üzərinə düşdüyündən ali təhsilini yarımçıq qoyur. O, bütün ömrünü qardaş və bacılarına həsr edir, onları böyüdür və tərbiyə edir.

***Azad İbadulla oğlu Mahmudbəyov*** **1905-ci ildə** Şamaxıda doğulmuşdur. Bakı realnı məktəbində oxumuşdur. Müxtəlif idarələrdə çalışmışdır. 1968-ci ildə vəfat etmişdir.

***Şahlar İbadulla oğlu Mahmudbəyov*** 1902-ci ildə Şamaxıda anadan olmuşdur. Hərbi məktəbə daxil olur. Lakin oranı qurtara bilmir. Müxtəlif idarələrdə işləyir. O, çox şən adam idi. Mahmudbəyovlar ailəsində ona xüsusi hörmət bəslənilib. O, Böyük Vətən müharibəsində ölüb. Onun həyat yoldaşı Əntiqə Beybudovanın 2 qızı olub. Rəfiqə və Şəfiqə Bakıda dünyaya gəliblər.

***Sara İbadulla bəy qızı Mahmudbəyova*** 1909-cu ildə

Bakıda anadan olub. Qızlar seminariyasını bitirib. 1930-cu ildə Azərbaycan Sənaye İnstitutuna daxil olur. 1941-ci ildə Rəcəb Çərkəzzadəyə ərə gedir. Lakin, Rəcəbin guya türk olduğunu iddia edirlər. Bununla da onları 1937-ci ildə sürgünə göndərirlər. Mustafa və Nazim adlı oğlanları olub. 1954-cü ildə sürgündən qayıdırlar. Rəcəb Çərkəzzadə 1973-cü ildə vəfat etmişdir.

Böyük oğlu ***Mustafa Çərkəzzadə*** 1942-ci ildə anadan olmuşdur. Bakıda yaşayır. Evlidir.

***Kiçik oğlu Nazim*** *1946-cı* ildə anadan olmuşdur. O, Kiyev Aviasiya İnstitutunu bitirmişdir. Bakıda yaşayır.

***Əli İbadulla oğlu Mahmudbəyov*** 1910-cu ildə Bakıda anadan olub. Bütün Mahmudbəyovlar kimi o da Bakı realnı məktəbdə oxumuş, 1937-ci ildə Azərbaycan Sənaye İnstitutunu bitirmişdir. 1955-ci ildə əslən şamaxılı olan Tahirə Əzizbəyova ilə ailə həyatı qurur.

***Bahadur İbadulla oğlu Mahmudbəyov*** 1923-cü ildə Bakıda anadan olmuşdur. O da Şahlar kimi qısa ömür sürmüşdür. 1941-ci ildə müharibəyə gedir və itkin düşür.

## *Beşinci budaq*

### Seyfulla İbrahim Xəlil bəy oğlu Mahmudbəyov

***Seyfulla*** **1872-ci ildə Şamaxıda anadan olmuşdur**. O, ailənin sonbeşiyi idi. Qeyri-müəyyən səbəblərə görə o, təhsil almamışdır. Buna baxmayaraq, o, ana dilində yazmağı və oxumağı bacarırdı. O, Şamaxıda böyük qardaşı Əsədullanın yanında qalaraq ticarətlə məşğul olur. Lakin Şamaxı yandırıldıqda Seyfulla qardaşı Əsədulla bəylə Bakıya köçürlər. Seyfulla bəy xəstəlikdən əziyyət çəkir və 7 azyaşlı uşağını yetim qoyaraq vəfat edir.

***İskəndər Seyfulla oğlu Mahmudbəyov*** **1912-ci ildə Şa-**

**maxıda anadan olmuşdur.** 1937-ci ildə Politexnik İnstitutunun geoloq fakültəsini bitirmişdir. O, ömrü boyu geoloq işləmişdir.

***Nəsibə Seyfulla qızı Mahmudbəyova*** **1908-ci ildə Şamaxıda** anadan olmuşdur. 1930-cu ildə Pedaqoji İnstitutu bitirmişdir. O, İnşaatçı-mühəndis Vəli Vəlizadə ilə evlənmişdir.

## *Altıncı budaq*

***Sübhi xanım İbrahim Xəlil bəy qızı Mahmudbəyova***

***Sübhi xanım*** **1874-cü ildə Şamaxıda anadan olmuşdur.** Səid Əliyevə ərə getmişdir. Sübhi xanımın dörd oğlu və bir qızı olub.

***Birinci oğlu Ağa Seyid Əliyev*** **1896-cı ildə** anadan olub, çar ordusunda zabit rütbəsində xidmət edib. **1922-ci ildə** dəmiryol qəzasında həlak olmuşdur.

***İkinci oğlu Məmmədrza Seyid Əliyev*** **1898-ci ildə doğulub.** Bakı gimnaziyasını bitirdikdən sonra Parisə göndərilir və hüquq fakültəsinə daxil olur. Lakin o, Vətənə qayıtmır. Deyilənlərə görə o, arvadı ilə Qahirədə yaşayıb.

## *Yeddinci budaq*

### Mahmud bəy İbrahim Xəlil bəy oğlu Mahmudbəyov (1849-1928)



Mahmudbəyovlar ailəsinin görkəmli nümayəndələrindən biri də Mahmud bəy olmuşdur. **Mahmud bəy İbrahim Xəlil bəy oğlu 1849-cu ildə Şamaxı şəhərində** anadan olmuşdur.

O, ilk təhsilini evdə - atasından almış, sonra məhəllə məktəbində oxumuşdur.

Burada təhsilini başa vuran Mahmud bəy Şamaxıda fəaliyyət göstərən **«Məclis» məktəbində də oxumuşdur. Ş,M.Qənizadə, M.Ə. Sabir, M.Mahmudbəyov, M.Əfəndiyev və b. «Məclisin»** ilk şagirdlərindən olmuşdur. Böyük pedaqoq A.O.Çernyayevskinin vasitəsilə Mahmud bəy Qori müəllimlər seminariyasına dəvət olunur. İki il hazırlıq kursunda oxuduqdan sonra seminariyanın birinci sinfinə qəbul olunur və 1883-cü ildə oranı müvəffəqiyyətlə başa vurur. İlk əvvəl Yelizavetpol quberniyasının Padar, Ağcabədi, sonra Ağdam, Şamaxı qəzasının Dilman, Kalva kənd məktəblərində çalışmışdır.

Bu illər ərzində o, el ədəbiyyatı nümunələrinin toplanılması sahəsində xeyli iş görmüşdür. O, «Rəhbər» adlı pedaqoji jurnalını 1905-ci ildə nəşr etdirmişdir.

M.Mahmudbəyov A.Səhhətlə birgə **ilk dəfə M.Ə.Sabirin «Hophopnamə»sini** çap etdirib. Nəhayət, Mahmud bəy Bakı şəhərində pedaqoji fəaliyyətə başlayır. Əvvəl 2-ci rus-tatar məktəbinə müəllim, sonra isə direktor təyin edilir. Bu illər ərzində o, pedaqoji sahədə yorulmadan çalışmışdır. 1919-cu ildə Maarif Nazirliyi onu Bakı quberniyasının IV rayonu üzrə inspektor təyin edir. O, Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra da Bakı şəhəri və onun kəndlərində məktəblərin açılmasında, yeni dərs proqramlarının tərtib olunmasında yaxından iştirak edir.

Mənalı ömrünün 40 ilini Azərbaycan maarifinin qurulması, çiçəklənməsinə həsr edən görkəmli pedaqoq Mahmud bəy 1928-ci ildə Bakı şəhərində vəfat etmişdir. M.Mahmudbəyovun nəvə-nəticələri hazırda Bakı şəhərində yaşayırlar.Onun yaradıcılığı haqqinda pedaqoq B.Nəsirov namizədlik disertasiyası yazmışdır.**Filalogiya elmleri doktoru S.Qeniyev vaxtı ilə böyük maarifçinin Sirvan ərazisindən toplayıb çap etdirdiyi folklor örnəklərini yenidən nəşrə hazirlamışdır.**

## Ağalar bəy Mahmud bəy oğlu Mahmudbəyov (1884-1938)



*Ağalar bəy Mahmudbəyov*

***Ağalar bəy* 1884-cü ildə Şamaxıda ziyalı ailəsində anadan olmuşdur.** O, Bakı şəhərində realnı məktəbi bitirdikdən sonra böyük xeyriyyəçi Zeynalabdin Tağıyevin maddi köməyi ilə Almaniyaya göndərilmişdir. Orada Darm-ştadt Ali Texniki Məktəbində təhsil almışdır. Ağalar bəy 1908-ci ildə institutu qurtardıqdan sonra elektrotexnik diplomu alır. Vətənə dönən Ağalar bəy milyonçu Ş.Əsədullayevin «Neft mədəni»nin müdiri işləmişdir. Bir müddətdən sonra o, həmyerlisi A.Axundovla Bakıda «Zümlar» (işıq) kontoru təşkil edir.

Ağalar bəy 1920-ci ildən 1930-cu ilə kimi Azərbaycan Ali Xalq Təsərrüfatı Şurasında işləmişdir. O, 1931-ci ildə həbs olunaraq Sibirə göndərilir. Orada «Belomor-Baltik» kanal tikintisində bütün elektrik işlərini görür. 1936-cı ildə həbsdən azad olunub Bakıya dönəndən sonra Keşlə qəsəbəsində elektrik sahəsində fəaliyyət göstərmişdir. 1938-ci ildə Bakı şəhərində vəfat etmişdir. Ağalar bəyin İsmayıl adlı bir oğlu olmuşdur...

## Səkkiznici budaq

### Ələsgər bəy İbrahim Xəlil bəy oğlu Mahmudbəyov (1887-1968)

***Ələsgər bəy*** **1887-ci ildə Şamaxıda ziyalı ailəsində doğulmuşdur.** O, Bakı realnı məktəbi bitirəndən sonra Peterburq Politexnik İnstitutunda təhsil almışdır. Ələsgər bəy təhsilini başa vurub Bakıya dönür. Burada H.Z.Tağıyevin toxuculuq fabrikində işləmişdir. Ələsgər bəy 1908-ci ildə Tiflisə köçmüşdür. Orada ictimai fəaliyyətə başlayır və Qafqaz-Müsəlman xeyriyyə cəmiyyətinin işində yaxından iştirak edir.

Ələsgər bəy **Azərbaycan Milli İstiqlal Bəyannaməsini imzalayan 26 nəfər ziyalıdan biridir**. 1918-ci ildə Türkiyəyə köçüb, bir müddət Adana şəhərində toxuculuq fabrikinə başçılıq edib. Ələsgər bəy neçə il sonra Türkiyədən Qahirə şəhərinə köçüb və ömrünün sonuna kimi orada yaşamışdır. O, 1968-ci ildə 93 yaşında Qahirədə vəfat etmişdir. Mahmudbəyovların nəvə-nəticələri indi Qahirə şəhərində yaşayırlar.

**Haşiyə:** ***Mahmud Ağanın nəsil şəcərəsində yerini tam müəyyənləşdirə bilmədiyimiz aşağıdakı şəxslər haqqında topladığımız məlumatları təqdim etməyi də vacib saydıq.***

### Mahmudbəyov Zərif bəy Əsəd bəy oğlu (1895-1972)

**1895-ci ildə Şamaxı şəhərində Sarıtorpaq məhəlləsində** anadan olmuşdur. Bakı şəhərində realnı məktəbi bitirib, 1913-cü ildə Kiyev şəhərində Tibb İnstitutuna daxil olmuşdur. 1919-cu ildə institutu nüvəffəqiyyətlə başa vurmuş və doğma vətəninə dönmüşdür. Zərif bəy ilk əvvəl Quba ali ibtidai

məktəbində, sonra Quba mahal həkimi vəzifəsində çalışıb. 1920-ci ildən Bakı şəhərində həkim işləmişdir. Elmi yaradıcılıqla məşğul olmuş, Tibb İnstitutunda müəllim kimi fəaliyyətə başlamışdır. Tez bir zamanda dissertasiyasını müdafiə edib tibb elmləri namizədi alimlik dərəcəsi (1945) almışdır. Zərif bəy 1959-cu ildə doktorluq dissertasiyasını müdafıə etmişdir. Tibb elmləri doktoru, professor Zərif bəy uzun illər institutda Yoluxucu xəstəliklər kafedrasının müdiri vəzifəsində fəaliyyət göstərmişdir. Görkəmli alim, əli şəfalı həkim 1972-ci ildə Bakı şəhərində vəfat etmişdir. Alimin nəvə-nəticələri hazırda Bakı şəhərində yaşayır.

## Böyük bəy Mahmud bəy oğlu Mahmudbəyov (1902-1984)

Görkəmli pedaqoq Mahmud bəy Mahmudbəyov **1898-ci ildə** şamaxılı **Molla Məcidin qızı Gülrux xanımla** ailə qurmuşdur. Onların bir neçə övladı olmuşdur.

Övladlarının böyüyü **Böyük bəy 1902-ci ildə** Şamaxı şəhərində anadan olmuşdur. Bakıda orta məktəbi başa vurduqdan sonra o, atasının məsləhəti ilə Tiflis İnstitutuna qəbul olunur. İnstitutu əla qiymətlərlə bitirdikdən sonra aspiranturada oxuyur. O, 1939-cu ildə tibb elmləri doktoru alimlik dərəcəsi alır. Bir il sonra - 1940-cı ildə professor vəzifəsinə seçilir.

B.Mahmudbəyov 1941-ci ildə cəbhəyə yollanır, 1943-cü ildə döyüşdə yaralanır və ordudan təxris olunur. O, yenidən öz sənətini davam etdirir. **B.Mahmudbəyov 1947-ci ildə ATİ-nin Hospital cərrahiyə kafedrasının müdiri seçilmiş** və 1977-ci ilə kimi həmin vəzifədə çalışmışdır. Onun elmi rəhbərliyi altında əlli nəfərdən çox mütəxəssis tibb elmləri namizədi və doktoru adına layiq görülmüşdür.

Professor Böyük bəy Mahmudbəyov respublikamızın elmi, ictimai-siyasi həyatında yaxından iştirak etmişdir. Alim irinli cərrahi xəstəliklər, qaraciyər və öd yollarının patologiya-

sına və s. problemlərinə həsr edilmiş yüzdən çox əsərin müəllifidir.

Professorun elmi fəaliyyəti bir çox mükafatlara – **«Lenin»** ordeni, **Qırmızı Əmək Bayrağı** ordeni, medallar, fəxri fərman və diplomlara layiq görülmüşdür. Professor Böyük bəy Mahmudbəyov **1984-cü ildə Bakı şəhərində vəfat etmişdir.** Alimin nəvə-nəticələri Bakı şəhərində yaşayır.

## Həbibulla Səmədzadə
## (1908-1948)

**Həbibulla Səmədzadə 1908-ci ildə Şamaxının Sarıtorpaq məhəlləsində anadan olmuşdur.** O, böyük romantik şair Hadinin bacısı Əsmanın oğludur. İlk təhsilini Şamaxıda almışdır. Sonralar APİ-nin filologiya fakültəsini bitirmişdir. Bir müddət Bakıda müəllimlik etmişdir. 1945-1946-ci illərdə Pedaqoji İnstitutda filologiya fakültəsinin dekanı vəzifəsində işləmişdir.

H.Səmədzadə S.Ə.Şirvani, M.Ə.Sabir yaradıcılığının tədqiqi ilə ciddi məşğul olmuşdur. Filologiya elmləri namizədi **H.Səmədzadə 1948-ci ildə vəfat etmişdir.**

**Haşiyə:** O, qədim əlyazmaları yaxşı oxuyan mütəxəssislərdən olmuşdur. Məsələn, şair Ə.Qarabağlının 1804-cü ildə folklorla bağlı bir əlyazma tərtib etmişdir. Leninqrad Şərqşünaslıq İnstitutunun əlyazmaları fondunda saxlanılan nümunə və Ə.Qarabağının özü haqqında vaxtilə ədəbiyyatşünaslarımızdan S.Mümtaz və Həbibulla Səmədzadə məlumat vermişdir.

## Akademik Məmmədağa Şirəliyev
## (1909-1982)


Ak. Məmmədağa Şirəliyev

Şirəliyev Məmmədağa Şirəli oğlu 1909-cu ildə Şamaxı şəhərində, ziyalı ailəsində doğulmuşdur. Şamaxıda əvvəl mollaxanada, sonra şəhər məktəbində təhsil almışdır. 1920-ci ildən ailəsi ilə Bakıya köçür. Məmmədağa Bakıda 18 saylı II dərəcəli orta məktəbi bitirdikdən sonra ADU-nun Şərq fakültəsinin dilçilik şöbəsinə qəbul olmuşdur. O, universitetdə təhsilini başa çatdırdıqdan sonra iki il Ağdam rayonunda dil-ədəbiyyat müəllimi işləmişdir. 1933-cü ildə Bakıya dönərək, APİ-nin aspiranturasına daxil olmuş və orada çalışmışdır.

Bir müddət sonra dil-ədəbiyyat fakültəsinə dekan müavini təyin olunur. M.Şirəliyev 1941-ci ildə «Bakı dialekti» adlı namizədlik dissertasiyasını tamamlayır**. «Elmi şura əsərə yüksək qiymət verərək ona elmlər namizədi yox, birbaşa filologiya elmləri doktoru alimlik dərəcəsi vermişdir».** Böyük Vətən müharibəsi illərində o, ADU-da işləməyə başlamışdır. Tez bir zaman içində o, ADU-nun filologiya fakültəsinə dekan müavini, 1945-ci ildə universitetin rektor müavini işləmiş və Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. Görkəmli alim 1953-1954-cü illərdə Bolqarıstanda Sofiya Universitetində işləmişdir. 1957-ci ildə Türk dili cəmiyyətinin VIII qurultayında iştirak etmişdir.

Görkəmli alim bir çox vəzifələrdə - Nizami adına Ədəbiyyat və Dil İnstitutunun dialektologiya şöbəsinin müdiri, sonra institut direktoru, 1968-ci ildən EA-nın ictimai elmlər bölməsinin akademik-katibi vəzifəsində çalışmışdır. O, 1962-ci ildə Azərbaycan Elmlər Akademiyasının **akademiki seçilmişdir**.

Son vaxtlarda o, Dilçilik İnstitutunun direktoru vəzifəsində işləmiş, yüzdən artıq kitab-dərslik, monoqrafiya və məqalənin müəllifi olmuşdur. Onun əsərləri bir çox dillərə tərcümə olunmuşdur.

Azərbaycanda dialektologiya məktəbini və SSRİ-də "Türkologiya" jurnalını yaradan, onun baş redaktoru olan, türkologiyanın problemləri ilə bağlı tədqiqatlar aparan, orta məktəb dərslikləri yazan akademik Məmmədağa Şirəliyev **1980-ci ildə** Bakı şəhərində vəfat etmişdir. Akademikin doğmaları hazırda ölkəmizin paytaxtında yaşayırlar.

**Haşiyə:** Akademik M.Şirəliyevin bir qız övladı var. Yetirmələrinin çoxu akademikə əsl oğulluq etmişdir. Akademik A.Axundov, prof. T.Hacıyev, prof. M.Adilov, prof Ə.Mahmudov, İ.Məmmədov, prof. Q.Paşayev, M.Adilov. Akademikin sevimli tələbəsi prof. Q.Paşayev ustadına həsr etdiyi məqaləsində yazır: "Fəxri xiyabanda elmi rəhbərim M.Şirəliyevin məzarı önündə dayanır, məni elm aləminə gətirdiyinə, görə minnətdarlığımı bildirirəm."Sanki o, zəhmətini itirmədiyimə::, görə razılığını bildirir. **(18-152)**

## Mahmud Əliyev
## (1908-1958)



**Haşiyə:** Mahmud Ağanın qızı Bəyim xanımın Hacı bəy, Əmiraslan bəy, İsmayıl bəy adlı üç övladı olub. İsmayıl bəyin də Mahmud, Ənvər adlı oğlanları, Süsən, Tamara adlı qızları olmuşdur.

Mahmud İsmayıl bəy oğlu Əliyev (Cavad Ağa - Əhməd Sultan, Mahmud Ağa-Bəyimxanım-İsmayıl bəy) **1908-ci il Şamaxının "İmamlı"** məhəlləsində anadan olmuşdur. O, Bəyim xanımın – Mahmud Ağanın qızının nəvəsi olmuşdur.

Mahmud Əliyev haqqında məlumat ilk dəfə ASE IV cilidi (Bakı-1980) sonra **«Diplomatiçeskiy slovar»,** A.Qromıko, A.Kobaleva… 3-tom (Nauka», 1985) kitablarında verilmişdir. Bununla yanaşı, görkəmli alim barədə şair İ.Etibar «Məndən elə nə qaldı» kitabında və Ə.Çingizoğlu **«Soy» dərgisində** (Bakı №2, 2010) çap etdirdiyi yazıda xeyli məlumat vermişdir.

Ailələri 1918-ci il faciəsindən sonra Bakı şəhərinə köçmüşdür. Mahmud 1926-cı ildə Bakıda orta təhsilini başa vurub, Tibb İnstitutunu bitirib Kəlbəcər və Cəbrayıl rayonlarında həkim işləmişdir. 1937-ci ildə 29 yaşında Azərbaycan SSR xalq səhiyyə komissarı, Tibb Təhsili İdarəsinin rəisi işləmişdir. 1943-cü ildə o, SSRİ xarici işlər komissarının müavini olmuş, bir il sonra ona SSRİ-nin fövqəladə və səlahiyyətli səfiri dərəcəsi verilmişdir. Bu illər ərzində Şərq ölkələri ilə diplomatik görüşlərdə mütəmadi iştirak edir. M.Əliyev 1944-cü ildən

1950-ci ilə kimi, Azərbaycan SSR-nin xarici işlər naziri, 1950-1953-cü illərdə isə səhiyyə naziri vəzifələrində çalışmışdır. O, 1953-cü ildən 1958-ci ilə kimi Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru olmuşdur.

Görkəmli alim, əməkdar həkim, diplomat Mahmud Əliyev 1958-ci sentyabr ayının 24-də 50 yaşında Bakı şəhərində vəfat etmişdir. O yaşadığı ömrün otuz ilini babası Mahmud Ağa kimi xeyirxahlığa - xalqına, dövlətinə həsr etmişdir. Xidmətləri dövlətimiz tərəfindən xüsusi qiymətləndirilmişdir. Belə ki, o, SSRİ və Azərbaycan SSR-in Ali Sovetinə deputat seçilmiş, Qırmızı Əmək Bayrağı ordeni, iki dəfə «Şərəf nişanı» ordeni və müxtəlif medallarla təltif olunmuşdur. Hazırda Bakı şəhərindəki 1 saylı poliklinika M.Əliyevin adını daşıyır.

Mahmud Əliyev iki dəfə ailə qurmuşdur; Qalina Petrova və Anna İsayeva ilə.

**Haşiyə:** Qohumu t.e.d Əli Babayevin dediklərindən: «Gözəl insan, görkəmli alim, diplomat Mahmud Əliyev babamız Mahmud Ağanın qızı Bəyim xanımın qız nəticəsidir. Bizim nəslimizin **çoxu tibb sahəsi** ilə bağlı insanlar olmuşdur. Eləcə də Məhmud Əliyev səhiyyə naziri vəzifəsinə qədər yüksəlmişdir. Özü də dörd - ərəb, fars, alman, rus dillərini yaxşı bilirdi. Çox zaman tərcüməsiz danışıqlar aparırdı… 1947-49-cu illərdə Molotovun müavini işləmişdir. O zaman Ukraynadan Molotovun müavini Qromıko olmuşdur. O, Qromıko ilə yaxın dost idi. Mahmud həmişə Moşkvaya gedəndə Qramıkonun qonağı olardı... Bağırov biləndə ki, onun Moskvada hörməti çoxdur. Odur ki, ondan ehtiyat edir. Bağırov onu Azərbaycana dəvət edir. İlk əvvəl M.Əliyevi Astaraya baş həkim göndərir. Bir müddət sonra onu səhiyyə naziri qoyur... Böyük istedad sahibi olan Mahmud Əliyev cavan -50 yaşında dünyasını dəyişdi... İsmayıl bəyin o biri oğlu Ənvər Əliyev 1912-ci ildə anadan olub, Moskvada təhsil alıb və orada ticarət sahəsində çalışmışdır. Övladları, Mahmud Əliyevin nəvələri - Rüstəm və Emin hazırda Moskvada yaşayırlar»…

## Tofiq Mahmud oğlu Əliyev



*Tofiq Əliyev*

O, babasının adını özünə soyad götürüb. Bir çox həkim baba, əmi və dayılarının sevdikləri sənəti - həkimliyi davam etdirir. İstedadlı kosmetoloq kimi keçmiş sovet məkanında da tanınır. Özü isə fəxrlə deyir: "Babam Mahmud Ağa böyük xeyriyyəçi olub. Onun nəslindən 30 nəfərdən artıq **həkim-alim** olmuşdur. Nəslimizdə çoxları öz övladlarına babamızın, nənələrimizin adını qoymuşlar. Hesablamışam, nəslimizdə **12 Mahmud** və ya **Məmməd adlı insanlar** olub. Mənim də oğlumun birinin adı Mahmuddur. Qızımın adı isə Lalədir. Fəxr edirəm ki, mən Mahmud Ağanın nəticəsiyəm".

# Hacımurad Egizarov



Hacımurad Egizarov Mahmud Ağanın nəsil şəcərəsinə aid olan nadir və yaradıcı şəxsiyyətlərdən biri olub. İncəsənətdə qazandığı uğurlara görə istedadlı səhnə ustası kimi Azərbaycan Respublikasının xalq artisti, Dövlət mükafatı laureatı adlarına layiq görülüb.

O həyatı ilə bağlı vacib məqamları, ömrünün çətin və uğurlu anlarının yaddaqalan xatirələri vərəqləyir:

-Yeddi arxasını ulu babasınadək bilənlər xoşbəxtdirlər. Bu baxımdan biz də keçmişimizlə, soy kökümüzlə öyünürük. Bizə uşaqlıqdan danışardılar ki, qədim Şamaxı xanının nəslindənik, onun birbaşa törəmələriyik. Ulu babam şamaxılı mesenant Məhəmməd Ağanın qohumu tanınmış vəkil, İsmayıl bəy Əliyev isə babam idi.

Əmim xarici işlər naziri idi. Əmim o vaxt mənə Beynəlxalq əlaqələrə institutuna daxil olmağı təklif etdi, çünkü məni öz peşəsinin davamçıları sırasında diplomat kimi görmək istəyirdi. Sənət seçiminə gələndə qohumlarımızdan çoxu həkim idi. Lakin nə əmimin istəyinə yaxın durdum, nə də ki, qohumlarımızın əksəriyyəti kimi əynimə ağ həkim xalatı geyindim. Hamıdan fərqli olmaq, kimsəyə bənzəməməyə çalışdım.

Məktəb illərindən idmanla məşğul olurdum. Aktyor peşəsi ilə yaxından maraqlanmasam da, müxtəlif tamaşalara böyük həvəslə gedirdim, aktyorların maraqlı və fərqli ifa tərzlərindən

zövq alardım. Əslində heç ağlıma da gəlmirdi səhnəni özümə iş yeri kimi seçə bilərəm. Lakin bir də ayıldım ki, teatrın, səhnənin təsiri altına elə düşmüşəm ki, heç geriyə yolum da qalmayıb. Bircə an belə tərddüd etmədən dram dərnəyinə üzv oldum. Sənətə vəsiqəmi isə görkəmli aktyor Ələsgər Ələkbərov verib.

Murad bəy (onu adını Hacımurad yox, qısaca belə də çağırardılar) minnətdarlıq hissi ilə xatırlayır ki, valideynləri onun sənət seçiminə qarışmayıblar, onu sərbəst buraxıblar. Səbəb də bu olub ki, hamının sevimlisi Ələsgər Ələkbərov onun gözəl istedad sahibi olmasına hamını inandıra bilmişdi. Hacımurad bəyin sonsuz sevgi və minnətdarlıq hissi ilə xatırladığı insanlardan biri də onu hamıdan yaxşı başa düşən anası – Mahmud Ağanın nəvəsi idi:

- Anam qeyri - adi bir insan idi. Ailədə qənirsiz dərəcədə mərhəmətli, işində isə ciddi və tələbkar idi. Onun kiminsə qəlbinə toxunmaq, kiminsə haqqını tapdamaq əsl faciə idi. Anam mələkər kimi ədaləti sevər, haqqa xidmət edərdi. Məsul işlərdə nazir müavini vəzifəsinədk yüksəlib. Çox ciddi və ədalətli qadın idi. Arzularımıza qadağa qoymağı, bizi vacib saydığı səmtə aparmağı sevməzdi. Əksinə danışar, məsləhətləşər, həmişə də arzularımıza qol-qanad verməyi bacarardı. Bir də anam mənim ən sadiq tamaşaçı və pərəstişkarlarımdan biri idi. Tamaşalara da, ifa etdiyim rollara ayrı-ayrılıqda qiymət verməyi bacarırdı. Uğurlu ifalarından elə riqqətlə danışardı ki, ürəyim dağa dönərdi. Özü də fərəhlənərdi. Güzəştsiz və tələbkar tamaşaçı kimi səhvlərimi tənqid edirdi, gözəl ifamdan da zövq alırdı, onu aludə edən məqamlardan da ayrıca danışardı.

Hacımuradın həyatında anası Tamara xanımın ayrıca yeri var. Bu xatirələri unutmaq, yaddan çıxarmaq, ya da başqaları ilə əvəz etmək mümkün deyil. O bu illəri belə xatırlayır:

- Müharibədən sonrakı illər anamla mənə çətin idi. Maddi imkanımız o qədər də yaxşı deyildi. Onun qisməti elə gətirdi ki, anam ikinci dəfə ailə qurmağa məcbur oldu. Kiçik qardaşımla

aramızda iki yaş fərq var idi. Biz ögey olsaq da, o mənim qucağımda böyüyüb. O mənə həm qardaş, həm oğul olub. Hazırda firmada çalışır. İki oğul atası, gözəl ailə başçısıdır. Uşaqlığımın, gəncliyimin ağır keçməsinə baxmayaraq, Allahımdan çox razıyam. Məqsədimə çatmaq üçün O, həmişə mənə kömək olub. Gözəl ailəm var. Qızımdan çox razıyam. Ürəyimcə olan işim var. Şübhəsiz ki, hər istəyin yerinə yetməsi qeyri-mümkündür.

### *IX FƏSİL*

## TANRI ILƏ TORPAQ ARASINDA

Bir tərəfdən  muğamın fəlsəfəsindən danışmaq çətindir. Ona görə ki, bu mövzu yetərincə ətraflı və hərtərəfli araşdırılmayıb, zəruri ədəbiyyat da kifayət qədər deyil. Digər tərəfdən asan və maraqlıdır. Ona görə ki, muğamın fəlsəfi dünyasına qədəm qoyanda sanki heç kimə heç vaxt bəlli olmayan sirli planetlər sistemini açırsan və onun mərkəzində odu, istisi və atəşi ilə alışıb yanan əbədi bir Günəşi görürsən. Bu dünyada nə varsa, hamısı sənin üçün və bu dünyaya səyahət etmək istəyən hər bir muğam aşiqi üçün yeni fikir, yeni duyğular, yeni hisslərlə zəngindir. Burada fəlsəfə sözünün hərfi mənasını xatırlamaq yerinə düşərdi. Yunancadan tərcümə edəndə filosofiya sözü müdrikliyə sevgi mənasını verir. Xalq artisti, Milli Konservatoriyanın baş müəllimi ***Zabit Nəbizadə deyir ki, mən muğam oxumağa başlayandan sonra özümü bir qədər müdrik və ağsaqqal kimi hiss edirəm. Muğam ifaçının təbiətini, xarakterini mükəmməlliyə doğru dəyişir. Həmişə musiqi ifaçıdan asılı olub, lakin muğamda əksinədir, əgər o ruhuna hakim kəsilibsə sən özün onun itaətinə düşürsən, ona mükəmməl bir ağlın sahibi kimi baş əyirsən.***

Biz bu kitabda müxtəlif əsrlərdə, muğamın avazına və nuruna toplaşan insanların nikbinliyini, dərin biliklərə və mükəmməlliyə can atmasını gördük. Zamanı ovcunuza alın və sıxın, əsrləri dəqiqələrə çevirib Şamaxının minillik tarixində ən vacib məqamları bir film kimi nəzərdən keçirin. Zəlzələlərdən dəfələrlə yerlə-yeksan olub viran qalan və muğam sədaları altında yenidən ucalıb gözəlləşən nikbin bir şəhər görəcəksiniz. Heyrətamiz səhnədir - insanla təbiətin sonu bitməyən savaşı! Deyirlər ki, Şamaxıda IX əsrdən üzü bəri baş verən zəlzələlərin

sayı 30-u keçib. Zəlzələlər nəticəsində dörd dəfə Şamaxı şəhəri və onun ətrafı özülündən dağılaraq yerlə - yeksan olmuşdur. Bu təbii fəlakətlərin miqyası o qədər böyük olmuşdu ki, qonşu ölkələrin salnaməçiləri belə, baş vermiş faciələri öz əsərlərində təsvir etmişlər. Hətta Avropa ölkələrindən Azərbaycana gələn səyyahlar və səfirlər də gündəliklərində zəlzələlərin miqyası və ölənlər haqqında görüb eşitdiklərini qeyd etmişlər. Mənbələrdə göstərilir ki, XII əsrin axırlarında Şamaxıda baş vermiş dəhşətli zəlzələdə şəhər əhalisinin çoxu məhv olur. 1667-ci ildəki zəlzələ haqqında Azərbaycanda olmuş məşhur holland səyyahı Jan Streys öz gündəliyində yazırdı ki, bu zaman həlak olan təkcə hərbi səfərbərliyə alına biləcək kişilərin sayı 80 mindən artıq olmuşdur. Səyyah həmçinin Şamaxıda olduğu müddətdə də tez-tez kiçik təkanların hiss olunduğunu göstərir. **1859-cu il mayın 31-də baş vermiş zəlzələ nəticəsində Şamaxı böyük maddi və insan itkiləri ilə üz-üzə qalır, çar idarə-üsulunu həyata keçirən quberniya mərkəzi Bakıya köçürülür. Ancaq bu yurd yerinə bağlı olanlar, Şamaxını atıb gedə bilməyənlər onu yenidən qaldırırlar. 1902-ci il yanvarın 31-də yenidən sərt üzünü göstərən zəlzələdə tamamilə dağılan şəhər uzun illər əvvəlki görkəmini geri qaytara bilmir.** Nə Tanrı torpağı əsrlər boy insanların ayağı altından çəkib silkələməklə bir şəhəri sınamaqdan yoruldu, nə də ki, insanlar onu yenidən ucaltmaqdan əl çəkdilər! Bu qüdrətli mübarizənin, təbiətin dağıdıcı qüvvəsi qarşısında sınmamağın sirri bəlkə də Şamaxının muğam beşiyi olmasında deyildimi!

Bəşər tarixində bizə bəlli olan və bilmədiyimiz neçə-neçə sivilizasiyalar, şəhərlər var ki, təbii fəlakətlərin məngənəsində okeanların dibinə çöküb, püskürən vulkanların dumanında, tüstüsündə boğulub, dəniz kimi dalğalanan, ləngərləyən torpağın altına gediblər. Onlar haqqında sirli əfsanələr və müqəddəs kitablardakı dərk olunması çətin həqiqətlərdən savayı heç nə qalmayıb. Zəlzələlərdən sonra viran qalan şəhərlərin sakinləri onu Allahın qəzəbinə gələn torpaq kimi atıb gediblər. Ya da elə

yaşayış məskənləri, elə nəsillər, qövmlər olub ki, Tanrının qəzəbinə tuş gələrək yox olublar, birdəfəlik tarixdən siliniblər.

**Görəsən, şamaxılıları bu şəhərə hansı müqəddəs qüvvə bağlayıb, onlar nəyin naminə buradan birdəfəlik üz döndərib getmədilər? Onlara yardım edən, arxa duran hansı müqəddəs qüvvə idi?** Onlar əsrlər boyu nədən güc alırdılar və nəyə güvənirdilər? Muğama müraciət edək. "Segah" insanı məhəbbətə, sevgiyə kökləyir, "Çahargah" dinləyicini ayrı bir dünyaya qəhrəmanlığa, şücaətə sarı qaldırır. Zərb muğamlarının nikbinliyi insanı səfərbərliyə alır, əzmini artırır. Təsadüfü deyil ki, Üzeyir Hacıbəyli musiqi əsərlərini işləyərkən mübarizə döyüş səhnələrinin bəstələnməsi üçün "Çahargah"dan ilham alıb, bəhrələnib. Poeziya və muğam Şamaxı sakinlərini təbii fəlakətlərdən ruhdan düşməyə qoymayıb, dəfələrlə yenidən viran qalan şəhərin ucaldılmasına avazı və ruhu ilə qol-qanad verib.

**Əgər qəlbinizdə şübhəyə yer qalırsa bir dəfə Şamaxıya qonaq gəlin. VIII əsrə aid Cümə məscidinin həyətinə sübh azanı vaxtı ayaq basın. Oyanan quşların mahnısının sədalarının səhəri haraylamasını eşidəcəksiniz, səba mehi üzünüzə toxunacaq, ruhunuzdan keçərək içinizi ağırlıqlardan təmizləyəcək.** Deyirlər **dünyada Tanrının sevdiyi, ya da güclü** enerjisi olan məkanlar var. **Minbərdən muğam üstündə oxunan sübh əzanı dalğalananda Tanrı ilə aranızda körpü yaranacaq və özünüzü həqiqətən də Allahın ovcunda qorunurmuş kimi müqəddəs bir məkanda hiss edəcəksiniz.** Qubada Susay kəndinin üstündəki Gül dərəsindəki kimi. Azan oxunduqca üzünüzə müqəddəs sirlərin qapısı açacaq. Dan yeri söküləndə, azan səsinin öpüb getdiyi, əsrlər boyu muğamatın havası qonan qədim küçələri, məhəllələri dolaşın və qəlbinizdə baş qaldıran duyğulara qulaq asın. Qədim məhəllələrin adlarını, bu küçələrdən keçən dahiləri tarixin hökmünü qoruyan çalarlara rast gələcəksiniz. Zaman sizin üçün ənənəvi, anladığımız saat, gün, ay və il mənasını itirəcək. Dəqiqələr irəlilədikcə, Günəş

ucaldıqca, muğam adlı sehrli xalçanın naxışlarından yapışıb ildırım sürətilə qərinələrdən əsrlərə, əsrlərdən minilliklərə adlayacaqsınız. Bu mürəkkəb, insan ağlının dərk etməsi mümkün olmayan zaman səyahətində bircə onu anlayacaqsınız ki, binaları küçələrə calayan, illəri əsrlərə və insanları bir-birinə bağlayan qüvvə muğamata məxsusdur. **Bütün ruhunuzla, varlığınızla bu şəhəri öpüb əzizləyən muğamı eşidəcəksiniz, onun ecazkar gücünü mütləq duyacaqsınız. Qəlbinizdə baş qaldıran vətən, torpaq, bayraq sevgisi** cilalanacaq.

Bəlkə də bunu çoxları bilmir ki, **ulu öndərin** bir çox səfərlərində onu müşayiət edənlərin **içində tar, kaman və bir də muğam** ifaçısı olub. Allah Azərbaycanın Birinci xanımından razı olsun ki, muğamı qoruyur, ənənələrimizi yaşadır, iki ildən bir muğam müsabiqəsi keçirir. Muğamatın mənası, fəlsəfi yozumu da incəsənətin bu məqamı ilə Allaha yaxınlaşmaqdadır. Əlbəttə hamı Tanrıya yaxın olmaq istəyir, lakin bu mümkün deyil. Bunun üçün nəcib əməllərin sahibi olmaq lazımdır. Bu baxımdan **muğamda nəciblik mövcuddur.** Muğamı ifa edəndə, öz boğazından gələn səs səni qollarında yerdən aralayır. Oxuyursan, səni dinləyənlər də ifanı eşidir, səni görür, lakin anlayırsan ki, artıq səni başqa qüvvələr idarə edir, özünə tabe deyilsən, göylərdə pərvazlanırsan, qayıtmağın, geri dönməyin də səndən asılı olmur, muğamın qanadlarında baş verir.

Hər bir xalq gələcəyini dərk etmək, inkişafını düzgün qurmaq üçün istinad nöqtələrini öz keçmişində, tarixində axtarmalıdır. Yəni uğurlu gələcəyin sirləri bizim keçmişimizdə, genetik yaddaşımızdadır. Bu baxımdan muğamat xalqımız üçün insanları, dövləti, varlı və kasıbları, yaşlı və gəncləri, qadın və kişiləri öz ətrafında bağlayan, irəli aparan qüvvə kimi xüsusi əhəmiyyət kəsb edir. **Şamaxının keçmişində üç amil diqqəti cəlb edir. Birincisi,** bu şəhərdə bilik və elmin tərəqqisinə, **ikincisi,** musiqi, muğam və poeziyanın inkişafına fikir verilir. **Üçüncüsü isə,** bəylər, varlılar ağıl və istedad sahiblərinə dəstək

verir, onlara arxa dururlar. Mahmud Ağanın keçirdiyi muğam məclisləri belə qənaətə gəlməyə əsas verir ki, insanları bir amal ətrafında birləşdirən və irəli aparan harmonik qüvvənin muğamdan bəhrəndiyini etiraf edək.

Son illərdə muğama artan diqqət, onun xalqımızın milli-mədəni sərvəti kimi yüksək dəyərləndirilməsi, təbliği və qorunması bizə yenidən keçmişə qayıtmağa, xalqımızın inkişaf yolunun istinad nöqtələrinin musiqimizə, mədəniyyətimizə, ədəbiyyatımıza, bütünlükdə milli-mənəvi dəyərlərimizə söykəndiyini isbat edir. Muğam isə xalqımızn əsas aparıcı qüvvəsidir.

**Muğam elə bir musiqi janrıdır ki, o nota salınsa da, olduğu kimi oxunmayacaq. İfalar fərqli olacaq.**

Muğamatın ruhu, fəlsəfi tutumu və qüruru özünə hörmət və nəcib davranış tələb edir. Bu qənirsiz musiqi janrının dünəni sabaha, keçmişi gələcəyə, kiçik kəndləri böyük şəhərlərə, ayrı-ayrı zamanlarda yaşayan insanları bir-birinə bağlamaq kimi sehrli bir qüvvəsi vardır. **Muğam xalqı birləşdirmək, irəliyə aparmaq kimi möhtəşəm qüdrət sahibidir. Bu baxımdan** müstəqillik illərində muğamın dövlət tərəfindən qorunması, təbliği və inkişaf etdirilməsi təsadüf yox, tarixi zərurətdir.

Məhz buna görə də **UNESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın muğamı yalnız həyatımızın ayrılmaz hissəsi yox,** həm də özümüzün və ruhumuzun bir parçası olan unikal fenomen adlandırması təsadüfü deyildir. Ölkənin Birinci xanımının məhz muğamın özünəməxsus kamilliklə gələcək nəsillərdə kökə bağlılığı, milli ləyaqəti, emosional zənginliyi və mənəvi mükəmməlliyi yetişdirəcəyinə əmin olması təsadüfi deyil. Əksinə, qloballaşan dünyada xalqı özünə, soy kökünə qaytaran, keçmişlə gələcəyin vəhdətini yarada bilən və xalqımızı bayağı yad təsirlərdən qorumaq gücünə qadir olan milli inkişaf konsepsiyasının aparıcı ideyasdır.

Əsrləri geriyə vərəqlədikcə muğamın Azərbaycan xalqının tarixində oynadığı möhtəşəm rolu görəcəksiniz, perspektivlərə nəzər saldıqca bu musiqi janrının insanları bir-birinə bağlayan, bir ideya ətrafında birləşdirib irəli aparan əfsanəvi qüvvəsini dərk edəcəksiniz. Qərinələrin dərinliyinə baş vurduqca muğam müqəddəs bir abidə kimi bütün möhtəşəmliyi ilə ucalır, gələcəyi düşündükcə muğam xalqımızın milli mənliyini, bütövlüyünü qoruyan aparıcı qüvvə kimi zamanın fırtınalarına qalib gələ bilən gücünü ortaya qoyur. Çünki muğamat bir musiqi janrı olsa da, özünəməxsus təbiəti, yaşam tərzi, minlərlə insanın şüuruna təsir etmək gücünə qadir olan canlı varlıq kimi də nəzərdən keçirilə bilər.

Sovet hakimiyyətinin ilk illərində muğamın proletariatın qəzəbinə gəlməsi, ona qarşı təzyiqlər ayaq alması da hadisələrin təbii axarı ilə bağlı idi. Muğam sovet hakimiyyəti üçün hansı bir təhlükəni yarada bilərdi? Burada Azərbaycan Prezidenti İlham Əliyevin **ədəbiyyatımız, musiqimiz və mədəniyyətimiz olmasaydı bir xalq kimi assimilyaysiya uğrayıb əriyərdik** sözlərini xatırlamaq yerinə düşərdi. Muğam hər bir azərbaycanlının, bütünlükdə xalqımızın gücünü, böyüklüyünü tərənnüm edən, nəsilləri bir-birinə bağlayan, keçmişlə gələcək arasında harmonik vəhdət yaradan qüvvə kimi proletariat və onun reallaşdırdığı mədəni inqilab üçün Çin səddi kimi möhtəşəm sipər idi, bolşevik şüarlarından, hədələrindən çəkinməyən, sınmayan ciddi təhlükə idi. Bu sözlərin boş yerə yazılmadığına əmin olmaq üçün bircə anlığa hər hansı muğamı dinləyin. Siz uzaq keçmişlərdən, əsrlərin dərinliyindən sızıb bulaq kimi çağlayan zəngulələrdəki ucalıqları, tükənməyən cəsarəti duyacaqsınız və sizi soy kökünüzə, milli-mənəvi dəyərlərimizə bağlayan səsin əsarətinə düşəcəksiniz.

Hər hansı bir xalqı məhv etmək üçün həqiqətən də onun mədəniyyətini – musiqisini, ədəbiyyatını və genetik yaddaşını unutdurmaq kifayətdir.

Sovet Azərbaycanında çox şeylər dəyişildi. Lakin Əliağa Vahid, Hüseyn Cavid, Mirzə Sabir, Mirzə Cəlil kimi muğam da zamanın zülmünə baş əymədi, sınmadı, möhtəşəmliyini qorudu, müqəddəsliyini yaşada bildi. İllər keçdikcə muğamata olan sevgi səngimədən yüksəlişini yaşadı. Üzeyir Hacıbəyli ənənəvi muğamla müasir Azərbaycan musiqisi arasında körpü rolunu oynayan Şərqin ilk operasını, təntənəli şəkildə UNESCO çərçivəsində 100 illiyi qeyd olunan "Leyli və Məcnun" operasını yaratdı. Xalqımızın genetik kodunu, istiqlal fəlsəfəsini muğam əsrlər boyu qanadlarında ucaldaraq ruhumuza zənginlik gətirən əsrarəngiz musiqi məbədi yarada bildi. Bu baxımdan tariximizdə muğamın yeri əvəzsizdir. Ölkənin birinci xanımı muğamın zəngin xəzinəsinin Azərbaycan bəstəkarlarının ilham mənbəyinə çevrildiyini dəfələrlə qeyd edib. Bütövlükdə, demək olar ki, muğam Azərbaycanın musiqi mədəniyyətinin bütün janrlarına təsir göstərdi. Bütün bunlar ötən əsrdə Fikrət Əmirovun, Niyazinin simfonik muğamlarına, Qara Qarayevin simfonizminə yol açdı.

Azərbaycan müstəqilliyini qazandıqdan sonra muğam yenidən dövlətin himayəsinə alındı, onun öyrənilməsi və təbliği gücləndi. Sevindirici haldır ki, bu proseslərə XXI əsrdə ölkənin birinci xanımı başçılıq etdi. 2003-cü ildə UNESCO tərəfindən Azərbaycan muğamı bəşəriyyətin qeyri-maddi mədəni irsinin inciləri siyahısına alındı. Ardıcıl muğam festivallarının, beynəlxalq muğam simpoziumlarının keçirilməsi, muğam ensiklopediyasının, jurnalının və radiosunun yaradılması dövlətimizin milli-mənəvi dəyərlərimizin qorunması, yaşadılması istiqamətində atdığı ciddi addımlardır. Milli Konservatoriyanın yeni binasının istifadəyə verilməsi isə müstəqil Azərbaycan dövlətinin muğama, musiqiyə və bütünlükdə mədəniyyətimizə göstərdiyi böyük qayğının, təmənnasız himayənin təzahürüdür. Heç vaxt belə olmayıb.

Azərbaycan muğamının tarixi minilliklərin dərinliyindən bəhrələnir.

Şamaxını aramsız olaraq silkələyən zəlzələlər və onu dəfələrlə yenidən qaldıran insanlar haqqında tariximizdə sənədlər və xatirələr yetərincədir. Bizi düşündürən sadə sualı bir daha təkrar edək: sarayları, məscidləri, məktəbləri və evləri qəzəblə lərzəyə gətirib dağıdan fəlakətlərdən sonra Tanrının viran qoyub yerlə - yeksan etdiyini tikən, quran insanlar nədən güc alırdılar? Bu suala bu dəfə özümüz yox, **Milli Konservatoriyanın yeni binasının açılışındakı çıxışında Azərbaycan Prezidenti İlham Əliyevdən gətirdiyimiz sitatla cavab verək: "Ancaq özünə hörmət edən hər bir dövlət və xalq öz milli xüsusiyyətlərini qorumalıdır. Qorumasa, onda müəyyən müddətdən sonra bir xalq kimi yaşaya da bilməyəcəkdir. Biz ən çətin illərdə öz milli musiqimizi, adətlərimizi, həyat tərzimizi qoruya bilmişik. Biz əsrlər boyu başqa dövlətlərin tərkibində yaşamışıq. Başqa dövlətlərin təsiri altında olmuşuq, müstəqil olmamışıq. Mən dəfələrlə bunu demişəm, bir daha demək istəyirəm, tam əminəm ki, bizi bir xalq kimi qoruyan mədəniyyətimiz olubdur".** Dövlət başçısının bu müdrik kəlamları bizə bir daha əsas verir ki, bir xalq kimi qlobal təzahürlərin bəlalarından xilas olmağımızda, milli mənliyimizin, ləyaqətimizin, birliyimizin qorunmasında o cümlədən, muğamatın da rolunu fəxarət hissi ilə qeyd etməliyik.

Adi bir musiqinin xilaskar missiyasını anlamaq üçün keçmişə nəzər salmağa, bəzi mənəvi məqamlara diqqət yetirməyə ehtiyac vardır. Tarixçilərimiz və alimlərimiz göstərirlər ki, Şamaxı XII əsrdən üzü bəri dini və mədəni mərkəz, musiqi-muğam beşiyi kimi bütün Yaxın Şərqdə məşhur olmuşdur. Şirvanşahlar dövlətinin paytaxtı olan Şamaxıda şairlər, xanəndələr, musiqiçilər sarayın himayəsində olublar. Onların arasında aşıq və muğam ustadlarının, şairlərin, qəzəlxanların özəl bir nüfuzu olub. Doğrudan da, tarixi bir qədər də geriyə ikinci minlliyin əvvəllərinə vərəqləsək müxtəlif mənbələrdə hələ XI-XII əsrlərdə poeziya, sənət beşiyi olan Şamaxıda Xaqani

Şirvaninin əmisi böyük filolsof Ömər İbn Osman Kafiyyəddinin başçılıq etdiyi elm məbədinin də akademiya kimi fəaliyyət göstərdiyi bizə aydın olacaq. Ömər İbn Osman burada bir çox elmlərin – **tibb, fəlsəfə, astronomiya**, **kimya, riyaziyyat, dilçilik, ədəbiyyat, eləcə də musiqinin kamil bilicilərini** bir araya gətirmişdi. Tarixə adı elmlər akademiyası kimi düşməyən bu elm məbədi haqqında Avropa alimləri ilə yanaşı, Azərbaycan alimlərindən bir çoxu – **prof. H.Araslı, prof. Dəmirov, prof. Ə.Əlizadə, prof. Q.Kəndli, prof. Ə.Cəfərzadə, prof. E.Mehrəliyev** və başqaları əsərlərində xeyli bəhs etmişlər. Təbii ki, Şamaxıda – Şirvanşahlar dövlətində belə bir elmi mərkəzin – elmlər akademiyasının yaradılmasını həm də dövlətçilik tələb etmişdir. Ömər İbn Osman Kafiyyəddinin rəhbərlik etdiyi elmi mərkəzdə o dövrdə istedadı ilə bütün Şərqdə tanınan – Babakuhi Şeyx Məhəmmədəli, Pirhüseyn Şirvani, Əbu Nəsil Şirvani, Xacə Adgözəl Şirvani, İmam Şəmsəddin Şirvani, Əbdülkərim İbn Əli Şirvani, Fələki Şirvani və bu kimi alimlər bu elm ocağının müxtəlif bölümlərinin genişlənməsi və intişarına xüsusi əmək sərf etmişlər. Mənbələr elmi mərkəzdə musiqi şöbəsinin də fəaliyyətini göstərdiyini dəfələrlə vurğulayırlar. Mərkəzdə XI əsrin sonu XII əsrdə yaşamış musiqişünasların da fəaliyyətini qeyd edirlər. Bunlardan biri Xaqaninin dostu Nijəbrəddin Şirvani, digəri isə Xaqaninin bacısı oğlu Əsirəddin Əxsikəzi Şirvani idi. Gözəl Ərğənun çalması ilə məşhur olmuş Məhəmməd İbn Əbubəkir Şirvani də o zaman akademiyanın musiqi bölməsində xüsusi hörmət qazanmış sənətkarlardan sayılırdı. O, sənətin sirlərini ustad müəllim Şəhabəddin Şirvanidən öyrənmişdir.

Bütün bunlar onu deməyə əsas verir ki, Şamaxı ölkəmizin tarixində, onun mədəniyyətinin formalaşmasında və inkişafında əlahiddə rol oynamışdır. Ona görə də biz Mahmud Ağanın musiqi məclislərini muğam universitetinə bənzədəndə yanlışlıqlara yol vermirik, əksinə reallığa söykənən adi bir həqiqəti təsdiq etmiş oluruq. Əlbəttə ki, nə Ömər İbn Osman Kafiyyəd-

dinin elmlər akademiyası, nə də ki Mahmud Ağanın muğam universiteti heç yerdə, heç vaxt qeydiyyatdan keçməyib, heç bir tarixi sənədə elm, musiqi məbədləri kimi adları düşməyib. Ona görə də Mahmud Ağanın universiteti barədə arxivlərdə, tarixi sənədlərdə axtarışlar aparmaq mənasızdır. Lakin muğamın bu şəhərdə inkişafı, onun Şamaxının bəyzadələri və mülkədarları tərəfindən himayəyə alınıb inkişaf etdirilməsi, təkmilləşdirilməsi belə bir ali təhsil ocağının mövcudluğu barədə fikir yürütməyə əsas verir. Şamaxı musiqi məclisi, həqiqətən də, universitetə bərabər idi.

İnsanları səfərbərliyə alan, nikbin edən, təbiətlə mübarizədə gücünü birə on artıran Şamaxının varlı, zəngin adamları ilə söz və musiqi xiridarlarının qırılmaz birliyinin muğamın ruhundan güc aldığını görməmək mümkün deyil. Keçmişinə, kökünə bağlı olan xalq yenilməz olur. Çox güman ki, hər birimizin daxili dünyası, genetik kodları da muğamla uzlaşır, muğam, həqiqətən də, bizi xalq kimi bir-birimizə gözəgörünməz tellərlə bağlayan ən güclü və müqəddəs amildir. Mədəniyyət və İncəsənət Universitetinin professoru, Muğam kafedrasının müdiri Canəli Əkbərov muğamın dərin fəlsəfəyə və böyük qüdrətə malik olduğunu təsdiqləyir. Tarixçilərimiz, folklorşünaslarımız muğam sənətinin Bakı, Qarabağ və Şamaxıda və ölkənin digər bölgələrində geniş yayılmasından, muğam məktəblərinin yaranmasından yazırlar. XIX əsrdə Şamaxı, Lənkəran, Şuşa, Bakı və Naxçıvanda yaranan ədəbi məclislərin sorağı bütün Azərbaycana yayılır. Ən başlıcası odur ki, bir qayda olaraq muğam xalqın aparıcı qüvvəsi kimi bütün ədəbi proseslərin önündə getməklə yanaşı, şeirin, qəzəlin, bütünlükdə poeziyanın inkişafında da əvəzsiz rol oynamışdır. Muğam xalqımızın milli şüurunu, mənliyini formalaşdırmaqla yanaşı, onun harmonik inkişafına təkan verən, rəiyyətlə zadəganların, varlıların harmonik vəhdətini təşkil edən ilahi bir qüvvədir.

Dediklərimizin aydın anlaşılması üçün Şamaxıda ilk musiqi məclislərini nəzərdən keçirək. XIX əsrin əvvəllərində o

dövrün zəngin mülkədarlarından sayılan Əhməd Sultanın əsasını qoyduğu və oğlu Mahmud Ağanın ömrünün sonuna qədər apardığı musiqi məclisləri əyləncə, eyş-işrət xatirinə təşkil edilmirdi. Bəzi mənbələrdə Əhməd Sultanın Şamaxı xanı Ağası xanla yaxınlığı, həm də qohumluğu göstərilir. Atasının nəcib əməllərini davam etdirən Mahmud Ağa muğam bilicilərini, qəzəlxanları uzun illər himayəsinə alır. Yəni görülən işlərin miqyası adi musiqi məclisləri anlamından kənara çıxır, daha geniş və daha böyük bir fəlsəfi məhfumu əhatə edir. Biz muğamın əsrlər boyu insanların şüuruna müsbət təsirini, mədəniyyətin bütün sahələrinin inkişafına təkan verən aparıcı qüvvəsini görürük. Muğamı insanları bir-birinə bağlayan, səfərbərliyə alan və qələbələrə kökləyən sirli qüvvə kimi də dəyərləndirmişik. Muğam insanların şüurunda, əxlaqında və davranışlarında saflıq yaradır, qövmləri biliklərə, elmə istiqamətləndirir. Tarixə müraciət edək. XVIII əsrin sonundan XIX əsrin II yarısına kimi Şamaxıda əllidən artıq şəxsi məktəb olmuşdur. Baxmayaraq ki, Azərbaycan artıq bölünmüşdü, xanlıqlar müstəqilliyini itirmişdi. Türkmənçay müqaviləsi ilə 1829-cu ildə baş verən amansız zəlzələ üst-üstə düşərək, ümumxalq bədbinliyi üçün zəmin yarada bilərdi. Lakin, nədənsə, məhz bu illərdə mədəniyyətin və musiqinin inkişafı vüsət alır.

Şamaxının təxminən iki əsrlik tarixini ağuşuna alan zamanı və bu zamanın səmalarında ulduzlar kimi parlayıb sönən müğənniləri, xanəndələri, şairləri, qəzəlxanları, xalqımızın müdriklərini və mülk sahiblərini xatırlayanda Sədi ilə razılaşmamaq mümkün deyil. Həqiqətən də, "zaman sabitdir, ötüb keçən bizik". Muğam zamandan, qərinələrdən yüksəkdə dayanaraq inkişaf etdi, təkmilləşdi və xalqımızı da arxasınca apararaq, bu günkü müdriklik və kamillik zirvəsinə ucaldı.

Mahmud Ağanın ətrafında olan istedadların, bilik və ağıl sahiblərinin surətlərini yan-yana düzə bilsəydik, muğam və qəzəl aşiqlərinin bənzərsiz rəsm qalereyası yaranardı. Xalqımızın mədəniyyətinin, maarifinin, elminin və incəsənətinin

inkişafı üçün heç kimdən mükafat gözləmədən, sonsuz bir eşq, vətən sevgisi ilə əzmlə çalışan saysız-hesabsız sənət fədailərini görürük. Söz və musiqi xiridarları ilə onlara arxa duran, himayədarlıq edən mülk, sərvət sahibləri ecazkar bir harmoniyada, vəhdətdə əməkdaşlıq ediblər. Bu harmoniya bulaq kimi çağlayaraq muğamdan bəhrələnib desək yanılmarıq. Şamaxıda XIX əsrin ortalarında yaşayan varlı adamların sayı yüzlərlə olub. Onlar maarifə, sənətə xüsusi rəğbət bəsləyər, Mahmud Ağaya, onun məclisinə böyük hörmətlə yanaşardılar. Özləri də saraya dəvət alan sənətkarlara, keçirilən müsabiqələrə, cəngilərin rəqslərinə qayğı göstərər, məclisə dəvət alan İran, Tiflis, Orta Asiya musiqiçilərini, rusiyalı səyyahları qonaq da edirdilər. Onlar başa düşürdü ki, Mahmud Ağanın gördüyü xeyirxah işlər Şamaxıya yalnız ucalıq gətirir. Çox güman ki, Mahmud Ağa muğamın fəlsəfəsini, onun emosional gücünü hiss edib, duyub. Əgər belə olmasaydı, o muğam sədaları altında yatıb oyanmazdı, muğamla nəfəs almazdı və yüzlərlə ehtiyacı olana da arxa durmazdı.

Mahmud Ağanın məclislərində, keçirdiyi müsabiqələrdə sənətkarlarla yanaşı, musiqi təşnələri, sənət qədri bilən tacir, mülkədar və eləcə də dövlət qulluqçuları da vaxtaşırı iştirak edirdilər. Onlardan bir neçəsini xatırlayaq. **Mahmud Ağanın qonşusu Ağasadıq bəy Qocamanbəyov (1830-1908)** Şamaxının sayılıb-seçilən mülkədarlarından biri idi. Kifayət qədər varlı, mülkləri, dəyirman və karvansaraları, bağ-bağatları var idi. O, Şamaxı ziyalıları ilə ünsiyyət qurar, Mahmud Ağa məclisinin iştirakçısı kimi onun qonaqlarını sarayına dəvət edərdi.

**Memar Qasım bəy Hacıbabayev (1811-1874)** Əhməd Sultanın dostlarından biri idi. Mahmud Ağanın atası Əhməd Sultanın musiqi gecələrində iştirak edərdi. Qasım bəy 1840-cı illərdə Şamaxıda qubernatorun müavini işləmiş, ilk dəfə burada teatr binası tikdirmişdir. 1859-cu il zəlzələsində şəhərin bərpasına xüsusi kömək edib. Onun layihələri ilə şəhərin plan strukturuna uyğun olaraq bir çox dini, yaşayış, ticarət və sair təyi-

natlı tikililər yenidən inşa olundu. Cümə məscidinin bərpasına şəhərin baş memarı kimi bilavasitə rəhbərlik edib, bir çox sarayların, dövlət binalarının, karvansaraların layihəsini də şəxsən özü verib, Bakı və Şuşa şəhərlərində inzibati binaların tikintisində, park və bağların qurulmasında da yaxından iştirak edib. Bu qarşılıqlı münasibətlər mənəviyyatımızın və mədəniyyətimizin əsrlərin dərinliklərindən gələn zənginliyindən, eyni zamanda muğamın aşıladığı nəciblikdən  pöhrələnir.

Keçmişini dərk edən, gələcəyinin uğur kodlarını öz kökündə, tarixində axtaran xalq təkamülündə ləngimir, geridə qalmır, əksinə, irəli sıçrayır, milyonlara, milyardlara nümunə ola bilir. Bu baxımdan Mahmud Ağanın xeyriyyəçiliyinin, onun əliaçıqlığının fəlsəfəsinin araşdırılmasına ehtiyac var.

Mahmud Ağa **Sadıqcana qızıldan tar, Qaryağdıoğlu Cabbara qızıldan qaval hədiyyə edib.** Onun muğam ustaları, müsabiqə qalibləri, şair, aşıq və rəqqasələrə verdiyi mükafatların siyahısı da uzundur: qızıldan hazırlanan təsbehlər, üzüklər, saatlar, camlar, bazubəndlər, kəmərlər, boyunbağılar, sinəbənd, araqçın, sırğalar, qolbaqlar, qızıl əsalar və Buxara papaqları, zərli-baftalı əbalar, çərkəzi çuxalar. Hədiyyələrin qiyməti Ağanın səxavəti ilə yanaşı, məclisin nüfuzunun da yüksək tutulmasından xəbər verir. Bu məclisdə seçilənlər yüksək dəyərləndirilər, heç kimin istedadı kölgədə qalmazdı. Mahmud Ağa yaxşı bilirdi ki, Azərbaycan artıq Rusiyanın tərkibindədir. O bir tərəfdən rus dilini öyrənir, çar hökumətinin yerli təmsilçiləri ilə münasibətlərini qurur, övladlarının Rusiyadakı institutlarda təhsil almasına çalışır, digər tərəfdən də Azərbaycan mədəniyyətinin, musiqisinin, muğamının inkişafı üçün səxavətini əsirgəmirdi.

Onun ətrafındakı söz və sənət adamları, elm xadimləri, sərvət sahibləri və bir də Mahmud Ağanın nəsil şəcərəsindən olan insanlar arasında ilk baxışda bir əlaqə, bağlılıq axtarmaq mənasız görünə bilər. Həqiqətən də, iki yüzillik bir dövrü əhatə

edən ayrı-ayrı sənət sahiblərini, müxtəlif zamanlarda fərqli aqibətləri yaşayan insanları nə birləşdirə bilər ki?

Ölkənin birinci xanımı Mehriban Əliyeva Azərbaycanın sivilizasiyaların qovuşduğu məkanda yerləşdiyini qeyd edərək muğamın xalqımıza məxsus ən gözəl hisslərin daşıyıcısı olduğunu vurğulayır. O qeyd edir ki, bütün bu hisslər muğamın fəlsəfəsinin özülündədir.

Bu fəlsəfə düşündüyümüzdən qat-qat nəhəng və bütün kainatı qucaqlaya bilən möhtəşəm fələsəfədir.

Ona görə də muğamla insan və zaman arasında vəhdətdən, harmoniyadan savayı digər bağlılıqlar mövcuddur. Min il, yüz il əvvəlki muğamla bugünkü muğam arasında da canlı əlaqə var. Zaman haqqında müqəddəs kitabımızda deyilir ki, sizin saydığınız min il Allahın dərgahında bir gün kimidir. Əgər bu baxış bucağından Mahmud Ağa dövründən üzü bəri günümüzədək nəzər salsaq bu ecazkar sənət növünün kainatda canlı bir varlıq, düşünən beyin kimi mövcud olduğunu görəcəyik. Amerika kosmonavtı Nil Armston aya uçduqdan 14 il sonra Misirdə konfransda eşitdiyi səsin hansı musiqi olduğunu soruşur, bunun azan olduğunu bilən kimi Aya ayaq basanda da bu musiqini eşitdiyini bildirir və o saat islamı qəbul etdiyini elan edir. Əgər azanın da muğam üstündə ifa olunmasını nəzərə alsaq, muğamatın kainatda mövcudluğuna şübhə qalmır. Muğam elmi, mədəniyyəti, şeiriyyəti və poeziyanı özündə cəmləyən zəngin məbəd kimidir. Zabit Nəbizadə deyir ki, muğam sərbəst düşüncəyə, müstəqil şüura malikdir, canlı varlıq kimidir. Bütün xalqların muğamlarının içində Azərbaycan muğamı hamıdan zəngin və kamildir. Çünki biz əsrlər boyu onu cilalamışıq, təmizləmişik, saflaşdırmışıq. Eyni zamanda muğamatın özünün də bizim şüurumuza ciddi təsiri olmuşdur, millət kimi, xalq kimi formalaşmağımızda muğamat öz rolunu oynamışdır. Muğamdakı avazı adi səs, ifa tərzi kimi qəbul etmək sadəlövhlük olardı. Tanrı yaratdığı insana necə ruhundan can veribsə, muğam da xalqımızın ruhundan bəhrələnərək inkişaf edib.

**“Mən muğamata ürəyimi verdim, onu səsimdə, mahnılarımda yaşadıram ki, bu fani dünyanı tərk edib gedəndən sonra muğam da məni yaşatsın. Bu ehtiyacın mənim mənəvi tələbatımdan və ya muğamın qüdrətindən irəli gəldiyini də izah etmək çətindir”. –Xalq artisti Zabit Nəbizadə belə deyib.**

Müqəddəs Kitabımızda ruh haqqında bizə cüzi biliklər verilib, ona görə də nəinki muğamat, hətta ruhumuz haqqında kamil fikir söyləmək mümkün deyil. Lakin unutmaq olmaz ki, muğam insan ruhu zaman arasında da vasitəçidir.

Tarixə müraciət edək. Mahmud Ağa məclisinin ilk üzvlərindən Hacı Şirvani, Səid Ünsizadə, Bixud, Ələkbər Qafil, Bahar Şirvani, S.Ə.Şirvani, Məşədi Muxtar bəy, Murad Mirzah oğlunun və başqalarının adını çəkmək olar. Cabbar Qaryağdı oğlu Xarrat Qulunun məktəbində ilk dəfə xanəndəlik təhsili alır, muğam sənətinə kamil yiyələnir, şöhrət qazanır, Gəncə, Şamaxı, Bakı toylarına dəvət alır, Tiflis, Orta Asiya, İranda ad-san qazanır. Ərəb və fars dillərini mükəmməl bilən Cabbar klassik Şərq poeziyasına da dərindən bələd idi. Şamaxılı sənətkarlarla dost olan Cabbar Mahmud Ağanın yardım etdiyi, qayğısına qaldığı insanlardan biri idi.

Mahmud Ağanın məclisinin sorağı Qarabağ, Bakı, Gəncə, Tiflis və Naxçıvana, hətta İrana, Orta Asiyaya kimi gedib çıxmışdı. Mahmud Ağanı gördüyü nəcib işlərə muğamatın intəhasız dənizlərində bəyaz yelkənlərini qaldırıb yaxşılıqlara doğru üzən nəhəng gəmiyə bənzədə bilərik. Onun xeyriyyəçilik missiyasını təyin edən, maarifçiliyin, elmin hamisinə çevirən qüvvə muğamın onun varlığına və bütün şüuruna hakim kəsilməsi deyildimi?

Sovetlər dövründə məclis sözü əsl mənasını itirir, qonaqlıq, ziyafət anlamında işlədilir. **Amma Azərbaycan dilinin izahlı lüğətində məclis sözünün bir mənası da qanunverici orqan kimi göstərilir.** O zaman Mahmud Ağanın məclisi də sözdə, musiqidə meyarları təyin edən, inkişafa təkan

verən bir qurum idi. Belə məclisə müğənni, şair, sənətkarlardan savayı, ziyalı, bəy, tacirlər də qatılardı. Məhz bu amillərə görə biz çəkinmədən Mahmud Ağa məclisini daha mötəbər bir quruma - muğam universitetinə bənzədirik, çəkinmədən elm məbədi ilə müqayisə edirik.

Qərbin müasir universitetləri bu gün necə bilikli gəncləri, istedadlı müəllimləri öz ölkəsindən və dünyanın hər yerindən özünə cəlb etməyə çalışırsa, XIX əsrdə Mahmud Ağanın məclisi də keçirdiyi müsabiqələrdə, yarışlarda fitri istedadları üzə çıxardar, mükafatlandırar, irəli çəkər, onun arxasınca yenilərinin gəlməsinə zəmin yaradardı. Məsələn, Bakıda doğulan Davud Səfyarov atasını erkən itirir, ehtiyac içərisində yaşayan anası 1884-cü ildə Şamaxıya köçür. Balaca Davudun gözəl səsi Ağanı valeh edir, onu mədrəsəyə qoyur. Ustad xanəndə Mirzə Məhəmməd Həsən ona xalq mahnıları, muğamlarımızı öyrədir. Mahmud Ağanın məclisinin kamil xanəndəsinə çevrilir. Bunu hansı təhsil müəssisəsi edə bilərdi? Məşhur universitetlər necə öz kolleclərini yaradırsa, Mahmud Ağa da o zaman Şamaxıda yaranan əksər məktəbləri qanadının altına yığar, onların inkişafı üçün əlindən gələni əsirgəməzdi. Bütün bunlar belə qənaətə gəlməyə əsas verir ki, Mahmud Ağanın məclisi, sözün əsl mənasında, ali təhsil ocağına bərabər idi. Bu xeyriyyəçilik bir muğam aşiqinin imkanlarına sığmır. Görünür Məhmud Ağa muğamın gücünü, intəhasız olmasını və nəhayət onun yaradıcılıq fəlsəfəsini həyat fəaliyyətinə çevirən şəxsiyyətlərdən olmuşdur.

Mixail Lomonosovun yaratdığı Moskva universiteti cəmi 4 fakültə ilə fəaliyyətə başlayır. Tələbələri də barmaqla sayılardı. Hətta 50 il ötəndən sonra belə burada tələbələrin sayı 500-ə çatmamışdı. Mahmud Ağanın elm məbədində isə yüzlərlə xanəndə, aşıq, rəqqas, balabançı, tarzən, şair, nağaraçı toplaşmışdı. Qırx ildən artıq burada muğam müsabiqələri keçirilir. Ağanın yaratdığı kitabxana, bura toplanan əlyazmalar, risalələr, bəyazlar, kitablar təhsilin ciddiliyindən xəbər verirdi.

Bəzən isə elə olurdu ki, məclisdə iştirak edənlər "Qızılı salon"a güclə sığışırdı. Muğam müsabiqəsinə qatılan sənətkarların sayı yüzü keçdiyindən müsabiqələrin həftədən çox çəkdiyi vaxtlar olardı. Bu müsabiqələr təcrübə mübadiləsinə bənzər, iştirakçıların inkişafına, zənginləşməsinə xidmət edərdi. Məclislərdə bir universitet mühitinin hökm sürdüyünü inkar etmək ədalətsizlik olardı.

Məclisə fitri istedadların dəvət olunması üçün axtarışlar aparılardı. İştirakçılara S.Ə.Şirvani, Həsən Çəp, Nəcəf bəy, Aşıq İbrahim və digərləri muğam və klassik poeziyanın sirlərini öyrədərdi. Burada xüsusi təlimlər keçirilər, risalələr hazırlanardı. Nəticədə muğam müsabiqəsindən keçən qaliblər, iştirakçılar bütün Şərqdə məşhurlaşar, ad qazanardılar. Yadımıza müstəqilliyimizin ilk illərində göbələk kimi artıb sağa-sola diplom paylayan universitet, institut və filialları salaq. Onların savadsız məzunları adi iş tapmaqda belə çətinlik çəkərdilər. Şamaxı məclislərində yetişən, püxtələşənlərə isə bütün Şərqdə ehtiyac var idi. Burada musiqi, muğamla həmahəng poeziyanın - şeirin və qəzəlin inkişafı üçün münbit zəmin yaranmışdı. Ona görə də F.Şuşinski Mahmud Ağa məclisini əbəs yerə bütün Zaqafqaziyada çalıb-oxuyanların "təkmilləşdirmə institutu"na bənzətmişdi. Bura, həqiqətən də, bir musiqi akademiyası idi.

Şamaxını dağıdan, binaları, əsrarəngiz memarlıq abidələrini məhv edən aramsız zəlzələlərlə şamaxılılar əsrlər boyu mübarizə apardılar. Bəlkə də insanları nikbin edən, təbiətin ağır sınaqları ilə vuruşmağa güc verən burada yaşayanların qarşılıqlı mehribanlığı, bir amal ətrafında birləşmək qabiliyyəti idi. Aramsız faciələr və fəlakətlər şamaxılıları daha güclü, daha mübariz etdi. Zəlzələlərin arxasınca erməni cəlladları Şamaxını qılıncdan keçirib yandırdı, minlərlə insanı qətlə yetirdilər. Mahmud Ağanın törəmələri, ümumiyyətlə, Şamaxının sayılıb-seçilən bəy-bəyzadələri, adlı-sanlı simaları və minlərlə sadə insan tarixi faciələrlə üz-üzə qaldılar. Bolşevik diktaturası, 37-ci illərin repressiyaları, İkinci Dünya müharibəsi. Bu faciələrin

aramsız zəncirində Mahmud Ağanın övladlarının, nəvə və nəticələrinin əqidələri dəyişmədi, belə çıxır ki, muğam da zamanın özü kimi dəyişməyən, sabit bir qüdrətə malikdir. Onu nə çar Rusiyası, nə də sovet ideologiyası dəyişə bildi, nə də ki, 37-ci illərin repressiyaları sındırdı. Muğam möhtəşəmliyi ilə tarixin bütün sınaqlarından saf çıxdı.

Ulu babaların Şamaxıda yaratdığı muğam, qəzəl universitetini və burada çalışanları öz sərvətlərindən uca tutduqları qədər də Mahmud Ağanın nəsil şəcərəsindən olanların əksəriyyəti yaşadığı zamandan və məkandan asılı olmayaraq, elmin, maarifin və mədəniyyətin inkişafına xidmət etdilər. Bu sadə və hər bir insanın qismətinə yazıla bilən ali vətənpərvərlik missiyasına Mahmudbəyovlar əsrlər boyu sadiq qalmaqdan usanmadılar.

Mahmud Ağa mülkədar olsa da, adını Azərbaycan tarixinə musiqimizin, muğam və poeziyamızın qorunmasında, inkişaf etdirilməsində əvəzsiz rol oynayan bir xeyriyyəçi kimi yazdırdı. Onun övladları, nəvələri, nəticə və kötükcələri bu möhtəşəm ağacın gövdəsi, qol-budaqlarıdır. Bu nəslin nümayəndələrinin qəribə və maraqlı taleləri olub. Yaşadığı zamandan və kimliyindən asılı olmayaraq, onlar Azərbaycan adlı bir vətənə, Azərbaycan adlı dövlətə sadiq insanlar olublar. Qarşılarına çıxan faciələrdən və fəlakətlərdən sarsılmadan, çəkinmədən ulu babalarından qalan müqəddəs bir əxlaqı ömürlərinin sonuna kimi daşıyıblar. Əksəriyyəti elmlə məşğul olub, ölkələrində elmin, maarifin və sənayenin müxtəlif sahələrinin inkişafı üçün əlindən gələni əsirgəməyiblər. Məhz bu nəsildən olan insanların taleyini vərəqləyəndə, geri dönərək keçmişə - Mahmud Ağanın həyatına yenidən nəzər salanda onu adi musiqi məclisinin təşkilatçısı, muğam bilicisi kimi yox, daha böyük miqyasda - bir incəsənət məbədinin, böyük muğam məktəbinin yaradıcısı və hamisi kimi başa düşmək mümkündür. Bu nəcib xeyriyyəçinin dövrünü, onun gördüyü işləri göz önünə kim gətirsə, etiraf edəcək ki, Mahmud Ağanın öz sarayında qurduğu muğam

məclisi, bu məclislərin keçirilmə qaydaları, bura öyrətməyə və öyrənməyə cəlb edilən müğənnilər, aşıqlar, xanəndələr və söz xiridarları bir məclis üzvlərindən daha çox zəmanəsinin mükəmməl təhsil ocağına - muğam, seir və sənət məbədinə bənzəyir. Bu incəsənət məbədi Ağanın öz sarayında yerləşirdi, "müəllimlər" bu sarayda yaşayırdı, bu sarayda onların qayğıları həll olunar, maddi ehtiyacları ödənilərdi. Bu sarayda məclisə, müsabiqələrə çıxarılan gənclər püxtələşdikdən sonra kamil sənətkarlar kimi yenilərinə sənətin sirrini öyrədərdilər. Ona görə də qürurla deməliyik ki, Mahmud Ağa Şərqin ilk "Muğam Universiteti"nin və sözün əsl mənasında, "Poeziya Universiteti"nin özülünü qoyan nəcib xeyriyyəçidir. Bu gün gözəlliyi, bənzərsiz memarlıq həlli, auditoriya və zallarının möhtəşəmliyi ilə hamını heyran edən Milli Konservatoriyamızın tərcümeyi-halına Mahmud Ağanın məclisinin də əlavə olunması bir təklif kimi nəzərdən keçirilə bilərdi. Bu təklifin rəmzi mənası ondan ibarətdir ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Milli Konservatoriyamız tədricən simasını dəyişib və dünyanın ən məşhur musiqi təhsili ocaqlarından birinə çevrilib. Burada oxuyan, çalışan hər bir kəs, hətta hər bir Azərbaycan vətəndaşı qədim tarixə malik təhsil ocağı və belə bir möhtəşəm abidəni ucaldanlarla fəxr edə bilər.

Dövlət başçısının Milli Konservatoriyanın yeni binasının açılışındakı çıxışında ibrətamiz məqamlar var. O, xalqımızın assimilyasiyaya uğramasının qarşısını alan, bizi xalq kimi tarixin sınaqlarından bütöv çıxaran dəyərlərin mədəniyyətimiz, ana dilimiz, musiqimiz və poeziyamızdan ibarət olduğunu bildirdi: **"Hər bir ölkə üçün, xüsusilə o qədər də böyük olmayan ölkələr üçün belə bir təhlükə vardır. Bu təhlükədən özümüzü qorumaq üçün milli-mənəvi dəyərlər möhkəm olmalıdır. Mənəvi dəyərlərin də tərkib hissəsi bizim milli musiqidir. Ona görə biz həm öz keçmişimizə hörmətlə yanaşmalıyıq, eyni zamanda, gələcəyə baxaraq bu müsbət meylləri cəmiyyətdə gücləndirməliyik ki, Azərbaycan də-**

**yərləri sarsılmasın, əriməsin, bizim həyat tərzimiz daim ənənəvi olsun və milli musiqimiz yaşasın".**

## Ədəbiyyat siyahısı, mənbələr

1. Abbas Səhət. Seçilmiş əsərləri, II c, Bakı, 1984.
2. Aleksandr Düma. «Qafqaz səfəri» (tərcümə edən: Q.Paşayev, H.Abbasov), Bakı, 1985
3. «Azərbaycan ədəbiyyatı tarixi», II c.1961
4. «Azərbaycanın şair və aşıq qadınları» (tər, ədən Ə.Cəfərzadə), Bakı, 2003
5. Aşurbəyli S. «Şirvanşahlar dövləti», Bakı, 1997
6. Ağakərim Hafiz .«Ustad-əzəm», Bakı, 2010
7. Aydəmirova R. «Bahar» Şirvanının «Divan yaradıcılığı», Risalə, Bakı, 2005.
8. ASE. I-X c Bakı, 1982...1988
9. Bayramova N. Şamaxı xanlığı. Bakı 2009.
10. Bağırov Ə. S.Ə Şirvani və məktəb, Bakı,1986
11. Bədəlbəyli Ə. Musiqi lüğəti, Bakı, 1969
12. Övliya Çələbi. Səyahətnamə. Bakı, 1996
13. Etibar İ. Məndən elə nə qaldı, Bakı, 1993
14. Əhmədov H. «XIX əsr Azərbaycan məktəbi» Bakı, 2000
15. Köçərli F. Azərbaycan ədəbiyyatı. II c. Bakı, 1978
16. Hüseynov S. Seyid Əzim Şirvani. Bakı, 1987
17. Paşayev Q. “Borcumuzdur bu ehtiram”, Bakı, 2010
18. Hüseynov R. «Min ikinçi gecə», Bakı, 1988
19. Poetik məclislər (tərtib edən, H. Qarayev), Bakı, 1987
20. Mehrəliyev E. Şirvan elmlər akademiyası, Bakı, 2000
21. Mehrəliyev E. Şirvanilər, Bakı, 1999
22. Məmmədov K. Abbas Səhət, Bakı, 1986
23. Məmmədov X. S.M Qənizadə, Bakı,1966
24. Məmmədov V. «Muğam, söz, ifaçı», 1981
25. Məmmədov V. Natəvanın şair qohumları, 1982
26. «Muğamla yoğrulan ömür - Mahmud Ağa», «Yeni Şirvan» qəzeti; 1989, Bakı, XII
27. Müctəhidzadə M.A. Qarabağnamə. Mədəniyyət Nazirliyi

Memarlıq və İncəsənət İnstitutunun arxivi. qov. 78 «a»
28. Mümtaz S. Azərbaycan ədəbiyyatı qaynaqları, Bakı, 1984
29. Müasirləri Sabir haqqında (top. tərt.et.A.Zamanov) Bakı, 1962.
30. Mustafayev Ə. Xatirələrim (hekayə, felyeton), Bakı, 1980
31. Natəvan X.B. Əsərləri, Bakı 1984.
32. Nəsimi. Seçilmiş əsərləri, Bakı, 1969
33. Sadıqov F. Muğam, Bakı, 2011
34. Soltanoğlu Q. Asta çal balabanı, Bakı, 2008
35. Soy dərgisi, II (34), Bakı, 2010
36. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi, B, 1972
37. Qaryağdı C. «Xatirələrim» (əlyazma), Memarlıq və İncəsənət İnstitutunun», arxivin, qovluq, 75.
38. Qəniyev S. Şirvanlı Aşıq Mirzə Bilal, Baki, 2003
39. Qəniyev S. Mirzə Məhəmmədhəsən Nalə, Bakı, 2002
40. Qəniyev. 1918-ci il Şamaxı soyqırımı, Bakı, 2000
41. Qəniyev S. Şirvannamə-övliyalar, ziyarətgahlar», Bakı, 2012
42. Qəniyev S. «Beytüş-Səfa» ədəbi məclisi, Bakı, 2010
43. Qəniyev S, İsmayılova M. Şamaxı məktəbləri, maarif fədailəri, Bakı, 1999
44. Cəfərzadə Ə. Qəniyev… Şamaxı, Bakı l994
45. Cəfərzadə Ə. «Aləmdə səsim var», Bakı, 1972
46. Cəlili. «Daşda çiçək» - Dilbər. Bakı, 2004
47. Cəbrayılbəyli C. Xatirələrim, Bakı 1966
48. Şirvani S.Ə. Əsərləri, II-III-c. Bakı, 1969
49. Şirvani S.Ə. «Divan», Təbriz, 1897.
50. Şirvan aşıqları, ( top. tərtib edən, S.Qəniyev), Bakı, 2008
51. Şirvanın 350 şairi, (top, tərtib edən. Ə.Cəfərzadə, S.Qəniyev), 1999
52. Şirvan el şairləri (top, tərtib edən. T. Qəni), Bakı, 2007
53. Şuşunski F. Azərbaycan xalq musiqiçiləri, Bakı, 1985.

## Mündəricat

Məhərrəm Qasımlı
Mənəviyyatla sərvətin vəhdəti ................................................ 4
Giriş ........................................................................... 7
**I fəsil**. Şirvan muğam mühiti .................................................. 15
**II fəsil**.Mahmud Ağanın ömür yolu ........................................ 26
**III fəsil**.Kamilliyin çalarları .................................................... 74
**IV fəsil**.Mahmud Ağanın incəsənət
məbədinə bənzəyən muğam məclisi ........................................ 83
**V fəsil**.Mahmud Ağa məclisinin qonaqları.............................. 140
**VI fəsil**.Mahmud Ağanın ziyalı,
tacir və bəy dostları ..................................................................... 158
**VII fəsil**.Mahmud Ağaya ithaf olunmuş
seirlər,bədii əsərlərdən parçalar,
xatirə və məqalələr ..................................................................... 169
**VIII fəsil**.Mahmud Ağanın
doğmaları, qohumları ................................................................ 212
**IX fəsil**.Tanrı ilə torpaq arasında.............................................. 268

**Müəlliflərlə əlaqə telefonları**

050-623-44-88
050-289-00-20

**«Elm və Təhsil» nəşriyyatının direktoru:**
**professor Nadir MƏMMƏDLİ**

Yığılmağa verilmiş **25.09.2014**
Çapa imzalanmış**13.12.2014**
Şərti çap vərəqi **18,25.** Sifariş № **66**
Kağız formatı **60x84 1/16.** Tiraj **500**

Kitab **«Elm və Təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
**E-mail: nurlan1959@gmail.com**
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4